


«GÜN GƏLƏCƏK AZƏRBAYCAN DÜNYAYA GÜNƏŞ KİMİ DOĞACAQ».

HEYDƏR ƏLİYEV

# HÜQUQİ MÜSTƏVİ

## ELMİ-NƏZƏRİ, TƏCRÜBİ JURNALI REDAKSİYA ŞURASININ TƏRKİBİ:

**Zaur ƏLİYEV** – *Redaksiya Şurasının sədri, Bakı Dövlət Universiteti Hüquq fakültəsinin dekanı, dosent, hüquq üzrə fəlsəfə doktoru;*

**Əli HÜSEYNLİ** – *Azərbaycan Hüquqşünasları Konfederasiyasının sədri, hüquq üzrə fəlsəfə doktoru, Milli Məclisin Sədrinin birinci müavini;*

**Fərhad ABDULLAYEV** – *Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri, hüquq üzrə elmlər doktoru;*

**Eminə YAZIÇIOĞLU** – *İstanbul Universiteti Hüquq fakültəsinin professoru, hüquq üzrə elmlər doktoru;*

**İrina SOPİLKO** – *Ukrayna Milli Aviasiya Universiteti Hüquq fakültəsinin dekanı, professor, hüquq üzrə elmlər doktoru;*

**Leonid TİMÇENKO** – *Ukrayna Dövlət Vergi Xidməti Akademiyası Beynəlxalq əlaqələr şöbəsinin rəisi, professor, hüquq üzrə elmlər doktoru;*

**Revol VALEVEY** – *Kazan Dövlət Universitetinin professoru, hüquq üzrə elmlər doktoru;*

**Əmir ƏLİYEV** – *Bakı Dövlət Universiteti Hüquq fakültəsi "İnsan hüquqları və informasiya hüququ UNESCO kafedrasının müdiri, professor, hüquq üzrə elmlər doktoru;*

**Lətif HÜSEYNOV** – *İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin hakimi, professor, hüquq üzrə elmlər doktoru;*

**Oktay ƏFƏNDİYEV** – *Azərbaycan Dövlət İqtisad Universiteti, "İqtisadiyyatın tənzimlənməsi" kafedrası, professor, hüquq üzrə elmlər doktoru;*

**İsaxan VƏLİYEV** – *Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası "Hüquq" kafedrasının müdiri, professor, hüquq üzrə elmlər doktoru;*

**Arif QULİYEV** – *Kiyev əqli mülkiyyət və hüquq institutu, akademik, hüquq üzrə elmlər doktoru;*

**Yaroslav LAZUR** – *Ujqorod Milli Universiteti Hüquq fakültəsinin dekanı, professor, hüquq üzrə elmlər doktoru;*

**Yelena BAQREYEVA** – *Rusiya Federasiyası Hökumətinin yanında Maliyyə Universiteti, professor, hüquq üzrə elmlər doktoru;*

**Yesberqen ALAUXANOV** – *"Qazaxıstanın Elm və Həyatı" beynəlxalq elmi-kütləvi yurnalın baş redaktoru, professor, hüquq üzrə elmlər doktoru;*

**Qulu NOVRUZOV** – *Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasının rəisi, gömrük xidməti general-mayoru, dosent, hüquq üzrə fəlsəfə doktoru;*

**Etibar ƏLİYEV** – *Bakı Dövlət Universiteti Hüquq fakültəsinin "İnsan hüquqları və informasiya hüququ" UNESCO kafedrası, professor, hüquq üzrə elmlər doktoru.*

# №1(13)

**2020-ci ilin yanvar ayından çıxır.**

*Təsisçi və baş redaktor:*

**Əliyev Etibar Əli oğlu,** hüquq üzrə elmlər doktoru.

*Fəxri təsisçi təşkilat:*

Azərbaycan Hüquqşünasları Konfederasiyası (AHK)



## REDAKSİYA HEYƏTİNİN ÜZVLƏRİ:

**Elmi redaktor – *MƏMMƏDOV R.F.* –** Bakı Dövlət Universiteti Hüquq fakültəsi "Beynəlxalq ümumi hüquq" kafedrasının müdiri, professor, hüquq üzrə elmlər doktoru;

**Elmi məsləhətçi – *MƏMMƏDOV Ə.Q.* –** BDU Hüquq fakültəsi "Beynəlxalq xüsusi hüquq və Avropa hüququ" kafedrasının müdiri, dosent, hüquq üzrə fəlsəfə doktoru.

**Məsul redaktor** — ***HÜSEYNOVA F.E.*** – BDU Hüquq fakültəsinin "BXH və Avropa hüququ" kafedrası, dosent, hüquq üzrə fəlsəfə doktoru.

**İnzibatçı redaktor** — ***HƏSƏNZADƏ S.B.*** – Hüquq və İnsan Haqları İnstitutunun aparıcı elmi işçisi, dosent, hüquq üzrə elmlər doktoru.

**Texniki redaktor** — ***Aysel HƏSƏNLİ*** – Sumqayıt Dövlət Universiteti, filologiya fakültəsi, təhsildə sosial-psixoloji xidmət ixtisası, II kurs tələbəsi.

**Redaktorlar:**

— ***ABBASOV A.Q.*** — BDU-nun «İngilis dili» kafedrasının müdiri, Əməkdar müəllim, professor, filologiya üzrə fəlsəfə doktoru.

— ***AĞAKİŞİYEV Ə.Y.*** — BDU-nun dosenti, Əməkdar müəllim, filologiya üzrə fəlsəfə doktoru.

— ***HÜSEYNOV M.H.*** — Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, əməkdaş, hüquqşünas.

— ***ƏLİYEV E.E.*** — Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, əməkdaş, hüquqşünas.



***Müəlliflə redaksiyanın mövqeyi uyğun olmaya bilər.***

**Göndərilən əlyazmalar, fotolar geri qaytarılmır.**



***Redaksiyanın ünvanı:***

**AZ1070 Bakı şəhəri, Yasamal rayonu, Yeni Yasamal y/sahəsi, Ş.Bünyadzadə küçəsi, 12.**

Tel:. +99412 533 97 90
mob:.+99450 220-24-42;
+99455 230-24-42

vebsayt: law-plane.az

Elektron poçt:
e-mail: a-etibar@rambler.ru

Nəşrin elektron variantının internet saytı:
www.law-plane.az
URL: http://www.law-plane.az
http://www.hmj.az/index.php/hmj



Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi Milli Gəlirlər Baş İdarəsinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı İdarəsində 06.11.2019-cu il tarixdə dövlət qeydiyyatına alınmışdır (dövlət qeydiyyat №-si 1306401681).

06 fevral 2023-cü il tarixdə 156 səhifə həcmində çap olunmuşdur. Tirajı 300 ədəd.

**2023**

I RÜB

*Ümummilli Lider Heydər Əliyev – 100*

# ƏBƏDİYAŞARLIQ NÜMUNƏSİ

**Dünyada mənsub olduğu xalqların tarixində əbədi yaşamaq haqqı qazanmış nadir şəxsiyyətlər var ki, onlar həm öz ölkələrinə, həm də geniş mənada bəşəriyyətə aid olan tarixi şəxsiyyətlərdir. Öz xalqı və dövləti qarşısındakı misilsiz tarixi xidmətləri ilə əbədiyyət qazanmış görkəmli dövlət xadimi Heydər Əliyev həm də dünya miqyasında XX əsrin qüdrətli liderlərindən biri kimi qəbul olunur. Azərbaycan xalqının XX əsrin ortalarından sonrakı tarixi taleyində mühüm rol oynamış Heydər Əliyev özünün ədalətli mübarizəsi və parlaq əməlləri ilə həm də ümumiyyətlə cəmiyyətin və insanlığın tarixi təkamülünə xidmət göstərmişdir. O, tarixin ən çətin və mürəkkəb ictimai-siyasi şəraitində mənsub olduğu xalqı zamanın qasırğalarından qoruyub çıxarmağı və irəli aparmağı bacarmışdır. Uzaqgörən tarixi şəxsiyyətin keçdiyi məsuliyyətli və şərəfli yol, apardığı mübarizə, qazandığı nailiyyətlər başqa xalqlar üçün də düşündürücü və ibrətamiz nümunə olmuşdur. Beləliklə, Azərbaycanın çoxəsrlik tarixi salnaməsinə öz adını yazmış görkəmli dövlət xadimi Heydər Əliyev digər xalqlar üçün də liderlik nümunəsi kimi qəbul edilmişdir.**

Müasirlərinin xatirələrinə əsaslanaraq belə nəticəyə gəlmək mümkündür ki, liderlik istedadı Heydər Əliyevdə hələ gənclik illərindən müşahidə olunmuşdur. Naxçıvan Pedaqoji Texnikumunda onunla birlikdə təhsil almış AMEA-nın müxbir üzvü Səfərəli Babayev tələbə yoldaşlarının Heydər Əliyevi öz aralarında marşal adlandırdıqlarını onun tələbəlik dövründən mənəvi cəhətdən məğrur və cəsarətli olması ilə əlaqələndirmişdir. Başqa bir tələbə yoldaşı Zərqələm Əliyeva da xatirələrində Heydər Əliyevdən xilaskar kimi söz açmışdır. Heydər Əliyev şəhər mühitinin çətin sınaqlarında sadə kəndli tələbə qızların etibarlı arxası olmuşdu. Ali və orta ixtisas təhsili üzrə qiymət cədvəllərindəki "əla" qiymətlər Heydər Əliyevin bilik səviyyəsinin və istedadının, "marşal" və "xilaskar" kimi tanınması isə cəsarəti və uzaqgörənliyinin göstəricisi idi. Keçdiyi keşməkeşli və şərəfli ömür və mübarizə yolunun dərsləri, fitri istedadı, cəsarətli və uzaqgörənliyi Heydər Əliyevin bütövlükdə həyatvə mübarizə yolunun barometri olduğunu ifadə etməyə tam əsas verir. Sadəcə olaraq onu nəzərə almaq lazımdır ki, şəxsiyyətin mühüm göstəriciləri olan həmin çoxcəhətli dəyərlər Heydər Əliyevdə adi insanlarda olan eyni keyfiyyətlərdən fərqli şəkildə təzahür etmişdir. Belə ki, istedadlı insanların mütləq əksəriyyəti konkret bir sahədə müəyyən bir istiqamət üzrə özlərinin fərqli qabiliyyətlərini nümayiş etdirdikləri halda, Heydər Əliyevin simasında bu, kompleks şəkildə təzahür etmişdir. Hələ gənclik və tələbəlik illərindən müasirləri arasında marşallıq, rəssamlıq, memarlıq, aktyorluq, xilaskarlıq istedadı ilə fərqlənən Heydər Əliyev sonralar fenomenal yaddaşı, cəmiyyət həyatının bütün

sahələrini əhatə edən hərtərəfli bilik və qabiliyyətləri ilə səciyyələnmişdir. Tarixdə silinməz izlər açmış siyasi-təşkilati idarəetmə məharəti ilə o, mükəmməl dövlətçilik istedadına da malik olduğunu isbat etmişdir.

Çoxcəhətli qabiliyyətlərə və nadir istedada malik olan görkəmli dövlət xadimi Heydər Əliyev dünya dövlətçilik təcrübəsində və Azərbaycan dövlətçiliyi tarixində ən universal dövlət xadimidir. Nəinki Azərbaycan dövlətçiliyində, hətta dünya miqyasında universal qabiliyyətlərə malik olmaq baxımından Heydər Əliyevlə müqayisə edilə biləcək dövlət xadimi göstərmək çətindir. Bu baxımdan universal qabiliyyətlərə malik olması ilə Heydər Əliyev dünya və Azərbaycan dövlətçiliyinin tarixinə öz imzasını qızıl hərflərlə yazmışdır. Heydər Əliyevin çoxcəhətli istedadı və zəngin dövlət idarəçiliyi təcrübəsi Azərbaycan dövlətçilik tarixinin nadir hadisəsidir.

Dövlət idarəçiliyində və böyük siyasətdə hər şeydən qabaq mənsub olduğu xalqa arxalanan və dövlətə xidmət etməyin xalqa xidmət etmək demək olduğunu əyani şəkildə nümayiş etdirən Heydər Əliyev özünün çoxillik mübarizə yolunda dövlətçilik anlayışı ilə ümummilli ideallarin vəhdətinin geniş mənada əbədiyyətə xidmət etmək nümunəsi olduğunu təsdiq etmişdir. Heydər Əliyev fenomeni – dövlətçiliklə xalqa xidmətin sarsılmaz vəhdətindən ibarətdir. Dövlətə və xalqa xidmətin möhtəşəm birliyi Heydər Əliyevin dövlətçilik istedadının möhürüdür. Görkəmli dövlət xadimi Heydər Əliyev mənalı həyatının bütün mərhələlərində rəhbərlik etdiyi Azərbaycan dövlətçiliyinə və mənsub olduğu Azərbaycan xalqına sədaqətlə xidmət etmişdir. Sovet Azərbaycanının çətin və mürəkkəb siyasi-ideoloji şəraitində o, hakim kommunist partiyasının ideyalarının deyil, Azərbaycan xalqının milli maraqlarının həyata keçirilməsinə nail olmağı bacarmışdır. Bu cəhətdən Heydər Əliyev bütün məqamlarda, ən çətin zamanlarda xalqına yol açmaq vəzifəsini öz üzərinə götürmüşdür. Azərbaycan Dövlət Universitetinin 1969-cu ildə keçirilmiş 50 illik yubileyi mərasimində Sovet Azərbaycanının rəhbərinin doğma ana dilində məruzə etməsi nəinki respublikada, hətta keçmiş Sovetlər İttifaqı miqyasında böyük əks-səda doğurmuşdur. Dövlət başçısının rəsmi tədbirdə hakim iqtidarın yox, mənsub olduğu xalqın dilində nitq söyləməsi o dövrün şərtlərinə görə rast gəlinməyən qeyri-adi bir hadisə idi. Azərbaycan Sovet Sosialist Respublikasının rəhbəri Heydər Əliyevdən qabaq SSRİ-nin təcrübəsində buna bənzər hər hansı bir hadisə baş verməmişdi. Görkəmli dövlət xadimi Heydər Əliyev Sovetlər İttifaqında siyasi-ideoloji mühiti milli-mənəvi dəyərlərə, ölkə maraqlarına dəyişdirməyə doğru qeyri-adi dərəcədə cəsarət nümunəsi göstərən nadir dövlət xadimi idi. Sovetlər İttifaqı dövründə nəinki özündən əvvəl, hətta sonralar da digər müttəfiq respublikalarda belə bir hadisə təkrar edilməmişdir. Bu, sadəcə ölkə miqyasında keçirilən mühüm bir tədbirdə ana dilində danışmaq nümunəsi olmayıb, respublika rəhbərinin dövlət işini mənsub olduğu xalqa doğru istiqamətləndirməsinin, Azərbaycançılıq missiyasının parolu idi. Bu tarixi hadisədən sonrakı dövrdə Azərbaycanda baş vermiş ədəbi-mədəni hadisələr Azərbaycançılıq amalının Heydər Əliyev üçün əsas meyar olduğunu nümayiş etdirmişdir. Heydər Əliyevin siyasi iradəsi ilə

1978-ci ildə Azərbaycan SSR-in Konstitusiyasına Azərbaycan dilinin dövlət dili kimi daxil edilməsi də həmin dövrün nadir tarixi hadisəsi idi.

Azərbaycanın görkəmli ədəbiyyat və incəsənət xadimlərinin yubileylərinin ölkədə və ittifaq miqyasında təntənəli şəkildə qeyd edilməsi, onlara SSRİ-nin ən yüksək fəxri adlarının verilməsi, hətta bəzi tədbirlərin (məsələn, İmadəddin Nəsiminin yubileyinin) UNESCO miqyasında keçirilməsi Sovet Azərbaycanının rəhbərinin Azərbaycançılıq üfüqlərini təsəvvür etmək üçün əsas verir. Heydər Əliyev sərt sovet rejimi çərçivəsində azərbaycançılıq ideyalarını həyata keçirmək istedadı nümayiş etdirən görkəmli dövlət xadimidir. Azərbaycançılıq istiqamətində həyata keçirdiyi ardıcıl və məqsədyönlü siyasətlə Heydər Əliyev xalqımızı dövlət müstəqilliyinə hazırlamışdır. Məhz Ulu Öndər Heydər Əliyevin sayəsində müstəqillik, dövlətçilik və azərbaycançılıq baxımından ölkəmiz və xalqımız digər müttəfiq respublikalardan bir tarixi mərhələ qabaqda olmuşdur. Heydər Əliyev bütün məqamlarda zamanı qabaqlamağı bacarmış liderdir.

Keçid dövrü adlandırılan 1988-1991-ci illərdə, ümumiyyətlə, XX əsrin doxsanıncı illərinin ortalarına qədər keçmiş SSRİ-də və Azərbaycanda baş verən bütün ictimai-siyasi hadisələr görkəmli dövlət xadimi Heydər Əliyevin adı və mübarizəsi ilə üzvi surətdə əlaqədardır. SSRİ adlandırılan dövlətin çökdürülməsində Heydər Əliyevin atdığı addımların böyük təsiri olmuşdur. Xalqımızın taleyində ən faciəli hadisə olan SSRİ güc orqanlarının 20 yanvar1990-cı ildə Bakı şəhərində törətdiyi qanlı fəlakət həyatının siyasi mühacirət dövrünü yaşayan görkəmli dövlət xadimi Heydər Əliyevin bir gün sonra Azərbaycan Respublikasının Moskvadakı daimi nümayəndəliyinə gələrək ciddi siyasi bəyanatla çıxış etməsi xarakteri etibarilə milli azadlıq hərəkatına çevrilmişdir. SSRİ-nin əsas rəhbər simalarından biri olmuş və istefaya göndərildiyi üçün hər addımı sovet imperiyasının nəzarətində olan Heydər Əliyevin 21 yanvar 1991-ci il tarixdə Moskva şəhərindəki Azərbaycan daimi nümayəndəliyindəki siyasi bəyanatı təkcə Azərbaycanda milli-azadlıq hərəkatına təkan verməklə qalmayıb, digər müttəfiq respublikalarda da sovet imperiyasına qarşı mübarizə aparan milli qüvvələri cəsarətləndirmişdir. Bu mənada Heydər Əliyevin 21 yanvar 1990-cı il Moskva bəyanatı SSRİ-nin çökməsinin parolu kimi səslənmişdir. Eyni zamanda kommunist partiyasının əsas rəhbərlərindən biri olmuş Heydər Əliyevin xalqının xeyrinə dəyişən zamanı düzgün qiymətləndirərək, Siyasi Büro üzvləri arasında birinci olaraq hələ hakimiyyətdə qalan partiyanın sıralarından çıxması da SSRİ-nin dağılmasına təsir göstərən faktorlardan birinə çevrilmişdir. Bundan başqa, həyatını böyük risklər qarşısında qoyaraq, çox çətin şəraitdə Kremlin sədlərini qıraraq Vətənə qayıtması da Heydər Əliyevin mürəkkəb ictimai-siyasi böhranlar dövrünü yaşayan Azərbaycan xalqının müstəqillik uğrunda mübarizəsinə dəstəyinin bariz nümunəsi idi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı kimi bu siyasi təşkilatın rəsmi iclasına sədrlik edərək, böyük cəsarətlə Azərbaycanın üçrəngli bayrağının dövlət rəmzi olaraq qəbul edilməsinə nail olması dövlət müstəqilliyi uğrunda mübarizənin nadir tarixi hadisəsidir. SSRİ-nin dağılma-

sından 11 ay əvvəl baş vermiş üçrəngli bayraq hadisəsi Heydər Əliyevin cəsarəti ilə yanaşı, həm də böyük uzaqgörənliyinin əməli ifadəsidir.

Eyni zamanda məhz Heydər Əliyevin siyasi iradəsi və böyük uzaqgörənliyi sayəsində 21 noyabr 1992-ci ildə Yeni Azərbaycan Partiyasının yaradılması ciddi surətdə itirilmək təhlükəsi ilə üzləşmiş müstəqil dövlətimizin xilas edilməsinin ən böyük hadisəsi olmuşdur. Beləliklə, Heydər Əliyev Azərbaycanda milli azadlıq hərəkatına əsl dövlət xadimi və uzaqgörən lider kimi böyük xidmət göstərmiş, dövlət müstəqilliyi uğrunda mübarizəyə ilham və dəstək vermişdir. Bütün bunlara görə görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycanda müstəqil dövlətçiliyin banisi və böyük qurucusudur.

Azərbaycan xalqının tarixi taleyinin ən böyük hadisəsi olan müstəqil Azərbaycan Respublikasına ən çətin şəraitdə böyük bacarıqla rəhbərlik etməsi, ölkəmiz və xalqımız qarşısında əsl xilaskarlıq missiyasını qətiyyətlə yerinə yetirməsi Heydər Əliyevin Azərbaycan dövlətçiliyinə ən böyük xidmət nümunəsidir. Ulu Öndərin Azərbaycan Respublikası Milli Məclisinin Sədri kimi fəaliyyətə başladığı 15 iyun tarixinin ölkəmizdə Milli Qurtuluş Günü kimi qeyd edilməsi ilə müstəqil dövlətimiz özünün siyasi dayaqlarını qəti şəkildə möhkəmləndirmişdir. Ümumiyyətlə, Heydər Əliyevin Azərbaycan Respublikasında yenidən siyasi hakimiyyətə qayıdışı ilə ölkəmizdə dövlət müstəqilliyinə münasibətdə nəzərəçarpmaqda olan ümidsizlik və çaşqınlıq mərhələsi arxada qalmış, xalqımızda sabaha doğru böyük inam yaranmışdır.

Görkəmli dövlət xadimi Heydər Əliyevin 1993-2003-cü illərdə Azərbaycan Respublikasına rəhbərlik etməsi ilə müstəqil dövlətimiz parçalanmaqdan, yox olmaqdan, real vətəndaş müharibəsi təhlükəsindən xilas edilmişdir. Siyasi fəaliyyətinin bu tarixi mərhələsində də Heydər Əliyev üçün xalq və dövlət anlayışları bir-birini möhkəm surətdə tamamlamışdır. Azərbaycan Respublikasının Prezidenti kimi Heydər Əliyev xalqımızı qardaş qırğınından, ölkəmizi isə dövlət müstəqilliyini itirmək təhlükəsindən xilas etmişdir. Məkrli xarici qüvvələrin planları əsasında yerli xəyanətkar qüvvələrin iştirakı ilə törədilmiş dövlət çevrilişi cəhdləri Heydər Əliyevin xalqı öz ətrafında birləşdirmək bacarığı sayəsində dəf edilmişdir. Heydər Əliyevin ölkə daxilinə yerləşdirilmiş separatçı qüvvələri sıradan çıxarması və ictimai-siyasi sabitliyə nail olması dövlət müstəqilliyi andına əsl sədaqətin və əməli xidmətin canlı ifadəsidir. Dünya tarixinə "Əsrin müqaviləsi" hadisəsi kimi daxil olmuş məşhur neft kontraktlarının imzalanması Azərbaycanda siyasi-iqtisadi böhranın aradan qaldırılması sahəsində ən həlledici hadisələrdən biridir. Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olan "Əsrin müqaviləsi" geniş mənada müstəqil Azərbaycan Respublikasının beynəlxalq münasibətlərdəki yerini möhkəmləndirən və siyasi-iqtisadi rolunu daha da artıran möhtəşəm hadisədir. Böyük güclərin toqquşan maraqlarının və region dövlətlərinin fərqli münasibətlərinin olmasına baxmayaraq, Heydər Əliyevin böyük siyasi məharəti sayəsində baş tutmuş "Əsrin müqaviləsi" özünün siyasi-iqtisadi əhəmiyyətinə görə əsrin əfsanəsi adlandırılmağa layiqdir.

Müstəqil Azərbaycan dövlətinin tarixi taleyində Heydər Əliyevin siyasi iradəsi ilə ölkəmizin Konstitusiyasının qəbul edilməsi, Azərbaycanın Avropa Şurasının üzvlüyünə qəbul olması, Ermənistan-Azərbaycan münaqişəsinin dayandırılması üçün atəşkəslə bağlı sazişin bağlanılması və digər hadisələr əhəmiyyətli rol oynamışdır. Heydər Əliyev özünün düşünülmüş siyasi gedişləri ilə regionda və Azərbaycanda tarixin təkərini dəyişdirməyi bacarmışdır. Məhz Heydər Əliyevin diplomatik məharəti sayəsində Qarabağ ətrafında dünyada yayılmış yalançı erməni təbliğatı dağıdılmışdır. Azərbaycan gerçəkliklərinin dünyada tanıdılması baxımından Heydər Əliyev təkbaşına dünya erməni lobbisinə və onların tərəfdarlarına qalib gəlmişdir. Bütün bunlar Azərbaycanda dövlət müstəqilliyinin müqəddəratının həll edilməsində xüsusi əhəmiyyətə malik olan tarixi hadisələrdir.

Azərbaycanda elm və təhsilin inkişafında da görkəmli dövlət xadimi Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur. Azərbaycan Milli Elmlər Akademiyasının inkişafının və yenidən qurulmasının əsas hadisələri Ulu Öndər Heydər Əliyevin adı və fəaliyyəti ilə üzvi surətdə əlaqədardır. Sovet hakimiyyəti illərində akademiyada elmi tədqiqat institutlarının şəbəkəsinin genişləndirilməsi, akademiyada təsərrüfat hesablı xüsusi Konstruktor Bürosunun yaradılması və fəaliyyətinin təşkili yalnız respublikanın birinci şəxsinin keçmiş Sovetlər İttifaqının rəhbər dairələrindəki nüfuzu hesabına həll edilə bilən məsələlər idi. Çünki akademiyada fəaliyyət göstərən xüsusi konstruktor büroları dövlət sifarişləri əsasında büdcədənkənar vəsaitlər əldə etmək imkanına malik idi. Büdcədənkənar vəsait anlayışı bugünkü mənada sahibkarlıq fəaliyyətindən əlavə gəlirlər əldə etmək demək idi. Bu isə akademiyada sosializm sistemi ilə bir araya sığmayan, özündə kapitalizmin elementlərini daşıyan sahibkarlıq subyektləri olan xüsusi konstruktor bürolarının yaradılması demək idi. İqtisadi cəhətdən faydalı olan xüsusi konstruktor büroları siyasi-ideoloji cəhətdən sosializm dövrünün akademiyasına uyğun deyildi. Bütün bunlara görə Azərbaycan SSR Elmlər Akademiyasında xüsusi konstruktor büroları şəbəkəsi təşkil etmək üçün təkcə SSRİ Elmlər Akademiyası rəhbərliyinin yox, hökmən sovet dövlətinin siyasi rəhbərliyinin də razılığını almaq lazım idi. Azərbaycan Sovet Sosialist Respublikasının nüfuzlu və uzaqgörən rəhbəri Heydər Əliyev SSRİ rəhbərliyindən belə bir razılığı almağı bacarmışdı. Sovetlər İttifaqı dövründə Azərbaycan SSR Elmlər Akademiyasına dövrün əsas təltiflərindən olan "Xalqlar dostluğu" ordeninin verilməsi də bütün istiqamətlər üzrə Azərbaycanı irəli aparmaq proqramının tərkib hissəsi idi.

Müstəqillik dövründə də Ulu Öndər Azərbaycan elminin inkişaf etdirilməsinə böyük xidmət göstərmişdir. Akademiyaya Azərbaycan Milli Elmlər Akademiyası statusunun verilməsi ölkəmizdə mövcud olan elmi ənənədən fərqli olaraq bu dövlət elmi təşkilatının ölkəmizin və xalqımızın milli maraqlarına və dövlətçilik mənafelərinə xidmət etməyə doğru istiqamətləndirilməsinin təmin edilməsi demək idi. SSRİ-dən ayrılmış müttəfiq respublikalardan heç birinin akademik qurumunun adına "milli" sözü əlavə edilməmişdir. Azərbaycan Respublikasında isə təkcə Milli Elmlər Akade-

miyasına deyil, Nizami Gəncəvi adına Ədəbiyyat Muzeyinə və Azərbaycan Tarixi Muzeyinə də milli statusu verilmişdir. Bütün bunlar Azərbaycanda akademik elmi mühitin mahiyyətinin əsaslı şəkildə dəyişdirilərək, keçmişdəki ideoloji xarakterli elmi qurumdan ölkə maraqlarına xidmət edən milli akademik quruma keçidə hesablanmış dövlət səviyyəli addımlar idi. Heydər Əliyevin Azərbaycan elminə açdığı işıqlı yol bu gün də alimlərimiz və elmi qurumlarımız üçün əhəmiyyətli olan üfüqlərdir.

Beləliklə, görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycana çoxillik rəhbərliyi dövründə həmişə azərbaycançılıq, vətənpərvərlik və müdriklik nümunəsi göstərmişdir. Heydər Əliyev sağlığında ikən mənsub olduğu xalqın Ümummilli Lideri kimi etiraf olunmuşdur. Keçmiş SSRİ rəhbərlərindən heç biri nəinki öz sağlığında, hətta sonrakı dövrlərdə də Ümummilli Lider statusu qazana bilməmişdir. Böyük dövlət xadimi Heydər Əliyev Azərbaycan xalqının Ümummilli Lideridir. Eyni zamanda Heydər Əliyev öz epoxasını yaratmış tarixi şəxsiyyətdir. Heydər Əliyev epoxası – Azərbaycan xalqının iqtisadi-mədəni gerilikdən inkişaf etmiş ölkələrdən birinə çevrilmək dövrü demək idi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müstəqil Azərbaycan dövlətini dönmədən irəli aparmaqda davam edir. Ölkəmizdə Heydər Əliyevin müstəqil dövlətçilik və azərbaycançılıq idealları yaradıcı şəkildə yeniləşdirilərək və zənginləşdirilərək yaşadılmaqdadır. Prezident İlham Əliyevin həyata keçirdiyi dərin və əsaslı islahatlar Azərbaycan Respublikasını inkişaf etmiş bir regiona çevirmişdir. İlham Əliyevin həyata keçirdiyi hərtərəfli inkişaf proqramı Azərbaycan xalqına bütün sahələrdə böyük uğurlar qazandırmışdır. Xüsusən Müzəffər Ali Baş Komandanın "dəmir yumruğ"u ilə 44 gün ərzində Qarabağın işğaldan azad edilməsi tarixlərə sığmayacaq qədər möhtəşəm hadisədir. İtirilmiş torpaqlarımızın Vətən müharibəsində qazanılmış tarixi zəfərdən sonra böyük sürətlə yenidən qurulması əfsanələrin, nağılların gerçəkləşdirilməsi deməkdir. Möhtəşəm tarixi zəfərlərə imza atılması və yeni üfüqlərə doğru hərəkatın genişlənməkdə davamı etməsi Azərbaycan Respublikasının İlham Əliyev erasının reallıqlarıdır. Qarabağ zəfəri və Böyük qayıdış hərəkatı misilsiz qəhrəmanlıq nümunəsidir. Heydər Əliyev epoxasının böyük dərslərindən keçmiş Azərbaycan xalqı Prezident İlham Əliyev erasının irəliyə doğru çağırışlarının işığında böyük gələcəyə doğru qətiyyətlə yol gedir.

Azərbaycan xalqının əbədiyaşarlıq nümunəsi qazanmış Ümummilli Lideri Heydər Əliyevin tarixi dərsləri sabahlara gedən yollarda xalqımıza bələdçilik edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2023-cü ili "Heydər Əliyev İli" elan etməsi görkəmli dövlət xadiminin müstəqil dövlətçilik və azərbaycançılıq ideallarının geniş miqyasda təbliğ edilməsi vasitəsilə gələcəyə baxışın daha da möhkəmləndirilməsinə xidmət edir. Azərbaycan Prezidenti İlham Əliyev dünya siyasətinin və xalqımızın irəliyə doğru inkişafının önündə getməklə yeni tarixi epoxanın lideri kimi ölkəmizi qələbədən-qələbəyə aparmağın yeni-yeni nümunələrini göstərir.

**İsa HƏBİBBƏYLİ,**
**AMEA-nın prezidenti,**
**Milli Məclisin deputatı, akademik.**

# HEYDƏR ƏLİYEV VƏ TƏHSİL SİYASƏTİ

**Ulu Öndər Heydər Əliyevin Azərbaycan tarixində və dövlətçiliyin inkişafında misilsiz xidmətləri olmuşdur. Ümummilli Liderin çoxşaxəli fəaliyyətində təhsil xüsusi yer almışdır. Ulu Öndərin təhsil siyasəti dərin milli mənafelər üzərindən qurularaq ölkəmizin davamlı və dayanıqlı inkişafına xidmət etmişdir.**

Yüksək inkişaf etmiş ali təhsil sistemi cəmiyyətin, dövlətçiliyin, iqtisadiyyatın və sosial-rifahın inkişafını təmin edir, ölkənin siyasi, hüquqi, beynəlxalq və hərbi qüdrətini gücləndirir. Heydər Əliyevin istər Sovet İttifaqı dövründə, istərsə də müstəqilliyin bərpasından sonrakı dönəmdə ölkəmizə rəhbərlik etdiyi zamanlarda həyata keçirdiyi təhsil siyasəti mühüm fundamental və tarixi əhəmiyyətli məqsədləri hədəfləmişdir. Ulu Öndərin təhsil strategiyasının kökündə Azərbaycan iqtisadiyyatının, sənayesinin, savadlı əhalinin inkişafına yönəlmiş strateji addımlar, ən əsası isə milli-mənəvi dəyərlərin qorunması, yaşadılması, xalqın tarixi, mədəniyyəti, ədəbiyyatı, dili, folkloru və bütövlükdə milli yaddaşının mühafizəsi və ölkənin qüdrətli gələcəyinə xidmət etməsi dururdu.

Hələ XX əsrin 70-80-ci illərində Azərbaycanda təhsilin inkişafına ayrılan diqqət, ana dilinin inkişafına yönəlmiş siyasət, sənayenin müxtəlif sahələri üzrə gənc kadrların SSRİ-nin müxtəlif ali təhsil müəssisələrində oxumağa göndərilməsi, ali məktəblərin sayının artırılması kimi uğurlu işlərin nəticələri müstəqilliyin bərpasından sonrakı dövrdə özünün əhəmiyyətini xüsusi olaraq göstərdi. 1978-ci ildə Azərbaycanın Konstitusiya layihəsinin hazırlanması zamanı Heydər Əliyevin Azərbaycan dilini ana dili kimi bu layihəyə əlavə etməsi həm milliidentikliyin qorunması baxımından mühüm addım, həm də 1970-ci illərdə yüksəliş dövrünü yaşayan Sovet İttifaqında milli-mənəvi dəyərlərin qorunması istiqamətində atıla biləcək cəsarətli addım kimi əhəmiyyətli idi. Heydər Əliyev çox gözəl bilirdi ki, millətin dilinin qorunması onun milli kimliyinin (mənliyinin) mühafizəsi demək idi. 2003-cü ildə "Azərbaycan Respublikasında dövlət dili haqqında" qanunun tətbiq edilməsi barədə" Sərəncamı bu istiqamətdə illərlə aparılan siyasətin məntiqi davamı idi. Ulu Öndər tərəfindən Azərbaycan dilinin qorunması, tədrisi, tədqiqi və inkişafı baxımından görülən tədbirlər milli-mənəvi yaddaşımızın mühüm hadisələri sırasındadır. Heydər Əliyevin Azərbaycan dilinə, onun qorunmasına və inkişafına olan həssaslığı böyük rəhbərin özü tərəfindən aydın şəkildə ifadə edilmişdir: "Millətin milliliyini saxlayan onun dilidir. Şübhəsiz ki, musiqi də, ədəbiyyat da, ayrı-ayrı tarixi abidələr də millətin milliliyini təsdiq edir. Amma millətin milliliyini ən birinci təsdiq edən onun dilidir. Əgər Azərbaycan dili olmasa Azərbaycan dilində mahnılar olmaz, musiqi olmaz. Bunların hamısı biri-birinə bağlıdır. Azərbaycan dilinin dövlət dili kimi yaşaması, möhkəmlənməsi, inkişaf etməsi də bizim ən böyük nailiyyətlərimizdən biridir. Bu, təkcə dil məsələsi deyil, həm də azərbaycançılıq məsələsidir". Bir millətin yaşamasında, milli kimliyinin və dövlətçiliyinin qorunmasında ana dilinin əhəmiyyəti haqqında deyilən fikirlərdən gözəl tərif ola bilməz.

Azərbaycan dilinin qorunması həm də təhsilin inkişafı məsələsi idi. Bu istiqamətdə Ulu Öndərin atdığı addımlar sırasında ölkəmizdə yüksək ixtisaslı kadrların hazırlanması, təhsilin əlçatanlığı və coğrafiyasının geniş-

lənməsi əsas prioritetlərdən olmuşdur. Hələ 1970-ci illərdə ümumi təhsil sahəsində işin təşkilinin təkmilləşdirilməsi məqsədi ilə "Gənclərin ümumi orta təhsilə keçidini başa çatdırmaq və ümumtəhsil məktəbini daha da inkişaf etdirmək haqqında", "Kənd ümumtəhsil məktəblərinin iş şəraitini daha da yaxşılaşdırmaq haqqında" qərarlar qəbul edilmişdir. Heydər Əliyevin inkişaf strategiyasının davamlılıq və dayanıqlılıq prinsipinə uyğun olaraq qısa bir zamanda ölkə üzrə ümumtəhsil məktəblərinin sayında inanılmaz artım baş vermiş, 1979-cu ildə ümumtəhsil məktəblərinin sayı 2100-ü,1982-ci ildə isə 4200-ü, eləcə də bu müddət ərzində şagirdlərin sayı 700 min nəfəri keçmişdir. Təhsil müəssisələrinin sayının artırılması ölkənin bütün ərazisində, ucqar kənd yerlərində təhsilə çıxış imkanlarını asanlaşdırmış, keyfiyyətli təhsil və öyrənmə imkanlarını artırmışdır.

Ulu Öndərin hakimiyyəti illərində ali təhsilin inkişafı hər zaman diqqətdə saxlanılmış, kadrların xüsusi çəkisində əhəmiyyətli artım müşahidə olunmuşdur. Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövrlərində ali məktəblərin sayı da çoxalmış, yeni ali təhsil müəssisələri yaradılmışdır. Artıq 1982-ci ildə ali təhsil müəssisələrində təhsil alan insanların sayı 100 min nəfərə çatmışdır. Azərbaycanda təhsil alanlarla yanaşı, SSRİ-nin digər ali təhsil müəssisələrində də soydaşlarımızın oxuması məqsədi ilə yüzlərlə həmyerlimiz keçmiş ittifaqın ən aparıcı universitetlərinə göndərilmişdir. Qeyd olunmalıdır ki, hazırkı Bakı Slavyan Universitetinin də inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə sıx bağlı olmuş, onun diqqət və qayğısını daim hiss etmişdir. Məhz Ulu Öndərin təşəbbüsü ilə 1972-ci ildə M.F.Axundov adına Azərbaycan Pedaqoji Dillər İnstitutunun bazasında Pedaqoji Rus Dili və Ədəbiyyatı İnstitutu yaradılmışdır. İnstitutun işinin yeni formatda təşkili onun elmi-pedaqoji potensialının sürətli inkişafına, regionda öz sahəsi üzrə mükəmməllik mərkəzinə çevrilməsinə xidmət etmişdir. Ulu Öndərin 13 iyun 2000-ci ildə imzaladığı və ölkənin təhsil sisteminin təkmilləşdirilməsinə xidmət edən Sərəncamı ilə M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus Dili və Ədəbiyyatı İnstitutunun bazasında Bakı Slavyan Universitetinin yaradılması isə ölkəmizin yeni inkişaf dönəmində atılmış mühüm addımlardan idi. Məhz Ulu Öndərin müəyyən etdiyi inkişaf istiqamətlərinə uyğun olaraq Bakı Slavyan Universiteti slavyan dilləri, ədəbiyyatı, mədəniyyəti üzrə tədrisin və tədqiqatın təşkili sahəsində regionda yeni aparıcı bir təhsil məkanının yaranması ilə nəticələndi.

Təəssüf ki, ölkəmizin tarixinin müəyyən dövrlərində baş vermiş hadisələr milli dövlətçiliyimiz, ərazi bütövlüyümüz, müstəqilliyimiz və gələcəyimiz üçün ciddi təhdidlər yaratmışdır. Belə ki, 1988-ci ildən etibarən Ermənistan tərəfindən ölkəmizə qarşı başlanmış təcavüz Azərbaycan torpaqlarının işğalı ilə nəticələndi. Baş verən proseslər iqtisadiyyatın digər sahələrində olduğu kimi, təhsil ekosisteminə, xüsusilə onun infrastrukturuna, o cümlədən coğrafiyasının daralmasına və mahiyyətinin dəyişməsinə təsir etdi. 30 ilə yaxın işğal müddətində digər infrastruktur və tarixi, mədəni, mənəvi abidələr kimi təhsil müəssisələri də məhv edilmişdir. 1991-1992-ci illərdə ölkədə baş almış hərc-mərcilik, siyasi hakimiyyətin milli maraqları təmin edə bilməməsinin nəticəsi olaraq iqtisadi inkişafa nəinki nail olunmuş, əksinə, əvvəlki dövrlərdə mövcud iqtisadi potensial da tükənmiş və tənəzzülə uğramışdır. Bu hadisələrə paralel olaraq ölkə ərazilərinin işğalı sosial böhran şəraiti yaratmış, yüz minlərlə məktəblinin ölkənin müxtəlif təhsil ocaqlarına cəlb olunması kimi aktual məsələlər yaratmışdır.

Azərbaycan üçün belə məsuliyyətli dövrdə onu bu xaosdan və böhrandan çıxara biləcək yeganə tarixi şəxsiyyət olan Heydər Əliyevin 1993-cü ildən etibarən həyata keçirdiyi uzaqgörən iqtisadi və sosial strategiyası qaçqın və məcburi köçkün gənclərin yeni təhsil mühitinə inteqrasiyasını təmin etmiş, işğal edilmiş rayonlardan məcburən köçmüş pedaqoji heyətin işlə təmin olunması ilə nəticələnmişdir. Təhsil siyasətinin qarşısında duran bu mühüm çağırış Heydər Əliyevin rəhbərliyi altında uğurla həll edilmiş, təhsilin təşkili həyata keçirilmişdir. Bu dövrdə məcburi köçkün həyatı yaşamış on minlərlə şagird olaraq hər birimiz Ulu Öndərin rəhbərliyi altında inkişaf edən təhsil sistemindən bəhrələnmiş və ali təhsil almışıq.

Beləliklə, Ulu Öndərin 1993-cü ildə xalqın təkidli tələbi ilə Azərbaycanda hakimiyyətə qayıtmasından sonrakı dövrdə bu sahənin inkişafında yeni bir mərhələ başladı. Müstəqil dövlətin iqtisadi inkişafının təmin olunması, daxili və xarici siyasətdə uğurlu nəticələrin əldə olunması üçün təhsilin inkişafına xüsusi önəm verildi, kadr hazırlığı məsələləri diqqət mərkəzində saxlanıldı.

Prezident İlham Əliyevin uğurlu təhsil siyasətinin mühüm şərtlərindən biri bu siyasətin əsasında Ulu Öndər Heydər Əliyevin təhsil strategiyasının dayanmasıdır. Məhz 2003-cü ildən etibarən Azərbaycan gənclərinin təhsil imkanlarının artırılması, bütün pillə və səviyyələr üzrə təhsilə əlçatanlığın təmin olunması, onun coğrafiyasının genişləndirilməsi bu siyasətin əsasında duran mühüm hədəflərdəndir. Prezident İlham Əliyevin siyasəti təhsilə əlçatanlığı təmin etmək məqsədi ilə müxtəlif dövlət proqramlarını həyata keçirməyi özündə ehtiva edir, müəyyən layihələr vasitəsi ilə gənclərin istər yerli, istərsə də xarici ali məktəblərdə təhsil imkanlarını genişləndirir. Prezident İlham Əliyevin rəhbərliyi altında azərbaycanlı mütəxəssislərin beynəlxalq rəqabətə davamlılığı istiqamətində mühüm addımlar atılmış, ali təhsil müəssisələrinin inkişafı, onların beynəlmilləşməsi və keyfiyyətin artırılması istiqamətində mühüm işlər görülməkdədir. Bu sahədə ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın fəaliyyəti xüsusi əhəmiyyət kəsb edir. Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr istər ümumi təhsil, istərsə də daha yuxarı təhsil pillələri və səviyyələri üzrə həm təhsilin, həm də bütövlükdə gəncliyin inkişafına yönəlmişdir.

Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş uzaqgörən inkişaf strategiyasının Prezident İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilməsi ölkəmizin tarixinin yeni dönəmində qarşıda mühüm prioritetlər formalaşdırır. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın ərazi bütövlüyünün təmin olunması xüsusilə uğurlu iqtisadi, siyasi, hərbi-müdafiə quruculuğu, eləcə də təhsil və gənclər siyasətinin nəticəsində mümkün olmuşdur. Bu gün Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aparılan quruculuq işləri gələcək inkişafımızın istiqamətlərini və prioritetlərini qarşımızda aydın şəkildə müəyyən edir, ali təhsil müəssisəsi olaraq kadr hazırlığı prosesində qarşımızda duran vəzifələri uğurla yerinə yetirmək üçün məsuliyyətləri müəyyən edir.

Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycan təhsilinin uğurlu inkişafı müasir qlobal çağırışlar, dinamik elmi və elmi-texnoloji inkişaf fonunda Prezident İlham Əliyevin rəhbərliyi altında bundan sonra da dövlətimizin, iqtisadiyyatımızın və cəmiyyətimizin uğurlu gələcəyi naminə sürətlə davam edəcək.

**Anar NAĞIYEV,**
**Bakı Slavyan Universitetinin rektoru.**

# AZƏRBAYCANDA İNSAN HÜQUQLARININ TƏŞƏKKÜL TAPMASINDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ROLU

**Əliyev Zaur Hümbət oğlu,**
**Dövlət Universiteti Hüquq fakültəsinin dekanı, dosent, hüquq üzrə fəlsəfə doktoru.**
e-mail: alievzh@gmail.com,
telefon:+99450 275 18 58;

**Əliyev Etibar Əli oğlu,**
**Bakı Dövlət Universiteti Hüquq fakültəsi "İnsan hüquqları və informasiya hüququ" UNESCO kafedrasının professoru, hüquq üzrə elmlər doktoru.**
e-mail: a-etibar@rambler.ru,
telefon:+99455 230 24 42.

*Məqalə 2023-cü ilin ölkəmizdə "Heydər Əliyev ili" elan edilməsi ilə bağlı Bakı Dövlət Universitetində həyata keçirilən tədbirlər planı kontekstində hazırlanmış və müstəqil Azərbaycanda insan hüquqlarının təşəkkül tapmasında Ümummilli Lider Heydər Əliyevi rolu barədə məsələlərin seqmentar formatda işıqlandırılmasına həsr olunmuşdur. Təqdirəlayiq hal kimi qeyd edilir ki, müasir Azərbaycanın qurucucu, xilaskar lider, müdrik dövlət xadimi, fenomen şəxsiyyət, dahi siyasətçi və ulu öndər Heydər Əliyevin yaratdığı insan hüquqlarının təminat mexanizminin səmərəli fəaliyyət göstərməsi işləri Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.*

*Dövlət başçısının 2023-cü ilin ölkəmizdə "Heydər Əliyev ili" elan edilməsi haqqında 29 sentyabr 2022-ci il tarixli sərəncamında təsbit olunduğu kimi, "Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir."*

*Danılmaz həqiqətdir ki, 2023-cü il Heydər Əliyev irsinə alternativi olmayan, dərin və parlaq ehtiramın nümunəsi kimi cəmiyyətə yüksək ideyalar aşılayacaq.*

**Açar sözlər:** Heydər Əliyev ili, Ümummilli Lider, ulu öndər, fenomen şəxsiyyət, dahi siyasətçi, insan hüquqları, təminat mexanizmi, normativ hüquqi aktlar, məhkəmə müdafiəsi, sosial-hüquqi təminatlar.

Hər şeydən əvvəl, qeyd etməliyik ki, dünyada ən ali və ülvi dəyərlərdən biri sosial-hüquqi kateqoriya kimi insan hüquqları sayılır. Belə ki, insan hüquqları şəxsiyyət varlığının azadlığını ehtiva edərək, şəxsiyyətin cəmiyyət, dövlət və fərdlərlə qarşılıqlı münasibətləri kontekstində zəruri vasitə kimi vacib rol oynayır. Eyni zamanda, insan hüquqları fundamental imtiyazlardır, cəmiyyətə qarşı irəli sürülən tələblərdir. İnsan hüquqları konstruksiyasının aktual komponentləri qismində demokratiya, azadlıq, humanizm, bərabərlik, ədalətlilik və s. elementlər çıxış edir. Cəmiyyətdə hüquqi düşüncənin (legal awareness) təşəkkül tapması fəlsəfi-hüquqi kateqoriya kimi hüquqi ideologiya və hüquqi psixologiya elementlərinin formalaşmasını şərtləndirir [10].

Elmi dövriyyədə, yəni hüquq doktrinasında insan hüquqları anlayışı iki mənada işlədilir: məhdud

mənada, geniş mənada. Məhdud mənada insan hüquqları dedikdə vətəndaşlığından və hansı dövlətə mənsubiyyətindən asılı olmayaraq, hər bir fiziki şəxsin malik olduğu insan hüquq və azadlıqları başa düşülür. Belə hüquqlar təbii hüquqlar adlanır.

Geniş mənada insan hüquqları dedikdə həm insan hüquq və azadlıqları, həm də vətəndaş hüquq və azadlıqları, yəni süni hüquqlar blokundan ibarət olan hüquqi imkanlar sistemi başa düşülür [6]. Nəzərdən qaçırmaq olmaz ki, ayrı-ayrı dövlətlərin konstitusiyalarında, o cümlədən Azərbaycan Respublikasının Konstitusiyasında fiziki şəxslərin malik olduqları hüquqlar iki növə bölünür: insan hüquq və azadlıqları (təbii hüquqlar), vətəndaş hüquq və azadlıqları (süni hüquqlar) [5].

Göründüyü kimi, insan və vətəndaş hüquq və azadlıqlarının məcmusu bütövlükdə insan haqlarının sistemini yaradır. Bu sistem iki blok hüquqi imkanlardan ibarətdir: birinci blok insan hüquq və azadlıqlarını, ikinci blok isə vətəndaş hüquq və azadlıqlarını ehtiva edir.

İnsan haqlarının hüquqi cəhətdən qorunmasına və müdafiəsinə bəşər aləmində mövcud olan bütün hüquq sistemləri prioritet əhəmiyyət verir. Belə ki, dövlətdaxili (milli) hüquq sistemi ilə yanaşı, beynəlxalq hüquq da bir sıra vacib məsələni özünün nizamasalma predmetinə daxil edir. İnsan hüquqlarının qorunması və müdafiəsi həmin məsələlərdən biridir; onun vasitəsi ilə insan haqlarının beynəlxalq səviyyədə qorunması və müdafiəsi həyata keçirilir [7].Yeri gəlmişkən, qeyd edək ki, xüsusi xarakterli və ayrıca hüquq sistemi olan Avropa hüququ da “insan hüquqları” anlayışını geniş mənada işlədir [4].

İnsan hüquqları məzmunca müxtəlifdir. Belə ki, məzmun kimi əlamətə görə, insan hüquqlarının üç növü fərqləndirilir:

1) şəxsi hüquqlar (məsələn, nigah hüququ, azadlıq hüququ, yaşamaq hüququ və s.);

2) ictimai-siyasi hüquqlar (məsələn, seçki hüququ, cəmiyyətin siyasi həyatında iştirak etmək hüququ, siyasi partiyalarda birləşmək hüququ, sərbəst toplaşmaq azadlığı, dövlətin idarə olunmasında iştirak etmək hüququ və s.) ;

3) sosial-iqtisadi və mədəni hüquqlar (məsələn, mülkiyyət hüququ, əmək hüququ, azad sahibkarlıq hüququ, mənzil hüququ, mədəniyyət hüququ, əqli mülkiyyət hüququ, yaradıcılıq azadlığı və s.).

Məhz buna görə də, müasir dövrdə demokratik inteqrasiya proseslərinin və milli inkişafın mühüm şərti kimi dəyərləndirilən fenomen – insan hüquqlarına hörmət, onların müdafiəsi və təminatı hər bir dövlətin ali məqsədinə çevrilmişdir.

Qeyd etmək lazımdır ki, ölkənin hərtərəfli tərəqqisi üçün insan hüquqları sahəsinin inkişafı olduqca önəmli faktorlardan biridir. Azərbaycan Respublikası öz tarixi dövlət müstəqilliyini bərpa etdikdən sonra Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə dünya birliyinin tamhüquqlu üzvünə çevrilmiş, əsas qanun olan Konstitusiya referendum yolu ilə qəbul edilmiş (1995-ci il), beynəlxalq əlaqələr sferası genişlənmiş, hüquqi dövlət quruculuğu istiqamətində silsilə qanunvericilik aktları qəbul edilərək, insanların azad, təhlükəsiz və fiziki cəhətdən sağlam mühitdə yaşaması və insan hüquqları sektorunun inkişafı istiqamətində bir çox əhəmiyyətli tədbirlər həyata keçirilmişdir.

Xüsusilə, qeyd etməliyik ki, layihəsi ulu öndər Heydər Əliyevin rəhbərliyi altında hazırlanmış və ümumxalq səsverməsi ilə

qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyasında müxtəlif mülkiyyət formalarının tanınması (maddə 13), insan hüquq və azadlıqlarının müdafiəsi (maddə 26), insan və vətəndaş hüquq və azadlıqlarının dövlət təminatı (maddə 26, II hissə), hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını və azadlıqlarını müdafiə etmək hüququ (maddə 26, I hissə), yaşamaq hüququ (maddə 27), əqli mülkiyyət hüququnun mühafizəsi (maddə 30), sosial təminat hüququ (maddə 38), sağlamlığın qorunması hüququ (maddə 41), vətəndaşlıq hüququnun təminatı (maddə 53), müraciət etmək hüququ (maddə 57), azad sahibkarlıq hüququ (maddə 59), hüquq və azadlıqların məhkəmə təminatı (maddə 60), hüquqi yardım almaq hüququ (maddə 61), insan və vətəndaş hüquqlarının və azadlıqlarının təminatı (maddə 71) və s. barədə çoxsaylı müvafiq normalar təsbit olunmuşdur [9; 12]. Belə ki, hər kəsin konstitusion hüquqları vardır və belə hüquqlar qanunla qorunur.

Azərbaycan xalqı bəşəri ictimai-siyasi formasiyanın III minilliyinə məhz Heydər Əliyev fenomeninin zəka işığında qədəm qoymuşdur. Dinamik iqtisadi inkişaf yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir [3]. Danılmaz həqiqətdir ki, müstəqil Azərbaycanın yeni dövr tarixi Ümummilli Lider, ulu öndər, fenomen şəxsiyyət, dahi siyasətçi, xalqımızın böyük oğlu Heydər Əliyevin adı ilə dialektik əlaqədə olmaqla sıx surətdə bağlıdır.

Belə ki, siyasi müdriklik, dövlət idarəçiliyində yüksək səriştə, milli maraqların, xüsusilə də insan hüquqlarının hər şeydən üstün tutularaq təmin olunması Ümummilli Liderin həyat fəlsəfəsinin ana xəttini təşkil edir. Azərbaycanın milli dövlətçiliyinin xilaskarı ulu öndər Heydər Əliyevin siyasi irsi, ölməz ideyaları, gənc nəsil üçün əmanət buraxdığı prinsiplər həmişə aktualdır və böyük salnamədir, eləcə də xalqımızın milli sərvətidir. Azərbaycançılıq məfkurəsinin və insan hüquqlarının milli təminat mexanizmlərinin yaradılmasının təməli məhz Heydər Əliyev tərəfindən qoymuşdur.

İnsan hüquqlarının təmin edilməsi sahəsində atılan humanist addımlardan biri kimi qeyd edə bilərik ki, Azərbaycan Respublikası 11 dekabr 1998-ci ildə "Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın Ölüm cəzasının ləğvinə yönəlmiş İkinci Fakultativ Protokolu"na qoşulmuşdur. Bununla əlaqədar olaraq, məhz ilk dəfə bu təşəbbüslə çıxış edən ulu öndər Heydər Əliyev tərəfindən "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər edilməsi haqqında" 05.10.1999-cu il tarixli 704-IQD nömrəli Qanun imzalanmışdır [12]. Adıçəkilən qanuna görə, Azərbaycanda ölüm hökmü çıxarılmır, yalnız müharibə dövründə hərbi xarakterli xüsusilə ağır cinayətlər törətməkdə təqsirli bilinən şəxs barəsində müharibə vaxtı ölüm cəzasının tətbiqinə yol verilə bilər.

Müdrik ulu öndərin elmi əsaslara söykənən ictimai-siyasi, sosial-iqtisadi və insan hüquqlarının effektiv şəkildə təmin edilməsi kursunu dövrün tələblərinə uyğun yeni proqmatik çalarlarla zənginləşdirərək uğurla və düşünülmüş addımlarla davam etdirən, eləcə də "Heydər Əliyevin xatirəsinə ən böyük hörmətimiz onun yoluna sədaqətimizdir" [3] deyən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən bu sahəyə daim xüsusi diqqət yetirilir. Qeyd etməliyik ki, insan hüquqlarının müdafiəsi və təmin edilməsi işi hər bir dövlətin müstəqilliyinin əsas atributlarından biridir. Bu amil suveren

və müstəqil Azərbaycanda müşahidə olunan dinamik sosial-iqtisadi inkişaf və beynəlxalq təsisatlar sisteminə münbit inteqrasiya prosesləri şəraitində insan hüquqlarını təminetmə mexanizminin təkmilləşdirilməsini, müvafiq hüquqi bazanın daim modernləşdirilməsini və bu işin beynəlxalq standartlara tam uyğun aparılmasını təmin edir. Beynəlxalq hüququn əsas prinsip və normalarının aliliyi, qlobal ictimai-siyasi dəyişikliklərin təkamül xarakteri, qarşılıqlı etimad və ümumbəşəri dəyərlərə sədaqət, xalqımızın milli mentalitet aspektləri insan hüquqlarının təminolunma mexanizminin prioritet və müəyyənedici istiqamətləri kimi nəzərə alınmışdır.

Eyni zamanda, Heydər Əliyev Fondu sözügedən sahənin inkişafını öz fəaliyyət istiqamətlərindən biri kimi müəyyənləşdirmişdir və insan hüquqları sferasına aid proqram və layihələrin həyata keçirilməsində fəal iştirak edir. Bu baxımdan, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti, İSESKO-nun xoşməramlı səfiri xanım Mehriban Əliyeva tərəfindən ölkədə insan hüquqlarının təminatı istiqamətində göstərilən diqqət və qayğı, eləcə də verilən real töhfələr təqdirəlayiqdir.

Qeyd etməliyik ki, dünyada insan hüquqlarının qorunması, müdafiəsi və təmin olunması universal, regional və milli (dövlətdaxili) səviyyələrdə yaradılmış hüquqi mexanizmlər sistemi vasitəsilə həyata keçirilir.

Təsadüfi deyil ki, insan hüquqlarının universal səviyyədə müdafiəsi ideyası ilk dəfə BMT Nizamnaməsində (1945-ci il) öz əksini tapmışdır. Nizamnamədə irqinə, cinsinə, dilinə və ya dini mənsubiyyətinə fərq qoyulmadan bütün insanların əsas hüquq və azadlıqlarına hörmətin dəstəklənməsi və həvəsləndirilməsi BMT-nin əsas məqsədlərindən biri kimi bəyan edilmişdir. İnsanların əsas hüquq və azadlıqlarına hamılıqla hörmət edilməsi və buna riayət edilməsinə dəstək verilməsi (maddə 55) və bundan ötrü BMT ilə birgə və ya müstəqil tədbirlər görülməsi (maddə 56) üzv dövlətlərin üzərinə vəzifə kimi qoyulmuşdur. Bu kontekstdə 10 dekabr 1948-ci il tarixdə BMT Baş Assambleyasının qətnaməsi ilə qəbul edilmiş "Ümumdünya İnsan Hüquqları Bəyannaməsi"nin adını, xüsusilə, çəkməliyik. Sözügedən sənəddə vətəndaş və siyasi hüquqlardan başqa, bir sıra iqtisadi, sosial və mədəni hüquqlar da təsbit olunmuşdur. Əlamətdar haldır ki, hər il dekabr ayının 10-u "Beynəlxalq insan hüquqları günü" kimi qeyd edilir.

Beynəlxalq hüquqda insan haqlarının təminatı ilə bağlı həm universal, həm də regional səviyyədə yeni normaların qəbul edilməsini təqdirəlayiq hal kimi qeyd etməliyik. Belə ki, 1966-cı ildə "Mülki və siyasi hüquqlar haqqında" və "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" Beynəlxalq Paktlar qəbul edildi; 1976-cı ildə "Mülki və siyasi hüquqlar haqqında" Pakta dair Birinci Fakültativ Protokol, 1989-cu ildə isə ölüm cəzasının ləğvinə yönəlmiş İkinci Fakültativ Protokol qəbul olundu və s. [1].

Həmin fundamental sənədlər "İnsan hüquqları haqqında Beynəlxalq Bill" adlanaraq, bu sahədə beynəlxalq standartların əsasını təşkil etdi. İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasında (1950-ci il), Avropa Mədəniyyət Konvensiyasında (1954-cü il), Terrorizmin qarşısının alınması haqqında Konvensiyada (1977-ci il), Milli azlıqların müdafiəsi haqqında Çərçivə Konvensiyasında (1995-ci il), Avropa Sosial Xartiyasında (1996-cı il), 1975-ci il Helsinki Yekun Aktında, 1990-cı

il Yeni Avropa üçün Paris Xartiyasında və digər beynəlxalq sənədlərdə insan hüquq və azadlıqlarının müdafiə mexanizmləri inkişaf etdirilərək daha da təkmilləşdirilmişdir [7; 8].

İnsan hüquqlarının müdafiəsi və təmin olunması həmçinin milli (dövlətdaxili) səviyyədə həyata keçirilir. Bu məqsədlə, hər bir ayrıca götürülmüş dövlətdə olduğu kimi, Azərbaycan Respublikasında da zəruri kompleks normativ hüquqi baza yaradılmış və səmərəli fəaliyyət göstərir. Bu sırada Azərbaycan Respublikasının Konstitusiyası əsas və aparıcı yer tutur. Bununla yanaşı, aşağıdakı aktların da mühüm rol oynamasını, xüsusilə, vurğulamalıyıq.

Bu kontekstdə qeyd etməliyik ki, Azərbaycan Respublikasının Prezidenti Ümummilli Lider Heydər Əliyev tərəfindən 18.06.1998-ci il tarixli Sərəncam ilə təsdiq edilmiş "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" insan hüquqlarının təminatı ilə bağlı yeni mexanizmlərin hazırlanması istiqamətində fundamental bir sənəd olmaqla aşağdakı məsələlərin: qanunvericilik və institusional islahatların aparılmasını, demokratik ədalət mühakiməsi prinsiplərinə əsaslanan yeni məhkəmə sisteminin, konstitusiya nəzarətinin, insan hüquqları üzrə müvəkkil təsisatının yaradılmasını, hüquq mühafizə fəaliyyətinin təkmilləşdirilməsini, qeyri-hökumət təşkilatlarının, kütləvi informasiya vasitələrinin fəaliyyətinin genişlənməsini və digər məsələlərin həllini qarşıya məqsəd olaraq qoymuşdu. İnsan hüquqlarının təmin olunması işinin dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edildiyi nəzərə alınaraq, Dövlət Proqramının qəbul olunduğu gün – iyunun 18-i ölkə başçısının 2007-ci il tarixli Sərəncamına əsasən, Azərbaycanda insan hüquqları günü elan edilmişdir [11] .

Поскольку заключение любого Мирного договора остаётся основной международно-правовой формой прекращения состояния войны, он должен содержать такие принципиальные положения, как прекращение состояния войны, восстановление мирных, даже дружественных взаимоотношений, мирные связи, что неоднократно подчеркивалось в высказываниях и идеях нашего Общенационального лидера Гейдара Алиева, посвятившего свою славную и содержательную жизнь развитию Республики Азербайджан, и с именем которого связан беспрецедентный вклад в фундамент Победы Азербайджана в Карабахской войне, главное из которых освобождение собственных земель и обеспечение их территориальной целостности.

## СПИСОК ИСПОЛЬЗОВАННОЙ НАУЧНОЙ ЛИТЕРАТУРЫ


1. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. 1 – 46 kitab. Bakı: Azərnəşr, 1997-2013.
2. Heydər Əliyev: müstəqil Azərbaycan dövlətinin banisi. Məcmuələr toplusu / Müəllif-tərtibçilər: Əliyeva A.E., Hüseynova F.E. Bakı, SkyE nəşriyyat-poliqrafiya müəssisəsi, 2021, 558 s.
3. İlham Əliyev. İnkişaf - məqsədimizdir. 1 – 125 kitab. Bakı: Azərnəşr, 2003-2023.
4. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: «PG» nəşriyyatı, 2014, 52 s.
5. Beynəlxalq (publik) hüquq kursu. Dərslik / E.Ə.Əliyevin ümumi redaktəsi ilə. Bakı: «Günəş-B» nəşriyyat-poliqrafiya müəssisəsi, 2018,II cild, xüsusi hissə,704 s.
6. Əliyev Ə.İ. İnsan hüquqları. Dərslik. Yenidən işlənmiş və əlavələr edilmiş ikinci nəşr. Bakı: «Nurlar» nəşriyyatı, 2019, 352 s.
7. Əliyev Z.H. Avropa İnsan Hüquqları Məhkəməsi. Dərs vəsaiti. Bakı,”AZSEA” nəşriyyatı, 2012, 232 s.
8. Əsgərov Z.A. Konstitusiya hüququ. Dərslik. Bakı: Bakı Universiteti nəşriyyatı, 2006, 698 s.
9. Из выступления Президента Азербайджана И. Алиева http://www.anl.az/down/meqale/bakrabochiy/2018/aprel/

## AZƏRBAYCANIN DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİ İLƏ BAĞLI VƏTƏN MÜHARİBƏSİNDƏ QƏLƏBƏNİN ƏLDƏ EDİLMƏSİNDƏ HEYDƏR ƏLİYEVİN XİDMƏTLƏRİ

**O.F. Əfəndiyev,**
**hüquq elmləri doktoru, professor.**
e-mail: oktay001@rambler.ru

Məqalədə Azərbaycanın Dağlıq Qarabağ silahlı münaqişəsi ilə bağlı Vətən Müharibəsində Qələbənin əldə edilməsində Heydər Əliyevin xidmətləri barədə məsələlərə toxunulur. Kollektiv təhlükəsizlik problemləri, Cənubi Qafqaz regionu ölkələri ilə qarşılıqlı faydalı və bərabərhüquqlu əməkdaşlıq və tərəfdaşlıq imkanları nəzərə alınmaqla dövlətimizin xarici əlaqələrinin perspektivlərinə xüsusi diqqət yetirilir.

**Açar sözlər:** müasir beynəlxalq hüquq, Dağlıq Qarabağ silahlı münaqişəsi , Vətən müharibəsi, Azərbaycanın qələbəsi, Heydər Əliyevin xidmətləri, regional təhlükəsizlik, xarici əlaqələr.

## HEYDAR ALIYEV'S CONTRIBUTION TO THE ACHIEVEMENT OF AZERBAIJAN'S VICTORY IN THE PATRIOTIC WAR IN THE NAGORNO-KARABAKH CONFLICT

**O.F. Efendiev,**
**Doctor of Law, Professor.**
e-mail: oktay001@rambler.ru

The article touches upon the issues of Heydar Aliyev's services in achieving Victory in the Patriotic War related to the Nagorno-Karabakh armed conflict of Azerbaijan. Particular emphasis is placed on the prospects for foreign relations of our state, taking into account the problems of collective security, the possibilities of mutually beneficial and equal cooperation and partnership with the countries of the South Caucasus region.

**Key words:** modern international law, Nagorno-Karabakh armed conflict, Patriotic war, victory of Azerbaijan, services of Heydar Aliyev, regional security, foreign relations.

## AZERBAYCAN'IN DAĞLIK KARABAĞ İHTİLAFINDA VATANSEVERLİK SAVAŞI'NDA ZAFER KAZANMASINA HAYDAR ALİYEV'İN KATKISI

**O.F. Efendiev,**
**Hukuk Doktoru, Profesör.**
e-posta posta: oktay001@rambler.ru

Makale, Azerbaycan'ın Dağlık Karabağ silahlı ihtilafı ile ilgili Vatanseverlik Savaşı'nın Zafere ulaşmasında Haydar Aliyev'in hizmetlerine değinmektedir. Kolektif güvenlik sorunları, Güney Kafkasya bölgesi ülkeleriyle karşılıklı yarar sağlayan ve eşit işbirliği ve ortaklık olanakları dikkate alınarak devletimizin dış ilişkilerine yönelik beklentilere özel önem verilmektedir.

**Anahtar Kelimeler:** modern uluslararası hukuk, Dağlık Karabağ silahlı çatışması, Vatanseverlik savaşı, Azerbaycan'ın zaferi, Haydar Aliyev'in hizmetleri, bölgesel güvenlik, dış ilişkiler.

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN İQTİSADİYYATI

**Elnur Tahir oğlu Ələkbərov,**
**iqtisadçı-hüquqşünas.**
e-mail:elnuralakbarov4@gmail.com

*Məqalədə müəllif tərəfindən Ümummilli Lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə ölkənin sosial-iqtisadi inkişaf strategiyasına, eləcə də perspektiv inkişaf istiqamətlərinə dair məsələ nəzərdən keçirilir. Eyni zamanda, müstəqil Azərbaycan dövlətinin gələcək iqtisadi inkişaf konsepsiyasını müəyyənləşdirən ulu öndər Heydər Əliyevin ideyalarının aktuallığı və elmi-praktik əhəmiyyəti öyrənilərək təhlil edilir. Bu kontekstdə xalqın sevimlisi, müdrik və tarixi şəxsiyyət ulu öndər Heydər Əliyevin idarəçilik fəaliyyətinin, fraqmentar şəkildə olsa da, tədqiq olunmasına təşəbbüs göstərilir.*

**Açar sözlər:** Azərbaycan, Heydər Əliyev, Ümummilli Lider, ulu öndər, sosial- iqtisadi inkişaf, İpək yolu, beynəlxalq münasibətlər.

Müasir dövrdə dünyada baş verən demokratik inteqrasiya proseslərinin və milli inkişafın mühüm şərti kimi dəyərləndirilən fenomen – iqtisadiyyat sahəsinin inkişaf etdirilməsi, iqtisadi hüquqların müdafiəsi və təminatı hər bir dövlətin ali məqsədinə çevrilmişdir. Heç də sirr deyil ki, milli münasibətlər sisteminin mühüm komponenti olan iqtisadiyyat bu və ya digər ölkənin təsərrüfat həyatı üçün prioritet əhəmiyyət kəsb edən aparıcı sahələrdən biridir və dövlətin intensiv inkişaf infrastrukturunda vacib yer tutur

Qeyd etmək lazımdır ki, ölkənin kompleks şəkildə tərəqqisi üçün iqtisadiyyat sahəsinin inkişafı mühüm və önəmli faktorlardan biridir. Belə ki, XX əsrin sonlarında bütün postsovet ölkələri kimi Azərbaycan Respublikası da öz tarixi dövlət müstəqilliyini bərpa etdikdən sonra yeni quruculuq və modernləşmə dövrünə qədəm qoymuşdur. Beynəlxalq aləmdə baş verən qloballaşma prosesləri hərtərəfli əməkdaşlıq üçün nəhəng imkanlar açmaqla yanaşı, dövlətlərin birgə fəaliyyətlərinin iqtisadi kontekstdə uzlaşdırılmasını da zərurətə çevirmişdir. Lakin, xüsusilə, qeyd etməliyik ki, bu dönəmdə Azərbaycan ona qonşu olan və özlərini tarixi düşmən elan edən Ermənistan və onun havadarları tərəfindən təcavüzə məruz qalmışdır. Eyni zamanda, ölkədə xaos, hərc-mərclik hökm sürürdü, dövlət müstəqilliyi və iqtisadi durum təhlükə altına düşmüşdü.

O zamanlar yaranmış belə bir mürəkkəb şəraitdə ölkəyə yüksək siyasi bacarığı olan, dövlət idarəçiliyini yaxşı bilən, onu beynəlxalq arenada təmsil edə biləcək bir rəhbərə – siyasi lider Heydər Əliyevə ehtiyacı var idi. Azərbaycan xalqının təkidli tələbi ilə siyasi hakimiyyətə gətirilən ulu öndər Heydər Əliyev bu ağır yükü öz üzərinə götürməyə razılıq verdi. Vətənini və xalqını dərin məhəbbətlə sevən dahi lider tərəfindən yaranmış çətinliklərə baxmayaraq, bütün sahələrdə yenidənqurma işlərinə start verildi.

Belə ki, Azərbaycan Respublikası öz tarixi dövlət müstəqilliyini bərpa etdikdən sonra Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə dünya birliyinin tamhüquqlu üzvünə çevrilmiş, əsas qanun olan Konstitusiya referendum yolu ilə qəbul edilmiş (1995-ci il), beynəlxalq iqtisadi əlaqələr sferası genişlənmiş, hüquqi dövlət quruculuğu istiqamətində silsilə qanunvericilik aktları qəbul edilərək, insanların azad, təhlükəsiz və fiziki cəhətdən sağlam mühitdə yaşaması və işləməsi, eləcə də iqtisadi sektorunun inkişafı istiqamətində bir çox əhəmiyyətli tədbirlər həyata keçirilmişdir.

Xüsusilə, qeyd etməliyik ki, layihəsi ulu öndər Heydər Əliyevin rəhbərliyi altında hazırlanmış və ümumxalq səsverməsi ilə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyasında müxtəlif mülkiyyət formalarının tanınması (maddə 13), iqtisadi inkişaf və dövlət (maddə 15), insan hüquq və azadlıqlarının müdafiəsi (maddə 26), yaşamaq hüququ (maddə 27), əqli mülkiyyət hüququnun mühafizəsi (maddə 30), sosial təminat hüququ (maddə 38), sağlamlığın qorunması hüququ (maddə 41), vətəndaşlıq hüququnun təminatı (maddə 53), müraciət etmək hüququ (maddə 57), azad sahibkarlıq hüququ (maddə 59), hüquq və azadlıqların məhkəmə təminatı (maddə 60), hüquqi yardım almaq hüququ (maddə 61), insan və vətəndaş hüquqlarının və azadlıqlarının təminatı (maddə 71) və s. barədə çoxsaylı müvafiq normalar təsbit olunmuşdur. Bu o deməkdir ki, hər kəsin konstitusion hüquqları vardır və belə hüquqlar qanunla qorunur və onlara təminat verilir.

Azərbaycan xalqı bəşəri ictimai-siyasi formasiyanın III minilliyinə məhz Heydər Əliyev fenomeninin zəka işığında qədəm qoymuşdur. Dinamik iqtisadi inkişaf yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir. Danılmaz həqiqətdir ki, müstəqil Azərbaycanın yeni dövr tarixi Ümummilli Lider, ulu öndər, fenomen şəxsiyyət, dahi siyasətçi, xalqımızın böyük oğlu Heydər Əliyevin adı ilə dialektik əlaqədə olmaqla sıx surətdə bağlıdır.

Belə ki, siyasi müdriklik, dövlət idarəçiliyində yüksək səriştə, milli maraqların, xüsusilə də ölkədə iqtisadi inkişafın hər şeydən üstün tutularaq təmin olunması Ümummilli Liderin həyat fəlsəfəsinin ana xəttini təşkil edir. Azərbaycanın milli dövlətçiliyinin xilaskarı ulu öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilən siyasi-iqtisadi inkişaf kursu, eləcə də yetişməkdə olan gənc nəsil üçün əmanət buraxdığı ideyalar həmişə aktualdır, böyük salnamədir və xalqımızın milli sərvətidir. Azərbaycançılıq məfkurəsinin və iqtisadi inkişafın milli təminat mexanizmlərinin yaradılmasının təməli məhz Heydər Əliyev tərəfindən qoymuşdur.

Azərbaycana ikinci dəfə yenidən rəhbərlik edən ulu öndər Heydər Əliyev ölkə tarixində həm güclü və müdrik siyasətçi kimi, həm də iqtisadi-hüquqi islahatçı kimi yaranmış vəziyyəti düzgün qiymətləndirməklə, Azərbaycanın gələcək iqtisadi inkişaf strategiyasını formalaşdırmışdır.

Müstəqilliyin başlanğıc dövrünün ilk günlərindən ölkənin güclənməsi üçün onun iqtisadi inkişafının daha vacib olduğunu yaxşı bilən ulu öndər Azərbaycanın inkişaf etmiş Avropa ölkələri ilə iqtisadi əlaqələrinin qurulmasını, Azərbaycanın şərqlə-qərb arasında mərkəzi rol almasını əsas hədəf olaraq

müəyyən etmişdir. Məhz Heydər Əliyevin apardığı siyasət nəticəsində 1994-cü il sentyabrın 20-də müstəqil Azərbaycanın tarixinə qızıl hərflərlə yazılan tarixi hadisə baş verdi. Belə ki, "Azəri-Çıraq-Günəşli" dəniz neft-qaz yataqları blokunun kəşfiyyatı və işlənməsi üzrə "Əsrin müqaviləsi" imzalandı. Bu müqavilə yenicə müstəqillik qazanmış Azərbaycan Respublikasının güclü iqtisadi potensialının formalaşdırılmasında müstəsna rol oynadı. Ümummilli Lider Heydər Əliyevin qeyd etdiyi kimi, 1994-cü ildən Azərbaycan dövləti özünün yeni neft strategiyasını həyata keçirir və bu strategiyanın da əsas mənası, əsas prinsipləri Azərbaycanın zəngin təbii sərvətlərindən, o cümlədən neft və qaz sərvətlərindən Azərbaycan xalqının rifahı naminə daha da səmərəli istifadə etməkdən ibarətdir.

Qeyd edək ki, nəhəng iqtisadi-ticarət layihəsi olan "Əsrin müqaviləsi"nin həyata keçirilməsi, sözün əsl mənasında, Azərbaycanın daxili enerji təhlükəsizliyini təmin etməklə bərabər, regionun və Avropanın enerji təhlükəsizliyinin də təmin edilməsinə böyük töhfə vermiş oldu. Əldə edilən gəlirlər Azərbaycanın digər sahələrinin inkişafına geniş stimul yaratdı. Bundan əlavə, son illərdə dünya iqtisadiyyatında baş verən iqtisadi böhran, bəzi ölkələrdə yaşanan ciddi iqtisadi çətinliklər, meydana çıxan çoxsaylı problemlər fonunda da Azərbaycan iqtisadiyyatı yüksək dayanıqlıq imkanına malik olduğunu bir daha sübut etdi. Bu isə, öz növbəsində, zamanında dahi şəxsiyyət Heydər Əliyev tərəfindən həyata keçirilən siyasətin alternativsiz olduğunu göstərir.

Onu da qeyd edək ki, Azərbaycana rəhbərliyinin hələ birinci dövründə, yəni 1969-1982-ci illərdə böyük siyasətçi Heydər Əliyev respublika iqtisadiyyatının dirçəlməsi və sürətli inkişafı baxımından da xeyli işlər görmüşdür. Dövlət Statistika Komitəsinin məlumatlarına görə, ümumi daxili məhsul 1970-ci illə müqayisədə 8392 milyon manatdan 2.3 dəfə artaraq 1980-ci ildə 19120 milyon manata çatmışdır. Azərbaycanın qeyri-neft sektoru olan aqrar sahədə müqayisə olunan illər üzrə ümumi daxili məhsul 1176.2 milyon manatdan 2 dəfə artaraq 2412.8 milyon manata, 1982-ci ildə isə 2626.1 milyon manata çatmışdır. O dövrdə respublikanın regionlarında sosial infrastruktur inkişaf etmiş, qazlaşdırılmış mənzillərin sayı 33 mindən 446.2 minə çatmışdır. Göstərilən dövrlərdə inkişaf səviyyəsinə görə Azərbaycan keçmiş SSRİ tərkibində olan dövlətlər arasında axırıncı yerdən ön cərgələrə keçməklə, sosial-iqtisadi inkişaf səviyyəsinə görə xeyli fərqlənmişdir.

Müstəqil ölkəmizin yenidən dirçəlməsini və onun daha da möhkəmlənməsinin ən vacib və zəruri istiqamətlərini Azərbaycan dövlətinin memarı Heydər Əliyev qısa bir zaman üçün deyil, perspektivli və davamlı bir inkişaf kimi müəyyən etmişdir. Təqdirəlayiq haldır ki, Azərbaycan xalqının təkidi ilə yenidən ölkəyə rəhbər seçilən ulu öndərin rəhbərliyinin ilk dövrü ilə üst-üstə düşən və Avropa İttifaqının 1993-cü ildə qəbul etdiyi TRASEKA (Trans-Europe-Caucasus-Asia) proqramı diqqət çəkmişdir. Azərbaycanın bu proqramdan bəhrələnməsinin mühüm iqtisadi əhəmiyyətini nəzərə alan H. Əliyev Tarixi İpək yolunun yenidən bərpası və inkişaf etdirilməsi istiqamətində Mərkəzi Asiya dövlətləri ilə Qərb dövlətləri arasında iqtisadi mərkəzə çevrilməsi üçün

mühüm qərarların qəbul edilməsinə nail olmuşdur. Həmçinin "Bakı-Tbilisi-Ceyhan" Əsas İxrac Neft Boru Kəməri və "Bakı-Tbilisi-Ərzurum" Qaz İxrac Kəməri layihələri şəxsən Ümummilli Lider Heydər Əliyevə məxsusdur. Məhz bu addımlar Azərbaycan karbo-hidrat ehtiyatlarının xarici bazarlara rahat çıxışını, həm də Şərqlə - Qərb arasında ticarət əlaqələrinin mərkəzi rol oynamasını təmin etmişdir. Digər tərəfdən, bu siyasət Qarabağın işğaldan azad edilməsinə və xarici düşmənlərdən, Azərbaycanın inkişafını istəməyən ölkələrin təzyiqlərindən qorunmasına şərait yaratdı. H.Əliyev zamanında 1998-ci ildə "Tarixi İpək yolunun bərpasına həsr edilmiş Beynəlxalq Konfrans"da böyük İpək yolunun region dövlətlərinin bütün sahələr üzrə inkişaf edəcəyini söyləmişdir. Göründüyü kimi, 25 il bundan qabaq deyilən bu fikirlər özünü getdikcə daha da doğrultmaqdadır. Zamanında verilən mühüm qərarlar, Azərbaycanın həm iqtisadi inkişafında, həm də siyasi cəhətdən güclənməsində mühüm rol oynayır. Ulu öndərin atdığı bu mühüm addım, Türk millətlərinin gələcək inkişafı üçün mühüm bir siyasi gediş olmaqla, böyük İpək yolunda iştirakçı olan xalqların bir-birinə daha da yaxınlaşmasında, onların qarşılıqlı şəkildə inteqrasiyasında, xalqlar və ölkələr arasında etimadın möhkəmləndirilməsində mühüm rol oynayan Böyük İpək Yolunun bərpası ideyasını yenidən canlandırdı. Bundan başqa, Şərqin ən güclü dövləti olan Çinlə Azərbaycan arasında iqtisadi əlaqələrin qurulmasının əhəmiyyətini nəzərə alan H. Əliyev 1994-cü ildə diplomatik münasibətlərin qurulması kimi mühüm siyasi addımlarla iki ölkə arasında ticarət-iqtisadi əlaqələrin inkişafına böyük töhfə verdi. Azərbaycan prezidentlərinin – 1994-cü ildə H.Əliyevin və 2014 və 2015-ci illərdə isə İ.Əliyevin Çinə səfərləri "Dostluq münasibətlərinin və əməkdaşlığın daha da inkişaf etdirilməsi və dərinləşdirilməsi haqqında iki ölkənin Birgə Bəyannaməsi", "İpək Yolu İqtisadi Kəmərinin birgə təşviqinə dair Anlaşma Memorandumu" və "İqtisadi sahədə əməkdaşlıq haqqında Saziş"in imzalanmasına səbəb oldu. Azərbaycanla Çin arasında iqtisadi əməkdaşlıq bu gün də daha səmərəli formatda genişlənməkdə davam edir. Bu, Azərbaycan iqtisadiyyatının inkişafında mühüm rol oynayan amillərdən biri sayılır.

Dünya ölkələrinin fəaliyyətini qiymətləndirmək üçün beynəlxalq səviyyəli tarixçi və nəzəriyyəçi alimlər ayrı-ayrı liderlərin xarici siyasətdəki rolunu uzun müddət müzakirə etmişlər. Bu məsələyə baxış bucağından asılı olmayaraq, onlar Azərbaycan dövlətçiliyinin daha da inkişaf etməsində Heydər Əliyevin şəxsi rolunu, Azərbaycanın həm daxili, həm də beynəlxalq kimliyinin inkişafında həlledici rol oynadığını, onun uzaqgörənliyini, apardığı siyasətin daha uzun müddətə hesablandığını indi də etiraf edirlər.

Azərbaycan dövlətinin iqtisadi inkişafında həlledici rol oynayan "Əsrin müqaviləsi" ilə bərabər ölkənin dünya iqtisadiyyatına inteqrasiyası mühüm əhəmiyyət kəsb edirdi. Məhz bu baxımdan, ölkə iqtisadiyyatında köklü iqtisadi islahatların aparılması tələb olunurdu. Dövlət əmlakının özəlləşdirilərək əhalinin xüsusi mülkiyyətinə verilməsi özəl sahibkarlıq sektorunun inkişaf etdirilməsi H. Əliyevin rəhbərliyi ilə həyata keçirildi.

Aqrar sahədə aparılan islahatlar kənd təsərrüfatında baş verən geriliyi aradan qaldırmağa, təsərrüfat subyektlərinin istehsal etdiyi məhsulun sərbəst sahibi olmaqlarına şərait yaratmaqla qəbul edilən qanunlar çərçivəsində fəaliyyətləri formalaşaraq tənzimlənir.

Müstəqil Azərbaycanın formalaşan dövlət büdcəsindən səmərəli istifadə etmək məqsədi ilə, "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının 2 iyul 2002-ci il tarixli 358-IIQ nömrəli yeni Qanunu qəbul olundu. Bu qanun, mahiyyət etibarilə, Azərbaycan Respublikasında büdcə sisteminin təşkilinin, büdcələrin tərtibi, təsdiqi, icrası və onların icrasına nəzarətin təşkilati, hüquqi və iqtisadi əsaslarını, habelə dövlət büdcəsi ilə büdcədənkənar dövlət fondlarının, yerli büdcələrin qarşılıqlı əlaqələrinin əsas prinsiplərini müəyyən edir.

Təqdirəlayiq haldır ki, müdrik ulu öndərin elmi əsaslara söykənən ictimai-siyasi, sosial-iqtisadi və insan hüquqlarının effektiv şəkildə təmin edilməsi kursunu dövrün tələblərinə uyğun yeni proqmatik çalarlarla zənginləşdirərək uğurla və düşünülmüş addımlarla davam etdirən, eləcə də "Heydər Əliyevin xatirəsinə ən böyük hörmətimiz onun yoluna sədaqətimizdir" deyən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən bu sahəyə daim xüsusi diqqət yetirilir. Qeyd etməliyik ki, iqtisadi islahatların həyata keçirilməsi və təmin edilməsi işi hər bir dövlətin müstəqilliyinin əsas atributlarından biridir. Bu amil suveren və müstəqil Azərbaycanda müşahidə olunan dinamik sosial-iqtisadi inkişaf və beynəlxalq təsisatlar sisteminə münbit inteqrasiya prosesləri şəraitində mövcud mexanizmlərin daha da təkmilləşdirilməsini, müvafiq hüquqi bazanın daim modernləşdirilməsini və bu işin beynəlxalq standartlara tam uyğun aparılmasını təmin edir. İqtisadi hüququn əsas prinsip və normalarının aliliyi, qlobal ictimai-siyasi dəyişikliklərin təkamül xarakteri, qarşılıqlı etimad və ümumbəşəri dəyərlərə sədaqət, xalqımızın milli mentalitet aspektləri iqtisadi islahatların təminolunma mexanizminin prioritet və müəyyənedici istiqamətləri kimi nəzərə alınmışdır.

Belə bir məqamı da, xüsusilə, qeyd etməliyik ki, həyata keçirilən iqtisadi-hüquqi islahatların qayəsini, ilk növbədə, insan hüquqlarının etibarlı təminat, vətəndaşlara qayğılı münasibət, onlara yüksək keyfiyyətli xidmətlərin göstərilməsi təşkil edir; bu da, təbiidir, çünki "Dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır" – deyən ölkə Prezidenti mütəmadi olaraq ictimayyətlə görüşərək, vətəndaşların qayğıları ilə maraqlanır, onların müraciətlərinə həssaslıqla yanaşılmasını daim diqqət mərkəzində saxlayır, humanizm siyasətini uğurla davam etdirir. Göründüyü kimi, iqtisadi hüquq və azadlıqlarının təminatı vəzifəsi Azərbaycan dövlətinin yeritdiyi siyasətin prioritet istiqamətlərindən biridir və onun daim təkmilləşməsi istiqamətində zəruri işlərin aparılması uğurla davam etdirilir.

Dövlət başçısının 2023-cü ilin ölkəmizdə "Heydər Əliyev ili" elan edilməsi haqqında 29 sentyabr 2022-ci il tarixli Sərəncamında təsbit olunduğu kimi, "Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir".

Bu məqalə Ümummilli Liderin həyat fəaliyyəti ilə bağlı fraqmentar xarakter daşısa da, müasir dövrdə Azərbaycan cəmiyyətində Heydərizm təliminin yaranmasına, əhalinin bu istiqamətdə maariflənməsinə bariz nümunə ola bilər. Sevindirici haldır ki, 2023-cü il Heydər Əliyev irsinə alternativi olmayan, dərin və parlaq ehtiramın təzahürü kimi cəmiyyətə yüksək ideyaların çatdırılmasında hədsiz dərəcədə əhəmiyyətlidir. Hesab edirik ki, Azərbaycan xalqının gələcək inkişafı naminə Heydərizm təlimi gənc nəsil tərəfindən dərindən öyrəniləcək, habelə bu kontekstdə daha geniş məzmunlu elmi-tədqiqat araşdırmaları aparılacaqdır.

**İSTİFADƏ EDİLMİŞ MƏNBƏLƏR**

1. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. 1 – 46 kitab. Bakı: Azərnəşr, 1997-2013.
2. Heydər Əliyev: müstəqil Azərbaycan dövlətinin banisi. Məcmuələr toplusu /Müəllif-tərtibçilər: Əliyeva A.E., Hüseynova F.E. Bakı, SkyE nəşriyyat-poliqrafiya müəssisəsi, 2021,558 s.
3. İlham Əliyev. İnkişaf – məqsədimizdir. 1 – 125 kitab. Bakı: Azərnəşr, 2003-2023.
4. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: «PG» nəşriyyatı, 2014, 52 s.
5. "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının 2 iyul 2002-ci il tarixli 358-IIQ nömrəli Qanunu.
6. Əliyev E.Ə. Azərbaycan Respublikasının nəqliyyat hüququ. Dərslik. Yenidən işlənmiş və əlavələr edilmiş 3-cü nəşr. Bakı: «Uni-Print» nəşriyyatı, 2011, 676 s.
7. Əliyev E.Ə., Hüseynova F.E., Qəmbərov H.D. İqtisadi hüquq. Dərslik. Bakı: «Günəş-B» nəşriyyat-poliqrafiya müəssisəsi, 2019, 624 s.
8. Əsgərov Z.A. Konstitusiya hüququ. Dərslik. Bakı: Bakı Universiteti nəşriyyatı, 2006, 698 s.
9. Народное хозяйство Азербайджанской ССР в 1975 году. Статистический ежегодник. Баку-1976.
10. Народное хозяйство Азербайджанской ССР за 60 лет. Юбилейный статистический сборник. Баку-1980.
11. Юридическая энциклопедия. Издание 5-е, дополненное и переработанное / Под ред. М.Ю.Тихомирова. М.: Юринформцентр, 2005, 972 с.
12. http://www.anl.az/down/meqale/azerbaycan/azerbaycan_dekabr2008/63696.
13. https://www.advantour.com/rus/silkroad/azerbaijan.htm
14. https://unec.edu.az/application/uploads/2019/10/Adina-Adili.pdf

# ОБЩЕНАЦИОНАЛЬНЫЙ ЛИДЕР ГЕЙДАР АЛИЕВ И ЭКОНОМИКА АЗЕРБАЙДЖАНА

**Эльнур Тахир оглы Алекперов,**
**экономист-юрист.**
э-почта: elnuralakbarov4@gmail.com

В статье автор рассматривает вопрос о стратегии социально-экономического развития страны, а также перспективных направлениях развития в период, когда Азербайджаном руководил общенациональный лидер Гейдар Алиев. В то же время изучается и анализируется актуальность и научно-практическая значимость идей великого лидера Гейдара Алиева, определивших будущую концепцию эко-

номического развития независимого Азербайджанского государства. В этом контексте предпринимается попытка хотя и фрагментарно изучить управленческую деятельность любимого, мудрого и исторического деятеля народа Гейдара Алиева.

**Ключевые слова:** Азербайджан, Гейдар Алиев, общенациональный лидер, великий лидер, социально-экономическое развитие, Шелковый путь, международные отношения.

## NATIONAL LEADER HAYDER ALIYEV AND AZERBAIJAN ECONOMY

**Elnur Tahir oglu Alekbarov,**
**economist-lawyer.**
e-mail: elnuralakbarov4@gmail.com

In the article, the author considers the issue of the socio-economic development strategy of the country, as well as prospective development directions, during the period when the national leader Heydar Aliyev led Azerbaijan. At the same time, the relevance and scientific-practical importance of the ideas of the great leader Heydar Aliyev, who determined the future economic development concept of the independent Azerbaijan state, are studied and analyzed. In this context, an attempt is made to study the administrative activities of Heydar Aliyev, the beloved, wise and historical personality of the people, albeit in a fragmentary way.

**Key words:** Azerbaijan, Heydar Aliyev, national leader, great leader, socio-economic development, Silk Road, international relations.

## ULUSAL LİDER HAYDAR ALİYEV VE AZERBAYCAN EKONOMİSİ

**Elnur Tahir oğlu Alekbarov,**
**ekonomist-avukat.**
e-posta: elnuralakbarov4@gmail.com

Makalede yazar, ulusal lider Haydar Aliyev'in Azerbaycan'ı yönettiği dönemde ülkenin sosyo-ekonomik kalkınma stratejisi ve ileriye dönük kalkınma yönleri konusunu ele alıyor. Aynı zamanda bağımsız Azerbaycan devletinin gelecekteki ekonomik kalkınma konseptini belirleyen büyük lider Haydar Aliyev'in fikirlerinin alaka düzeyi ve bilimsel-pratik önemi incelenmekte ve analiz edilmektedir. Bu bağlamda halkın sevdiği, bilge ve tarihî şahsiyeti Haydar Aliyev'in idari faaliyetleri parça parça da olsa incelenmeye çalışılmıştır.

**Anahtar Kelimeler:** Azerbaycan, Haydar Aliyev, milli lider, ulu lider, sosyo-ekonomik kalkınma, İpek Yolu, uluslararası ilişkiler.

*UDC 341.1/8*

# BEYNƏLXALQ SANİTARİYA VƏ TİBB SAHƏSİNDƏ DÖVLƏTLƏRARASI ƏMƏKDAŞLIĞIN FORMA VƏ İSTİQAMƏTLƏRİ

*Məqalədə beynəlxalq sanitariya və tibb sahəsində dövlətlərarası əməkdaşlığın forma və istiqamətləri tədqiq olunur və qeyd edilir ki, digər sahələrə nisbətdə daha yüksək qarşılıqlı asılılığın olması səbəbindən koordinasiya və sinxronlaşdırma tələbinə riayətetmə öhdəliyi və qlobal sağlamlıq maraqlarının üstün transsərhəd xüsusiyyətinə uyğun olaraq, qarşılıqlı hüquq və vəzifələrin, məsuliyyətin mövcudluğu əməkdaşlıq üçün xarakterik hal kimi qeyd edilə bilər. Həmçinin dövlətlərarası əməkdaşlıq ilk əvvəllər beynəlxalq sanitariya konvensiyaları ilə ticarət dövriyyəsinə xidmət etsə də, sonradan tibb-sağlamlıq məzmununa keçmiş, minimum sağlamlıq standartları kimi tibbi yardım və zəruri əczaçılıq vasitələrinin müəyyən edilməsi və onlara fiziki çıxışın təmini, spesifik proqramların qəbulu ilə kütləvi formada yayılmış infeksion xəstəliklərlə mübarizə, üzv-dövlətlərin milli səhiyyə sistemində ilkin tibbi-sanitariya yardım mexanizminin qurulması, sənayedə zərərli vasitələrin istifadəsinin qadağan edilməsi və sanitariya qaydalarının təsisi və s. istiqamətlərdə təzahür edir.*

**İsmayılova Pərvinə Fəzail qızı,**
**Bakı Dövlət Universiteti Hüquq fakültəsi "İnsan hüquqları və informasiya hüququ" kafedrasının müəllimi, hüquq üzrə fəlsəfə doktoru.**
e-mail: parvina444@gmail.com

**Açar sözlər:** beynəlxalq sanitariya, tibb və sağlamlıq hüququ, infeksion xəstəliklərə nəzarət, beynəlxalq sanitariya hüququ, epidemioloji xəstəliklərlə mübarizə, İctimai Gigiyenanın Beynəlxalq Bürosu, dövlətlərarası əməkdaşlıq, beynəlxalq sanitariya konfransları,Ümumdünya Səhiyyə Təşkilatı, Beynəlxalq Sanitariya Konvensiyası, Beynəlxalq Sanitariya Qaydaları, Beynəlxalq Tibbi-sanitar Qaydaları.

İnsanların sosial-iqtisadi inkişaf tələbatı artdıqca ayrı-ayrı dövlətlərdə yeni xidmət sahələri də təzahür etməkdədir. Belə sahələrdən biri də sanitariya və tibbi xidmət sferasıdır. Keçən əsrin 50-60-cı illərindən başlayaraq tibb münasibətlərinin hüquqi tənzimlənməsi üzrə qanunvericilik sistemi, təşkilati mexanizmlər də formalaşdırılmaga başlanılmışdır. Xüsusən də, sağlamlıq və tibbi yardım fəaliyyəti üzrə normativ hüquqi aktların qəbulu ilə yeni bir sfera üzrə hüquq da meydana gəlmişdir.

Keçən əsrin ortalarından insan hüquqları kimi meydana gəlsə də, sağlamlıq məsələləri üzrə tənzimetmə, epidemiyalarla mübarizə daha erkən tarixə malikdir. Ayrı-ayrı dövlətlərin əhalinin təhlükəsizliyini təmin etmək üçün epidemioloji mübarizəsi yeni bir dövlətlərarası əməkdaşlıq zərurətini meydana gətirmişdir [31,s.367]. Beynəlxalq əməkdaşlığın öyrənilməsi ilə tibb hüququnun konsepsiyasını da müəyyən etmək olar. Tibb sahəsində beynəlxalq əməkdaşlıq bilavasitə epidemiyalara qarşı mübarizə institutu kimi başladığı üçün sahə də beynəlxalq sanitariya hüququ kimi dəyərləndirilmişdir.

İnfeksion xəstəliklərə nəzarətin karantin forması üzrə ilk tibbi reqlamentlər (Yüstinianın 532-ci ildə qəbul etdiyi əmri ilə) [13, s.21] ilkin olaraq orta əsrlərə təsadüf edib və epidemioloji təhlükəli ərazilərdən gələn

şəxslərin hərəkət sərbəstliyini məhdudlaşdırmaq məqsədi güdürdü. Beynəlxalq ticarət mərkəzləri arasında epidemioloji təhlükəsizliyi təmin etmək üçün "karantin nizamnamələri" qəbul edilirdi.

İnfeksion xəstəliklərə nəzarətin karantin kontekstində həyata keçirilməsi formasında əməkdaşlıq sonrakı hüquqi tənzimlənmənin adlandırılmasına təsir etmişdir [23, s.15] və beynəlxalq sanitariya hüququ meydana gəlmişdir [32]. Ən geniş dövlətlərarası əməkdaşlıq, qeyd etdiyimiz kimi, epidemioloji xəstəliklərlə mübarizə sahəsində, sanitariya sferasında olmuşdur. Sanitariya üzrə beynəlxalq əməkdaşlıq beynəlxalq ticarət əlaqələrinin pozulması ilə bağlı olaraq buxtaların, dənizlərin və gəmi heyətinin təcrid edilməsi ilə təmin edilirdi. XIX əsrin ortalarında dövlətlərin prioriteti – ticarət əlaqələri olduğu üçün [12, s.282] sanitariya problemi də insan hüquqları məzmununda deyil, əsasən, ticarət əlaqələrinin mühafizəsi məzmununda meydana gəlmişdir. Beynəlxalq sanitariya hüququnun ilk institutu kimi, gəmi sertifikatları və sanitariya qaydaları olmuşdur. İctimai münasibətlərin hüquqi tənzimetmə çərçivəsinə salınması ictimai təfəkkürlə, düşüncə tərzi ilə əlaqəlidir.

Beynəlxalq sanitariya sahəsində əməkdaşlıq vəba (cholera) xəstəliyinin geniş vüsət aldığı Avropada baş tutmuşdur. İlk sanitariya konfransı 1851-ci ildə Parisdə çağrılmışdır. Paris konfransı ilk beynəlxalq sənədin – Birinci Beynəlxalq Sanitariya Konvensiyasının qəbulu ilə nəticələndi. Bu konfrans bir neçə istiqamətdə əhəmiyyətli olmuşdur. Problemin qlobal xarakteri diqqət mərkəzinə gətirilməklə, eyni zamanda, xəstəlikləri önləmək üçün unifikasiya edilmiş karantin qaydalarının təsisinə istiqamətlənmişdi. Konvensiyanın əlavəsi kimi, Beynəlxalq sanitariya Məcəlləsi qəbul edilmişdir. Konvensiya hüquqi qüvvəyə minməsə də, növbəti, gələcək hüquqyaratma prosesinə əhəmiyyətli təsir edir və 1938-ci ilə qədər 10-dan çox yeni konfransların çağrılmasını təşviq etmiş olur [28]. 1907-ci ildə qəbul edilən yeni Beynəlxalq Sanitariya Məcəlləsi ilə karantin qaydaları sadələşdirilmiş, Konvensiya iştirakçıları üçün yeni öhdəlik kimi, ərazisində epidemiya xəstəliyinin yarandığı dövlət digərlərini məlumatlandırmalı idi. İştirakçı dövlətlər Məcəllədə nəzərdə tutulduğundan daha sərt rejim müəyyən etməməli, epidemiya mənbəyi olan dövlətə qarşı təcridetmə siyasəti yeritməmək öhdəliyini qəbul edirdilər.

Keçirilən konfranslar 1903-cü ildə sanitariya normalarının yenilənmiş kodifikasiya aktının – Beynəlxalq sanitariya Konvensiyasının qəbulunu da təmin etmiş oldu. Beynəlxalq hüquq ədəbiyyatında sahəvi məcəllələşdirmə aktı həmin hüquq sahəsinin bərqərar edilməsi əlaməti kimi göstərilməkdədir [10, s.192; 14, s.166-167]. XIX və XX əsrin Beynəlxalq sanitariya konfransları sağlamlıq sahəsində dövlətlərarası əməkdaşlığı, daha sonra beynəlxalq tibb hüququ kimi də gündəmə gəlir. Müvafiq sahədə beynəlxalq hüquqi əməkdaşlıq kompleks hüquqi struktur kimi özündə iki elementi: hüquqtəminedici (hüquqi) və institusional (təşkilati struktur) komponentləri birləşdirir [11, s.75].

Bu dövrdə, eyni zamanda, beynəlxalq əməkdaşlığın institusional qurumları da təsis edilir. Belə təsisatlardan biri kimi İctimai Gigiyena üzrə Beynəlxalq Büronun əsas məqsədi – epidemioloji xəstəliklərin yayılma səbəblərinin araşdırılması və informasiyanın toplanması üzrə əməli fəaliyyətin təşkili, həmçinin əməkdaşlıq, hüquq yaradıcılığı prosesini yönəltmək idi. Dövlətlər üçün isə, gəmilərin gigiyena məsələləri, ərzaq təminatı zamanı sanitariya tədbirləri, karantin, mübahisələrin həlli və s. sahələrdə qanunvericiliyin hazırlanması və tətbiqi təşkil edirdi.

Qeyd edildiyi kimi, XIX əsrin ortalarından epidemioloji mübarizə sferasında dövlətlərin beynəlxalq əməkdaşlığı qlobal hüquq vek-

torunun məntiqli və zəruri elementi kimi qlobal sağlamlıq hüququnun bərqərar olması və sonrakı inkişafına zəmin hazırladı [24].

Beynəlxalq hüquqda sahə yaradıcı meyarın əsası kimi qiymətləndirilən institusional (təşkilati) mexanizmlər beynəlxalq sanitariya münasibətlərinin beynəlxalq müstəvidə tənzimlənməsi üçün geniş şərait yaratmağa başlayır. Beynəlxalq təşkilati mexanizmlər həmin sahənin çoxtərəfli, ixtisaslaşmış tənzimetmə metodunun, diplomatiyanın bərqərar olmasını təmin edir.

Beynəlxalq səhiyyə təşkilatı kimi İctimai Gigiyenanın Beynəlxalq Bürosunun (Office İnternational Hygiene Publigue) yaradılması ilə əməkdaşlığın universal təsisatlarının vacibliyinə diqqət çəkilir. 1907-ci ildə ayrıca Roma sazişi ilə bu təşkilatın Statutu və Reqlamenti də qəbul edilir. Sonrakı konvension dəyişikliklərlə təşkilatın beynəlxalq hüquqi əməkdaşlığı inkişaf etdirəcək istiqamətlər, onun funksiyaları ilə daha da təkmilləşdirilir [17, s.159]. Səhiyyə üzrə universal tənzimetmə təşəbbüsü özünü Millətlər Liqasında da göstərir. 1923-cü ildə Səhiyyə Təşkilatının yaradılması ilə “beynəlxalq birlik” I Dünya müharibəsi zamanı meydana gətlən bir çox epidemioloji xəstəliklərlə mübarizəni təmin etmək üçün hüquqi çərçivəni müəyyən etməyə çalışılır [21, s.560].

Bu təşkilatın Statutunun 4-cü maddəsinə görə, ictimai səhiyyəni təhdid edə biləcək xəstəliklər, o cümlədən vəba, taun (pestis), sarılıq kimi geniş yayılmış xəstəliklərlə aparılan mübarizə metodları haqqında iştirakçı dövlətləri məlumatlandırmaq nəzərdə tutulurdu. Təşkilatın hüquqyaratma fəaliyyəti yeni konvensiyaların hazırlanıb qəbul edilməsinə səbəb olmaqla yanaşı, gələcəkdə təsis ediləcək Beynəlxalq Səhiyyə Təşkilatının fəaliyyət istiqamətinin müəyyən edilməsində xüsusi rol oynamışdır.

Əgər səhiyyə sahəsində dövlətlərarası əməkdaşlığın mərhələlərini fərqləndirməli olsaq, onda Millətlər Liqasının yaranmasından sonrakı dövr daha sistemli tənzimetmə təəssüratı yaradır. Əvvəlki dövrün təşkilati mexanizmlərindən fərqli olaraq, İctimai Gigiyenanın Beynəlxalq Bürosunun fəaliyyətini qiymətləndirərkən sənədlərdə qeyd olunurdu ki, sözügedən təşkilat bəşəriyyətin sağlamlığının yüksəldilməsi istiqamətində, təəssüf ki, praktiki beynəlxalq mərkəzə çevrilə bilməmişdir. Onun əsas çatışmazlığı isə yerlərdə (konkret olaraq ayrı-ayrı dövlətlərdə), daha çox həssas sanitariya durumu olan məkanlara yardım edə bilməməsi idi [17, s.159-160].

Ümumiyyətlə, ilk sanitariya konfranslarının çağrılmasından başlayaraq I Dünya müharibəsi dövrünə qədər olan beynəlxalq əməkdaşlığı qiymətləndirərkən, əsasən, infeksiya xəstəlikləri ilə mübarizəyə diqqət yetirilirdi [24]. Lakin qəbul edilən çoxsaylı konvension normaların təhlili beynəlxalq əməkdaşlığın: su hövzələrinin və havanın transsərhəd çirklənməsi ilə mübarizə; sanitariya statistikasının tənzimlənməsi; sənaye gigiyenasının formalaşdırılması üzrə fəaliyyət sahələrini də əhatə etdiyini görmək olar.

Beləliklə, ilk sanitariya konfransları inkişaf etmiş Avropa dövlətlərini xəstəliklərdən qorunması məqsədilə birləşdirməklə yanaşı, onların sərhədlərinin nəzarətə götürülməsi üzrə beynəlxalq əməkdaşlığın yaradılması və inkişafında əhəmiyyətli rol oynamışdır [22, s.29].

Səhiyyə sahəsində beynəlxalq əməkdaşlığın ikinci mərhələsinin əsas xüsusiyyəti həm hüquqtəminedici, həm də institusional (təşkilati) sistemin genişləndirilməsi ilə bağlıdır. Bu dövrdə beynəlxalq sanitariya hüququndan beynəlxalq tibb hüququna keçid baş verir. Beynəlxalq Əmək Təşkilatının 1919-cu ildə təsis edilməsi ilə insan hüquqları, işə götürülənlərin sağlamlıq hüququ kimi anlayışlar meydana gəlir. Xüsusən də, işçilərin sağlamlığının mühafizəsi ilə bağlı standartların qəbulu sağlamlıq sferasını da əhatə etməyə başlayır. Əgər sanitariya hüququ epidemioloji profilaktik tədbirlərə yönəlirdisə, sağlamlıq

üzrə normalar işçilərin, əhalinin sağlamlığının tənzimlənməsi, səhiyyənin inkişafı ilə dövlətdə tənzimetməni nəzərdə tutmağa başlayırdı. Millətlər Liqasının Səhiyyə Təşkilatı da tibb hüququnun inkişaf dinamikasına uyğun tənzimetmə standartlarını ehtiva etməyə başlayır. Səhiyyə Təşkilatı sağlamlıq məsələləri üzrə elmi tədqiqatları koordinasiya etməklə yanaşı, ayrı-ayrı xəstəliklər (xərçəng, malyariya, taun və s.) üzrə komitə və komissiyalar təsis etməyə başlayır. Bu qurumlara bütün dünyadan alimləri cəlb etməklə müxtəlif regionlarda baş qaldıran müxtəlif xəstəliklərə qarşı yerli səhiyyə müəssisələrinə yardımlar həyata keçirirdi. Bu dövr ərzində qəbul edilən əməkdaşlıq aktlarından – 21 iyun 1926-cı il Beynəlxalq Sanitariya Konvensiyası və onun 23 aprel 1944-cü il redaksiyası; 12 aprel 1933-cü il Hava daşımaları haqqında beynəlxalq sanitariya Konvensiyası; Beynəlxalq Sanitariya Konvensiyasının 23 aprel 1944-cü il redaksiyasının yenilənməsi üzrə 23 aprel 1946-cı il Protokolu və s. qeyd edilə bilər.

Səhiyyə, sanitariya sferasında dövlətlərarası əməkdaşlığın II mərhələsi müsbət məqamları ilə bərabər bütövlükdə Millətlər Liqasının nöqsanlarını da özündə əks etdirirdi.

II Dünya müharibəsindən sonra dövlətlərarası beynəlxalq hüquqi əməkdaşlığın keyfiyyətcə yeni, üçüncü mərhələsi institusional, təşkilati sahəni də əhatə edərək onu daha dayanıqlı hala gətirmişdir. II Dünya müharibəsindən sonra Beynəlxalq Hüquq Assosiasiyasının 1956-cı ildə Dubrovnikdə keçirilən konfransında Beynəlxalq Tibb Hüququ üzrə Komitə təsis edilir. Beynəlxalq Tibb Hüququ üzrə Komitə qəbul etdiyi qətnaməsində beynəlxalq tibb hüququnu "müharibə hüququnun" tərkib hissəsi kimi qiymətləndirərək hərbi münaqişələr zamanı onun normalarını, döyüşün aparılması qaydalarının humanistləşdirilməsi, müharibə qurbanlarının hüquqi təminat vasitəsi kimi qəbul etmişdir [30, s.5]. Əlbəttə ki, beynəlxalq tibb hüququnu yalnız hərbi münaqişə zamanı müharibə qurbanlarının hüquqi təminat vasitəsi kimi qəbul etmək, onun tənzimetmə mahiyyətini azaltmaq kimi qiymətləndirilə bilər. Çünki tibb hüququ üzrə dövlətlərarası əməkdaşlığın spektri kifayət qədər geniş olmaqla bərabər beynəlxalq hüququn əksər sahələrini də əhatə edir. İstər hərbi münaqişələr zamanı, istərsə də dinc dövrdə sağlamlıq, tibbi yardım hüququ bir çox dövlətlərin qanunvericiliyində konstitusiya normaları ilə tanınan insan hüquqlarına aid edilib. Belə bir tendensiyanın qəbulu da tibb sahəsində dövlətlərarası əməkdaşlığın yeni forma və istiqamətlər üzrə inkişaf etdirilməsi ilə əlaqəlidir.

Yeni forma kimi, BMT-nin 51 üzv-dövlətinin (ABŞ, Braziliya, Türkiyə, Meksika və s.) təklifi ilə 1946-ci il 19-22 iyunda Nyu-Yorkda Səhiyyə üzrə Beynəlxalq Konfransın çağırılması qeyd edilə bilər. Beynəlxalq səhiyyə konfransının çağırılmasında əsas məqsəd BMT Nizamnaməsinin 55-ci maddəsinin (b) bəndində ifadə edilən səhiyyə problemlərinin həllini təşviq etmək üzrə BMT-nin ixtisaslaşdırılmış beynəlxalq qurumunun təsis edilməsi idi. Beynəlxalq Əmək Təşkilatı, UNESCO, FAO və d. təşkilatların da iştirakı ilə BMT-nin növbəti ixtisaslaşdırılmış qurumu kimi Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) təsis edilməsi onu göstərirdi ki, beynəlxalq birlik tibb sahəsində davamlı əməkdaşlığa ciddi əhəmiyyət verməkdədir. ÜST-nin Nizamnaməsi 1948-ci il aprelin 7-də qüvvəyə minmişdir. İllik büdcəsi 6.72 milyard ABŞ dolları təşkil edən Təşkilatın mənzil qərargahı İsveçrədə (Cenevrədə) yerləşir [34]. 194 dövlət ÜST-nin üzvüdür, 150-dən çox ölkədə mərkəzi və 6 regional ofisi mövcuddur [34]. Azərbaycan Respublikası 1992-ci il 02 oktyabr tarixindən Təşkilatın üzvüdür [1]. Azərbaycan Respublikası hökuməti ÜST qurumu ilə spesifik əməkdaşlıq həyata keçirməkdədir [4, s.83].

ÜST Nizamnaməsində əsas məqsəd olaraq, “bütün xalqlar ilə ən yüksək sağlamlığa nail olmaq” (m.1) ifadə edilib. Eyni zamanda, təsbit edilən funksiyalarla BMT təşkilatları və digər beynəlxalq və milli təşkilatlarla əməkdaşlıq edərək səhiyyə məsələlərini həll edir (m.2). Nizamnamə funksiyalarına görə: tibbi-gigyenik xarakterli profilaktik istiqamət; sağlamlıq sahəsində tədqiqatlar aparmaq; epidemioloji və statistik xidmət qurumlarına rəhbərlik və təşkilatlandırma; ərzaq, bioloji, əczaçılıq, və analoji məhsullar üçün beynəlxalq standartları hazırlamaq, inkişaf etdirmək və dövriyyəyə daxil etmək; iştirakçı dövlətlərin hökumətlərinin razılığı ilə onlara səhiyyənin gücləndirilməsi sahəsində köməklik göstərmək; zəruri hallarda iştirakçı dövlətlərin hökumətlərinin razılığı və ya istəyi ilə onlara texniki köməklik göstərmək; epidemioloji, endemik və digər xəstəliklərlə mübarizəni təşviq etmək və s. nəzərdə tutulur. Qeyd edilən maddədə ÜST təsisatının 22 funksiyası ifadə edilib.

ÜST-nin əsas fəaliyyət istiqamətlərindən biri Yer kürəsinin istənilən yerində meydana gələn infeksiyaların qarşısını almaq təşkil edir. Bu məqsədlə strateji sənəd qismində 1951-ci ildə Təşkilatın Assambleyasında Beynəlxalq Sanitariya Qaydaları qəbul edilib. Sənəd infeksion xəstəliklərin yaranması halında xəstəliyin qarşısının alınması, hesabatlılıq və qeydiyyat məsələlərini tənzimləyir. Beynəlxalq Sanitariya Qaydaları kompleks xarakterli sənəd olub əvvəllər bu sahədə qəbul edilmiş çox sayda konvensiyanın müddəalarını ehtiva edir. Qaydalar infeksion xəstəliklərin qarşısının alınması zamanı əhalinin və malların beynəlxalq yerdəyişməsinə minimal müdaxilə etməklə müdafiə tədbirlərini təsbit edir. İnfeksion xəstəliklərin yayılması halından asılı olaraq, beynəlxalq sanitariya qaydaları mütəmadi şəkildə yenilənməkdə və inkişafda olan aktlardandır. 1969-cu ildə Beynəlxalq Tibb-Sanitariya Qaydaları həmin dövrün əsas infeksion xəstəliklərinin yayılmasına qarşı qəbul edilir. Son variant olaraq, 2005-ci ildə qəbul edilən Beynəlxalq Tibb-Sanitariya Qaydaları 2007-ci ildə hüquqi qüvvəyə minib [29]. Beynəlxalq Tibb-Sanitariya Qaydaları milli sistemlərin də təsisini və dövriyyəyə daxil edilməsini nəzərdə tutur. Qaydalar həm infeksion, həm də qeyri- infeksion xəstəliklərlə mübarizəni nəzərdə tutur. 2005-ci il Beynəlxalq Tibb-Sanitariya Qaydaları infeksion xəstəliklərlə mübarizədə preventivliyə əsaslanır, iştirakçı dövlətlər üçün də konkret hüquq və vəzifələr müəyyən edir. İnfeksion xəstəliklərin xüsusiyyətlərindən asılı olaraq, mübarizə üzrə beynəlxalq əməkdaşlıq institutları müəyyən edilib. BMT-nin ixtisaslaşdırılmış müəssisələrindən BƏT, Beynəlxalq Ərzaq və Kənd təsərrüfatı Təşkilatı, Beynəlxalq Atom Enerjisi Agentliyi, Beynəlxalq Mülki Aviasiya Təşkilatı, Beynəlxalq Dəniz Təşkilatı, həmçinin Epizotiya üzrə Beynəlxalq Büro, Beynəlxalq Qırmızı Xaç Komitəsi və d. Ilə sıx əməkdaşlıq mexanizmləri fəaliyyət göstərir. Belə geniş beynəlxalq əməkdaşlıq spektri Ümumdünya Səhiyyə Təşkilatının müəyyən etdiyi və gözləməli olduğu Nizamnamə (m.1) funksiyasından irəli gəlir. Məsələn, atom elektrik stansiyalarının ətrafında yaşayan əhalinin təhlükəsizlik standartlarının təmini də onun səlahiyyətində olduğundan Beynəlxalq Atom Enerjisi Agentliyi ilə əməkdaşlıq fəaliyyətinin mühüm istiqamətlərindən sayılır.

Ümumdünya Səhiyyə Təşkilatının Bürosu tərəfindən risklərin gözlənilməsi, idarə edilməsi üçün 2017-ci ildə Peşəkar Davranış və Etika Məcəlləsi qəbul edilib. Sənədin məqsədi təşkilatın bütün strukturlarında fəaliyyətin şəffaf, səmərəli, hesabatlı və nəticə əsaslı olmasını təmin etməyə yönəlib. Xüsusən də, etik davranışın təşviq edilməsi, ÜST-nin etik prinsiplərinin gözlənilməsi, ayrı-seçkilik və favoritizmə yol verməmək, hakimiyyətdən sui-istifadəyə yer verməmək, seksual təhrikə, istismara və təhqirə yol verməmək, insan hüquqları, uşaqların müdafiəsi, gender bə-

rabərliyi, şəxsi həyatla iş arasında balansın gözlənilməsi, sifariş fəaliyyətində ədalətlilik və şəffaflılıq, qeyri-rəsmi prosedurlar və s. bu məcəllə ilə tənzimlənir [16, s.3].

Ümumdünya Səhiyyə Təşkilatı insan sağlamlığı hüququ üzrə standartları formalaşdırmaqla bərabər, həm də təhlükəli xəstəliklərlə, epidemiyalarla mübarizə sahəsində beynəlxalq əməkdaşlığı təmin edir. Buna nümunə kimi, 1950-ci illərdə çiçək xəstəliyi ilə mübarizədə SSRİ və ABŞ hökumətlərini maliyyə baxımından konsolidə etməsi, 2002-ci ildə Çinin SARS virusunu dünyadan gizlətməsinə rəğmən təcridetmə tədbirlərini təmin etməsi, 2009-cu ildə Meksikada meydana gələn donuz qripinə, 2014-cü ildə Qərbi Afrikada tüğyan edən EBOLA virusuna qarşı aparılan mübarizə tədbirləri müsbət nəticələr vermişdir [8, s.22].

Tibb sahəsində beynəlxalq əməkdaşlığın yeni istiqamətləri ÜST-nin Nizamnaməsi ilə müəyyən edilmişdir. Xüsusilə, ÜST-nin Nizamnaməsi ilə ona üzv dövlətlər üçün icrası məcburi olan aktların qəbul edilməsi səlahiyyəti tanınmışdır. Bu qayda II Dünya müharibəsindən sonra təsis edilən çox az sayda beynəlxalq təşkilatlar [9, s.12-20] (məsələn, Beynəlxalq Valyuta Fondu, Beynəlxalq Mülki Aviasiya Təşkilatı) üçün tanınmışdır. Sağlamlığın təmini yalnız dövlətdaxili təhlükəsizlik məsələsi olmadığından və onun transsərhəd xarakter kəsb etməsi səbəbindən dövlətlər bu sahədə əməkdaşlığa xüsusi yer vermişlər. Əvvəllərdə ifadə etdiyimiz kimi, tibb sahəsində beynəlxalq hüquqi əməkdaşlığın da tarixi baxımdan ilkin olması qeyd edilən problemlə bağlı olmuşdur. Ümumdünya Səhiyyə Təşkilatının özündən əvvəlki sələfindən də əsas fərqlərindən biri təhlükəli xəstəliklərlə, epidemiyalarla mübarizə sahəsində dövlətüstü (fövqəl) səlahiyyətə və ya funksional suverenliyə malik olmasıdır. Təşkilatın dövlətüstü səlahiyyəti və ya funksional suverenliyi dövlətlər üçün məcburi hüquqyaratma funksiyasında ifadə edilib. Təşkilatın dövlətüstü səlahiyyəti onun Nizamnaməsindən və qəbul etdiyi müvafiq reqlamentlərdən irəli gəlir.

Təşkilatın dövlətlər üçün üstün tənzimetmə səlahiyyəti üç istiqamətdə – ikisi məcburi, biri tövsiyə xarakterində qəbul edilib [7, s.71-92]. Lakin, sağlamlıq məsələsinin əhəmiyyətini nəzərə alaraq, dövlətlər tövsiyə xarakterindəki aktları da yerinə yetirməkdədirlər. Ümumdünya Səhiyyə Təşkilatının Nizamnaməsinin (Konstitusiyasının) 19-cu maddəsində deyilir ki, Təşkilatın səlahiyyətinə daxil olan istənilən məsələ üzrə Səhiyyə Assambleyası konvensiya və sazişlər qəbul etmək hüququna malikdir. Belə konvensiya və sazişlər Səhiyyə Assambleyasında üçdə iki səs çoxluğu ilə qəbul edilir və bu konvensiya və sazişlər hər Təşkilat üzvünə münasibətdə onların konstitusiya proseduruna uyğun qüvvəyə minir [5]. Təşkilatın əsas orqanı olan Səhiyyə Assambleyasının beynəlxalq müqavilələr qəbul etməsində bir qeyri-adilik yoxdur (məsələn, Nizamnamənin 19-cu maddəsinə uyğun qəbul edilən 21 may 2003-cü il Tütün nəzarəti üzrə Çərçivə Konvensiyası 2005-ci ildə qüvvəyə minib [33], Azərbaycan Respublikası 2005-ci ildən iştirakçısıdır). Lakin, digər müddəa ilə, qəbul edilən aktla bağlı üzvlər üçün mütləq öhdəlik müəyyən edilib. Təşkilatın Nizamnaməsinin (Konstitusiyasının) 20-ci maddəsində deyilir ki, hər Təşkilat üzvü Səhiyyə Assambleyasının konvensiya və sazişlərinin qəbulundan sonra, on səkkiz ay müddətində həmin konvensiya və sazişlərin təsdiqi üzrə tədbirlər görmək öhdəliyi daşıyır [5]. Üzv-dövlətin həmin konvensiya və sazişləri təsdiq etməməsi icazə verilən hal kimi görünmür. Yenə də həmin maddənin davamında qeyd edilir ki, "...əgər göstərilən müddətdə onun (yəni üzv, kurs-müəll.) tərəfindən həmin konvensiya və sazişlərin qəbulu mümkün olmazsa, o halda tərəf qəbulu mümkün etməyən səbəblər

(kurs-müəll.) haqqında Baş Direktoru məlumatlandırır. Başqa bir müddəa ilə Səhiyyə Assambleyasının bir çox sahələrdə hüquqmüəyyənetmə səlahiyyəti ifadə edilib. Ümumdünya Səhiyyə Təşkilatının Nizamnaməsinin (Konstitusiyasının) 21-ci maddəsində deyilir ki, Səhiyyə Assambleyası:

(a) xəstəliklərin beynəlxalq səviyyədə yayılmasına qarşı istiqamətdə sanitar və karantin tələbləri və d. tədbirlər;

(b) ölüm səbəbləri və ictimai sağlamlıqla bağlı xəstəliklərin nomenklaturası;

(c) beynəlxalq səviyyədə istifadə üçün diaqnostik tədqiqat metodlarının standartları... üzrə hüquqmüəyyənetmə səlahiyyətinə malikdir [5].

Təşkilatın standartları insan sağlamlığı üzrə beynəlxalq ticarət dövriyyəsində olan bioloji, əczaçılıq məhsullarını da ehtiva edir. Təşkilatın qəbul etdiyi reqlamentlər dövlətlər üçün məcburi xarakterdədir [15, s.76-84], bu xüsusiyyət də onun dövlətüstü tənzimetmə əhəmiyyətindən xəbər verir. ÜST-nin digər dövlətüstü tənzimetmə xüsusiyyəti onun üzv-dövlətlərin illik hesabatlarını qiymətləndirməsi, tibb sahəsində həyata keçirdiyi monitorinq funksiyası ilə bağlıdır. ÜST-nin hüquq yaradıcılığı müxtəlif sahələri (məsələn, insan orqanları, hüceyrə və toxumalarının transplantasiyası üzrə ÜST-nin rəhbər prinsipləri [3], Vərəm xəstələrinə tibbi xidmətin optimal təminatı [20], Beynəlxalq Tibbi-Sanitar Qaydaları [2], Alimentarius Məcəlləsi [25] və s.) əhatə edir. ÜST-nin Beynəlxalq Tibbi-Sanitar Qaydaları da (2005-ci il) daxil olmaqla (onlarda göstərilən tanınma proseduruna uyğun olaraq) səhiyyə sahəsində qəbul etdiyi standartlar hüquqi baxımdan məcburi xüsusiyyətə malikdir [2]. ÜST-nin standartları insanın fəaliyyət sferası ilə əlaqəli olduğu üçün insanın təhlükəsizlik ölçüləri artdıqca onun da normativləri artmaqdadır.

BMT Nizamnaməsinin 57-ci maddəsinə uyğun olaraq, ÜST ixtisaslaşmış təsisat statusunda olmaqla və səhiyyə sahəsində əhəmiyyətli operativ və hüquqi fəaliyyət həyata keçirməsinə baxmayaraq, son dövrlərdə ciddi tənqidlərə də məruz qalmışdır. Xüsusən də, COVİD-19 zamanı onun qarşısının alınması metodlarına qarşı petisiyalar hazırlanmışdır. ÜST-nin şişirdilmiş bürokratik aparatının, onun maliyyə resurslarının xüsusi lobbistlərin, ayrı-ayrı xüsusi dərnəklərin əlinə keçdiyinə diqqət çəkilməkdədir. Məsələn, Təşkilatın “donorlarından” B. Gates Fondunun pandemiya ilə bağlı proqnozları Təşkilatın imicinə mənfi təsir göstərmişdir. COVİD-19 zamanı pandemiyanın qarşısının alınmasındakı gecikmə və Çinpərəst mövqe nəzərə alınaraq, D.Trampın prezidentliyi dövründə ABŞ Təşkilata üzvlük haqqının ödənilməsini belə dayandırmış [8, s.22], ÜST-nin bürokratik aparatının fəaliyyətindən narazı qaldığı üçün ABŞ müəyyən müddətdə Təşkilata maliyyə yardımları da verməmişdir [6].

Təşkilatın gecikən operativ fəaliyyətinin tənqidi onun standartlarında da izlənməkdədir. Bəzi hallarda qəbul edilən standartların qeyd-şərtsiz milli səhiyyə məmurları tərəfindən yerinə yetirilməsi də mübahisələndirilməyə başlanmışdır. Buna nümunə kimi, Xəstəliklərin Beynəlxalq Klassifikatorunun yeni redaksiyası (XBK-11) qeyd edilə bilər. Bu sənədin bəzi müddəaları (məsələn, yeni redaksiya ilə transseksuallığın mütləq norma kimi qəbul edilməsi; əgər pedofil özünün vəziyyətindən narahat deyilsə, pedofilliyin psixiatrik müəssisədə müalicə edilməməsi) cəmiyyət tərəfindən birmənalı qarşılanmamışdır [19].

COVİD-19 zamanı tətbiq edilən sosial-iqtisadi təcrid insanlara qapalı şəraitdə qalmaqdan yaranmış depressiya xəstəliyinin mənfi nəticələrindən daha çox zərbə vurmuşdur. Bu gün dünya miqyasında davam edən iqtisadi-maliyyə böhranı ÜST-nin Nizamnamə (m.1, sağlamlığın mümkün ən yüksək səviyyəsinə nail olmaq...) öhdəliyinin birbaşa pozuntusu kimi qiymətləndirilməli

və onun pandemiya ilə mübarizə metodları ciddi formada təftiş edilməlidir. Bundan başqa, peyvəndlərin paylanılması zamanı ölkələrə qarşı diskriminasiya və siyasi ayrı-seçkiliyin göstərilməsi və buna qarşı heç bir hüquqi məsuliyyətin tətbiq edilməməsi, əlbəttə ki, Təşkilatın işində zəruri dəyişiklərin aparılmasını labüd edir. Bu səbəbdən ÜST-də şəffaflığın təmini, mümkün bürokratik sui-istifadə hallarının qarşısını almaq üçün onun Nizamnaməsinin dövlətüstü tənzimetmə funksiyalarını nəzərdə tutan (məsələn, m.2(a) "beynəlxalq səhiyyə işində rəhbərlik və koordinasiyaedici keyfiyyətdə çıxış etmək" funksiyasının yalnız "...koordinasiyaedici keyfiyyəti..." redaktəsində saxlanılması daha məqsədəuyğundur. Digər tərəfdən, Nizamnamədə üzv-dövlətlərin həmin müqaviləni denonsasiya etmək hüququ da birbaşa təsbit edilməlidir. Dövlətlərdən saziş qaydasında – Nizamnamə (Konstitusiya) ilə təsis edilən ÜST-nin "beynəlxalq hüquq subyektliyi" törəmə xarakterlidir. Müqavilələr hüququ üzrə 1969-cu il Vyana Konvensiyasının 56-cı maddəsində bu məsələ birbaşa tənzimlənməsə də, iştirakçı-dövlətlər hər bir halda müqavilə (Oppenheym L., Fitzmaurice G.) [18, s.456; 26, s.22], o cümlədən ÜST-nin Nizamnamə öhdəliyini ləğv etmək səlahiyyətinə malikdirlər. Bu səlahiyyət dövlətlərin universal beynəlxalq hüquq subyektliyindən irəli gəlir.

ÜST-nin Nizamnamə səlahiyyəti kimi, hüquqyaratma fəaliyyəti tibb sahəsi də daxil olmaqla dövlətlərarası əməkdaşlığın bir çox istiqamətlərini təşviq edir. İnsan sağlamlığını fundamental insan hüquqları kimi müəyyən edən [27, s.24] bu Təşkilat sağlamlığı, qəbul edilmiş ümumtanınmış normalar məzmununda müəyyən edir. Eyni zamanda, dövlətlərarası əməkdaşlığın forma və istiqamətlərinin müəyyən edilməsində əhəmiyyətli rol oynamaqdadır. Dövlətlərarası əməkdaşlığın forması olaraq fərqli hüquqi təbiətli normalar çıxış edir. Lakin insan sağlamlığı prioritet məsələ olduğundan tibb sahəsində qəbul edilən mülayim normalar da dövlətlərin diqqət mərkəzində saxlanılır.

Dövlətlərarası əməkdaşlığın özünə gəlincə, o, ilk əvvəllər beynəlxalq sanitariya konvensiyaları ilə ticarət dövriyyəsinə xidmət etsə də, sonradan tibbi sağlamlıq məzmununa keçərək spesifik əlamətlərlə xarakterizə olunur:

1) universal xarakterdə – minimum sağlamlıq standartları kimi tibbi yardım və zəruri əczaçılıq vasitələrinin müəyyən edilməsi və onlara fiziki çıxışın təmini; spesifik proqramların qəbulu ilə kütləvi formada yayılmış infeksion xəstəliklərlə mübarizə; üzv-dövlətlərin milli səhiyyə sistemində ilkin tibbi-sanitariya yardım mexanizminin qurulması; sənayedə zərərli vasitələrin istifadəsinin qadağan edilməsi və sanitariya qaydalarının təsisi; ətraf mühitin çirkləndirilməsinin qarşısının alınması; sağlamlıq sahəsində elmi-texniki nailiyyətlərdən istifadə etmək; narkotik və psixotrop maddələrin dövriyyəsində koordinasiyalı nəzarətin təşkili və cinayətkarlığın qarşısının alınması üzrə fəaliyyət; tütün məmulatlarından asılılığa və alkoqolizmə qarşı mexanizmlərin yaradılması və s. istiqamətdə təzahür edir;

2) digər sahələrə nisbətdə daha yüksək qarşılıqlı asılılığın olması səbəbindən koordinasiya və sinxronlaşdırma tələbinə riayət etmə öhdəliyi və qlobal sağlamlıq maraqlarının üstün transsərhəd xüsusiyyətinə uyğun olaraq qarşılıqlı hüquq və vəzifələrin, məsuliyyətin mövcudluğu;

3) hüquq məzmununda – müxtəlif dövlətdaxili implementasiya vasitələri ilə həm hüquqmüəyyənedici, həm də çərçivə prinsipləri ilə, imperativ və tövsiyə xüsusiyyətli normalarla təmini qeyd edilə bilər. Tibb sahəsində dövlətlərarası əməkdaşlıq müasir beynəlxalq hüququn insan hüquqları istiqamətində ən dinamik inkişaf istiqamətlərini müəyyən etməkdədir.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI


1. Azərbaycan Respublikası və Ümumdünya Səhiyyə Təşkilatı. https://un.mfa.gov.az (24.03.2023-cü il).
2. Beynəlxalq tibbi-sanitar qaydaları. https://www.un.org (25.03.2023-cü il).
3. İnsan orqanları, hüceyrə və toxumalarının transplantasiyası üzrə ÜST-nin rəhbər prinsipləri.https://old.transpl.ru (24.03.2023-cü il).
4. Məmmədov R., Abdullazadə F. Beynəlxalq təşkilatlar hüququ. Bakı: Qanun nəşriyyatı, 2023, 480 s.
5. Ümumdünya Səhiyyə Təşkilatının Nizamnaməsi (Konstitusiyası). https://www.who.int (24.03.2023-cü il).
6. ABD Dışişləri Bakanı Pompeo: DSÖ reform yapmazsa ABD-dən asla maddi dəstək almayabilir. https://tr.euronews.com (25.03.2023-cü il).
7. Çamyamaç A. Dünya Sağlık Örgütünün hukuk yaratma gücünün üye devletlerin iç düzenlerine etkisi hakkında genel bir degerlendirme. Tip Hukuku Dergisi. 2022, cilt: 11, sayı 21, s.71-92.
8. Durmuş Z.A. Dünya Sağlık Örgütünün varlığına və etkinliginə yönəltilən eleştiriler: COVİD-19 pandemi örnəgi. Alınteri Sosyal Bilimlər Dərgisi. 2022, 6(1), s. 19-26.
9. Барковский И.А. Правотворческая деятельность международных организаций: теоретические аспекты и современные тенденций // Бел. Журнал межд. права и межд. отнощений. 2003, №2, с.12-20.
10. Бобров Р. Л. Основные проблемы теорий межд. право. М.: Наука, 1968, 271 с.
11. Воронцов А.Л., Воронцова Е.В. Международно-правовое взаимодействие государств в области охраны здоровья: анализ современной практики // Международное право. 2018, №1, с.71-82.
12. Гнатик Е.А., Долженкова Ю.В. Международное медицинское право: история и перспективы развития // Вестник РУДН, серия Юридические науки, 2014, №2, с.281-288.
13. Голубятникова Н.И. и др. Санитарная охрана границ в истории формирования международного медико-санитарного законодательства (Обзор) // Журнал Гордненского гос. Мед. униве-та, № 4. 2014, с.21-26.
14. Гуреев С.А. Международное морское право: (понятие, становление как отрасли) // Советский ежегодник международного права, 1980. М., 1981, с.165-171.
15. Каркищенко Е.И. Нормотворческая деятельность Всемирной организаций здравоохранения // Москов. журнал международного права. 2004. №1, с.76-84.
16. Кодекс этики и профессионального поведения. Апрел 2017. World Health Organization, 47 с. https://who.int (26.03.2023-cü il).
17. Мохаммад Хасан. Становление и развитие международного сотрудничества в области здравоохранения // Вестник РУДН, серия Юридические науки, 2005, №2, с.157-165.
18. Оппенгейм Л. Международное право. Т. 1. Полутом 2. Перевод с 6-го английского издания А.Н. Ивенского, И.Я. Левина и И.А. Моро / под редакцией и с предисловием проф. С.Б. Крылова. – М.: Издательство иностранной литературы, 1949, 547 с.
19. Россию призвали выйти из ВОЗ. https://www.mk.ru (25.03.2023-cü il).
20. Сборник руководящих принципов и стандартов ВОЗ: обеспечение оптимального оказания медицинских услуг пациентом с туберкулезом. 2-й вып., 47 с. https://apps.who.int/iris/handle/10665/273678 (25.03.2023-cü il).
21. Сорокина Т.С. История медицины. М.: Издательский центр «Академия», 2009, 560 с.
22. Трушкевич А.А. Краткий анализ сотрудничества европейских государств в сфере здравоохранения в XIX веке // Журнал Internationalscientificreview. Область наук: Право, 2016, с.27-30.
23. Хендель Н.В. Міжнародно-правове регулювання співровітництва держав у сфері охорони здоров'я. Автореф. дис. канд. юрид. наук. Одесса, 2014, 20 с.
24. Belanger M. Global Health Law: an introduction. Cambridge: Cambridge Scientific Publishers, 2011, 158 p.

25. CodexAlimentariusFAO -WHO. Международные стандарты пищевых продуктов. https://www.fao.org (25.03.2023-cü il).
26. Fitzmaurice G. Second Report on the Law of Treaties.-Yearbook of the İnternational Law Commission. Vol. II. pp.4-35.
27. Habersack M., Luschin G. WHO-definition of Health must be Enforced by National Law: A debate //BMC Medical Ethics.2013, 14(1), p.24.
28. Howard-Jones N. The scientific background of the Sanitary Conferences 1851-1938. Geneva WHO, 1975, 110 p.
29. İnternational Health Regulations (IHR) https://hr.who.int (26.03.2023-cü il).
30. International Law Association. Hamburg Conference (1960). Committee of International Medical Law, p.5.
31. Porter D. Health, civilization and the state: a history of public health from ancient to modern times. London, Routlege, 1998, 388 p.
32. Vitte C. Le Droit sanitaire international. 1930. 33 R.C.D.İ., 552 p.
33. WHO Framework Convention on Tobacco Control. https://www.un.org (25.03.2023).
34. World Health Organization (WHO). https://www.who.int. (24.03.2023-cü il).
35. Hüseynova F.E. Beynəlxalq tibb hüququ haqqında ümumi müddəalar. Monoqrafiya. Bakı: ”Zərdabi-Nəşr”, 2023, 352 s.

## FORMS AND DIRECTIONS OF INTERSTATE COOPERATION IN THE FIELD OF INTERNATIONAL SANITATION AND MEDICINE

**Ismayilova Parvina Fazail g.,**
**Baku State University Faculty of Law, Teacher of "Human and information law" UNESCO department, doctor of philosophy in law.**
parvina444@gmail.com

The article examines the forms and directions of interstate cooperation in the field of international sanitation and medicine and notes that due to the higher interdependence compared to other fields, the obligation to comply with the requirement of coordination and synchronization and the existence of mutual rights and duties and responsibilities in accordance with the superior cross-border nature of global health interests can be noted as a typical case for cooperation. Also, although interstate cooperation initially served trade circulation with international sanitary conventions, it later moved to medical and health content, defining medical aid and necessary pharmaceuticals as minimum health standards and providing physical access to them; combating infectious diseases spread in a mass form with the adoption of specific programs; establishment of the mechanism of primary medical and sanitary assistance in the national health care system of the member states; prohibiting the use of harmful means in the industry and establishment of sanitary regulations, etc. appears in the direction.

**Key words:** international sanitation, medicine and health law, infectious disease control, international sanitary law, epidemiological disease control, International Bureau of Public Hygiene, interstate cooperation, international sanitary conferences, World Health Organization, International Sanitary Convention, international sanitary regulations, International Medical-Sanitary Regulations.

## ФОРМЫ И НАПРАВЛЕНИЯ МЕЖГОСУДАРСТВЕННОГО СОТРУДНИЧЕСТВА В ОБЛАСТИ МЕЖДУНАРОДНОЙ САНИТАРИИ И МЕДИЦИНЫ

**Исмайлова Парвина Фазаил кызы,**
**Юридический факультет Бакинского Государственного Университета, преподаватель кафедры «Права человека и информационное право» ЮНЕСКО, доктор философии в области права.**
parvina444@gmail.com

В статье рассматриваются формы и направления межгосударственного сотрудничества в области международной санитарии и медицины и отмечается, что в связи с более высокой взаимозависимостью по сравнению с другими сферами обязательность соблюдения требования согласованности и синхронизации и наличия взаимных прав и обязанностей и обязанности в соответствии с превосходящим трансграничным характером глобальных интересов в области здравоохранения можно отметить как типичный случай сотрудничества. Кроме того, хотя межгосударственное сотрудничество первоначально служило торговому обороту с международными санитарными конвенциями, позже оно перешло к содержанию медицины и здоровья, определив медицинскую помощь и необходимые фармацевтические препараты как минимальные стандарты здоровья и обеспечив физический доступ к ним; борьба с инфекционными заболеваниями, распространяющимися в массовой форме, с принятием конкретных программ; создание механизма первичной медико-санитарной помощи в национальной системе здравоохранения государств-членов; запрещение использования вредных средств в промышленности и установление санитарных правил и др. появляется в данном направлении.

**Ключевые слова:** международная санитария, медицина и здравоохранение, борьба с инфекционными заболеваниями, международное санитарное право, борьба с эпидемиологическими заболеваниями, Международное бюро общественной гигиены, межгосударственное сотрудничество, международные санитарные конференции, Всемирная организация здравоохранения, международная санитарная конвенция, Международные санитарные правила, Международные медико-санитарные правила.

## ULUSLARARASI SAĞLIK VE TİP ALANINDA DEVLETLER ARASI İŞBİRLİĞİNİN BİÇİMLERİ VE YÖNLERİ

**İsmayilova Parvina Fazail kızı,**
**Bakü Devlet Üniversitesi Hukuk Fakültesi,"İnsan hakları ve bilgi edinme hakkı" UNESCO bölümü öğretmeni, h.u.f.d.**
parvina444@gmail.com

Makale, uluslararası sağlık ve tıp alanında devletler arası işbirliğinin biçimlerini ve yönlerini incelemektedir. Diğer alanlara göre daha fazla karşılıklı bağımlılığın bulunması nedeniyle, küresel sağlık çıkarlarının üstün sınır ötesi doğası gereği koordinasyon ve senkronizasyon gerekliliğine uyma zorunluluğu ve karşılıklı hak ve görev ve sorumlulukların varlığına dikkat çekilmektedir. işbirliği için karakteristik bir durum olarak not edilebilir. Ayrıca, devletler arası işbirliği başlangıçta uluslararası sağlık sözleşmeleri ile ticaret dolaşımına hizmet etse de, daha sonra tıbbi yardım ve gerekli ilaçları asgari sağlık standartları olarak tanımlayarak ve bunlara fiziksel erişim sağlayarak tıbbi ve sağlık içeriğine geçti; belirli programların benimsenmesiyle kitlesel olarak yayılan bulaşıcı hastalıklarla mücadele; üye devletlerin ulusal sağlık sisteminde birincil tıbbi ve sıhhi yardım mekanizmasının oluşturulması; endüstride zararlı araçların kullanımının yasaklanması ve sıhhi kuralların oluşturulması vb. yönde görünür.

**Anahtar kelimeler:** uluslararası sanitasyon, tıp ve halk sağlığı, bulaşıcı hastalıklarla mücadele, uluslararası sağlık hukuku, epidemiyolojik hastalıklarla mücadele, Uluslararası Kamu Hijyeni Bürosu, eyaletler arası işbirliği, uluslararası sağlık konferansları, Dünya Sağlık Örgütü, uluslararası sağlık sözleşmesi, Uluslararası Sıhhi Yönetmelikler, Uluslararası Sağlık Yönetmelikleri.

# TURİSTLƏRİN HÜQUQİ STATUSUNUN MİLLİ VƏ BEYNƏLXALQ HÜQUQİ AKTLARDA REALİZƏSİ ƏSASLARI

**Qüdrətli Günay Əlibaba qızı,**
**Bakı Dövlət Universiteti Hüquq fakültəsi "İnsan hüquqları və informasiya hüququ" UNESCO kafedrasının "Turizm hüququ" ixtisaslaşması üzrə II kurs magsitri.**
gunay.qudretli@icloud.com

*Turizm sahəsində həm inkişaf, həm də hüquqların təminatı üçün dövlətlərin öz beynəlxalq öhdəliklərini yerinə yetriməsi vacib məqamlardan sayılır. Burada yalnız beynəlxalq normaların qəbul edilməsi əsas şərt deyildir. Eyni zamanda, əsas rəhbər müddəalar olan prinsiplərin milli hüquqda implementasiyası mühüm əhəmiyyət kəsb edir. Daxili qanunvericilik bazasına görə, turistlərin malik olduğu hüquqlar və daşıdığı vəzifələr dövlətlərin tənzim etdiyi əsas məsələlərdən hesab edilir. Məqalədə turizm sferasında fəaliyyət göstərən subyekt qismində turistlərin hüquqi statusu ətraflı şərh olunmuş, təklif və tövsiyələr irəli sürülmüşdür.*

**Açar sözlər:** turizm, turizm fəaliyyəti, hüquq subyektliyi, turistlərin öhdəlikləri, turizm infrastrukturu, beynəlxalq-hüquqi tənzimetmə, milli-hüquqi tənzimetmə, təcrübə.

İlk növbədə,"turizm" termininə qısa və eyni zamanda, tam anlayış vermək onun yerinə yetirdiyi funksiyalar və təzahür formalarının müxtəlifliyinə görə kifayət qədər çətindir. Lakin bu istiqamətdə müəyyən baza meyarlar formalaşmışdır: daimi yaşayış yerinin tərk edilməsi; digər ərazidə müvəqqəti olma; göstərilən xidmətlərin şəxsi vəsaitlər hesabına ödənilməsi və s. Tədqiqatlarda qeyd edilir ki, turizm dəqiq müəyyən olunması çox çətin olan mürəkkəb sosial hadisədir. Çünki bu fəaliyyət növü yalnız turistləri özünə daxil etmir, həm də turizm xidmətlərinin təchizatçıları, dövlət orqanları, müxtəlif qeyri-hökumət təşkilatlarını və s. subyektləri də özündə ehtiva edir. Dövlətlərin iqtisadi və siyasi inteqrasiyasının daha da genişlənməsi turizm sferasında meydana çıxan münasibətlərin beynəlxalq və milli-hüquqi səviyyədə tənzimlənməsini zəruri edir.

Turistlərin hüquqi statusundan danışarkən, ilk növbədə, "turist" anlayışına tərif verilməli, müvafiq şəxslərin dairəsi müəyyən edilmədir. Turistlər üçün gömrük güzəştləri haqqında 1954-cü il tarixli Konvensiyanın 1-ci maddəsi də, adətən, yaşadığı dövlət istisna olmaqla, Konvensiyanın digər üzv-dövlətinin ərazisində istənilən 12 aylıq dövr ərzində 24 saatdan az, 6 aydan çox olmayan müddətdə (immiqrasiya etmək istisna olmaqla) qanunla icazə verilmiş əsaslar – turizm, əyləncə, idman, sağlamlıq, ailə vəziyyəti, təhsil, dini ziyarət və ya işgüzar məqsədlərlə qalan şəxsləri "turist" kimi müəyyən edir [1].

"Turizm haqqında" Azərbaycan Respublikasının 4 iyun 1999-cu il tarixli Qanununun 1-ci maddəsində turist statusunun əldə olunması üçün şəxsin müvafiq terminin tətbiq dairəsinə aid edilməsi – istirahət, sağlamlaşdırma, tanış olma, idraki (tarix və mədəniyyət sərvətlərindən bəhrələnmə və sair),

iş-peşə (vəzifə borclarının icra edilməsi istisna olmaqla), idman və dini məqsədlərlə getdiyi ölkədə (yerdə) ödənişli fəaliyyətlə məşğul olmamaq şərtilə, 24 saatdan 12 ayadək müddətdə müvvəqəti olması tələb olunurdu. Lakin, bu qanun ləğv edilərək, 27 dekabr 2021-ci ildə yeni "Turizm haqqında" Qanun qüvvəyə minmişdir. Bu qanunun 1-ci maddəsində isə "turist" anlayışı "turizm məqsədilə səyahət etdiyi ölkədə (yerdə) 90 günədək müvəqqəti olan fiziki şəxs" kimi qeyd edilmişdir [4].

Ümumdünya Turizm Təşkilatının Santyaqoda keçirilmiş 13-cü Baş Assambleyası tərəfindən qəbul edilmiş Turizmin Qlobal Etik Kodeksinin 8-ci maddəsi turistlərin hərəkət azadlığına həsr edilmişdir. Belə ki, orada qeyd edilmişdir: Ümumdünya insan hüquqları bəyannaməsinin 13-cü maddəsinə uyğun olaraq, beynəlxalq hüquq və milli qanunvericiliklər nəzərə alınmaqla, turistlər və qonaqlar öz ölkələrinin ərazisində, eləcə də bir ölkədən digərinə hərəkət etmək azadlığına malikdirlər; onların tranzit zonalara, eləcə də turizm və mədəniyyət obyektlərinə ifrat formallığa və ayrı-seçkiliyə məruz qalmadan çıxış imkanları olmalıdır; turistlər və qonaqlar daxili və xarici kommunikasiyanın bütün mövcud formalarından istifadə edə bilməlidirlər; onlar yerli inzibati, hüquqi və tibbi xidmətdən birbaşa və maneəsiz istifadə edə bilməlidirlər; qüvvədə olan diplomatik konvensiyalara uyğun olaraq, onlar öz ölkələrinin konsulluğuna sərbəst şəkildə müraciət etmək imkanına malik olmalıdırlar; şəxsi məlumatların məxfiliyi, xüsusən elektron daşıyıcılarda saxlanan məlumatlara münasibətdə turistlər və qonaqlar səyahət etdikləri ölkənin vətəndaşları ilə eyni hüquqlara malik olmalıdırlar; dövlətlər tərəfindən sərhədlərin keçilməsi zamanı tətbiq olunan və ya beynəlxalq sazişlərdən irəli gələn inzibati prosedurlar, məsələn, viza, sanitariya və gömrüklə bağlı formallıqlar mümkün dərəcədə səyahət azadlığına dəstək verəcək və maksimum sayda insan üçün beynəlxalq turizmdən istifadə imkanı yaradacaq şəkildə tənzimlənməlidir; ölkə qrupları arasında bu formallıqların uyğunlaşdırılmasına və sadələşdirilməsinə yönəlmiş müqavilələrin bağlanması təşviq edilməlidir; turizm sənayesi üçün əlavə yük yaradan və onun rəqabət qabiliyyətinə mənfi təsir göstərən xüsusi vergi və rüsumlar tədricən ləğv edilməli və ya düzəliş edilməlidir; qonaqlar çıxdıqları ölkənin iqtisadi vəziyyətindən asılı olaraq, səfərləri üçün zəruri məbləği sərbəst konvertasiya olunan valyutada əldə etmək imkanına malik olmalıdırlar [2].

"Turizmin sosial təsiri haqqında" 22 may 1997-ci il tarixli Manila Bəyannaməsinin 7-ci bəndində turizm sferasında insanların, xüsusilə, qadınların, uşaqların və əhalinin digər zəif təbəqəsinin sui-istifadəsi və onların istismarı hallarının qarşısını almaq, onların müdafiəsini təmin etmək və bu kimi halların təkrarlanmamasına nəzarət etmək üzrə milli və beynəlxalq səviyyədə dəstəyin təmin olunması öhdəliyi müəyyən edilmişdir [3].

Turistlərin hüquqi statusunun müəyyənləşdirilməsi ilə bağlı məsələlər özündə, həmçinin onların müxtəlif sferada mövcud olan hüquq və vəzifələrini də birləşdirir. Həmin hüquq və vəzifələr müxtəlif beynəlxalq sənədlərdə, o cümlədən milli qanunvericilik aktlarında təsbit edilmişdir. Burada əsas sənəd qismində Ümumdünya Turizm Təşkilatının VI sessiyasında qəbul olunmuş 1985-ci il tarixli Turizm Xartiyası və Turist Məcəlləsi çıxış edir. Sənədin belə adlandırılmasında başlıca məqsəd müvafiq sahədə

dövlətlərin, o cümlədən turistlərin hüquq və vəzifələrinin ayrıca şəkildə ifadə olunmasıdır. Ona görə də, Turizm Xartiyası turizm və onun inkişafı ilə bağlı birbaşa dövlətlərə münasibətdə normaları müəyyən etsə də, Turist Məcəlləsi sırf turistlərin hüquqi statusunun müəyyənləşdirilməsi baxımından, zəruri müddəaları özündə əks etdirir. Belə ki, göstərilən Məcəllənin bir sıra müddəaları turistlərin davranışlarına münasibətdə nəzərdə tutulan vəzifələrin həyata keçirilməsinə istiqamətlənmişdir. Bunun bariz nümunəsi kimi turistlərin aşağıdakı vəzifələrini göstərmək olar: öz davranışları ilə milli, beynəlxalq səviyyədə xalqlar arasında dostluq və qarşılıqlı anlaşmaya kömək etmək, bununla da sülhün qorunmasına yardım göstərmək; tranzit və müvəqqəti getdiyi yerlərdə bərqərar olan siyasi, sosial, əxlaqi və dini quruluşa hörmət etmək, qüvvədə olan qanun və qaydalara tabe olmaq; yerli əhalinin adətlərinə, etiqadlarına və multikultural dəyərlərinə münasibətdə daha böyük ehtiram göstərmək və onların təbii və mədəni əmlakına hörmətlə yanaşmaq; turistlər və yerli xalqlar arasındakı iqtisadi, sosial və mədəni fərqlərin nəzərə çarpdırılmasından çəkinmək; bəşəriyyətin ümumi irsinin ayrılmaz hissəsi olan yerli xalqın (turistləri qəbul edən) mədəniyyətinə həssas olmaq; fahişəlik məqsədilə digərlərinin istismarına mane olmaq; narkotik vasitələrin və digər qadağan edilmiş psixotrop preparatların ticarəti, daşınması və istifadə edilməsindən çəkinmək. Həmin vəzifələrlə yanaşı, turistlərin müəyyən hüquqları da mövcuddur. Bu sırada aşağıdakıları göstərə bilərik: onların səyahətləri zamanı verilən imkan və şərtlər, müvəqqəti getdikləri rəsmi turizm təşkilatları, turist xidmətlərinin tədarükçüləri barədə obyektiv, dəqiq və müfəssəl məlumat almaq; şəxsi və öz əmlaklarının təhlükəsizliyi, istehlakçı kimi onların hüquqlarının müdafiəsi; özünü xüsusilə yerləşdirmə vasitələrində, ictimai qida və nəqliyyatda büruzə verən müvafiq ictimai gigiyenanın qorunması, infeksion xəstəliklərin və bədbəxt hadisələrin qarşısının alınması üzrə səmərəli tədbirlər barədə məlumatlandırılma, həmçinin səhiyyə xidmətindən maneəsiz istifadə imkanlarının həyata keçirilməsi; ölkənin daxilində, o cümlədən xarici aləmlə təxirəsalınmaz və səmərəli şəkildə ictimai əlaqədə olmaq; turistlərin hüquqlarının müdafiəsi üçün zəruri olan inzibati, hüquqi prosedur və təminatlar; öz dinlərinə etiqad etmək imkanları və bu məqsədlər üçün müvafiq şəraitin mövcudluğu [1].

Azərbaycan Respublikası 27.12.2021-ci il tarixli "Turizm haqqında" Qanunun 14-cü maddəsi turistlərin hüquq və vəzifələrinə həsr olunmuşdur. Burada turistlərin getdiyi ölkəyə daxil olma, orada qalma qaydaları, yerli əhalinin adətləri, dini mərasimlər, müqəddəs yerlər, xüsusi mühafizədə olan təbiət, tarix, mədəniyyət abidələri və digər turizm obyektləri, ətraf mühitin vəziyyəti barədə zəruri və dürüst informasiya almaq, həmin yerdə müəyyən məhdudiyyətlər nəzərə alınmaqla, hərəkət-yerdəyişmə hüququndan, turizm ehtiyatlarından sərbəst istifadə etmək, həyatının və sağlamlığının qorunması üçün təxirəsalınmaz tibbi yardım alınması hüququna malik olmaq, getdiyi ölkənin (yerin) hakimiyyət və yerli özünüidarə orqanlarından hüquqi və digər təxirəsalınmaz yardım növləri göstərilməsində kömək almaq və s. hüquqları əks olunmuşdur. Hər bir turist öz hüquqlarını yaxşı bilməli və onlara əməl olunmasını tələb etməklə yanaşı, öz vəzifələrini də yaxşı bilməli, onları yerinə yetirməlidir. Yuxarıda

qeyd etdiyim qanunun eyni maddəsində turistlərin müvəqqəti olduğu ölkənin (yerin) qanunvericiliyinə riayət, adət-ənənələrinə və dini etiqadlarına hörmət etmək; müvəqqəti olduğu ölkənin (yerin) təbii, tarixi və mədəni irsinə qayğı ilə yanaşmaq, onların mühafizəsi ilə bağlı qaydalara əməl etmək və ətraf mühitə ziyan vurmamaq;müvəqqəti olduğu ölkənin (yerin) konstitusiya quruluşunun, suverenliyinin, ərazi bütövlüyünün, dövlət təhlükəsizliyinin və ictimai asayişin pozulmasına yönəlmiş hərəkətlərə, həmin ölkədə (yerdə) əhalinin sağlamlığına zərər vura bilən, habelə həmin ölkənin (yerin) qanunvericiliyi ilə qadağan edilən digər hərəkətlərə yol verməmək;yerləşmə vasitələrində, istirahət və gəzinti yerlərində daxili intizam, yanğın təhlükəsizliyi və sanitariya-gigiyena qaydalarına əməl etmək kimi onların bilavasitə hüquq və azadlıqlarından irəli gələn vəzifələri qeyd edilmişdir [4]. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) turistlərin adı çəkilən qanunda qeyd olunan hüquq və vəzifələri barədə məlumatlandırılmasını təmin etmək üçün zəruri tədbirlər görür [4].

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasında turislərin hüquq və azadlıqlarının müdafiəsinə təminat verilir, onların vəzifələrini yerinə yetirməsinə müvafiq orqanlar tərəfindən nəzarət edilir.Daxili qanunvericilik bazasına görə turistlərin malik olduğu hüquqlar və daşıdığı vəzifələr dövlətlərin tənzim etdiyi əsas məsələlərdən hesab edilir.

**İstifadə edilmiş mənbələr**


1. Əliyev Ə.İ., Aslanov E.Z. Beynəlxalq turizm hüququ. Dərslik. Bakı: NAT MMC, 2011, 475 s.
2. Turizmin Qlobal Etik Kodeksi, 1999-cu il.
3. Manila Declaration on the social impact of tourism, 1997.
4. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Normativ hüquqi aktların vahid internet elektron bazası. e-qanun.az
5. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: «N» nəşriyyatı, 2015, 52 s.
6. Əliyev E.Ə. Beynəlxalq iqtisadi hüquq. Dərslik. Üçüncü nəşr (yenidən işlənmiş və əlavələr edilmiş). Bakı: «Günəş-B» nəşriyyat-poliqrafiya müəssisəsi, 2016, 690 s.
7. Əliyev E.Ə., Hüseynova F.E., Qəmbərov H.D. İqtisadi hüquq. Dərslik. Bakı: «Günəş-B» nəşriyyat-poliqrafiya müəssisəsi, 2019, 624 s.


## PRINCIPLES OF IMPLEMENTATION OF THE LEGAL STATUS OF TOURISTS IN NATIONAL AND INTERNATIONAL LEGAL ACTS

**Gudratli Gunay Alibaba.**

İn the field of tourism, it is important for states to fulfill their international obligations for both development and protection of rights. Acceptance of international norms is not the main condition here. At the same time, the implementation of the principles, which are the main guiding provisions, in national law is of great importance. According to the domestic legislation, the rights and duties of tourists are considered

to be the main issues regulated by the states. In the article, the legal status of tourists in the field of tourism has been explained in detail, suggestions and recommendations have been put forward.

**Key words:** tourism, tourism activity, legal subjectivity, obligations of tourists,tourism infrastructure, international legal regulation, national legal regulation, experience.

## ОСНОВЫ РЕАЛИЗАЦИИ ПРАВОВОГО ПОЛОЖЕНИЯ ТУРИСТОВ В НАЦИОНАЛЬНЫХ И МЕЖДУНАРОДНЫХ ПРАВОВЫХ АКТАХ

**Кудратли Гюнай Алибаба кызы.**

В сфере туризма важно, чтобы государства выполняли свои международные обязательства как по развитию, так и по защите прав. Здесь только принятие международных норм не является главным условием. При этом реализация принципов, являющихся основными руководящими положениями, в национальном законодательстве имеет большое значение. Согласно отечественной правовой базе, права и обязанности туристов считаются основными вопросами, регулируемыми государствами. В статье подробно разъясняется правовой статус туриста как субъекта, осуществляющего деятельность в сфере туризма, выдвигаются предложения и рекомендации.

**Ключевые слова:** туризм, туристская деятельность, юридическое лицо, обязательства туристов, инфраструктура туризма, международно-правовое регулирование, национально-правовое регулирование, опыт.

## TURİSTLERİN HUKUKİ STATÜSÜNÜN ULUSAL VE ULUSLARARASI HUKUKİ HÜKÜMLERDE UYGULANMASINA İLİŞKİN İLKELER

**Kudretli Günay Alibaba kızı.**

Turizm alanında hem hakların geliştirilmesi hem de korunması için devletlerin uluslararası yükümlülüklerini yerine getirmeleri önemlidir. Burada sadece uluslararası normların benimsenmesi ana koşul değildir. Aynı zamanda yol gösterici temel hükümler olan ilkelerin ulusal hukukta uygulanması da büyük önem arz etmektedir. Yerel yasal çerçeveye göre, turistlerin hak ve ödevleri, devletler tarafından düzenlenen temel konular olarak kabul edilmektedir. Makalede, turizm alanında faaliyet gösteren bir özne olarak turistlerin hukuki durumu ayrıntılı olarak açıklanmakta, öneri ve tavsiyelerde bulunulmaktadır.

**Anahtar kelimeler:** turizm, turizm faaliyeti, tüzel kişilik, turistin yükümlülükleri, turizm altyapısı, uluslararası yasal düzenleme, ulusal yasal düzenleme, deneyim.

# MÜASİR DÖVRDƏ MEDİASİYA HÜQUQU – ANLAYIŞI VƏ PREDMETİ

**Əliyev Etibar Əli oğlu,**
**Bakı Dövlət Universiteti Hüquq fakültəsi "İnsan hüquqları və informasiya hüququ" UNESCO kafedrasının professoru, hüquq üzrə elmlər doktoru.**
e-mail: a-etibar@rambler.ru,
telefon:+99455 230 24 42

**Hüseynova Fatimə Etibar qızı,**
**Bakı Dövlət Universiteti Hüquq fakültəsi "Beynəlxalq xüsusi hüquq və Avropa hüququ kafedrası"nın dosenti, hüquq üzrə fəlsəfə doktoru.**
e-mail: lawyer.fatima85@gmail.com,
telefon:+99450 206 24 42

**Mirzəyeva Leyla Eytibar qızı,**
**Azərbaycan Respublikası Sumqayıt İnzibati Məhkəməsinin hakimi.**
e-mail: leylamirzayeva88@mail.ru,
telefon:+99455 310 55 85.

*Məqalədə müəlliflər tərəfindən müasir dövrdə Azərbaycanda formalaşmaqda olan mediasiya hüququnun anlayışı və nizamasalma predmetinə dair məsələ elmi cəhətdən araşdırılır. Qeyd edilir ki, mediasiya hüququ dedikdə cəmiyyətdə mediasiya münasibətlərini tənzimləyən kompleks hüquq normalarının sistemi və məcmusu başa düşülür. Mediasiya hüququ fenomeni həm də müxtəlif variantlarda - elm və tədqiqat sahəsi kimi mediasiya hüququ, tədris kursu mənasında mediasiya hüququ, qanunvericilik mənasında mediasiya hüququ kimi işləndiyinə görə çoxaspektli anlayışdır.*

**Açar sözlər:** insan hüquqları, mediasiya fəaliyyəti, mediasiya hüququ, mediasiya münasibətləri, mediator, mediasiya təşkilatı, mübahisə, tərəflər, danışıqlar.

Hər şeydən əvvəl, qeyd etməliyik ki, hüquq doktrinasından məlum olduğu kimi, cəmiyyətdə ictimai münasibətlərin müxtəlif sahələrində (siyasi, sosial-iqtisadi, insan hüquqları, elm və təhsil, mediasiya və s. sferalarda) hüquqi tənzimlənmə həyata keçirilir. Müasir dövrdə belə tənzimlənmə həm də mediasiya fəaliyyəti sferasında yaranmış və bu fəaliyyət növü cəmiyyətdə kütləvi xarakter alaraq, obyektiv zəmində əhəmiyyətli və ayrıca real ictimai münasibətlər qrupuna çevrilməkdədir. Belə ki, insan hüquqlarının müdafiəsi cəmiyyətdə ictimai həyat sisteminin mühüm komponenti olmaqla sosial fəaliyyət sahəsidir.

Terminoloji lüğətlərə görə, mediasiya (latınca – mediatio, ingiliscə – mediation) dedikdə subyektlər arasında (əsasən dövlətlər arasında) siyasi və hüquqi mübahisələrin, münaqişələrin neytral (vasitəçi dövlət), yəni mediator vasitəsilə həll olunmasının ptaktiki üsulları başa düşülür (1). Mediasiyada vasitəçidən xüsusi psixoloji, hüquqi, diplomatik hazırlıq, yüksək mədəniyyət, münasib praktiki vərdişlər, gərgin emosional araşdırma şəraitində öz neytrallığını (bitərəfliyini) qoruyub saxlamaq bacarığı tələb olunur. Əsas mediasional funksiya tərəflərə təsir və ya təzyiq göstərməkdən ibarət deyil, məhz tərəflərin bir-biri ilə danışıqlar aparması üçün müvafiq

şəraitin yaradılmasından, mövcud vəziyyətdən çıxış yollarının birgə araşdırıb-tapılmasından, tərəflərə məsləhət və tövsiyyə verilməsindən ibarətdir. Bu zaman, əgər mediatora münasibətdə neytrallıq şübhəsi yaranarsa, həmin danışıqlar istənilən vaxt dayandırıla bilər. Bununla yanaşı, mediasiya proseduru mübahisə edən tərəflərin qarşılıqlı münasibətlərinin (mövqelərinin) aydınlaşdırılmasına, tərəflərin maraqlarının toxunma nöqtəsinin müəyyənləşdirilməsinə və öyrənilməsinə, real vəziyyətin düzgün qiymətləndirilməsinə, gələcəkdə öz dəlil-sübutlarının daha da təkmilləşdirilməsiıə, hətta qeyri-mütənasib, yalnış addımın atılmasından yan keçməsinə və s. hallara potensial imkanlar yaradır. Lakin, əgər mediasiya uğurla nəticələnməzsə, onda daha təsirli və effektli qurumlara (məsələn, məhkəmə və arbitraj orqanlarına) müraciət etmək hüququ tərəflərin ixtiyarında qalır

Hüquq ədəbiyyatı səhifələrində, haqlı olaraq, göstərilir ki, mediasiya dedikdə mübahisənin iki və ya daha çox tərəfinin könüllü olaraq, mediatorun köməyi ilə mübahisələrinin həlli ilə bağlı razılığa gəlməsi üçün qurulmuş bir proses başa düşülür (3). Bu prosesə tərəflərin özləri başlaya bilər və ya bu prosesə başlamaq məhkəmə tərəfindən təklif və yaxud tələb edilə bilər, eləcə də bu prosesin keçirilməsi beynəlxalq mediasiya qurumuna üzv-dövlətin milli qanunvericiliyinin tələbləri ola bilər.

Qeyd etməliyik ki, "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanununda (MHQ) mediasiya prosesində istifadə edilən bəzi əsas terminlərə anlayış verilir ki, onlardan bir qismini açıqlayaq.

Mediasiya – mediatorun (mediatorların) vasitəçiliyi ilə tərəflər arasında yaranmış mübahisənin qarşılıqlı razılıq əsasında həlli ilə bağlı MHQ ilə müəyyən olunan proses deməkdir.

Tərəflər dedikdə hüquqi və fiziki şəxslər, o cümlədən hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər, habelə mediasiya prosesinin tətbiqinə razılıq vermiş inzibati orqan və qurumlar başa düşülür.

Mediator – peşəkar əsasda mediasiya prosesinin həyata keçirilməsi üçün tərəflərin cəlb etdiyi, yaxud mediasiya təşkilatı tərəfindən təyin olunmuş və MHQ ilə müəyyən edilən tələblərə cavab verən fiziki şəxs sayılır.

Mediasiya təşkilatı dedikdə söhbət MHQ ilə müəyyən edilən (maddə 11.1) hüquqi şəxsdən gedir. Belə ki, mediasiya təşkilatı mediasiyanın inkişaf etdirilməsi və təkmilləşdirilməsi məqsədilə, mediasiya xidmətlərinin marketinqini, əmək müqavilësi və ya müvafiq mülki-hüquqi müqavilə bağladığı mediatorların xidmətləri üçün haqqın və digər xərclərin ödənilməsinə dair qaydanı müəyyən edən, mediasiya zamanı danışıqların aparılması üçün şərait yaradan, MHQ ilə və ya tərəflərin razılığı ilə müəyyən edildiyi hallarda mediasiya prosesini aparmaq üçün mediatorları təyin edən, habelə mediatorların effektiv fəaliyyətinə yönələn digər tədbirlər həyata keçirən qeyri-kommersiya hüquqi şəxsidir.

Mediasiya iştirakçıları dedikdə mediator və mübahisə tərəfləri başa düşülür.

Mediasiyada iştirak edən digər şəxslər isə mediasiya prosesində iştirak edən vəkillər, nümayəndələr, tərcüməçilər, ekspert və mütəxəssislər, mediasiya təşkilatının əməkdaşları, habelə tərəflərin razılığı ilə mediasiya prosesində iştirak edən digər şəxslərdir.

Barışıq sazişi dedikdə tərəflər arasında mediasiya prosesi nəticəsində əldə edilən yazılı razılaşma ehtiva olunur.

Mediasiya prosesinin tətbiqi barədə müqavilə anlayışının məna yükü altında mövcud və ya gələcəkdə yarana biləcək mübahisənin mediasiya prosesi vasitəsilə həlli üçün tərəflər arasında bağlanan yazılı razılaşma nəzərdə tutulur.

Mediasiyaya dair qeyd-şərt – tərəflərin hər hansı mübahisə ilə bağlı məhkəməyə və ya arbitraja (münsiflər məhkəməsinə) müraciət etməzdən əvvəl mediasiya prosesində iştirakını tələb edən müqavilə, müqavilə şərti, yaxud hər hansı digər sənəddə olan şərt deməkdir.

Mediasiya xidmətlərinin göstərilməsinə dair müqavilə mediator və ya mediasiya təşkilatı ilə tərəflər arasında mediasiya xidmətlərinin göstərilməsi üçün imzalanan yazılı müqaviləni ehtiva edir.

Mübahisə dedikdə tərəflər arasında yaranmış (və ya yarana biləcək) MHQ-də (maddə 3.1) nəzərdə tutulmuş mübahisə başa düşülür (4). Bu anlayış, məzmunca, özündə mülki işlər və kommersiya mübahisələrini (xarici elementli mübahisələr də daxil olmaqla), ailə münasibətlərindən irəli gələn mübahisələri, əmək münasibətlərindən irəli gələn mübahisələri və inzibati hüquq münasibətlərindən irəli gələn mübahisələri ehtiva edir (5).

Bütün bu sadalanan cəhətləri ümumiləşdirərək qeyd edə bilərik ki, müasir dövrdə Azərbaycanda mediasiya fəaliyyəti sahəsində müvafiq dövlət siyasəti həyata keçirilir və bu fəaliyyət növü artıq ümumtanınmış spesifik sferalarından biridir, onun ictimai-siyasi və sosial-hüquqi əhəmiyyəti günbəgün artmaqda davam edərək, mediasiya münasibətləri kütləvi xarakter almışdır. Mediasiya fəaliyyəti coğrafiyasının ictimai-siyasi, sosial-iqtisadi və insan hüquqlarının təminat mexanizmləri istiqamətlərində genişmiqyaslı funksiyalara malik olması amili ölkədə mediasiya münasibətlərinin hüquqi cəhətdən tənzimlənməsini zəruri edir. Təbii ki, belə tənzimləmə mediasiya hüququ vasitəsilə həyata keçirilir.

Şərh olunanları və müasir dövrdə cəmiyyətdə mediasiya xidmətləri spektrinin genişlənməsi proseslərini nəzərə alaraq, zənnimizcə, hüquq doktrinasında (hüquq elmində) formalaşmaqda olan və nisbətən yeni hüquqi qurum kimi “mediasiya hüququ” termininin tətbiq edilməsi daha ağlabatan, əhatəli və uğurlu variantdır. Bu terminin həm də beynəlxalq-hüquqi dövriyyədə və milli qanunvericilik aktlarında işlədilməsi müşahidə olunur. Bəs, mediasiya hüququ dedikdə nə başa düşürük?

İlk növbədə, qeyd etməliyik ki, mediasiya hüququ (MH) fenomeni müxtəlif variantlarda işləndiyinə görə çoxaspektli anlayışdır. Belə ki, o, aşağıda göstərilən dörd əsas mənada işlədilir:

– elm və tədqiqat sahəsi kimi mediasiya hüququ;
– tədris kursu mənasında mediasiya hüququ;
– qanunvericilik mənasında mediasiya hüququ;
– obyektiv mənada mediasiya hüququ.

Elm və tədqiqat sahəsi kimi mediasiya hüququ dedikdə mediasiya hüququna aid olan anlayışlar (mediasiya hüququnun subyektləri, mediasiya hüququnun mənbələri, mediasiya hüququnun prinsipləri, mediasiya-hüquq münasibətləri və digər məsələlər) barədə fikirlər, ideyalar, konsepsiya, nəzəriyyə, postulat, elmi-tədqiqat və s. mülahizə və elmi işlərin məcmusu başa düşülür. Bu mənada onu, həm də mediasiya hüquq elmi (doktrina) kimi qəbul etmək mümkündür. Mediasiya hüquq doktrinası MH sferasına aid olan məsələləri tədqiq edir və öyrənir.

Tədris kursu mənasında mediasiya hüququ (6) tələbələrə və oxucu auditoriyasına MH barədə biliklər və sistemləşdirilmiş informasiya verən tədris kursudur; bu mənada onu mediasiya hüquq tədris fənni kimi də adlandırmaq olar. Belə ki, mediasiya hüququ artıq fənni kimi Bakı Dövlət Universitetinin Hüquq fakültəsində tədris edilir.

Qanunvericilik mənasında mediasiya hüququ dedikdə mediasiya münasibətlərini tənzimləyən normativ hüquqi aktların məcmusu başa düşülür. Bu massivə mediasiya sahəsində mövcud olan beynəlxalq müqavilələr də daxildir. Çünki, Konstitusiyaya görə (maddə 148), Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr onun hüquq sisteminin ayrılmaz tərkib hissəsidir. Buna görə də, mediasiya xidmətinin göstərilməsi ilə bağlı beynəlxalq qaydalar, mediasiya kadrlarının hazırlanmasına dair proqramlar, mediasiya sahəsində beynəlxalq təşkilatlarla əməkdaşlıq, təcrübə mübadiləsi və digər məsələlər barədə beynəlxalq müqavilələr mediasiya qanunvericiliyinə daxildir.

Obyektiv mənasında mediasiya hüququ dedikdə, bir qayda olaraq, mediasiya münasibətlərini tənzimləyən hüquq normalarının sistemi və məcmusu başa düşülür; onlara mediasiya-hüquq normaları deyilir. Buna görə də, obyektiv mənada mediasiya hüququ müvafiq mediasiya-hüquq normalarından ibarətdir. Sözügedən normaların əsas təyinatı və başlıca funksiyası mediasiya münasibətlərini tənzimləməkdən ibarətdir.

Qeyd etmək lazımdır ki, obyektiv mənada mediasiya hüququ milli hüquq sisteminin tərkib hissəsi kimi çıxış edir. Obyektiv mənada mediasiya hüququ bundan sonra, sadəcə olaraq, “mediasiya hüququ” termini ilə əhatə olunacaqdır. Buna görə də, təbii ki, “obyektiv mənada mediasiya hüququ” və “mediasiya hüququ” ifadələri eynimənalı, sinonim anlayışlar kimi başa düşülməlidir.

Cəmiyyətdə mediasiya münasibətlərinin təşəkkül taparaq yaranması və dinamik inkişaf prosesləri aşağıda göstərilən üç vacib obyektiv faktordan əhəmiyyətli dərəcədə asılıdır:

1) real həyatda insan hüquqlarının mediasiya institutu vasitəsilə təmin edilməsi ilə bağlı yaranan ictimai münasibətlər – mediasiya münasibətləri;

2) bu sahədə mövcud olan ictimai münasibətlərin dəqiq müəyyənləşdirilmiş reqlament və qaydalarla nizama salınmasında dövlətin maraqlı olması;

3) müvafiq sferada əsas dialektik başlanğıc norma, prinsip və prosedurların maraqlı dövlət orqan və qurumları tərəfindən müəyyənləşdirilməsi, eləcə də bunun sistemli şəkildə ümumqəbulolunmuş beynəlxalq qabaqcıl təcrübə platforması nəzərə alınmaqla qəbul edilməsi.

Göstərilən faktorlar müasir dövrdə milli praktikada artıq öz real əksini tapmışdır, bu sahədə kompleks hüquq normalar sistemi mövcuddur və bunun vasitəsilə mediasiya fəaliyyətinin effektiv şəkildə tənzimlənməsi həyata keçirilir.

Beləliklə, şərh edilənləri nəzərə alaraq, mediasiya hüququna aşağıdakı kimi lakonik definisiya formalaşdıra bilərik:

– mediasiya hüququ dedikdə ictimai həyatda mediasiya fəaliyyəti rejimini və bu fəaliyyətin həyata keçirilməsi ilə bağlı yaranan mediasiya münasibətlərini tənzimləyən, birbirilə qarşılıqlı dialektik əlaqədə olan kompleks hüquq normalarının sistemi başa düşülür.

Eyni zamanda, məlum olduğu kimi, hüquq sisteminin hər bir tərkib hissəsinin özünəməxsus nizamasalma predmeti vardır. Bu

sözləri, eynilə, mediasiya hüququ (MH) haqqında da söyləmək olar. Belə ki, MH özünəxas nizamasalma predmetinə malikdir. Onun nizamasalma predmeti belə bir suala cavab verir: mediasiya hüququ nəyi, hansı növ ictimai münasibətləri tənzimləyir?

Qeyd etməliyik ki, MH vasitəsi ilə hansı növ ictimai münasibətlər tənzimlənirsə, o münasibətlər də məhz onun nizamasalma predmetini təşkil edir. Bu münasibətləri müəyyənləşdirmək üçün, ilk növbədə, nəzərə almalıyıq ki, əvvəllərdə də qeyd etdiyimiz kimi, mediasiya fəaliyyəti MH-nin genezis-əmələgəlmə əlamətidir. Bu baxımdan, ”mediasiya fəaliyyəti” anlayışı ilə tanış olmaq, onun mahiyyətinə aydınlıq gətirmək lazımdır. Sözügedən anlayışda “mediasiya” ifadəsinin işlədilməsi onu göstərir ki, mediasiya hüququnun əsas və başlıca “işi” məhz mediasiya fəaliyyətinin həyata keçirilməsi nəticəsində yaranan münasibətləri tənzimləməkdən ibarətdir. Məsələ burasındadır ki, müasir dövrdə mediasiya münasibətləri kifayət dərəcədə geniş coğrafi xarakterli anlayış olub, özündə möxtəlif növ ictimai münasibətləri birləşdirir.

Hüquq ədəbiyyatında göstərildiyi kimi, cəmiyyətdə (ictimai həyatda) müxtəlif növ münasibətlər əmələ gəlir. Həmin münasibətlərə aşağıdakılar aiddir: siyasi münasibətlər, iqtisadi münasibətlər, mədəni münasibətlər, təhsil münasibətləri, əxlaqi münasibətlər, mübahisə münasibətləri və s. Bu münasibətlər ictimai həyatda və cəmiyyətdə insan cinsindən olan subyektlər və insan kollektivləri (məsələn, idarə, müəssisə, təşkilat və b.) arasında yarandığına görə ictimai və ya sosial münasibətlər adlanır (7). Əmələ gələn ictimai münasibət höquq norması ilə tənzimlənərsə, belə münasibətə hüquq münasibəti (ingiliscə – legal relation) deyilir.

Həmçinin, qeyd etməliyik ki, hüquq münasibətləri iradəvi münasibətlər sayılır. Bu o deməkdir ki, heç bir kəs (subyekt) öz iradəsindən asılı olmadan, iradəsi ziddinə hüquq münasibətinə girə bilməz. Şəxslər yalnız öz iradələrinə uyğun olaraq, hüquq münasibətlərinə daxil olurlar. Başqa sözlə, hüquq münasibətləri subyektlərin iradəsini ifadə edir.

Yeri gəlmişkən, qeyd olunmalıdır ki, hüquq münasibətləri ictimai sivil həyatın əsas sahələrini təşkil edir. Hüquq mövcud olan yerdə mütləq hüquq münasibətləri də yaranır. Onlar, xüsusilə, sivil cəmiyyətlərdə, hüquqi dövlətlərdə daha çox inkişaf etmişdir. Hüquq münasibətləri insanı bütün ömrü boyu müşayiət edir, necə deyərlər, ona “yol yoldaşı” olur. Buna görə də, hüquq münasibəti hüquq elminin, hüquq nəzəriyyəsinin ən mərkəzi anlayışlarından biridir.

Əgər höquq münasibətləri mediasiya fəaliyyəti sahəsində əmələ gələrsə, onlara mediasiya münasibətləri deyilir; məhz bu münasibətlər MH ilə tənzimlənərək onun nizamasalma predmetinə daxildir. Bu isə, öz növbəsində, belə bir fikir söyləməyə əsas verir ki, mediasiya hüququnun nizamasalma predmetinin zəminində mediasiya fəaliyyətinin həyata keçirilməsi nəticəsində yaranan ictimai münasibətlər durur.

Eyni zamanda, qeyd etməliyik ki, mediasiya fəaliyyəti özündə, mahiyyət etibarilə, aşağıdakı əsas istiqamətləri ehtiva edir:

– ümumi səlahiyyətli beynəlxalq təşkilatlarda (məsələn, BMT, Avropa İttifaqı, Avropa Şurası və b.), mediasiya fəaliyyəti ilə bağlı beynəlxalq tədbirlərdə iştirak etmək, habelə digər aidiyyəti qurumlarla, o cümlədən onların milli və regional strukturları ilə qarşılıqlı əlaqələrin yaradılması;

– beynəlxalq mediasiya münasibətlərində milli mediasiya təşkilatlarının, mediatorların və digər aidiyyəti subyektlər fəaliyyəti;

– mediasiya fəaliyyəti sahəsində zəruri tədbirlərin, müvafiq konfrans, sərgi və simpoziumların təşkili və həyata keçirilməsi;

– mediatorların ilkin hazırlığı, baza mediasiya təlimi və ixtisasın artırılması üzrə mediasiya təlimi qurumlarının yaradılması, habelə bu istiqamətdə müvafiq işlərin həyata keçirilməsi;

– mediasiya fəaliyyəti sahəsində əhalinin maarifləndirilməsi, eləcə də mediasiya fəaliyyətində əmək və sosial münasibətlər;

– mediasiya fəaliyyətinin maliyyələşdirilməsinin hüquqi tənzimlənməsi və sığorta münasibətləri, həmçinin mediasiua fəaliyyəti sferasında maddi dəstək;

– mediasiya fəaliyyəti sahəsində hüquqi tənzimləmənin və nəzarətin həyata keçirilməsi, mediasiya qanunvericiliyinin pozulmasına görə məsuliyyət tədbirləri, mediasiyanın inkişafi məqsədilə əməkdaşlıq və s. məsələlər.

Göstərilən siyahı qəti deyil. Belə ki, o, müasir dövrdə mediasiya fəaliyyətinin yeni yarana biləcək digər istiqamətləri ilə də genişləndirilə bilər: məsələn, idman-hüquq münasibətlərindən yaranan mübahisələr, tibb-hüquq münasibətlərindən yaranan mübahisələr, təhsil-hüquq münasibətlərindən yaranan mübahisələr və s. Mediasiya fəaliyyətinin sadalanan istiqamətləri ilə bağlı müxtəlif subyektlər arasında yaranan orqanik kompleks ictimai münasibətlər – mediasiya münasibətləri MH-nin tənzimləmə predmetini təşkil edir.

Mediasiya münasibətləri öz məzmununa görə son dərəcə müxtəlifdir. Belə ki, həmin münasibətlər mediasiya sahəsində həyata keçirilən əməkdaşlığın digər istiqamətlərində də yarana bilər. Bu baxımdan, yəni məzmununa görə mediasiya münasibətlərini aşağıdakı növlər (qruplar) özrə fərqləndirmək mümkündür:

– mlki işlər və kommersiya mübahisələri (xarici elementli mübahisələr də daxil olmaqla) üzrə yaranan mediasiya münasibətləri;

– ailə mübahisələri ilə bağlı yaranan mediasiya münasibətləri;

– əmək mübahisələri ilə bağlı əmələ gələn mediasiya münasibətləri;

– inzibati hüquq sferasında mübahisələrin həlli ilə bağlı əmələ gələn mediasiya münasibətləri;

– məhkəmə mediasiyası ilə əlaqədar yaranan mediasiya münasibətləri və sairə (MHQ, müvafiq olaraq – maddə 3.1.1-3.1.4 və 31).

Eyni zamanda, mediasiya münasibətləri mediasiya fəaliyyətinin həyata keçirilməsi ilə bağlı digər istiqamətlərdə də yaranır: mübahisələrin alternativ həlli spektri (MAH), mübahisə nəzəriyyəsi və mübahisələrin dinamikası, danışıqlar nəzəriyyəsi, mediasiyanın mərhələləri (“ADR Center” matrisi), mediasiyada təmsilçilik, məhkəmə tərəfindən işin mediasiyaya göndərilməsi üzrə CEPEJ təlimatı, mediasiya etikası, razılaşdırılmış sazişə ən yaxşı alternativ (RƏYA), razılaşdırılmış sazişə ən pis alternativ (RƏPA), SMART barışıq sazişi, mümkün razılaşma zonası (MRZ) və s.

Göstərilən mediasiya münasibətlər qrupu məcmu halında birləşərək MH-nin nizamasalma predmetini təşkil edir. Elə buradaca, dərhal qeyd etməliyik ki, həmin münasibətlər, əsasən, fiziki və hüquqi şəxslər, eləcə də hüququn digər subyektləri arasında yaranır. Belə ki, mediasiya münasibətlərində öz hüquqi statusuna və xarakterinə görə müxtəlif subyektlər iştirak edirlər; subyekt tərkibindən asılı olaraq, həmin münasibətləri ənənəvi

şəkildə yeddi növ (qrup) halında təsnifləşdirmək mümkündür: 1) publik hüquqi şəxslərin öz aralarında mediasiya münasibətləri; 2) xüsusi hüquqi şəxslərin öz aralarında mediasiya münasibətləri; 3) fiziki şəxslərin öz aralarında mediasiya münasibətləri; 4) publik hüquqi şəxslərlə xüsusi hüquqi şəxslər arasında mediasiya münasibətləri; 5) fiziki şəxslərlə publik höquqi şəxslər arasında mediasiya münasibətləri; 6) fiziki şəxslərlə xüsusi hüquqi şəxslər arasında mediasiya münasibətləri; 7) qarışıq şəxslər arasında yaranan mediasiya münasibətləri.

Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, xarici elementin iştirak etdiyi mübahisələrə – xarici iqtisadi mübahisələrə və ya beynəlxalq kommersiya mübahisələrinə baxmaqdan ötrü mübahisə edən tərəflər özləri kommersiya arbitrajı da yarada bilərlər. Kommersiya arbitrajı dedikdə dövlət məhkəmə sisteminə daxil olmayan münsiflər məhkəməsi başa düşülür.

Mediasiya münasibətlərini həm də konkret mediasiya fəaliyyəti üzrə həyata keçirilən tədbirlərə görə təsnifləşdirmək olar: məsələn, mediator-kadr hazırlığı üzrə mediasiya münasibətləri, təcrübə mübadiləsi və qabaqcıl metodların öyrənilməsi üzrə mediasiya münasibətləri, mediasiya sektorunda möasir innovasiya və ən yüksək texnologiyaların tətbiq edilməsi ilə bağlı yaranan ictimai mönasibətlər və s.

Eyni zamanda, mediasiya münasibətlərini höquqi təbiətinə görə də fərqləndirmək mümkündür. Belə ki, əgər mediasiya hüququnun nizamasalma predmetinə daxil olan ictimai münasibətlər mediasiya fəaliyyəti sahəsində publik hüquq subyektləri arasında yaranarsa, belə münasibətlər publik mediasiya-hüquq münasibətləri sayılır. Məsələn, mediasiya fəaliyyətinin təşkili və idarə edilməsi sahəsində dövlət, Nazirlər Kabineti və mərkəzi icra hakimiyyəti orqanları, eləcə də məhkəmələr tərəfindən qəbul edilən hakimiyyət xarakterli aktların icrası ilə bağlı yaranan münasibətlər publik mediasiya-hüquq münasibətləri sirasına daxildir.

Xüsusi mediasiya-hüquq münasibətləri isə mediasiya fəaliyyətinin həyata keçirilməsi sahəsində ayrı-ayrı fiziki və hüquqi (qeyri-publik) şəxslər arasında yaranar. Məsələn, mübahisə tərəfləri, mediator, mediasiya təşkilatı və mediasiya prosesində iştirak edən digər şəxslər (vəkil, təmsilçi, tərcüməçi və s.) arasında əmələ gələn ictimai münasibətlər xüsusi mediasiya-hüquq münasibətləridir.

Beləliklə, mediasiya hüququnun nizamasalma predmetini təşkil edən ictimai münasibətlər qrupuna iki aspektdən yanaşmaq lazımdır:

– birinci, publik mediasiya-hüquq münasibətləri;

– ikinci, xüsusi mediasiya-hüquq münasibətləri.

## İSTİFADƏ EDİLMİŞ MƏNBƏLƏR


1. Ətraflı bax: Юридическая энциклопедия / Под ред. М.Ю.Тихомирова. М., 2005, с.480.
2. Bu barədə ətraflı bax: Beynəlxalq münasibətlər lüğəti / B. S. Atakişiyev. Bakı, 2009, s.88-89.
3. Ətraflı bax: Leonardo D'Urso, Konstantin-Adi Qavrila. Mediatorlar üçün mediasiya təlimi üzrə tədris vəsaiti. Bakı, ADRcenter, 2020, s.40.
4. Bu və digər kateqoriya anlayışlar barədə ətraflı bax: məsələn, "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu / Buraxılışa məsul: B.C.Kərimli. Bakı, "Hüquq Yayın Evi", 2019, 36 s.
5. İnzibati icraatla bağlı münasibətlərin tənzimlənməsi barədə ətraflı bax: məsələn, "İnzibati icraat haqqında" Azərbaycan Respublikası

Qanununun kommentariyası / A.Abdullayev, E. Abdullayev.Bakı, Qanun, 2007, 288 s.
6. Məsələn, bax, "Mübahisələrin alternativ həlli" magistr tədris Proqramı / Tərtib edənlər: E.A.Xələfov, M.A.Mirzəyev. Bakı, Bakı Universiteti Nəşriyyatı", 2018,12 s. Mövzu 13. Mediasiyanın aparılması qaydası.
7. Ətraflı bax: Allahverdiyev S.S. Konstitusiya və hüququn əsasları. Dərslik. 8-ci nəşr. Bakı: "Hüquq Yayın Evi", 2018, s.134-135.
8. Ətraflı bax: Юридическая энциклопедия / Под ред. М.Ю.Тихомирова. М., 2005, с.677-678.
9. Ətraflı bax: "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu / Buraxılışa məsul: B.C.Kərimli. Bakı, "Hüquq Yayın Evi", 2019, 36 s.
10. Bu məsələlər barədə ətraflı bax: Leonardo D'Urso, Konstantin-Adi Qavrila. Mediasiyanın əsas iştirakçılarının təlimi üçün tədris vəsaiti. Bakı, ADRcenter, 2020, 112 s.
11. Bu barədə ətraflı bax: Allahverdiyev S.S. Azərbaycan Respublikasının beynəlxalq xüsusi (mülki) hüquq kursu. Dərslik. II nəşr. Bakı: «Hüquq Yayın Evi», 2021, s.773-777.

## МЕДИАЦИОННОЕ ПРАВО В СОВРЕМЕННЫЙ ПЕРИОД – ПОНЯТИЕ И ПРЕДМЕТ

**Алиев Этибар Али оглы,**
**профессор кафедры ЮНЕСКО «Права человека и информационное право» юридического факультета Бакинского государственного университета, доктор юридических наук.**
электронная почта: a-etibar@rambler.ru;
**Гусейнова Фатима Этибар кызы,**
**Бакинский государственный университет, Юридический факультет, Кафедра международного частного права и европейского права, доцент, доктор философии по праву.**
э-почта: lawyer.fatima85@gmail.com;
**Мирзаева Лейла Эйтибар кызы,**
**судья Сумгайытского административного суда.**
электронная почта: leylamirzayeva88@mail.ru

В статье авторы научно исследуют понятие медиативного права и предмет его регулирования, который формируется в современный период. Отмечается, что медиативное право означает систему и совокупность сложных правовых норм, регулирующих медиативные отношения в обществе. Феномен медиативного права также является многогранным понятием, поскольку применяется в разных вариантах - медиативное право как научно-исследовательская область, медиативное право в смысле учебного курса, медиативное право в законодательном смысле.

**Ключевые слова:** права человека, медиативная деятельность, медиативное право, медиативные отношения, медиатор, медиативные организация, спор, стороны, переговоры.

## MEDIATION LAW IN THE MODERN PERIOD – CONCEPT AND SUBJECT

**Aliyev Etibar Ali oglı,**
**Professor of the UNESCO Chair "Human Rights and Information Law", Faculty of Law, Baku State University, Doctor of Law.**
e-mail: a-etibar@rambler.ru;

**Huseynova Fatima Etibar gizi,**
**Baku State University, Faculty of Law Department of International Private Law and European Law,Associate Professor, doctor of philosophy in the field of law.**
e-mail: lawyer.fatima85@gmail.com;

**Mirzayeva Leyla Eytibar gizi,**
**judge of Sumgayit Administrative Court.**
e-mail: leylamirzayeva88@mail.ru

In the article, the authors scientifically examine the concept of mediation law and the subject of regulation, which is being formed in the modern period. It is noted that mediation law means the system and set of complex legal norms that regulate mediation relations in society. The phenomenon of mediation law is also a multifaceted concept as it is developed in different variants - mediation law as a science and research field, mediation law in the sense of educational course, mediation law in the legislative sense.

**Key words:** human rights, mediation activity, mediation law, mediation relations, mediator, mediation organization, dispute, parties, negotiations.

## MODERN DÖNEM ARABULUCULUK HUKUKU – KAVRAM VE KONU

**Aliyev Etibar Ali oğlu,**
**Bakü Devlet Üniversitesi Hukuk Fakültesi "İnsan hakları ve bilgi hukuku" UNESCO kürsüsü profesörü, Hukuk Doktoru.**
e-posta: a-etibar@rambler.ru;

**Hüseynova Fatima Etibar kızı,**
**Bakü Devlet Üniversitesi, Hukuk Fakültesi, Uluslararası Özel Hukuk ve Avrupa Hukuku Anabilim Dalı,doçent, hukuk alanında felsefe doktoru.**
e-posta: lawyer.fatima85@gmail.com;

**Mirzayeva Leyla Eytibar kızı,**
**Sumgayıt İdare Mahkemesi hakimi.**
e-posta: leylamirzayeva88@mail.ru

Makalede yazarlar, modern dönemde şekillenmekte olan arabuluculuk hukuku kavramını ve düzenleme konusunu bilimsel olarak incelemektedir. Arabuluculuk hukukunun, toplumdaki arabuluculuk ilişkilerini düzenleyen karmaşık yasal normlar sistemi ve bütünü anlamına geldiği belirtilmektedir. Arabuluculuk hukuku olgusu da bilim ve araştırma alanı olarak arabuluculuk hukuku, eğitim-öğretim anlamında arabuluculuk hukuku, yasama anlamında arabuluculuk hukuku gibi farklı varyantlarda geliştiği için çok yönlü bir kavramdır.

**Anahtar kelimeler:** insan hakları, arabuluculuk faaliyeti, arabuluculuk hukuku, arabuluculuk ilişkileri, arabulucu, arabuluculuk organizasyonu, uyuşmazlık, taraflar, müzakereler.

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN BEYNƏLXALQ HÜQUQ SUBYEKTLİYİNİN KONTİNUİTETİ ÜZRƏ TƏDQİQATIN ELMİ-PRAKTİK ƏHƏMİYYƏTİ

**Rəhimli S.M.**
**Bakı Dövlət Universiteti "İnsan hüquqları və informasiya hüququ" UNESKO kafedrası, hüquq üzrə fəlsəfə doktoru.**
sefterrehimli@yahoo.com

*Məqalədə Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq hüquq subyektliyinin Azərbaycan Respublikasının beynəlxalq hüquq subyektliyi ilə identikliyinin qiymətləndirilməsinin elmi-praktik tədqiqinin beynəlxalq hüquq doktrinası, xarici siyasət kursu üçün əhəmiyyətinə diqqət edilməsinə vurğu edilir. Qeyd edilir ki, dövlətlərin yaranması və ölməsi siyasət elminin də problemlərindən olduğu üçün Azərbaycan Respublikasının beynəlxalq hüquq subyektliyinin öyrənilməsində hüququn və siyasətin "payı" müəyyən edilməlidir. Dövlətlərin davranışlarını formalaşdıran siyasi normaları təhlili etmədən hüquq normalarının məzmununun müəyyənləşdirilməsi də səmərəli olmaz. Beynəlxalq hüquq normaları siyasət normaları olmadan implementasiya edilə bilməz. Bu anlamda dövlət müstəqilliyin bərpası zamanı bu iki problemin həllində həm hüququn, həm də siyasətin yerinə diqqət edilməlidir.*

**Açar sözlər:** Azərbaycan Xalq Cümhuriyyəti, suverenlik, işğal, beynəlxalq hüquq, beynəlxalq əlaqələr, dövlətin davamlılığı

Bir xalqın həyatda qalmasını şərtləndirən ən vacib məsələlərdən biri onun siyasi hakimiyyətini yaratmaq və onun qırılmazlığını (davamlılığını) təmin etməkdir. Siyasi hakimiyyəti təsis etmək nə qədər çətin və mürəkkəb işdirsə, dövlət qurduqdan sonra onu yaşatmaq da bir o qədər problemlidir. Əgər bir dəfə bu problem həll edildisə o halda həmin xalqın dünya ölkələri arasında imzası bir qayda olaraq mübahisələndirilmir.

Qoca Şərqdə dövlət forması kimi ilk dəfə xalq hakimiyyətini (respublika) təsis edən siyasi elitanın öndərlərindən M.Ə.Rəsulzadənin deyimi ilə "bir kərə yüksələn bayraq bir daha enməz". Haqqında bəhs edilən bayraq Azərbaycan dövlətini simgələyir.

Şimalda Dərbənddən başlayaraq cənubda Həmədan və Zəncana, qərbdə İberiyadan başlayaraq şərqdə Xəzər dənizinə qədər olan ərazilər qədim dövrlərdən başlayaraq "Azərbaycan" adı ilə tanınmışdır [11, s.10; 4, s.8; 3, s.136]. Məhəmməd Həsən Vəliyev (Baharlı) 1921-ci ildə Bakıda nəşr etdiyi kitabında yazırdı: "61 3/4° və 68 1/5° şərq və 41 5/6° və 36 1/2° şimal uzunluq dairəsi arasında, yaxud Xəzər dənizi və Urmiya gölünün qərb sahilləri arasında və Samur çayı ilə Baqraudağ arasında yerləşən ölkə ta qədimdən bəri Azərbaycan (Qafqaz və İran) adı ilə məşhurdur" [9, s.3]. Eramızdan əvvəl III minillikdə Azərbaycan ərazisində ilk dövlət qurumları, e.ə. I minillikdə isə Azərbaycanın cənub ərazilərində daha təkmil və geniş əraziləri əhatə edən dövlətlər olan Manna (e.ə. IX əsrin ortaları

– e.ə. 590-cı il) və Atropatena (e.ə. 323 – b.e. 20-ci illəri) dövlətləri, Araz çayından şimaldakı ərazilərdə isə Albaniya (e.ə. IV əsrin II yarısı – 705-ci il) dövləti yarandı və bu dövlət qurumları regionun hərbi-siyasi tarixində mühüm rol oynadılar. III əsrdə müvəqqəti olaraq Azərbaycan sasanilərin təsirinə düşür. Bu zaman Azərbaycanın cənubundan (Atropatena) fərqli olaraq, ölkənin şimalı (Albaniya) nominal da olsa müstəqilliyini qoruya bildi. Hətta Sasani və Ərəb xilafəti əsarəti dövründə Azərbaycanın bütün ərazilərinin vahid iqtisadi məkan, vahid din, vahid mədəniyyət kimi amillər ölkədə vahid xalqın və dilin təşəkkülünün qarşısını ala bilməmişdir. XI əsrin ortalarında Böyük Səlcuq imperiyası, Böyük Səlcuq imperiyasından sonra şimalda Şirvanşahlar dövləti, eyni zamanda Kür çayından cənubdakı Azərbaycan ərazilərini özündə birləşdirən Atabəylər (Eldənizlər) dövləti (1136-1225) Azərbaycan dövlətçiliyi tarixində çox mühüm rol oynadılar. XIII əsrin 20-ci illərindən Hülakilər (Elxanilər) dövlətinin (1258-1357) tərkibinə daxil edilsə də [5, s.97] XV əsrdə Azərbaycan ərazisində yaranan Qaraqoyunlu (1410-1468) və Ağqoyunlu (1468-1501/1503) dövlətləri, XVI-XVIII əsrlərdə mövcud olmuş Səfəvi imperiyası (1501-1736) və Nadir şah imperiyası (1736-1747) bütün Azərbaycan torpaqlarını özündə birləşdirməklə yanaşı, qonşu ölkələri də imperiyanın tərkibinə daxil etməklə dövrün geniş ərazili və qüdrətli imperiyalarına çevrildilər. Bu imperiyalar Azərbaycan sülalələri tərəfindən idarə olunurdu. Səfəvi imperiyası Fəratdan Qəndəhara, Qafqazdan Hind okeanına qədər 2,8 mln. km2-dən ibarət geniş bir ərazini əhatə edirdi. Səfəvi imperiyası dövründə Azərbaycan ərazisi 400 min km2-dən çox idi [6, s.71-72]. 1747-ci ildə Nadir şahın ölümündən sonra Azərbaycan ərazisində 20 xanlıq dövrü başlayır [8, s.176,186,197-198; 6, s.83-91]. 1747-ci ildən etibarən yarım əsrdən çox davam edən siyasi böhran və pərakəndəlik Azərbaycan ərazisini işğal etməyə çalışan yadelli işğalçılar üçün əlverişli şərait yaratdı. XVIII əsrin sonlarına yaxın hakimiyyətə yiyələnən Qacarlar (1796-1925) da mərkəzi hakimiyyəti tam qura bilmədilər və 1803-cü ildən başlayan Rusiya işğalı 1813-cü il Gülüstan və 1828-ci il Türkmənçay müqaviləsi ilə nəticələndi [2, s.48; 7, s.584-585]. Araz çayından şimaldakı Şimali Azərbaycan əraziləri Rusiyanın, Cənubi Azərbaycan əraziləri isə indiki İranın tərkibinə qatıldı. Bununla da, müstəqil Azərbaycan dövlətçiliyi itirildi və onun ərazi bütövlüyü pozuldu. Vahid Azərbaycan ölkəsi bölünmüş ölkələr sırasına, vahid Azərbaycan xalqı da bölünmüş xalqlar sırasına daxil oldu. Yeni siyasi-coğrafi anlayışlar olan "Şimali Azərbaycan" və ya "Rusiya Azərbaycanı" və "Cənubi Azərbaycan" və ya "İran Azərbaycanı" anlayışları meydana gəldi.

I Dünya müharibəsində məğlub olan Rusiya imperiyasının 1917-ci ildə süqutu Cənubi Qafqaz xalqlarının müstəqilliyinin bərpasına rəvac vermiş oldu. 1918-ci il mayın 28-də Azərbaycan Cümhuriyyətinin yaranması ilə XIX əsrin əvvəllərində itirilmiş Azərbaycan dövlətçiliyi yüz ildən artıq davam edən müstəmləkə əsarətindən sonra bərpa edilmiş oldu. İstiqlal Bəyannaməsində deyilirdi: "1. Bu gündən etibarən Azərbaycan xalqı hakimiyyət haqqına malik olduğu gibi Cənubi-Şərqi Zaqafqaziyadan ibarət olan Azərbaycan dəxi kamil-əl-hüquq müstəqil bir dövlətdir [1, s.3; 10, s.122,124,127]. Azərbaycan dövlətinin təsis edilməsi beynəlxalq birlik tərəfindən tanınmış və Azərbaycan Xalq Cüm-

huriyyəti kimi beynəlxalq hüquq subyektliyi əldə edilir. Lakin 1920-ci ildə bu dəfə kommunist Rusiyası tərəfindən təcavüzə məruz qalan Azərbaycan Xalq Cümhuriyyəti hakimiyyət formasını mühacirətdə davam etdirmək məcburiyyətində qalır. Bu dövlətin atributlarında xalqın iradəsi o qədər güclü olmuş ki, Rusiya özünün siyasi sisteminə bənzər də olsa Sovet Azərbaycanı "dövləti"ni təsis etmək məcburiyyətində qalmışdır. 1991-ci ilə kimi davam edən işğal dönəmi SSRİ-nin süqutu ilə nəticələnmiş və Azərbaycan Respublikasının şəxsində Azərbaycan Xalq Cümhuriyyəti özünün beynəlxalq hüquq subyektliyini bərpa etmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq hüquq subyektliyinin qiymətləndirilməsi zamanı onun bəyan etdiyi ideologiyanın, ərazisi və əhalisinin (xalqının) əsasında hüquqi təbiəti dəyərləndirilir. Bu dövlətin qəbul etdiyi atributlarla özündən əvvəlki Azərbaycan dövlətləri ilə, onların əhalisi və ərazisi ilə hansı oxşar sosial, coğrafi, siyasi identikliyin daşıyıcısı olması ilə bərabər, həm də ərazisinin işğalından sonra hansı siyasi-hüquqi keyfiyyətdə suverenliyini davam etdirməsi və ya miras buraxması məsələsinin müəyyən edilməsi dövlətçiliyin yaşadılması baxımdan olduqca vacib məsələdir. Xüsusilə də, hər hansı bir dövlətin təcavüzə məruz qalması ilə onun davamlılığının (kontinuitetinin) dövlətlərin praktikasında nə kimi qarşılıqlığının olması, beynəlxalq hüququn və siyasətin rolunun müəyyən edilməsi həlli zəruri olan məsələlərdəndir. Hüquqi varislikdən fərqli olaraq dövlətin davamlılığı onun yenidən işğalına "iddialı olmanı" bir növ önləməyə xidmət etməkdədir. Həmçinin "dövlətli xalq" anlayışını bərqərar edir. Digər tərəfdən, varislik qaydasında yenidən yaradılma tanınma kimi siyasi problemi meydana gətirir və bununla da tanınan dövlət, o cümlədən hökumət (məsələn, müasir dövrdə Əfqanıstanda Taliban hökuməti) üçün həlli vacib olan bir sıra ciddi beynəlxalq xarakterli iqtisadi, sosial və s. problemlərin həlli zərurəti meydana gəlir. Dövlətin daxili sabitlik və təhlükəsizliyi də bu problemlərin həllindən asılı olur.

Post çarizm məkanında Azərbaycan Xalq Cümhuriyyətinin yaranması digər, o cümlədən Finlandiya, Polşa, Latviya, Litva, Estoniya, Gürcüstan və d. dövlətlərin də yaranması dövrünə təsadüf edir. Sonradan bu dövlətlərin təcavüzə məruz qalmaları ilə onların beynəlxalq hüquq subyektliyinin davam etdirilib-etdirilməməsi və müstəqilliyin bərpası zamanı tanınması problemi birmənalı hüquqi cavablandırılma zərurəti yaratmışdır. Bəzi müəlliflər məsələnin "pozitiv beynəlxalq hüquq" [12, s.48-49; 13, s.50-51] və ya "hüquq sistemi" [14, s.108] çərçivəsində qiymətləndirilməsinin mümkün olmadığı qənaətini də irəli sürməkdədirlər. Həmin müəlliflərin mövqeyi ilə o halda razılaşmaq olar ki, əlbəttə kontinuitetlə (necə ki, tanınma ilə) əlaqəli kodifikasiya aktı yoxdur, lakin beynəlxalq hüququn digər aktlarında, adət hüquq praktikasında belə normaların olması istisna deyil. Digər tərəfdən, XX əsrin 20-ci illərinin əvvəllərində Rusiyanın müstəqil dövlətlərə qarşı təcavüzünün "dövrün hüquq sistemi çərçivəsində qiymətləndirilməsinin mümkün olmaması qənaəti" [14, s.108] də mübahisəlidir. Qanunsuz anneksiyanın qadağan edilməsinin ilk əsasları Millətlər Liqasının Statutunda (m.10), beynəlxalq humanitar hüququn döyüş qaydaları üzrə ilk kodifikasiya normaları 1907-ci il Haaqa Konvensiyalarında təsbit edilmişdi.

Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq hüquq subyektliyinin Azərbaycan Respublikasının beynəlxalq hüquq subyektliyi ilə identikliyinin qiymətləndirilməsi hüquqi-siyasi əhəmiyyətə malikdir. Dövlətlərin tanınmasında olduğu kimi beynəlxalq hüquq subyektliyinin kontinuitetinin qəbulu da tanıyan dövlətlərin iradəsindən asılıdır. Müstəqilliyin bərpası zamanı bu iki problemin fərqli xüsusiyyətlərin bilərəkdənmi, yoxsa bilmədən bəzi aktlarda Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq hüquq subyektliyindən, onun davamlılığından (kontinuitetindən) deyil, "hüquqi varisliyindən", "varisliyindən" bəhs edilir. Bu hal Azərbaycan Respublikasının həm beynəlxalq müqavilələri (o cümlədən yenidən tanınma), həm də daxili aktları üçün xarakterik olub. Baxmayaraq ki, hər iki dövlətin bir çox atributları (məsələn, dövlət rəmzləri, xalqın sosial, milli - etnik əlamətləri, bəyan edilmiş siyasət, idarəçilik forması və inzibati ərazi quruluşu, coğrafi ərazi mənsubiyyəti və s.) tamamilə identikliyə malikdir. Ona görə də Azərbaycan Respublikasının beynəlxalq hüquq subyektliyinin hansı keyfiyyətdə təsisi, yoxsa bərpasının müəyyən edilməsinin həlli xarici siyasət kursu baxımında da əhəmiyyətlidir. Nəzərə alsaq ki, dövlətlərin yaranması və ölməsi siyasət elminin də problemlərindən olduğu üçün Azərbaycan Respublikasının beynəlxalq hüquq subyektliyinin öyrənilməsində hüququn və siyasətin "payı" müəyyən edilməlidir. Dövlətlərin davranışlarını formalaşdıran siyasi normaları təhlili etmədən hüquq normalarının məzmununun müəyyənləşdirilməsi də səmərəli olmaz. Beynəlxalq "hüquq normaları əxlaq və siyasət normaları ilə qarşılıqlı əlaqəyə malikdir" [15, s.127-133], onlar olmadan hüquq normaları implementasiya edilə bilməz. Bu anlamda dövlət müstəqilliyin bərpası zamanı bu iki problemin həllində həm hüququn, həm də siyasətin yerinə diqqət edilməlidir. İfadə edilən problemlərin həlli Azərbaycan beynəlxalq hüquq doktrinası, xarici siyasət kursu üçün nə qədər əhəmiyyət kəsb edirsə, bir o qədər də beynəlxalq hüquq və beynəlxalq siyasət üçün əhəmiyyətlidir.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI


1. Azərbaycan Cümhuriyyətinin İstiqlal Bəyannaməsi (Tiflis: 28 may 1918-ci il) // Azərbaycan Respublikası Dövlət Arxivi, Fond № 894, siyahı № 10, iş № 192, vərəq – 3;
2. Azərbaycan tarixi. 7 cilddə, IV cild, Bakı: Elm, 2000, 508 s.
3. Bünyadov Z. Azərbaycan VII-IX əsrlərdə. Bakı: Azərnəşr, 1989, 336 s.
4. İsmayılov R. Azərbaycan tarixi. Bakı: Azərnəşr, 1993, 144 s.
5. Piriyev V. Azərbaycan XIII-XIV əsrlərdə. Bakı: "Nurlan", 2003, 458 s.
6. Piriyev V. Azərbaycanın tarixi-siyasi coğrafiyası. Bakı: "Müəllim" nəşriyyatı, 2006, 148 s.
7. Süleymanov M. Türkmənçay müqaviləsi. Bakı: Elm və Təhsil, 2015, 744 s.
8. Şükürov K. Azərbaycan tarixi. 3 hissədə. II hissə. Ən qədim zamanlardan bizim günlərədək: Dövrlər, hadisələr, sinxronlaşdırılmış cədvəllər. Üçüncü nəşri. Bakı, Bakı Universiteti nəşriyyatı, 2004, 380 s.
9. Vəliyev (Baharlı) M.H. Azərbaycan (Fiziki-coğrafi, etnoqrafik və iqtisadi oçerk). Bakı: "Azərbaycan" nəşriyyatı, 1993, 192 s.
10. Zaqafqaziya Seyminin Müsəlman fraksiyası və Azərbaycan Milli Şurası iclaslarının protokolları / məsul red. A.Ə.Paşayev. Bakı: Adiloğlu, 2006, 216 s.
11. Zeynaloğlu C. Müxtəsər Azərbaycan tarixi. Bakı: Azərbaycan Dövlət Kitab Palatası, 1992, 144s.
12. Dörr Oliver. Die Inkorporation als Tatbestand der Staatensukzession. Berlin: Duncker & Humblot, 1995. 434s.

13. Zimmermann A. Staatennachfolge in völkerrechtliche Vertrage. Zugleich ein Beitrag zu den Moglichkeiten und Grenzen völkerrechtlicher Kodifikation. Berlin: Springer, 2000. 1012s.
14. Aron R. Peace and War: A Theory of International relations. R. Howard and A. Buker Fox. Garden City. NY: Doubleday, 1966, 846p.
15. Tomuschat C. Ethos, Ethics and Morality İn International Relations. EPIL – 9, 1986, p.127-133

## THE SCIENTIFIC AND PRACTICAL SIGNIFICANCE OF THE RESEARCH ON THE CONTINUITY OF THE SUBJECT OF INTERNATIONAL LAW OF THE AZERBAIJAN DEMOCRATIC REPUBLIC

**Dr. Saftar Rahimli,**
**Baku State University Faculty of Law "Human rights and right to information" UNESCO Chair.**
sefterrehimli@yahoo.com

The article emphasizes the importance of the scientific-practical study of the assessment of the identity of the international legal subject of the Azerbaijan Democratic Republic with the international legal subject of the Republic of Azerbaijan for the international law doctrine and foreign policy course. It is noted that the "share" of law and politics should be determined in the study of the subject of international law of the Republic of Azerbaijan, as the birth and death of states is one of the problems of political science. Determining the content of legal norms will not be effective without analyzing the political norms that shape the behavior of states. International legal norms cannot be implemented without political norms. In this sense, attention should be paid to the role of both law and politics in solving these two problems during the restoration of state independence.

**Keywords:** Azerbaijan Democratic Republic, sovereignty, occupation, international law, international relation, state kontinuitet,

## AZERBAYCAN DEMOKRATİK CUMHURİYETİ'NİN ULUSLARARASI HUKUK KONUSUNUN DEVAMLILIĞINA İLİŞKİN ARAŞTIRMANIN BİLİMSEL VE PRATİK ÖNEMİ

**Dr.Saftar Rahimli,**
**Bakü Devlet Üniversitesi Hukuk Fakultesi "İnsan hakları ve bilgi edinme hakkı" UNESCO bölümü.**
sefterrehimli@yahoo.com

Makalede, uluslararası hukuk doktrini ve dış politika konusu için Azerbaycan Demokratik Cumhuriyeti'nin uluslararası hukuk öznesinin Azerbaycan Cumhuriyeti'nin

uluslararası hukuk öznesi ile özdeşliğinin değerlendirilmesinin bilimsel-pratik çalışmasının önemi vurgulamaktadır. Devletlerin doğumu ve ölümü siyaset biliminin sorunlarından biri olduğundan, Azerbaycan Cumhuriyeti'nin uluslararası hukuk konusunun incelenmesinde hukuk ve siyasetin "payının" belirlenmesi gerektiğine dikkat çekilmektedir. Hukuki normların içeriğinin belirlenmesi, devletlerin davranışlarını şekillendiren siyasi normlar analiz edilmeden etkili olmayacaktır. Uluslararası hukuk normları siyasi normlar olmadan uygulanamaz. Bu anlamda devletin bağımsızlığının yeniden tesis edilmesi sürecinde bu iki sorunun çözümünde hem hukukun hem de siyasetin rolüne dikkat ediliyor.

**Anahtar Kelimeler:** Azerbaycan Halk Cumhuriyeti, egemenlik, işgal, uluslararası hukuk, uluslararası ilişkiler, devletin sürekliliği

## НАУЧНО-ПРАКТИЧЕСКАЯ ЗНАЧИМОСТЬ ИССЛЕДОВАНИЯ ПРЕЕМСТВЕННОСТИ СУБЪЕКТА МЕЖДУНАРОДНОГО ПРАВА АЗЕРБАЙДЖАНСКОЙ ДЕМОКРАТИЧЕСКОЙ РЕСПУБЛИКИ

**к.ю.н. Сафтар Рагимли**
**Бакинский Государственный Университет Юридический факультет**
**"Права человека и право на информацию» кафедра ЮНЕСКО.**
sefterrehimli@yahoo.com

В статье подчеркивается важность научно-практического исследования оценки тождества международно-правового субъекта Азербайджанской Демократической Республики с международно-правовым субъектом Азербайджанской Республики для международно-правовой доктрины и внешнеполитического курса. Отмечается, что «доля» права и политики должна определяться при изучении предмета международного права Азербайджанской Республики, так как рождение и гибель государств является одной из проблем политической науки. Определение содержания правовых норм не будет эффективным без анализа политических норм, формирующих поведение государств. Международно-правовые нормы не могут быть реализованы без политических норм. В этом смысле следует обратить внимание на роль как права, так и политики в решении этих двух проблем при восстановлении государственной независимости.

**Ключевые слова:** Азербайджанская Демократическая Республика, суверенитет, оккупация, международное право, международное отнощение, продолжительность государства

# ERMƏNİ TERRORİZMİ İLƏ MÜBARİZƏ GÜCLƏNDİRLMƏLİDİR

**Səidə HƏSƏNZADƏ,**
**hüquq üzrə elmlər doktoru.**
e-mail:saidahasan@gmail.com

**Açar sözlər:** beynəlxalq hüquq, qadınlar, uşaqlar, hüquqların pozulması, Dağlıq Qarabağ, mühafizə, müdafiə, çoxsaylı faktlar.

Daşnaqsütun ideoloqlarının yüz ildən çoxdur ki, dövriyyəyə buraxdığı erməni seperatizmi,"dənizdən–dənizə uzanan böyük Ermənistan" yaratmaq xülyası Cənubi Qafqazda mübahisələrin və münaqişələrin, müharibə və terrorun qızışdırılmasında stimulverici rol oynamaqdadır. Erməni - Azərbaycan münaqişəsinin tarixi isə 200 ildən çoxdur ki, davam edir. Azərbaycan zaman-zaman ən müxtəlif üsul və vasitələrlə həyata keçirilən terror hadisələrinin qurbanına çevrilmiş, ərazilərini itirmiş, bir millət kimi parçalanmış, insanlar öz vətənindən didərgin düşmüş və olmazın zülmlərini yaşamışdır. Sonuncu dəfə 1988-ci ilin fevral ayından başlayan yeni qlobal terror dalğası bu gün də davam etməkdədir.

Son illərin statistikası göstərir ki, Azərbaycana qarşı Ermənistanın dövlət terror təşkilatları tərəfindən təxminən 400-ə yaxın, daha dəqiq desək, 373 terror aktı törədilmişdir ki, bunun da nəticəsində 2000 nəfərdən çox insan ölmüş, 1700 nəfərdən çox insan müxtəlif dərəcəli bədən xəsarətləri almış və ya əlil olmuşdur. Etiraf edək ki,bu münaqişə nəticəsində qadınlar və uşaqlar daha çox zərər çəkmiş, ailələr dağılmış, başsız qalmış, ictimai həyatın harmoniyası dağıdıcı formada pozulmuşdur. Ərazilərin 20 %-i işğal olunmuş, bir milyona qədər insan öz doğma torpaqlarından didərgin salınmış, ümumilikdə ölkəmizə 220 milyard ABŞ dollarından çox zərər vurulmuşdur. Bəzi müəlliflər bu rəqəmlərin daha çox olması barədə iddialıdırlar. Bu rəqəmlər ildən-ilə mənfiyə doğru artmaqdadır. Müasir terrorizm, dünya elminin ən yeni nailiyyətlərindən istifadə etməklə surətlə genişlənməkdə, ağır nəticələrin törədilməsində və icrası surətlə həyata keçirilən mükəmməl bir mexanizmlə səciyyələndirilə bilər. Əgər tarixən terror müəyyən bir şəxs, qrup, dəstə, birlik tərəfindən törədilirdisə, indi artıq dövlət terrorizmi səciyyəvi hal almış və yeni-yeni çalarlarla zənginləşmişdir. Terror bəşəri bir bəlaya çevrilmişdir. Məsələn, İstanbul Hava Limanında ötən illərdə törədilən terror hadisəsi kiçik bir qrup tərəfindən icra edilsə də, lakin surətli icra üsulu ilə səciyyəvi olmuşdur. Artıq müasir terrorizm qlobal və təhlükəli xarakter almışdır. Belə təzahürlərlə mübarizə isə adekvat hesab oluna bilməz və çox geridə qalmaqdadır. İnsan hüquq və azadlıqlarını önə çəkən bir sıra dövlətlər indi terroru dövlət fəaliyyətinə çevirmiş və hətta onu həyasızcasına etiraf etməkdədirlər. Mən ilk öncə ABŞ-ı nəzərdə tuturam. Ötən zaman bu qara kabusun üzərindən bütün pərdələri qaldırmış, bir çox sirrlər açılmış, məkrli niyyətlər üzə çıxmış və bəşəriyyətin qarşılaşdığı böyük fəlakətlər insanları dərindən düşünməyə vadar etmişdir. 11 sentyabr ABŞ terrorunun təfərrüatları açıldıqca, bunun bir mənalı şəkildə ABŞ-ın siyasi dairələri tərəfindən qəsdən təşkil edildiyi üzə çıxır, məqsədin isə bu hadisənin fonunda dünya hökmranlığı ideasının reallaşdırılması üçün ABŞ-a bir bəhanə, "hüquqi əsas" verməsi motivi ilə törədildiyi etiraf olunur. Son illər

faşizmin daha təhlükəli təzahürü kimi özünü göstərən "İŞİD"in ABŞ tərəfindən yaradıldığı general Vesli Klark tərəfindən rəsmi olaraq etiraf edilmişdir. O,eyni zamanda,öz qeydlərində ABŞ-ın dəstəyi ilə Suriya, Liviya, Livan, Somali və İran hökümətlərinin devriləcəyinin planlaşdırıldığını etiraf etmişdir. "İŞİD" terror qruplaşmasının ABŞ tərəfindən yaradıldığı,dəsək aldığı və bir alətə çevrildiyi təsdiq olunur.Onun məqsədi Səudiyyə Ərəbistandan "pul sağmağ"a və ölkələri işğal etməyə istiqamətlənmişdir. Klark daha sonra qeyd etmişdir ki, 11 sentyabr terrorundan 10 gün sonra o, Pentaqona gedərək "İŞİD"i qurmaq barədə qərar verdiklərini,bu tədbirdə həmin vaxt ABŞ-ın müdafiə naziri Donald Ramsfeldin, onun müavini Paul Volfovitzin və digər rəhbərlərin şəxsən iştirak etdiklərini xüsusi olaraq qeyd etmişdir. Buradaca qeyd etmək zəruridir ki, ABŞ-ın eyni zamanda "İŞİD"lə yanaşı, PKK, PYD, Taliban, Əl-Kaidə və digər terrorçu təşkilatları yaratdığı, Türkiyədə dövlət çevrilişini hazırladığı heç kəsdə artıq şübhə yaratmır. Bütün bunlar dünənin hadisəsi deyil. Tarixə ekskurs edək...II Dünya Müharibəsi dünyanın "kommunizm kabusun danqurtarmaq" arzusunu reallaşdıra bilmədiyi halda, ABŞ-ın rəhbərləri hələ,1945-ci ildə məşhur "Dalles planı" adlanan yeni ideyanı dövriyyəyə buraxdılar. Məxfi səciyyə daşıyan bu müdhiş plan – "insan şüurunun və təfəkkürünün dəyişdirilməsinin mümkünlüyü" hipotezasına əsaslanırdı. Başqa sözlə, bu təlim "insan obrazının dəyişdirilməsi" ("changing imagesof man") Proqramı adlanırdı. Dövlət, Amerika elmi qarşısında, insan şüuruna və təfəkkürə idarəolunan xaos təlqin etməklə, insan üçün ən ülvi dəyərlərin və ideyaların onun beynindən çıxarılması yolu ilə, konkret Mərkəzdən asılı vəziyyətə salmaq, nəticədə bu Mərkəzin sifarişi əsasında,hər hansı bir şəxsin fəaliyyətinin müəyyən bir məqsədə və təyinata yönəldilməsi ideyasının, kənardan onun şüuruna yeridilməsi və ya təlqin edilməsi sahəsində mükəmməl texnologiyaları hazırlamaq kimi "məsul" bir vəzifə qoymuşdu.Təsadüfi deyil ki, sonralar Pentaqon rəhbərləri qarşıya qoyulan bu vəzifənin uğurla başa çatdırılmasını obrazlı şəkildə ifadə edərək göstərirdilər ki, biz, inkişafın elə bir səviyyəsinə nail olmuşuq ki, daha heç kim əsgər olmayacaq, biz hamımız döyüşün birgə iştirakçılarına çevriləcəyik. Tapşırıq belədir: daha canlı qüvvələri – əsgərləri yox, ümumiyyətlə, əhalinin dünya görüşünü və baxışlarını dağıtmaq, sosiumu birdəfəlik məhv etmək vəzifələrini həll etməliyik. Hazırda dünyada baş verən qlobal proseslər – terrorçuluq, narkobiznes, insan alveri, silah alveri, millətlər, dinlər, nəsillər, cinslərarası münaqişələrin və müharibələrin sürətlə genişlənməsi, transmilli mütəşəkkil cinayətlərin, zorakılığın və qəddarlığın, qeyri-insani və qeyri-əxlaqi hərəkətlərin artması və genişlənməsi, İŞİD, Taliban və digər bu kimi terrorçu qrupların mövcudluğu ABŞ və digər super dövlətlərin "Dalles planı"nın artıq həyata keçirildiyini, idarə olunan xaosun dövriyyəyə buraxıldığını tam təsdiq edir.

Bu da o deməkdir ki, "Yeni dünya nizamı"nın yaradılması,"Masonlojası"nın, Avropanın "Qara aristokratiyası"nın, "Roma klubu"nun, "Vahid dünya hökuməti"nin diktəsi altında – Z.Bejinskinin "texnotronika" adlandırdığı vasitələrin köməyi ilə hər bir insanın şüuru və təfəkkürü üzərində biokimyəvi və psixi vasitələrlə sosial və siyasi nəzarətin tam həyata keçirilməsi imkanının reallaşdırılması artıq təmin edilmişdir. Bu isə əvvəlcədən düşünülmüş və hazırlanmış xüsusi vasitələrlə – şəbəkə səciyyəsi daşıyan çoxsaylı üsul və vasitələrlə, mübahisəsiz

qaydada həyata keçirilə bilərdi. Beynəlxalq və regional təşkilatlar, NATO,"Mossad", İnterpol, Mərkəzi Kəşfiyyat İdarəsi, "Harvard Psixoloji Klinikası","Elmi siyasətin tədqiqi institutu","Sistemlərin inkişaf korparasiyası" və onlarla digər qurumlar bu işə səfərbər edilmişlər. Sistemli şəkildə həyata keçirilən bu siyasət, eyni zamanda,bəşəriyyət əleyhinə müxtəlif səciyyə daşıyan kriminal əməllərlə–narkobizneslə, pornoqrafiya ilə, silah alveriilə, informasiya məlumatlarının və texnoloji sirlərin oğurlanması ilə, çirkli pulların yuyulması ilə, münaqişələrin qızışdırılması ilə, müharibələrin, terrorçuluğun, dövlət çevrilişlərinin, rəngli inqilabların həyata keçirilməsi və onlarla digər vasitələrlə reallaşdırılır. Bu proseslər də müasir elmin ən yeni nailiyyətləri ilə yanaşı, insan psixikasına və şüuruna təsir edən, asılılıq yaradan vasitələr, təzyiqlər, meyllər şüurlu və məqsədli şəkildə istifadə edilməklə həyata keçirilir.Onun ideoloji əsası isə kütləvi informasiya vasitələrinin çeşidli fəaliyyəti ilə təmin olunur. Beynəlxalq təşkilatlar böyük dövlətlərin diktəsi ilə işləməkdədirlər. Mənəvi-əxlaqi dəyərlərin yüksək olduğu cəmiyyətlərdən fərqli olaraq, pul, kapital böyük qələbə qazanmış və hakim mövqe əldə etmişdir. Bəşəriyyətin əşrəfi olan insan ucuzlaşdırılmış, klonlaşdırılmış, ekvivalent vasitəsinə çevrilmiş, insan hüceyrələri kodlaşdırılmış, qəddarlıq, amansızlıq, əxlaqsızlıq həyat normasına çevrilmişdir. Ekstrasenslərin,psixoloqların,falçıların–insan ruhuna və psixikasına təsir edən aşkar fəallığı, kibercinayətkarlığın şəbəkə imkanlarının tətbiqi və gözlənilən daha böyük təhlükələr irəli sürdüyümüz müddəaların əsaslılığını tam təsdiq edir.

ABŞ-da, yüksək inkişaf etmiş Yaponiya, Almaniya, İngiltərə, Hollandiya, Cənubi Koreya kimi ölkələrdə "postindustrial", "yüksək industrial", "informasiya industrial" və "informasiya" cəmiyyətləri öz qlobal inkişafını, daha çox informasiya-kommunikasiya texnologiyalarının müasir nailiyyətləri əsasında inkişaf etdirirlər. Bu sahədə elektron hesablama maşınlarının, bioelektronik və psixokompyuter texnologiyalarının, informasiya-elektron sistemlərinin çeşidli inkişafı dünyada, ümumiyyətlə, informasiya təhlükəsizliyinin daha etibarlı müdafiəsinə zərurət yaratmışdır. Cəmiyyətin, dövlətin və insanın həyatının və fəaliyyətinin elə bir sahəsi yoxdur ki, orada müasir informasiya texnologiyalardan ən müxtəlif istiqamətlərdə və formalarda geniş istifadə edilməsin.

Bu proseslər kəmiyyət və keyfiyyət göstəricilərinə görə gündən-günə inkişaf edir və dərinləşir. İnsan beyninin,düşüncəsinin və qəlbinin alqoritmlərinin tədqiqi, bu sahədə bioloji və fizioloji proseslərin ultrabənövşəyi şüalara və xarici təsirlərə reaksiyasının, stressin, yorğunluğun, depressiyanın, dezinformasiyanın, psixotronik texnologiyaların, şüurun və təhtəlşüurun müsbət və mənfi yönümlərinin öyrənilməsi, psixikanı dəyişmək, məhv etmək, insanı zombiləşdirmək, kənardan asılı salmaq, şəxsiyyətin deformasiyasını və kənar təsirlərə tabeçilik mexanizmlərinin tədqiqi və bütün bu proseslərin öyrənilməsi və tətbiqi sahəsində əldə edilən müasir elmi nailiyyətlər insanı heyrətə gətirir.

Bu gün dünya elmi tam təsdiq edir ki, bütün hadisələrin və proseslərin mərkəzi siması olan insan orqanizminin müxtəlif hissələrində, əsasən də,onun baş beynində yerləşən təbii mərkəzlər müxtəlif təyinatlara və məqsədlərə xidmət edir. İnsanın qorxu, sevgi, əsəb, nifrət, qəzəb kimi hisslərini formalaşdıran və onun mənbəyi hesab olunan limbik sistem bir neçə mikro mərkəzlərdən ibarət olmaqla, gicgah payının orta hissəsində

yerləşir və cəmi 5 qramlıq kiçik bir hissəni özündə ehtiva edir. Bu sistem insanın bütün həyatını idarə edən üç kiçik cisim – talamus, amygdala və hipotalamus adlandırılan hissələrdə mərkəzləşmişdir. Bu üç kiçik cismin rolu ilə beyinin 30 milyard hüceyrəsi bir-birilə sürətli rabitə əlaqəsindədir. İnsanın duyğularına, hisslərinə,məqsədlərinə və motivlərinə uyğun olaraq insan həyatının idarə olunması məhz onun fəaliyyəti ilə mümkündür. Bu təbii rabitə sisteminin sürəti təxminən bir avtomobilin saatda 700 km sürətlə getmə sürətinə bərabər olaraq dəyişir. Qorxu və sevgi mərkəzi olan amygdalanın kütləsi orta hesabla beş qramdır. Amma o, az qala yer üzündəki bütün insanları məqsədli şəkildə idarə edir və onların tez-tez dəyişən motivasiya proseslərinə stimul verir. Bütün bunları diqqətlə öyrənən terrorçu mərkəzlər onların imkanlarından geniş istifadə etməyi bacarırlar. «Badamabənzər cisim» olan amygdala qıcıqlandıqda insanda ifrat qorxu, qəzəb, nifrət və hətta sevgi hissinin yaranmasını təmin edə bilir. Bu mərkəzin zədələnməsi nəticəsində qarşı tərəf öz cinsini tanıya bilmək hissini belə itirir. Başqa sözlə, şəfqət və sevgi hisslərinin insanda və bu tipli canlılarda olması tamamilə istisna olunur.Təcrübə göstərir ki, «badamabənzər» cisim daha çox sevgi deyil, qorxu amilindən qıcıqlanarsa, o, artıq ilkin təyinatını itirir və beyinə başqa informasiyalar ötürməyə başlayır. Belə olduqda isə, insan artıq yalnız qorxu simptomları ilə idarə olunur. Nəticədə, sevgi hissinin get-gedə özəlləşməsi prosesi baş verir, ailələr dağılır, nikahlar pozulur,qəddar və amansız qətllər törədilir.

İnsan bioloji varlıq olaraq, onun şüuraltı təbəqəsində nüfuzu qoruma instinkti mövcud olur. Bu da, onu müxtəlif növlü fəaliyyətlərə təhrik edir, stimul verir, insanı öz qələbəsinə ruhlandırır, məğlubiyyətlə barışmağa imkan vermir və bütün bu sahələrdə mənəvi ehtiyaclarını ödəməyə səfərbər edilir. Çünki hər hansı bir məğlubiyyət hissi orqanizmə, bu və ya digər dərəcədə neqativ psixoloji və fizioloji təsir göstərir. Məğlubiyyət və uğursuzluq zamanı orqanizmdə dofaminin, endorfinin miqdarı azalır, yorğunluq, ağrı, stress hormonu olan kortizolun miqdarı çoxalır və adrenalinlə qarışaraq qorxunu daha da artırır. Bu proses isə ümumilikdə orqanizmin immunitetinə mənfi təsir göstərir, sinir toxumaları qanı özünə doğru çəkir, nəticədə əzələlər zəifləyir, baş beyinin bir hissəsi olub, emosiya və yaddaşın formalaşmasında aktiv iştirak edən hippokamp adlanan hissə aktivləşir və yaddaşda uğursuzluqla bağlı neqativ xatirələr özünü göstərir. Bu xatirələr də yaddan çıxmır, bütün ömrü boyu ağır bir yük kimi insanı fasiləsiz olaraq izləyir, dərd olur, onun mənfi emosiyalarının, konfliktlərə sürükləyən ziddiyyətlərinin artmasına təsir göstərir, müqəddəslik hissi itir. İnsan ən yaxın adamına qarşı qəddar cinayətlər etməyə asanlıqla imkan tapır. Buna görə də emosiyalarını ağıla tabe etməyə bacaran, münaqişələri emosiyalarla deyil, ağılla və məntiqlə, səbr və təmkinlə tənzim etməyə çalışan şəxslər kamillik zirvəsinə ucalmaq keyfiyyəti qazanır və bu da, onu daim xoşagəlməz hadisələrdən qoruyur. Bütün bunlar qanunauyğun bir proses kimi təzahür edir. Neyrofiziologiyada sübut olunmuşdur ki, insan orqanizmində, o cümlədən onun düşünmə mərkəzi olan beynində saysız-hesabsız neyronların hər birinin hərəkət trayektoriyası tam məlumdur və neyronlar heç bir kənar təsirlə öz yollarını dəyişə bilməzlər. Milyardlarla neyronun rasional yolu var və ona bu yolla getməyə heç nə mane ola bilməz. Canlı

və cansız aləmin vəhdətini, birliyini göstərən mühüm əlamətlərdən biri də məhz elə budur. İnsan orqanizmində hökm sürən qadağan qanunları qeyri-şüuru mahiyyət daşıyır. İnsan şüurundan, ağılından kənarda baş verən bu proseslər instinktiv səviyyədə idarə olunur. Öyrənmə və yaddaş prosesi təkcə beyinlə məhdudlaşmır və hər bir hüceyrənin özünün də öyrənmə və yaddaş xüsusiyyətləri olduğunu təsdiq edir. Bütün bu imkanların həddini dərindən bilən xüsusi qruplar terrorçular, kamikadzelər yetişdirməyə asanlıqla səy göstərir, terror aktlarını törətmək daxili ehtiyaca çevrilir və kənar yönümlərdə onların icrası üçüncü şəxslər tərəfindən asanlıqla həyata keçirilir. Bunlar isə məcmu şəklində orqanizmin fərdi səciyyəvi xüsusiyyətlərinin qorunub saxlanmasını, məlumatların toplanılmasını, onlardan istifadəni təşkil və təmin edir. İnsan həyatında baş verən proses və hadisələrin nə vaxtsa, özünü təkrar göstərəcəyinə və öz izini qoyacağına böyük əminlik yaradır. Buna görə də insan həyatının xarakter xüsusiyyətləri, ailə, təhsil, təlim-tərbiyə, zorakılıq, qəddarlıq və ya mərhəmət hislərinin hər biri, tarixi yaddaşda əhəmiyyətli rol oynayır. İnsan mənəviyyatı, onun ətrafında baş verənlərə mənfi və ya müsbət hisslərin təsiri altında formalaşır. Sadə hisslərin yaşanması bioloji amillərdən qaynaqlandığı halda, mürəkkəb hislər daha çox insanın həyat təcrübəsindən, genetik xüsusiyyətlərindən, onun böyüdüyü şəraitdən, aldığı tərbiyədən, təhsildən, əldə etdiyi biliklər toplusundan qaynaqlanır. Emosiyalar ötəri, tez unudulan sevgini, ağıl isə əbədi və uzunömürlü sevgini vəd edir. Buna görə də məhəbbət mənəviyyatı zənginləşdirən, zövqlərin oxşanması, arzuların, istəklərin reallaşması, xoşbəxt anların yaşanması kimi hislər toplusunu özündə əks etdirməyi bacarır. Təcrübə təsdiq edir ki, dövriyyəyə buraxılmış müxtəlif vasitələrlə bu gün hər hansı bir insanın üçüncü şəxsdən asılılığı tamamilə mümkündür. Məsələn, "İŞİD"çilər üzərində aparılan müşahidələr bir mənalı şəkildə təsdiq edir ki, onların qəddarlığının kökündə "sehirli iksir","dəhşətli həbb"– elmdə "kartaqon" adlanan maddə dayanır. Belə həbblər Kobanidə yüzlərlə "İŞİD"çinin "müsəlman qardaşları" "Kürd PPK"nın döyüşçülərinin gündəlik istifadə etdiyi maddələr sırasındadır.Yaxud, xüsusi hazırlanmış skopolamin, pentatol, LSD və onlarla digər sintetik narkotiklərin köməyi ilə insanın dili açılır,onun yaddaşları tam ələ keçirilir, yaxud ona ən qəddar, ən amansız psixoloji vərdişlər təlqin edilir. Buna görə də, bu gün müasir elmi nailiyyətlərdən, informasiya texnologiyalarından geniş istifadə müxtəlif ağır və mütəşəkkil cinayətkarlığın, o cümlədən terrorun icrası zamanı geniş istifadə edilir.

Bu gün dünyada baş verən terror hadisələri gündən-günə genişlənən, mürəkkəb xarakteri ilə diqqəti cəlb edən müharibəni xatırladır. Başqa sözlə, terrorun tədricən müharibəyə keçidi prosesləri müşahidə edilməkdədir. Onunla qlobal mənada mübarizə lazımınca aparılmır. MDB-nin terrora həsr edilmiş Beynəlxalq Konfransında, bu ölkələrdə hazırda 9 mindən çox şəxsin müxtəlif terror hadisələri ilə bağlı olduqlarına görə beynəlxaq axtarışa verildiyi haqqında məlumatlar səslənmişdir. Ümumiyyətlə, terrorla mübarizə termini nisbi xarakter daşıyır. Bəzən, hətta bu mübarizəni faktiki olaraq aparmaq mümkünsüz olur, səmərəli nəticələr vermir.Terror baş verdikdən sonra, onun tədqiqatı aparılır və çox vaxt bu tədqiqatları sona qədər başa

çatdırmaq mümkün olmur. Ona görə ki, icraçılar düşünülmüş şəkildə özlərini məhv edirlər və ya terror nəticəsində həlak olurlar. Beynəlxalq və regional təşkilatların bu məsələyə dair qərarları icra olunmur. Məsələn, BMT-nin narkotiklərin qanunsuz dövriyyəsi və cinayətkarlıqla mübarizə idarəsi Dağlıq Qarabağda, Suriyada, Əfqanıstanda və digər ölkələrdə narkobiznes fəaliyyəti və terrorçuluğun geniş miqyas aldığını bildiyi halda, ona qarşı səmərəli tədbirlər görə bilmir. Buna necə ad vermək olar ki, BMT-nin Dağlıq Qarabağla bağlı 4 Qətnaməsi indiyə qədər kağız üzərində qalmışdır. Çünki, bu qərarların icra mexanizmləri və qüvvələri faktiki olaraq mövcud deyildir. Qəribədir ki, indi terrorun və terrorçuların lazımınca cəzalandırılması belə mümkünsüzdür. Hamı bilir ki, dünyanın hansı nöqtələrində hansı motivlə törədilməsi mümkün olan terror yuvaları vardır. Türkiyə diplomatlarına qarşı törədilən terrorların əksər təşkilatçıları və icraçıları ya ümumiyyətlə cəzalandırılmır, yaxud da lazımınca cəzalandırılmamış və ya vaxtından əvvəl azadlığa buraxılmış və sanki onların öz əməllərini yenidən davam etdirmələrinə şərait yaradılmışdır. Bir çox erməni terrorçuları az müddət keçdikdən sonra himayədarları vasitəsilə azadlığa buraxılırlar.

Beynəlxalq cinayət məcəlləsi və milli dövlətlərin cinayət məcəllələrində transmilli mütəşəkkil cinayətkarlıqla, narkobiznеslə, terrorizmlə mübarizə nəzərdə tutan normalar mükəmməl hesab oluna bilməz. Elə Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin terrorçuluğa görə məsuliyyət müəyyən edən 214-cü maddəsi ictimai təhlükəsizlik əleyhinə olan 10-cu bölmənin 15-ci fəslində nəzərdə tutulmuşdur.Belə əməllərə görə məsuliyyət müəyyən edən müxtəlif maddələrin dispozisiyasında göstərildiyi kimi, müasir dövrümüzdə ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq və s. bu kimi məqsədlərlə terror aktının törədilməsi hallarına nadir hallarda rast gəlmək mümkündür. Hər hansı bir terror hadisəsinin sülh və insanlıq əleyhinə törədildiyi və sözün əsl mənasında, müharibə səciyyəsi daşıdığı indi heç kimdə şübhə yaratmır. Buna görə də terrorçuluq əməllərinə görə məsuliyyət müəyyən edən normaların həm dispozisiyası, həm sanksiyası və həm də belə normaların cinayət məcəlləsində yerinin bir daha dəqiqləşdirilməsi vaxtı çatmışdır. Terrorçuluq aktları törədənlərə qarşı ən ağır cəzanın – ölüm hökmünün çıxarılması da birmənalı şəkildə təmin olunmalı və icrası üçün təsirli tədbirlər görülməlidir. Müasir terror bəşəriyyət üçün böyük bəlalar gətirir. Belə əməllərə dəstək verən dövlətlər xüsusi sanksiyalara məruz qalmalı, onların beynəlxalq təşkilatlarda təmsilçiliyinə son qoyulmalıdır. Erməni seperatizminin və terrorizminin faşist xarakteri artıq dünyada çox gözəl və dərindən başa düşülür, bilinir. Bununla belə seperatizmlə, terrorizmlə, narkobiznеslə mübarizə aparmağı özünə vəzifə hesab edən beynəlxalq təşkilatlar və dövlətlər, Ermənistanın mürtəce siyasətinə, aşkar laqeydlik göstərir, ikili standartlar nümayiş elətdirirlər.

Tərəqqipərvər insanlar bütün bunların mahiyyətini və mənasını çox gözəl anlayır. Ölkəmiz belə təzahürlərlə mübarizədə ruhdan düşmür və səylərini gündən-günə artırmaqdadır. Zaman isə haqqın və ədalətin gec-tez qalib gələcəyinə əminlik yaradır. Elə bu arzunu Ali Baş Komandanımız 44 günlük Vətən müharibəsində qalibiyyətlə başa çatdırdı, tarixi qələbə təmin edildi.

**İstifadə edilmiş ədəbiyyat**


1. Elçin Əhmədov.Ermənistanın Azərbaycana təcavüzü: təhlili xronika.
2. Ramiz Mehdiyev. Azərbaycanlılara qarşı soyqırım gerçəklikləri.
3. Ramiz Mehdiyev. Gorus-2010: absurd teatrı mövsümü.
4. Ramiz Mehdiyev. İkili standartların dünya nizamı və müasir Azərbaycan.
5. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. B., 2011.
6. Azərbaycan Respublikasının hərbi doktrinası. B., «Hüquq ədəbiyyatı» nəş., 2010.
7. Azərbaycan Respublikasının Konstitusiyası. B.,2011.
8. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası. B., «Hüquq ədəbiyyatı» nəş., 2009.
9. Bayramova P.Fövqəladə vəziyyət şəraitində insan hüquqlarının müdafiəsi. B., 2004.
10. Cəfərov İ. Azərbaycan Respublikası Konstitusiyasının şərhi. B., 2010.
11. İbayev V. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq müstəvisində. B., 2006.
12. Səmədov E. Ermənistanın Azərbaycana qarşı təcavüzünün qurbanı olmuş uşaqlar və qadınlar. Beynəlxalq konfransın materialları. B., 2009.
13. Боев В.И.,Кочубей М.А.,Новиков А.П.Война и уголовный закон.М.,2009.
14. Макиавелли Н.Избранные произведения. М.: Худ. лит., 1982.
15. Beynəlxalq sənədlər toplusu. I cild. B., 2005.


## ACTUAL PROBLEMS OF THE FIGHT AGAINST ARMENIAN SEPARATISM AND TERRORISM

**Saida Hasanzade.**


The International law pays a particular attention to protection and defence of women and chrildrenrights. In connection with this problem in the national law system the numerous organizations – law measures have been undertaken. However, despite it since beginning Nagorno-Karabagh conflict the rehave been observed many facts of violation of women and children rights. Up to now this problem hasnot found its solution in the light of the requirements of international criminal law. As regards to vio-lation of women and children rights there should be undertaken the measures and condemned by the international law.


**Key words:** international law, women, children, the violation of the rights of Nagorno Karabakh, security, protection, numerousfacts.

## АКТУАЛЬНЫЕ ПРОБЛЕМЫ БОРЬБЫ С АРМЯНСКИМ СЕПАРАТИЗМОМ И ТЕРРОРИЗМОМ

**Саида Гасанзаде.**


Международное право уделяет особое внимание охране и защите прав женщин и детей. В связи с этой проблемой в национальной правовой системе Азербайджана были приняты соот-ветствующие законы, отвечающие в полной мере требованиям международных правовых норм. Однако, несмотря на это, Нагорно-Карабахского конфликта там были обнаружены многочисленные факты нарушения прав женщин и детей. До сих пор эта проблема не нашла своего разрешения в свете требований международного уголовного права. В связи с продолжающимися нарушениями прав женщин и детей в Нагорном-Карабахе на высшем международном уровне должны быть предприняты соответствующие меры.


**Ключевые слова:** международное право, женщины, дети, нарушение прав, Нагорный Карабах, охрана, зашита, многочисленные факты.

# GENDER BƏRABƏRLİYİ VƏ DAVAMLI İNKİŞAF KONSEPSİYASININ BƏZİ HÜQUQİ ASPEKTLƏRİ

**Qibləliyeva Aytac Elburus qızı,**
**BDU Hüquq fakültəsi "İnsan hüquqları və informasiya hüququ" UNESCO kafedrasının doktorantı.**
e-mail: elizade.memmedov@mail.ru

*Məqalədə qeyd edilir ki, gender bərabərliyi insan hüquqlarının qorunması, qanunun aliliyinə hörmət, dünyada qadınların iqtisadi inkişafı və rəqabət qabiliyyətliliyinin artırılması istiqamətində ən əsas prioritetdir. Gender cəmiyyətin sosial təbəqələşməsi üsullarından biridir. Bu üsullar irq, milliyyət, sinif, yaş kimi sosial demoqrafik faktorlara uyğun olaraq, sosial iyerarxiya sistemini təşkil edir. Qeyd olunur ki, insan potensialının inkişafı davamlı inkişaf prosesinin ayrılmaz tərkib hissəsidir. Bu səbəbdən hər hansı bir cəmiyyətdə insan inkişafının iqtisadi, sosial, ekoloji, mədəni, hüquqi, texnoloji, mənəvi-psixoloji, sağlamlıq, təhsil, intellektual, gender və s. durumu davamlı inkişafın əsas göstəriciləri sayılır. Məqalədə qeyd olunur ki, cəmiyyətdə mövcud olan başqa inkişaf konsepsiyalarından fərqli olaraq, davamlı inkişaf hər bir insanın əsas zəruri tələbatlarının ödənilməsini tələb edir və hamıya yaxşı həyat şəraiti qurmaq tələbatını təmin etmək imkanı yaradır.*

**Açar sözlər:** insan hüquqları, gender bərabərliyi, davamlı inkişaf, ayrı-seçkiliyin qarşısının alınması, insan potensialının inkişafı.

İnsan hüquqları ilə əlaqəli olan gender bərabərliyi cəmiyyətin bütün sahələrində, eləcə də şəxsi həyatda kişi və qadına bərabər imkanların və iştirak hüququnun verilməsidir. Bu o demək deyil ki, hər iki cins eynidir; bu, daha çox "hər ikisi eyni hüquqa və ləyaqətə malikdir" deməkdir. Bütün insan hüquqları kimi, gender bərabərliyinə görə də mübarizə aparmaq, onu müdafiə etmək lazımdır. Gender bərabərliyi insan hüquqlarının qorunması, qanunun aliliyinə hörmət, dünyada qadınların iqtisadi inkişafı və rəqabət qabiliyyətliliyinin artırılması istiqamətində ən əsas prioritetdir. Gender cəmiyyətin sosial təbəqələşməsi üsullarından biridir. Bu üsullar irq, milliyyət, sinif, yaş kimi sosial demoqrafik faktorlara uyğun olaraq, sosial iyerarxiya sistemini təşkil edir.

Biriəşmiş Millətlər Təşkilatı Baş Məclisinin 16 dekabr 1966-cı il tarixli 2200-cu A (XXI) nömrəli Qətnaməsi ilə qəbul edilmiş, "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktın 26-cı maddəsində deyilir ki, bütün insanlar qanun qarşısında bərabərdirlər və heç bir ayrı-seçkiliyə yol verilmədən qanunla bərabər müdafiə olunmaq hüququna malikdirlər. Bununla bağlı ayrı-seçkiliyin bütün növləri qanunla qadağan olunmalıdır və qanun istənilən əlamətə: irqi, dərisinin rəngi, cinsi, dili, dini, siyasi və digər əqidələri, milli və sosial mənsubiyyəti, əmlak vəziyyəti, doğuşu və ya digər halları ilə bağlı əlamətlərə görə ayrı-seçkiliyə qarşı bütün şəxslərə bərabər və səmərəli müdafiə təminatı verməlidir.

Gender bərabərliyi Birləşmiş Millətlər Təşkilatının 1948-ci ildən etibarən İnsan Hüquqları Bəyannaməsində göstərilən əsas

hüquqlardandır və dayanıqlı inkişaf və artıma nail olmaq üçün ilkin şərtlərdən biridir. Bundan əlavə, BMT- nin 2015-ci ilin sentyabr ayında keçirilən tarixi sammitində dünya liderləri tərəfindən qəbul edilmiş "2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"də əks olunan Dayanıqlı İnkişaf Məqsədlərinin 5-ci maddəsində məhz "Gender bərabərliyinə nail olmaq, bütün qız və qadınları səlahiyyətləndirmək"dən bəhs olunur. Belə ki, həmin maddənin 5.c bəndində "Gender bərabərliyinin təşviq olunması və bütün qadınların və qızların səlahiyyətlərinin bütün səviyyələrdə artırılması üzrə əsaslı siyasətlər və effektiv hüquqi normalar qəbul etmək və onları möhkəmləndirmək" əks olunub.

Azərbaycan Respublikası Konstitusiyasının 2009-cu il referendumu ilə "Bərabərlik hüququ" adlanan 25-ci maddəsinə IV və V hissələrə edilmiş əlavədə qeyd edilmişdir ki, heç kəsə bu maddənin III hissəsində göstərilən əsaslara görə zərər vurula bilməz, güzəştlər və ya imtiyazlar verilə bilməz, yaxud güzəştlərin və ya imtiyazların verilməsindən imtina oluna bilməz, hüquq və vəzifələrlə bağlı qərarlar qəbul edən dövlət orqanları və dövlət hakimiyyəti səlahiyyətlərinin daşıyıcıları ilə münasibətlərdə hər kəsin bərabər hüquqları təmin edilir.

Azərbaycan Respublikasında insan hüquqlarının tərkib hissəsi olan gender bərabərliyinin, eləcə də qadın və uşaq hüquqlarının təmin olunmasının fundamental hüquqi əsasları yaradılmışdır. Bu istiqamətdə atılan addımlar sırasında "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" və "Uşaq hüquqları haqqında" BMT konvensiyalarının ratifikasiyası, normativ hüquqi bazanın təkmilləşdirilməsi məqsədilə zəruri qanunvericilik aktlarının, o cümlədən "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" və "Məişət zorakılığının qarşısının alınması haqqında" qanunların qəbul edilməsi mühüm əhəmiyyət kəsb edir. Eyni zamanda, qadın və uşaq hüquqları sahəsində dövlət siyasətinin formalaşması və zəruri institusional islahatların həyata keçirilməsi də xüsusi qeyd edilməlidir. Ölkəmizdə gender bərabərliyinin təmin olunması sahəsində mövcud normativ hüquqi bazanın təkmilləşdirilməsi, qanunvericiliyin Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit olunmuş prinsip və normalara uyğunlaşdırılması istiqamətində fəaliyyətlər davam etdirilir.

Qadınların xüsusi hüquqi müdafiə zərurəti obyektiv xarakter daşımaqla, ilk növbədə qadın orqanizminin fizioloji xüsusiyyətlərindən asılıdırsa, digər tərəfdən qadınlar kişilərə münasibətdə daha az müdafiə edilən olmuşlar. Qadın hüquqları sferasında beynəlxalq standartların formalaşdırılması və həmin standartlara əməl edilməsi üzrə beynəlxalq hüquqi nəzarət mexanizmlərinin yaradılması, qadınların bilavasitə va birbaşa olaraq beynəlxalq məhkəmə, inzibati nəzarət orqanlarına müraciat hüququ, müvafiq hüquqlarla əlaqədar maddi və prosessual xarakterli beynəlxalq normaların dövlətdaxili hüquqa implementasiyası, qadın hüquqları üzrə beynəlxalq və milli səviyyədə hökumat va qeyri-hökumat təşkilatlarının təsis edilmasi kimi mühüm məsələlər daim beynəlxalq hüququn müsbət təsirinə məruz qalmış və hazırda da qalmaqdadır. Bütövlükdə, müasir beynalxalq hüquqda qadın hüquqlarının müdafiasi üçün,ilk növbədə barabərhüquqluluq və ayrıçekiliyə yol verməmək prinsipləri fərqləndirilir (3, s.135).

Son bir neçə onillik ərzində Azərbaycanda gender bərabərliyinin təşviqi istiqamətində əhəmiyyətli işlər görülüb. Kişi və qadınlar

arasında hüquq bərabərliyi ölkə Konstitusiyasında birmənalı şəkildə təsbit olunub. Azərbaycan Respublikası insan hüquq və azadlıqlarının təşviqi üzrə Qadınlara Qarşı Ayrı-Seçkiliyin Bütün Formalarının Ləğv edilməsi haqqında Konvensiya da daxil olmaqla bir sıra beynəlxalq sazişləri ratifikasiya edib, gender bərabərliyinin təşviqi və məişət zorakılığı ilə mübarizə üzrə qanunlar qəbul edilib. Qadın hüquqlarının müdafiəsi və gender bərabərliyi siyasətini həyata keçirən mərkəzi icra orqanı yaradılıb. Eyni zamanda, müvafiq müddəalar sonradan qəbul olunmuş və təkmilləşdirilmiş bir sıra normativ hüquqi aktlarda da əks olunub. Bu gün istər özəl sektor, istərsə də dövlət orqanlarında gender bərabərliyinin təmin edilməsi istiqamətində çox vacib tədbirlər həyata keçirilir. Xüsusilə, 2006-cı ildə qəbul olunmuş "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Qanunun bu sahədə ən vacib nailiyyət kimi qiymətləndirildiyini qeyd etmək lazımdır. Qanun qəbul edildikdən sonra dövlət idarəçiliyində gender bərabərliyinə daha da çox diqqət artırılmış, eyni zamanda, ailə siyasətinin və sosial-iqtisadi inkişafın təmin edilməsində dövlət orqanlarının fəaliyyətinin keyfiyyət əhəmiyyətinin artmasına təsir etmişdir.

Hüquq bərabərliyinə aid bir sıra qanunvericilik normalarının mövcud olmasına baxmayaraq, qadınların iqtisadi resurslara çıxışı və şəxsi, ictimai və siyasi həyatda qərar qəbuletmə prosesində hərtərəfli iştirak imkanları kişilərlə müqayisədə daha məhduddur. Azərbaycan Respublikasında gender siyasətini həyata keçirmək üçün 2006-cı ildə Ailə, Qadın və Uşaq məsələləri üzrə Dövlət Komitəsi fəaliyyətə başlamışdır. Komitənin əsas vəzifələrindən biri də məhz gender sahəsində mövcud diskriminasiya formalarının aradan qaldırılması üzrə tədbirlər görməkdir. Azərbaycan Respublikası Qadınların Siyasi Hüquqları və Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması üzrə (CEDAW) BMT konvensiyalarına, müvafiq olaraq, 1992-ci və 1995-ci illərdə qoşulmuşdur (sonuncu Konvensiyanın Protokoluna isə 2000-ci ildə).

Qeyd edilən konvensiyalara qoşulduqdan sonra Azərbaycan gender sahəsində milli qanunvericilikdə bir sıra irərliləyişlər əldə etmişdir. 2000-ci ildə Nazirlər Kabineti tərəfindən "2000-2005-ci illər üçün Qadın məsələləri üzrə Milli Fəaliyyət Planı" qəbul edilmişdir. 2006-cı ildə isə Azərbaycan Respublikasının "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" qanunu qəbul edilmişdir. Bu Qanun cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarını aradan qaldırmaqla kişi və qadınlara siyasi, iqtisadi, sosial, mədəni və digər sahələrində bərabər imkanlar (məsələn əməyin ödənilməsində bərabərlik, təhsil hüququnun həyata keçirilməsində bərabərlik və s.) təsbit edir. Bu qanunda ilk dəfə olaraq gender və genderə aid bir çox anlayışların (məsələn seksual qısnama) açıqlaması verilmişdir.

Nəzərə almaq lazımdır ki, qadınlara edilən bəzi güzəşt və imtiyazlar, eləcə də yaradılan fərqli şərait və ya davranış bu qanunla ayrı-seçkilik hesab edilmir.

Eyni zamanda, Azərbaycan hökuməti BMT və onun ixtisaslaşmış qurumları (BMT-nin İnkişaf Proqramı (UNDP), BMT-nin Əhali Fondunun Azərbaycandakı Nümayəndəliyi (UNFPA), BMT- nin Qadınlar üçün İnkişaf Fondu (UNİFEM), BMT-nin Ərzaq və Kənd təsərrüfatı üzrə Təşkilatı (FAO), Beynəlxalq Əməkdaşlıq üzrə Alman Cəmiyyəti (GİZ), Avropa İttifaqı (EU) və s. beynəlxalq təşkilatlarla əməkdaşlıq edərək hədəflərin həyata keçirilməsinə çalışır.

Mədəniyyət və gender normaları ucbatından Azərbaycanda qadınlar mülkiyyətçi qismində qəbul edilmirlər. Ailə və cəmiyyət tərəfindən qadınların mülkiyyətçi və vərəsə kimi qəbul edilməməsinin bir sıra səbəbləri gender stereotiplərinə əsaslanır. Gender əsaslı bu stereotiplər ailəyə qızların deyil, oğlanların gəlir gətirən olması gözləntisindən, habelə qızların ailə qurduqda başqa bir ailəyə köçməsi düşüncəsindən qaynaqlanır. Bu səbəbdən də valideynlər ailəyə məxsus əmlakın oğlanlarına ötürülməsinə üstünlük verirlər ki, əksər hallarda da buna asanlıqla nail olurlar. Mülkiyyətin de-yure və de-fakto oğlanlara ötürülməsi və torpaqların əksər hallarda kişilərin əlində cəmlənməsi xüsusilə əhalinin gəlirlərinin az olduğu rayon və kənd yerlərində qadınların iqtisadi imkanlarını məhdudlaşdırır.

Gender bərabərliyinin təmin edilməsi sahəsində perspektivlər, hüquqi müstəvidə əldə olunan nailiyyətlər, beynəlxalq əməkdaşlıq, mövcud problemlər və maneələr, əsas dörd istiqaməti əhatə edir ki,bunlar da gender bərabərliyinin təmin edilməsi ilə bağlı dövlət siyasətinin əsas istiqamətləri; gender bərabərliyinin təmin edilməsində dövlətin üzərinə düşən vəzifələrin yerinə yetirilməsi üzrə həyata keçirilən tədbirlər; Gender bərabərliyinin sahələr üzrə təmin edilməsi; gender bərabərliyinin təmin edilməsi sahəsində həyata keçirilməsi zəruri olan tədbirlərdir.

Qanunun 5-ci maddəsi gender bərabərliyinin təmin edilməsi üçün normativ hüquqi bazanın təkmilləşdirilməsi, gender siyasəti üzrə fəaliyyətləri nəzərdə tutan sənədlərin qəbulunu və qender mədəniyyətinin təbliğini nəzərdə tutur.

Qanunda gender bərabərliyinin təmin edilməsinə yönələn hüquqi bazanın formalaşdırılması nəzərdə tutulsa da qanunyaratma praktikasında yalnız birbaşa ayrı-seçkiliyin qarşısının alınmasına yönələn müddəalar daxil edilməklə kifayətlənilir. Azərbaycan Respublikası qanunvericiliyində qadınlara münasibətdə hər hansı birbaşa ayrı-seçkiliyə gətirə biləcək müddəalar yoxdur və qadınlara üstün hüquqların verilməsi pozitiv tədbir hesab edilir. Bununla belə qanunvericiliyin, hər hansı ictimai siyasətin tətbiqinin nəticəsi qadınlara münasibətdə dolayı ayrı-seçkilik hallarına gətirə bilir. Məhz bu baxımdan, hüquqi baza yaradılarkən yalnız birbaşa ayrı-seçkiliyi aradan qaldıran müddəalar daxil edilməklə kifayətlənmək düzgün deyildir.

Gender siyasətinin əsas hüquqi bazasını isə – Azərbaycan Respublikasının Konstitusiyası, BMT-nin “Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında” Konvensiyası, “Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Azərbaycan Respublikasının Qanunu, Məişət zorakılığının qarşısının alınması haqqında” Azərbaycan Respublikasının Qanunu və bir sıra normativ xarakterli digər aktlar təşkil edir.

Qanunun 5.02. maddəsinə uyğun olaraq, beynəlxalq təşkilatların dəstəyi ilə qanunvericiliyin gender ekspertizası aparılmış, normativ hüquqi bazanın təkmilləşdirilməsi və müasir tələblərə uyğunlaşdırılması üçün müvafiq işlər görülmüşdür. Hər iki cins üçün de-yure bərabərliyin, de-fakto təmin edilməsi üçün bir sıra mexanizmlər yaradılmışdır.

Qanunun 5.0.4-cü maddəsinin tələblərinə uyğun olaraq, gender mədəniyyətinin təbliği, gender stereotiplərinin aradan qaldırılması, gender rollarının izahı istiqamətində əhalinin müxtəlif təbəqələri arasında geniş maariflləndirmə işləri həyata keçirilmişdir.

Gender bərabərliyinin təmin edilməsində dövlətin vəzifələrin yerinə yetirilməsi (maddə 6) sahəsində həyata keçirilən tədbirlərə gəl-

dikdə isə, qeyd etmək lazımdır ki, bu, ilk növbədə, cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması, kişilər ilə qadınlara bərabər imkanların yaradılması, dövlətin idarə olunmasında və qərarlar qəbul edilməsində bir cinsin nümayəndələrinin üstünlüyünə yol verilməməsini nəzərdə tutur.

Bütün demokratik cəmiyyətlərdə olduğu kimi, Azərbaycanda da dövlət cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin yolverilməzliyini təmin etmək üçün tədbirlər görür. Bu əməlin törədilməsi AR Cinayət Məcəlləsinin 154-cü maddəsi ilə cinayət məsuliyyəti nəzərdə tutur.

"Gender bərabərliyinin təminatları haqqında" Qanunun 17-ci maddəsinə görə, zərər çəkmiş şəxsə məruz qaldığı ayrı-seçkiliyə (seksual qısnama) görə işə götürən şəxs tərəfindən zərərin ödənilməsi müəyyən edilmişdir.

Gender bərabərliyi mədəniyyətinin təbliği aktual problemdir. Qanunda bununla bağlı dövlət siyasətinin həyata keçirilməsi nəzərdə tutulur. Ailə, Qadın və Uşaq Problemləri Dövlət Komitəsi, bir sıra beynəlxalq qurumlar və vətəndaş cəmiyyəti təsisatlarının həyata keçirdiyi layihələrin bir hissəsi gender mədəniyyətinin təbliğı, gender bərabərliyinin qarşısını alan streotiplərin və adətlərin aradan qaldırılmasına yönəlmişdir. Bununla belə, Qanunda bu siyasətin əsas istiqamətləri ümumi şəkildə verilir.

Bu bir həqiqətdir ki, cəmiyyətdə, xüsusən də, ailə həyatında ayrı-seçkiliyin təzahürlərindən biri də gender əsaslı zorakılıq kimi özünü göstərir və əsasən, cəzasız qalır.

Azərbaycan Respublikasında kişi və qadınların hüquq bərabərliyi ölkənin 1995-ci ildə qəbul olunmuş əsas qanunu olan Konstitusiya tərəfindən təmin edilir. Konstitusiyanın 25-ci maddəsi kişi və qadınların bərabər hüquq və azadlıqlarını təsbit edir və insan və vətəndaşların hüquq və azadlıqlarının cinsi mənsubiyyətə görə məhdudlaşdırılmasını qadağan edır. Kişi və qadın arasında hüquq və azadlıqlar bərabərliyi və cinsi mənsubiyyətə görə ayri seçkiliyin qadağan olunması Əmək Məcəlləsi, Ailə Məcəlləsi, Cinayət Məcəlləsində və digər qanuni aktlarda öz əksini tapır. 2006-ci ildə qəbul olunmuş "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Qanunun məqsədi cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması, kişi və qadınlara ictimai həyatın siyasi, iqtisadi, sosial, mədəni və digər sahələrində bərabər imkanların yaradılması və gender bərabərliyinin təmin edilməsi idi .

2009-cu ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Azərbaycan Respublikasının İnsan alverinə qarşı mübarizə üzrə Milli Fəaliyyət Planı (2009-2013-cü illər)" və eləcə də "İnsan alveri qurbanlarının müəyyən edilməsi Qaydaları (indikatorları)" təsdiq edilmişdir. Azərbaycan 2010-cu ildə "Məişət zorakılığının qarşısının alınması haqqında" qanun qəbul etməklə və bu qanuna uyğun digər müvafiq qanunlara edilən dəyişikliklərlə məişət zorakılığının qarşısının alınması və qurbanların müdafiə olunması üçün hüquqi əsasın yaranmasına gətirib çıxarmışdır. Lakin Azərbaycan hələ də Avropa Şurasının "Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında" İstanbul Konvensiyasına qoşulmamışdır. İstanbul Konvensiyası dünyada qadını hər növ zorakılıqdan qoruyan və eləcə də ona qarşı zorakılığın, eləcə də məişət zorakılığının məhkəmə qaydasında araşdırılması və aradan qaldırılmasına məcburi öhdəlik yaradan ilk müfəssəl hüquqi sənəd-

dir. Qadın hqquqlarının insan haqlarının bir parçası olması 1995-ci ildə keçirilmiş Qadın məsələləri üzrə Pekin Konvensiyasında xüsusilə vurğulanmış və ondan sonrakı dövrdə də qəbul olunmuş bir sıra beynəlxalq sənədlərdə əksini tapmışdır. Sirr deyil ki, gender bərabərliyi və qadınların hüquq və imkanlarının artırılması bütün dünyada dayanıqlı inkişafa nail olunmasının ilkin və ümdə şərtlərindəndir. Gender bərabərliyinin ayrıca məqsəd kimi Dayanıqlı İnkişaf Məqsədləri sırasında göstərilməsi hələ də bu sahədə dünyada görüləcək işlərin çox olduğunu göstərir.

Dövlətin vəzifələri sirasına kişilər və qadınlara bərabər imkanlar üçün bərabər şərait və təminatların yaradılması da daxildir ki, bu da ilk növbədə gender analizinin aparılması və əldə olunan göstəricilərə uyğun olaraq vəsaitlərinin ayrılmasından asılıdır. Gender bərabərliyinin təmin edilməsində dövlətin əsas vəzifələrindən biri də dövlətin idarə olunmasında və qərarlar qəbul edilməsində bir cinsin üstünlüyünə yol verilməməsidir. Gender bərabərliyinin sahələr üzrə təmsil olunması üzrə qanunun 7-16 maddələrində nəzərdə tutulan vəzifələrin yerinə yetirilməsi kişi və qadınların əmək, təhsil, iqtisadi və sosial münasibətlərdə, eləcə də ictimai və siyasi, o cümlədən həmkarlar ittifaqlarına üzvlüyündə bərabər imkanların yaradılmasını nəzərdə tutur. Bu tədbirlərin səmərəliliyini artırmaq üçün ilk növbədə: Qanununun icra mexanizmlərinin təkmilləşdirilməsi; Beynəlxalq öhdəliklərin həyata keçirilməsi sahəsində fəaliyyətlərin gücləndirilməsi; Ailə planlaşdırılması və reproduktiv sağlamlıq haqqında" Azərbaycan Respublikası Qanunun qəbul edilməsi; Ayrı-seçkilyi əks etdirən iş elanlarına görə qanunvericilikdə sanksiyaların müəyyən edilməsi;Gender əsaslı zorakılığın, məişət zorakılığının qarşısının alınması sahəsində qanunvericiliyin təkmilləşdirilməsi; Qadınların məşğulluq sahəsində rəqabət qabiliyyətliliyinin artırılması, onların iqtisadi asılılığının azaldılması məqsədi ilə qadın sahibkarlığının stimullaşdırılması üzrə qanunvericilikdə mümkün mexanizmlərin işlənilməsi Qanununun icra mexanizmlərinin təkmilləşdirilməsi; Beynəlxalq öhdəliklərin həyata keçirilməsi lazımdır.

XX əsrin sonlarında meydana gəlmiş davamlı inkişaf konsepsiyası qısa zaman ərzində nəinki çoxsaylı tərəfdaşlar toplamış, həmçinin tətbiqi istiqamətdə də xeyli uğurlar qazanmışdır. Formal baxımdan öz əhatəsinə görə iqtisadi, ekoloji və sosial sahələrdən ibarət olan bu konsepsiyanın əsas məqsədi inkişafın dəstəklənməsi, onun davamlı olmasını təmin etməkdən ibarətdir. İnsan amilini ön plana çəkən bu konsepsiyanın mahiyyətini aşkarlamaq və onun sosial problemlərin həllində rolunu göstərmək üçün ilk növbədə "insan inkişafı" anlayışının məzmununa aydınlıq gətirmək zəruridir.

Sivilizasiyanın indiki mərhələsində artıq birmənalı şəkildə qəbul olunur ki, ölkələrin inkişafını onun yeraltı və yerüstü sərvətlərinin həcmi deyil, vətəndaşlarının intellektual potensialı, "insan qızılı" muəyyənləşdirir. İntellektual potensialın reallaşması, insanların hərtərəfli inkişafı və rifahı xeyli dərəcədə cəmiyyətin səviyyəsindən də asılıdır. Tomos Ceffersonun yazdığı kimi «əgər millət fikirləşirsə ki, sivilizasiyanın hansı bir mərhələsində həm cahil, həm də azad olmaq mümkündür, onda o heç vaxt olmamış və ola bilməyəcək bir şeyi istəyir (5, s.35).

Bəşər cəmiyyətinin inkişaf tarixinin, siyasi rejimlərin mahiyyətinin, inkişaf etmiş dövlətlərin təcrübəsinin təhlili göstərir ki, təhsil, onun səviyyəsi, dəyər yönümləri və prinsipləri adətən mənsub olduğu cəmiyyətə uyğun

olur. Davamlı inkişaf konsepsiyasında təhsilin məqsədi kimi dərin biliklərə malik olan, analitik təfəkkürlü, öyrənməyə meylli müstəqil vətəndaşların formalaşması irəli sürülür. İnsanlar şəxsi azadlığa anadangəlmə meylli ola bilərlər, ancaq axı onlar azadlığı həm özləri, həm də öz uşaqları üçün mümkün edən və möhkəmləndirən sosial və siyasi vasitələr haqqında bilgi ilə birilkdə doğulmurlar. Onlar həyatda qazanılmalı, mənimsənilməli, öyrənilməlidir. Təlqinetmə prinsiplərindən imtina edilməli, təlim metodlarının isə siyasi dəyərlərə münasibətdə neytrallığı təmin olunmalıdır. Lakin bu çox çətin məsələdir. Çünki hər bir təhsil müəyyən dəyər yükü daşıyır. ABŞ-ın Vanderbilt Universitetin professoru İ.Finn problemə dair öz fikirini belə ifadə etmişdir: Azad cəmiyyətlərdə və demokratik idarəetmədə dövlət xalqa xidmət edir və vətəndaşların bu rejimi yaratmaq, müdafiə etmək və təkmilləşdirmək imkanı əsasən onların keçdiyi təhsil sisteminin keyfiyyəti və effektivliyinə əsaslanır. Tam əminliklə demək olar ki, demokratiya şəraitində təhsil azadlığın özünə uzun müddət ərzində çiçəklənmək imkanı verir [5, 197].

Davamlı inkişaf konsepsiyasının meydana gəlməsi BMT-nin təbiəti mühafizə fəaliyyəti ilə əlaqədar olmuşdur. Komissiyanın əsas vəzifəsi ətraf mühit və inkişaf üzrə uzunmüddətli strateji proqram hazırlamaqdan ibarət idi. Bu strategiya 2000-ci ilə qədər və sonrakı dövr üçün müxtəlif dünya ölkələrinin davamlı inkişafını nəzərdə tuturdu. 1984-cü ildən başlayaraq dünya alimlərinin ətraf mühit və inkişaf üzrə təkliflərini toplayan xanım Q.X. Brundtland 1987-ci ildə 23 ölkənin ekspertlərinin köməyi ilə hazırlanmış “Bizim ümumi gələcəyimiz” adlı əsas məruzəni BMT Baş Assambleyasına təqdim etmişdir [7, s.24].

Bu konsepsiyanın əsas məğzi: “Gələcək nəsillərin həyatını təhlükə altına qoymadan, indiki nəsillərin tələbatının sosial, iqtisadi və ekoloji cəhətdən normal ödənilməsi”ndən ibarətdir.

1992-ci ildə Braziliyanın Rio-de-Janeyro şəhərində keçirilmiş Ətraf mühit və inkişaf üzrə BMT konfransı “XXI əsrin Gündəliyi”, “Rio Bəyannaməsi” və digər sənədləri əhatə edən müasir cəmiyyətin Davamlı İnkişaf Konsepsiyasını qəbul etdi.

Ümumiyyətlə, Davamlı İnkişaf konsepsiyasının əsas məntiqi mahiyyətində planetin təbii ehtiyatlarından səmərəli və qənaətlə istifadə, təbii mühitin qorunub saxlanılması, indiki və gələcək nəsillərin həyat keyfiyyətinin yaxşılaşdırılması şərtilə insanların tələbatının ağıllı şəkildə ödənilməsi və bütün dünyada sülhün saxlanılmasına yönəlmiş sosial-iqtisadi və ekoloji inkişa fı nəzərdə tutulur.

Qeyd edək ki, insan potensialının inkişafı davamlı inkişaf prosesinin ayrılmaz tərkib hissəsidir. Bu səbəbdən hər hansı bir cəmiyyətdə insan inkişafının iqtisadi, sosial, ekoloji, mədəni, hüquqi, texnoloji, mənəvi-psixoloji, sağlamlıq, təhsil, intelektual, gender və s. durumu davamlı inkişafın əsas göstəriciləri hesab olunur.

Cəmiyyətdə mövcud olan başqa inkişaf konsepsiyalarından fərqli olaraq davamlı inkişaf hər bir insanın əsas zəruri tələbatlarının ödənilməsini tələb edir və hamıya yaxşı həyat şəraiti qurmaq tələbatını təmin etmək imkanı yaradır.

Ümumiyyətlə, davamlı inkişafa keçilməsi Yer kürəsindəki həyatı şərtləndirən təbii sistemləri (atmosfer, torpaq, su resursları, canlı aləm və s.) təhlükə altında qoymamalıdır [8, s.50-53].

Davamlı inkişaf anlayışı dedikdə hər şeydən əvvəl davamlı insan potensialına əsaslanan inkişaf nəzərdə tutulur. Bu konsepsi-

yanın müxtəlif inkişaf konsepsiyalarından fərqlənməsi onun gələcək nəsillərin maraqlarına cavab verən və uzun müddət öz davamlılığını saxlayan bir inkişaf olması ilə şərtlənir.

Davamlı inkişaf fəlsəfəsinin qlobal xüsusiyyəti planetin ehtiyatlarından səmərəli və qənaətlə istifadə, təbii mühitin qorunub saxlanılması, gələcək nəsillərin həyat keyfiyyətinin yaxşılaşdırılması şərtilə indiki insanların tələbatının ağıllı şəkildə ödənilməsi və bütün dünyada sülhün saxlanılmasına yönəlmiş sosial-iqtisadi və ekoloji inkişafı nəzərdə tutur. Bu konsepsiyanın əsas mahiyyəti ondan ibarətdir ki, indiki nəsillərin inkişafı gələcək nəsillərin mənafelərinə qarşı çıxmasın.

Davamlı inkişaf konsepsiyası uzunmüddətli perspektivdə Azərbaycan Respublikasının insan resurslarının inkişaf etdirilməsindən asılıdır. Əmək məhsuldarlığının artması üçün yüksək ixtisaslı işçi qüvvəsinə ehtiyac vardır. Bacarıqlı və yüksək ixtisaslı işçi qüvvəsinin hazırlanması üçün isə təhsil sahəsinə maliyyə qoyuluşlarını davam etdirmək tələb olunur. Qeyd edək ki, Azərbaycan Respublikasında bütün digər sahələrdə olduğu kimi təhsil sahəsində də ümumbəşəri və milli dəyərlər nəzərə olınmaqla demokratik cəmiyyət quruculuğunun ahənginə uyğun əhəmiyyətli işlər görülür və görülməkdədir. Müstəqillik dövründə Azərbaycan Respublikasına rəhbərlik edən Heydər Əliyev ölkəmizin davamlı inkişafa keçməsi istiqamətində xeyli işlər görmüşdür. Lakin həmin dövrdə ölkəmiz davamlı inkişafa mane olan bir çox amillərlə üzləşmişdir. Ermənistanın Azərbaycana qarşı təcavüzünün Cənubi Qafqaz regionunda davamlı inkişafı pozan ciddi amil olduğunu vurğulayan Heydər Əliyev Minilliyin Forumundakı çıxışında Beynəlxalq təşkilatları bu problemin həll edilməsində öz səylərini birləşdirməyə çağırmışdır. “Bu təcavüz Cənubi Qafqazda vəziyyətin sabitliyini pozan başlıca amil olmuşdur… Ermənistan-Azərbaycan münaqişəsini həll etmədən və digər münaqişələri aradan qaldırmadan, xaricdən təzyiq amillərinə, o cümlədən xarici hərbi qüvvələrin olmasına son qoymadan regionda sülhə və təhlükəsizliyə nail olmaq mümkün deyildir” [11, s.16-17].

Davamlı insan inkişafı konsepsiyasının getdikcə formalaşması real həyatın tələbatına və cəmiyyətdə istehsal və istehlakın dinamikasına uyğun olaraq inkişafın dərəcəsini qiymətləndirmək üçün sosial-fəlsəfi baxımdan yeni yanaşmalar meydana çıxarmışdır. BMT-nin nəzəriyyədən paraktikaya gətirdiyi “Davamlı inkişaf” problemi heç vaxt XX və XXI əsrlərdə olduğu qədər qlobal mahiyyət daşımayaraq hətta nəzəriyyə olaraq elmi-fəlsəfi cəhətdən dərin konseptuallıq ehtiva etməmişdir;

Həyəcan təbilinin nəticəsi olaraq, dünyada ən yüksək səviyyədə həm instisional, həm də praktiki anlamda qəbul olundu ki, planetin və insanın təhlükəsizliyi məsələsi qədər dünyada ikinci bir qlobal problemi hal-hazırda təsəvvür etmək mümkün deyildir. Nəticədə hər kəs, ən ümumi şəkildə olsa da, anlamağa başladı ki, təbiətə qarşı dayanan müasir insanın taleyi heç də “davamlı inkişaf” kontekstində qənaətbəxş deyildir. Bir məsələni də qeyd etmək vacibdir: təhlükənin miqyası bəlli olsa da, ancaq müasir günümüzün reallıqları göstərir ki, bu konsepsiyanın ortaya qoyduğu bəşəri aktuallığa hər kəs və ya hər bir dövlət əməl etmək fikrində də deyildir. Bütün bunlar göstərir ki, davamlı inkişaf konsepsiyasından söhbət gedərkən, hətta siyasi, ideoloji, milli, etnik və s. xüsusiyyətlər mütləq nəzərə alınmalıdır. “BMT Baş Assambleyasının 2015-ci il 25-27 sentyabr ta-

rixində keçirilən 70-ci sessiyasında və həmin vaxtda təşkil edilmiş Dünya Sammitində mühüm qərarlar qəbul edilmişdir. BMT Baş Assambleyasının tövsiyyəsi əsasında Dünya Sammiti 2015-2030-cu illər üzrə 17 məqsəd irəli sürmüş və 193 ölkə davamlı inkişafla bağlı irəli sürülən bu məqsədləri həyata keçirmək üçün öhdəlik götürmüşlər" [4, s.264].

Lakin, bütün bunlara baxmayaraq, qeyd etməliyik ki, BMT-nin, o cümlədən müxtəlif beynəlxalq təşkilatların ciddi səylərinə baxmayaraq, dünyada qarşıya qoyulmuş strateji hədəflərə ən yüksək səviyyədə çatmaq hələ ki, mümkün görünmür. Problem ondadır ki, qarşıya qoyulmuş hədəflər hər bir cəmiyyətin müxtəlif inkişaf səviyyəsindən – iqtisadi, texniki, təhsil, elm, sosial aspektlər və o cümlədən mənəvi, humanitar, milli məsələlər və s. ən əsası dünyagörüşlərindən, həyat normalarından asılı olduğundan bu hədəflərə çatmaq elə də asan məsələ deyildir.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**


1. Azərbaycan Respublikasının Konstitusiyası: [Elektron mənbə]: Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Hüquqi aktların vahid elektron bazası. Keçid: http://e-qanun.az/framework/897
2. Cəfərov, İ.M. Azərbaycan Respublikasının Konstitusiyasının şərhi / İ.M.Cəfərov. - Bakı: Hüquq ədəbiyyatı, - 488 s.
3. Əliyev, Əmir. İnsan hüquqları. – Bakı: Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2019. - 352 s.
4. Hüseynov, S. Davamlı insan inkişafının strateji istiqamətləri. – Bakı: Adiloğlu nəşriyyatı, 2003. – 264 s.
5. Finn Ç., Hengel M., Çenovet E. Demokratiya nədir? – Bakı: Elnur-P, 1995. – 61 s.
6. Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Qanun, 150- IIIQ, mad.1, http://www.meclis.gov.az/?/az/legislation/view/867
7. Бабурин, С.Н., Урсул, А.Д. Политика устойчивого развития и государственно-правовой процесс. М.:Магистр: ИНФРА-М, 2010, 557 с.
8. Марфин Н.Н. Устойчивое развитие человечества: учебник. М.: МГУ, 2007, с.596.
9. Устойчивое развитие: новые вызовы. Учебник для вузов (Под общ.ред. В.И.Данилова-Данильяна, Н.А.Пискуловой). М.: Изд-во «Аспект Пресс», 2015, 336с.
10. http://www.e-qanun.az/framework/12424
11. https://az.wikipedia.org wikipediya


## НЕКОТОРЫЕ ПРАВОВЫЕ АСПЕКТЫ КОНЦЕПЦИИ ГЕНДЕРНОГО РАВЕНСТВА И УСТОЙЧИВОГО РАЗВИТИЯ


**Киблалиева Айтач Эльбурус кызы,**
**докторант кафедры ЮНЕСКО Прав человека и информационного права БГУ.**



В статье указано, что гендерное равенство является важнейшим приоритетом в направлении защиты прав человека, соблюдения законности, экономического развития женщин в мире и повышения конкурентоспособности. Гендер является одним из методов социальной стратификации общества. Эти методы формируют систему социальной иерархии в соответствии с социально-демографическими факторами, такими как раса, национальность, класс и возраст. Отмечается, что развитие человеческого потенциала является неотъемлемой частью процесса устойчивого развития. По этой причине экономическое, социальное, экологическое, культурное, правовое, технологическое, морально-психологическое, медицинское, образовательное, интеллектуальное, гендерное и т. д. развитие человека в любом обществе. считаются основными индикаторами устойчивого развития.

В статье упоминается, что, в отличие от других концепций развития в обществе, устойчивое развитие требует удовлетворения основных потребностей каждого человека и дает возможность удовлетворить потребность в хороших условиях жизни для всех.

**Ключевые слова:** права человека, гендерное равенство, принцип недискриминации, устойчивое развитие, предотвращение дискриминации, развитие человеческого потенциала.

## SOME LEGAL ASPECTS OF THE CONCEPT OF GENDER EQUALITY AND SUSTAINABLE DEVELOPMENT

**Qiblaliyeva Aytac Elburus gizi,**
**doctoral student of the UNESCO Department of Human Rights and information law of BSU.**

The article states that gender equality is the most important priority in the direction of protection of human rights, respect for the rule of law, economic development of women in the world and increasing competitiveness. Gender is one of the methods of social stratification of society. These methods form a system of social hierarchy according to social demographic factors such as race, nationality, class, and age. It is noted that the development of human potential is an integral part of the sustainable development process. For this reason, the economic, social, environmental, cultural, legal, technological, moral-psychological, health, education, intellectual, gender, etc. of human development in any society. are considered the main indicators of sustainable development. The article mentions that, unlike other development concepts in society, sustainable development requires the satisfaction of the basic needs of every person and provides an opportunity to meet the need for good living conditions for all.

**Key words:** human rights, gender equality, principle of non-discrimination, sustainable development, prevention of discrimination, development of human potential.

## CİNSİYET EŞİTLİĞİ VE SÜRDÜRÜLEBİLİR KALKINMA KAVRAMININ BAZI HUKUKİ YÖNLERİ

**Kıbleliyeva Aytaç Elburus kızı,**
**"İnsan hakları ve bilgi hukuku" UNESCO bölümü doktora öğrencisi,**
**Hukuk Fakültesi, BSU.**

Madde, insan haklarının korunması, hukukun üstünlüğüne saygı, dünyada kadının ekonomik gelişimi ve rekabet gücünün artırılması doğrultusunda toplumsal cinsiyet eşitliğinin en önemli öncelik olduğunu belirtmektedir. Cinsiyet, toplumun sosyal tabakalaşma yöntemlerinden biridir. Bu yöntemler ırk, milliyet, sınıf ve yaş gibi sosyal demografik faktörlere göre bir sosyal hiyerarşi sistemi oluşturur. nsan potansiyelinin geliştirilmesinin sürdürülebilir kalkınma sürecinin ayrılmaz bir parçası olduğu belirtilmektedir. Bu nedenle herhangi bir toplumda ekonomik, sosyal, çevresel, kültürel, yasal, teknolojik, ahlaki-psikolojik, sağlık, eğitim, entelektüel, cinsiyet vb. insani gelişme. statüsü, sürdürülebilir kalkınmanın ana göstergeleri olarak kabul edilir. Madde, toplumda var olan diğer kalkınma kavramlarından farklı olarak, sürdürüle bilir kalkınmanın her insanın temel ihtiyaçlarının karşılanmasını gerektirdiğini ve herkes için iyi yaşam koşulları ihtiyacını karşılama fırsatı sunduğunu belirtmektedir.

**Anahtar Kelimeler:** insan hakları, toplumsal cinsiyet eşitliği, sürdürülebilir kalkınma, ayrımcılığın önlenmesi, insan potansiyelinin geliştirilmesi.

# XÜSUSİLƏ AĞIRLAŞDIRICI HALLARDA TALAMA

*Cinayət Məcəlləsinin 179.1 və ya 179.2-ci bəndlərində nəzərdə tutulan əməllərin külli miqdarda törədilməsi*

**Qurbanov Habil Surxay oğlu,**
**AMEA Azad Həmkarlar İttifaqının sədri, hüquq üzrə elmlər doktoru, professor.**
e-mail: professorqurbanov@yandex.com
tel: +99455 220 00 20.

*Təqdim olunan məqalədə iddia olunur ki, mənimsəmə və ya mənimsəmənin ikinci şərti əlaməti bu cinayətlərin külli miqdarda törədilməsidir. Mənimsəmmə və ya mənimsəmə yolu ilə törədilən oğurluq əməlləri, ilk növbədə, böyük ictimai təhlükə törədən cinayətlər olduğundan, belə əməllərə qarşı mübarizənin gücləndirilməsi, eləcə də qabaqlayıcı tədbirlərin əhatə dairəsinin genişləndirilməsi zəruri olur. Son onilliklərdə cinayət əməllərinin ictimai təhlükəlilik dərəcəsinin öyrənilməsinə həsr olunmuş tədqiqatlar aparılmamışdır. Müəllif onu da xatırladır ki, mənimsəmə və ya mənimsəmə yolu ilə törədilən oğurluq əməlləri əmlakın gizli oğurlanması və dələduzluqdan daha təhlükəli cinayətlər hesab edilir. Səbəb odur ki, əmlakın gizli oğurlanması və dələduzluq əməllərində qanunauyğunluq əlamətləri yoxdur.*

**Açar sözlər:** müntəzəmlik, ictimai təhlükə, müddət, cinayətkar qəsdlər, mənimsəmə və israfetmə, tövsifedici əlamət.

Mənimsəmə və ya israfetmə yolu ilə talama əməllərinin ikinci tövsifedici əlaməti həmin cinayətlərin külli miqdarda törədilməsidir. Bu əlamət Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (AR CM) 179.3.2-ci maddəsində nəzərdə tutulmuşdur.

AR CM-in 177-ci maddəsinin 2-ci qeydinə uyğun olaraq "külli miqdar" dedikdə, əlli min manatdan artıq olan məbləğ başa düşülür.

Mənimsəmə və ya israfetmə yolu ilə talama əməlini törədən təqsirkarın qəsdi özgə əmlakını külli miqdarda ələ keçirməyə yönəldikdə və həmin qəsd təqsirkarın iradəsindən asılı olmayan səbəblərə görə həyata keçirilmədikdə, təqsirkarın hərəkəti inanılaraq etibar edilmiş özgə əmlakını, yəni talan edilmiş əmlakın miqdarından asılı olmayaraq, külli miqdarda əvəzsiz qanunsuz götürməyə cəhd kimi AR CM-in 179.3.2-ci maddəsi ilə tövsif edilməlidir.

Təqsirkar, hər biri müstəqil cinayət hesab edilən bir neçə talama törətdikdə, vurulmuş ziyanın miqdarının müəyyən edilməsi üçün həmin cinayətlərdən hər biri zamanı talanmış əmlakın cəmlənməsinə yol vermir. Lakin tək davam edən talama cinayəti törədildikdə ziyanın miqdarını müəyyən etmək üçün ayrı-ayrı epizodlar zamanı talan edilmiş bütün əmlak cəmlənir və bütövlükdə vurulmuş ziyanın miqdarı müəyyən edilir (1, s.422).

Külli miqdarda talama əməli mütəşəkkil cinayətkar dəstə və ya qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə, götürülmüş əmlakın bölüşdürülməsi zamanı kimə hansı payın düşməsindən asılı olmayaraq, əmlakın tam həcmdə götürülməsilə nəticə-

lənmiş əmələ görə məsuliyyət mütəşəkkil dəstəyə rəhbərlik edən şəxsin və ya qrupun təşkilatçısının üzərinə düşür. Belə halda mütəşəkkil cinayətkar dəstənin rəhbəri və ya qabaqcadan əlbir olan bir qrup şəxslərin təşkilatçısı törədilən əməlin onun qəsdi ilə əhatə olunduğu halda cinayət məsuliyyətinə cəlb olunur. Bu zaman rəhbərin və ya təşkilatçının talama əməlinin törədilməsində bilavasitə iştirak edib-etməməsi heç bir hüquqi əhəmiyyət kəsb etmir. Belə ki, talama əməlinin adları çəkilən şəxslərin qəsdinin nəticəsi olması onların cinayət məsuliyyətinə cəlb edilməsi üçün kifayət edir. Bu hal eynilə talama əməlinin hazırlanmasında və ya törədilməsində iştirakçı olsalar da, lakin əməlin törədilməsində bilavasitə iştirak etməmiş dəstə və ya qrup iştirakçılarına da şamil olunur. Yəni dəstə və ya qrup tərəfindən törədilmiş talama əməlində iştirak etməmiş şəxslər cinayət məsuliyyətinə cəlb olunmurlar.

Qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil cinayətkar dəstə tərəfindən mənimsəmə və ya israfetmə yolu ilə talama əməli törədildikdə, əməl nəticəsində vurulmuş ziyanın miqdarını müəyyənləşdirmək üçün cinayətin bütün iştirakçılarının talan etdiyi əmlak cəmlənir. Bu zaman ümumi ziyanın "xeyli miqdar" və ya "külli miqdar" əlaməti meydana çıxdıqda, hər bir konkret iştirakçıya çatan əmlakın miqdarı əməlin tövsif edilməsi üçün heç bir əhəmiyyət daşımır.

Bir deyil, yerinə, mənbələrinə və talama əməlinin törədilməsi üsullarına (özgə əmlakını götürmə zamanı təqsirkarlarda yaranmış müstəqil qəsdin realizə edildiyi bir neçə talama əməli) görə bir neçə əlahiddə talamanın törədildiyi zaman hər bir ayrıca cinayət nəticəsində talan edilmiş əmlakın cəmlənmiş dəyərinin "külli miqdar" əlaməti ilə əhatə olunması halının müəyyənləşdirilməsinə yol verilmir. Bu zaman yalnız tək davam edən mənimsəmə və ya israfetmə yolu ilə talama əməlləri istisnalıq təşkil edir. Belə ki, vahid qəsdlə əhatə olunan ayrı-ayrı eyni (oxşar) cinayətkar aktlar zamana görə davam edən tək cinayətin epizodlarını təşkil edirlər.

Mənimsəmə və ya israfetmə yolu ilə talama əməlləri, ilk növbədə, böyük ictimai təhlükəliliyə malik olan cinayətlər hesab edildiklərinə görə həmin əməllərlə mübarizənin gücləndirilməsini, habelə profilaktiki tədbirlərin dairəsinin genişləndirilməsini və s. zəruri edir. Bu da təbii olaraq həmin cinayətkar qəsdlərin qarşısının alınmasına yönələn işlərin çoxşaxəli planda, həm də ən yeni üsul və metodlardan istifadə edilməklə aparılmasını qaçılmaz edən amillərdən sayılır.

Hüquq ədəbiyyatında göstərilir ki, elmi-texniki tərəqqi dövründə, informasiyanın cəmiyyətin normal fəaliyyəti üçün avanqarda çevrildiyi bir şəraitdə məsuliyyəti ağırlaşdıran halları olan cinayət tərkiblərinin konstruksiya edilməsində ictimai təhlükəli əməllərin vurduğu ziyanın miqdar ölçüləri kimi for-mal meyarların qanun normalarına daxil edilməsi praktikasından daha çox istifadə edilməsi artıq zərurətə çevrilmişdir. Xüsusilə də cinayətin nəticələrinin "az miqdarda ziyan", "xeyli miqdarda ziyan", "külli miqdarda ziyan", "az ağır nəticə", "ağır nəticə" və s. bu kimi formal kriteriyalar əsasında fərqləndirilməsi və bunların tərkib əlaməti kimi qanunun mətninə daxil edilməsi cinayət məsuliyyətinin diferensiasiyasına kömək edən mühüm amillərdən biri qismində təzahür edir və bundan sonra da edəcəkdir (2, s.114).

Müasir cinayət hüququ elmində törədilmiş hər bir ictimai təhlükəli əməlin sosial təhlü-

kəliliyi qanunverici tərəfindən ona verilən qiymətdə ifadə olunur. Əməlin ictimai təhlükəliliyinin meydana gəlməsi və ya bu xüsusiyyətin itirilməsi cəmiyyətdə özünü sosial "dəyər" kimi büruzə verən, yaxud özünü "gizlədən" ictimai münasibətlərlə bağlıdır.

Bəzi müəlliflər əməlin ictimai təhlükəliliyinin obyektiv xarakter daşımasına lazımınca əhəmiyyət vermir, bunun daha çox qanunverici orqandan asılı olduğunu qeyd edirlər (3, s.32). Müəlliflərdən V.Q.Smirnovun fikrincə, ictimai təhlükəlilik əməlin maddi əlaməti hesab olunsa da, o, qiymətləndirici xüsusiyyətə malikdir (4, s.276). Bu mülahizələrin keçən əsrin 60-80-ci illərində söylənilməsinə baxmayaraq, onlar öz nəzəri aktuallığını bu gün də itirməmişdir. Məsələ isə burasındadır ki, son onilliklərdə cinayət əməllərinin ictimai təhlükəlilik dərəcəsinə həsr edilmiş tədqiqatlara rast gəlinmir. Deməli, müəlliflər yuxarıda deyilənlərlə müəyyən mənada razılaşırlar. Biz də belə mövqedəyik.

Sosial təhlükəlilik əməlin ziyan vurduğu ictimai münasibətlə sıx bağlı olur. Yəni törədilmiş hər hansı cinayət qanunla mühafizə edilən obyektlə eyni vaxtda həm də ictimai münasibətlərə ziyan vurur. Ona görə də ictimai təhlükəliliyə verilən qiymət əslində cinayət nəticəsində ictimai münasibətə vurulan ziyana verilən qiymətdir. Burada vurulan ziyan hüquqi şüurun köməyilə adekvat inikası və qiymətləndirilməsi xeyli dərəcədə ziyan çəkən ictimai münasibətin təbiətindən, onun ölçüləbilən xüsusiyyətlərə malik olub-olmamasından asılıdır. Ziyançəkən ictimai münasibətlər ölçüləbilən xüsusiyyətə malik olduqda, vurulmuş ziyanın kəmiyyət xarakteristikasını vermək mümkün olur. Yəni belə ziyanın miqdarı asanlıqla hesablanır. Əmlaka vurulmuş ziyanın kəmiyyət xarakteristikası bəzi hallarda cinayətin təhlükəlilik dərəcəsinin göstəricisi qismində də çıxış edir.

Qanunvericilik orqanı cinayətlərin xarakteri və təhlükəlilik dərəcəsi (əməlin vurduğu maddi, mənəvi, fiziki ziyan və onun miqyası, cinayətin törədilməsi üsulu, zaman, məkan, təqsirin forması, törədilmiş cinayətin motivi və məqsədi, cəzanı yüngülləşdirən və ağırlaşdıran hallar və s.), ədalətlilik prinsipinin bərabərləşdirici və fərdiləşdirici meyarı əsasında müəyyən növ cinayətə görə sanksiyalar qurur.

Qeyd etmək zəruridir ki, cinayətin törədilməsi üsulunun özü təqsirkarın şəxsiyyətinin təhlükəliliyini səciyyələndirən göstəricilərdən biridir. Cinayətin törədilməsi üsulu hüquq ədəbiyyatında cinayətin edilməsi prosesində cinayətkar tərəfindən seçilən "ardıcıl hərəkətlərin" müəyyən qaydası, metodları kimi izah olunur (5, s.56). Fikrimizcə, təqsirkarlar, adətən, o üsula üstünlük verirlər ki, məhz həmin üsul əməlin törədilməsini asanlaşdırır, həm də cinayətin törədilməsi prosesini tezləşdirir. Təqsirkar o hərəkətlərin ardıcıllığından istifadə edir ki, məhz həmin ardıcıllıq qarşıda duran məqsədə yaxınlaşmağa imkan verir. Bu baxımdan talama əməlinin mənimsəmə və israfetmə formalarının sosial təhlükəliliyi, şəxs tərəfindən öz ixtiyarında olan əmlakın müntəzəm olaraq uzun müddət ərzində götürülməsini özündə ehtiva edir (6, s.87). Buradakı müntəzəmlik və müddət mənimsəmə və israfetmənin törədilməsi üsuluna xidmət edən göstəricilərdir. Məhz buna görə də, mənimsəmə və ya israfetmə yolu ilə talama əməlləri əmlakın gizli oğurluğundan və dələduzluqdan daha təhlükəli cinayət hesab olunur. Çünki gizli oğurluq və ya dələduzluq əməllərinə müntəzəmlik əlaməti xas deyil.

Deməli, mənimsəmə və ya israfetmə yolu ilə talama əməllərinin praktika ilə əlaqədar aparılan tədqiqatları göstərir ki, burada əvəzsiz qanunsuz olaraq götürülən əmlak şəxsin sərəncamında olduğuna görə, belə vəziyyət qeyd edilən əmlakı dəfələrlə, uzun müddət ərzində talamağa imkan yaradır. Özgənin əmlakını talamanın mənimsəmə və ya israfetmə kimi formaları bir çox hallarda külli miqdarda ziyan vurmaqla bağlı olur. Bundan başqa, talanetmə həm qabaqcadan əlbir olan bir qrup şəxs, həm də mütəşəkkil dəstə tərəfindən törədilir ki, bu da həmin əməllərin ictimai təhlükəliliyini daha da artırır.

Mənimsəmə və ya israfetmə yolu ilə talama əməllərinə dair istintaq-məhkəmə təcrübəsi materiallarının ümumiləşdirmələri bir daha əminlik verir ki, talamanın formaları içərisində məhz yuxarıda adları çəkilən əməllər daha geniş yayılmışdır. Bunu sosioloji tədqiqatlar da təsdiq edir.

## ƏDƏBİYYAT SİYAHISI


1. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin Kommentariyası (prof. F.Y.Səməndərovun redaktəsi ilə). Bakı, "Digesta", 2005.
2. Кригер Г.Л. Уголовная ответственность и наказание. В сб.: Совершенствования мер борьбы с преступностью в условиях научно-технической революции. М., Наука, 1980.
3. Шуберт Л. Об общественной опасности преступного деяния. М., 1960.
4. Советское уголовное право. Часть общая. Л., 1960.
5. Кудрявцев В.Н. Способ совершения преступлений и его уголовно-правовое значение. Советского государство и право, 1987, № 5.
6. Ефимов М.А., Устинов В.С. Феноменология хищений. Борьба с хищениями, совершенными путем присвоения, растраты, либо зло-употреблением служебным положением. Горький, 1976.


## ХИЩЕНИЕ ПРИ ОСОБО ОТЯГЧАЮЩИХ ОБСТОЯТЕЛЬСТВАХ

*Деяния, предусмотренные пунктами 179.1 или 179.2 Уголовного Кодекса совершенные в крупном размере*

**Курбанов Габил Сурхай оглы,**
**д.ю.н., профессор, председатель Независимого Профсоюза работников НАНА.**

Biz Azərbaycanda bərpa olunan enerji mənbələrini öz enerji təhlükəsizliyimizin təmin olunması üçün inkişaf etdirmirik. Enerji təhlükəsizliyimizi hələ bir neçə il bundan əvvəl təmin etmişik. Bu gün Azərbaycan nəinki öz enerji tələbatlarını təmin edir, o cümlədən xam nefti, neft məhsullarını, təbii qazı, neft-kimya məhsullarını və elektrik enerjisini ixrac edir. Bərpa olunan enerji ilə bağlı proqramımız tamamilə fərqli gündəliyə malikdir. Birincisi, bu onunla bağlıdır ki, nəhəng potensial vardır. İkincisi, biz onun sayəsində ixracımızı şaxələndirəcəyik. Nəticədə iqtisadiyyatımızın yeni ekoloji təmiz sektoru yaranacaq.

"İlham Əliyev. İnkişaf – məqsədimizdir" çoxcildliyinin çapdan yeni çıxmış 125-ci kitabında yer alan bu fikirləri dövlətimizin başçısı bu il yanvarın 16-da Əbu-Dabi Dayanıqlılıq Həftəsinin rəsmi açılış mərasimində çıxışı zamanı söyləyib.

Çoxcildliyin 125-ci kitabında toplanan materiallar 2023-ci ilin yanvar-fevral aylarını əhatə edir. Bu kitaba Prezident İlham Əliyevin Dünya İqtisadi Forumunun illik toplantısında iştirak etmək üçün İsveçrə Konfederasiyasına işgüzar səfərinə, o cümlədən Davosda keçirdiyi görüşlərə dair informasiyalar, "Avrasiya Orta Dəhlizi: yoldan magistrala" mövzusuna həsr olunmuş panel iclasda moderatorun suallarına verdiyi cavablar, Çinin CGTN (Chine Global Television Network) telekanalına müsahibəsinin mətni daxil edilib.

Yeni kitabda Azərbaycan Prezidentinin Macarıstana rəsmi səfəri, macarıstanlı həmkarı xanım Katalin Novak və Baş nazir Viktor Orban ilə görüşləri və sənədlərin imzalanması barədə materiallar, Viktor Orban ilə mətbuata birgə bəyanatlarının mətni də verilib.

Fevral ayının mühüm hadisələrindən biri Bakıda "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 9-cu və "Yaşıl enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclaslarının keçirilməsi oldu. Açılış mərasimində çıxış edən Prezident İlham Əliyev "Cənub Qaz Dəhlizi" layihəsinin əhəmiyyətindən danışaraq dedi: "Cənub Qaz Dəhlizi" iki ildən bir az çoxdur ki, açılıb. Bu gün biz artıq TANAP-ın 16 milyard kubmetrdən 30 milyard kubmetrə qədər genişləndirilməsini nəzərdən keçiririk və TAP-ın 10 milyard kubmetrdən 20 milyard kubmetrə genişləndirilməsi haqqında danışırıq. Bu, alternativ enerji mənbəyinə böyük ehtiyac duyulduğunu göstərir. Bu, enerji təchizatının davamlı şaxələndirilməsinin zəruriliyini nümayiş etdirir. Biz buna hazırıq".

Həmin tədbirdə Prezident İlham Əliyevin, habelə Rumıniya Prezidenti Klaus Yohannisin, Avropa İttifaqının energetika məsələləri üzrə komissarı xanım Kadri Simsonun çıxışlarının mətni 125-ci kitabda toplanıb.

Oxucu yeni kitabda Azərbaycan Prezidentinin ölkəmizə gəlmiş Misir Prezidenti Əbdül Fəttah Əs-Sisi ilə görüşü, Azərbaycan-Misir sənədlərinin imzalanması haqqında informasiyalarla, iki ölkənin liderlərinin mətbuata bəyanatlarının mətni ilə də tanış ola bilər.

Bu kitabda Azərbaycan Prezidentinin yerli televiziya kanallarına müsahibəsinin mətni də yer alıb.

Fevralın 6-da qardaş Türkiyədə baş vermiş dağıdıcı zəlzələ Azərbaycan xalqını da dərindən sarsıtdı. Prezident İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edərək başsağlığı verdi, fevralın 8-də isə Türkiyə səfirliyinə gedərək matəm kitabına ürək sözlərini yazdı, səfir Cahit Bağçı ilə söhbət etdi. Bütün bunlar haqqında informasiyalarla yeni nəşrdə tanış olmaq mümkündür. Qeyd edək ki, fəlakətə düçar olmuş qardaş ölkəyə ilk kömək əlini Azərbaycan uzatdı. Azərbaycanlı xilasedicilər və həkimlər yüzlərlə insan həyatını xilas etdilər, xalqımız zəlzələdən zərər çəkənlərə maddi və mənəvi dəstək oldu.

"Azərnəşr" tərəfindən buraxılan 125-ci kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# HEYDƏR ƏLİYEV VƏ İLHAM ƏLİYEVİN DÖVLƏT-DİN MÜNASİBƏTLƏRİNİN TƏNZİMLƏNMƏSİNDƏ ROLU

*Müəllif: S.Hüseynov. Bakı,"Tuna" QSC mətbəəsi, 2023, 277 səh.*

**Qeyd etmək lazımdır ki, həm İslamaqədərki dövrdə, həm də İslam dininin Azərbaycanda yayılmasından sonra müxtəlif etnosların yaşadığı bu ərazidə uzun illər qarşılıqlı etimada əsaslanan milli-mədəni və dini münasibətlər sistemi formalaşmış, insanlar əmin-amanlıq şəraitində yaşamış, burada yüksək tolerantlıq mühiti hökm sürmüşdür. Bu ərazidə tarixən müxtəlif dinlər və etnoslar arasında tolerantlıq mədəniyyətinin indiyə kimi qorunub saxlanılmasında Azərbaycan xalqının, eyni zamanda, İslam dininin mühüm rolu olmuşdur.**

**ÖN SÖZ**

Şərqlə-Qərbin qovşağında yerləşən Azərbaycan İslam dünyasının bir parçası olaraq Qafqazda ən böyük müsəlman ölkəsi sayılır. Digər Qafqaz xalqları kimi Azərbaycan xalqı da tarixən həmişə öz milli-mənəvi və dini dəyərlərinə sadiq olmuş, öz adət-ənənələrinə ehtiramla yanaşmışdır.

Son illərdə İslam dini, İslam sivilizasiyası haqqında yeni-yeni tədqiqat əsərlərinin sayı çoxalmış, bu sahədə keçirilən beynəlxalq konfrans və simpoziumların coğrafiyası genişlənmişdir. Xüsusən, İslam mədəniyyətinə diqqətin artması ABŞ-də baş verən 2001-ci il 11 sentyabr hadisəsindən sonra daha çox əhəmiyyət kəsb etməyə başlamışdır. Araşdırmalar göstərir ki, son illərdə, xüsusən, İslamın tarixi mahiyyəti, dünya mədəniyyət tarixində İslamın oynadığı rol, onun bəşər sivilizasiyasına verdiyi töhfələr beynəlxalq miqyasda keçirilən elmi konfransların və simpoziumların müzakirə obyektinə çevrilmişdir.

Müasir dünyada beynəlxalq münasibətlər çərçivəsində baş verən hadisələr bir daha sübut edir ki, din yalnız inanc və mənəviyyat məsələsi deyil, eyni zamanda, ictimai-siyasi hadisələrin tənzimlənməsində, ölkələrarası əlaqələrin qurulmasında müstəsna rol oynayır. Bununla yanaşı, sekulyar dövlətlərdə dinin funksiyası və yeri, həmçinin qloballaşmanın genişləndiyi bir dövrdə dövlət və din arasında münasibətlərin müəyyən edilməsi ən aktual problemlərdən birinə çevrilmişdir. Digər bir problem isə qloballaşma prosesində dövlətçiliyin və cəmiyyətin inkişafına xidmət edəcək formada milli adət-ənənələrin və dini dəyərlərin mühafizəsi məsələsidir. Bu baxımdan, prof. Sakit Hüseynovun ərsəyə gətirdiyi "Heydər Əliyev və İlham Əliyevin dövlət-din münasibətlərinin tənzimlənməsində rolu" adlı əsəri Ulu öndər Heydər Əliyev və İlham Əliyevin dövlət-din münasibətlərinin tənzimlənməsi, milli-mənəvi, eləcə də dini dəyərlərin qorunması və təbliği, multikulturalizm, tolerantlıq və dinlərarası dialoqun təşviq edilməsi sahəsində nəzəri və praktiki səciyyə daşıyan zəngin irsininin araşdırılmasını əhatə edir.

Müəllif kitabda xalqımız müstəqillik əldə etdikdən sonra din sahəsində yaranmış boşluqlardan və cəmiyyətimiz üçün yaranmış potensial təhlükələr haqqında bəhs etmiş, Ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlməsindən sonra həmin boşluqların aradan qaldırılması və milli təhlükəsizlik çərçivəsində dini ekstremizimlə mübarizə istiqamətində aparılmış nəzəri və əməli işlər barəsində ətraflı şəkildə məlumatlar vermişdir. İslamın Qafqazda, o cümlədən Azərbaycanda yayılması prosesində dini tolerantlıq prinsiplərinə əməl edilməsini qeyd edən müəllif, bu ərazidə tarixən müxtəlif dinlər və etnoslar arasında tolerantlıq mədəniyyətinin indiyə kimi qorunub saxlanılmasında həm Azərbaycan xalqının, həm də İslam dininin mühüm rol oynadığını şərh etmiş, dövlətçilik tariximizdə bu istiqamətdə Heydər Əliyevin və ondan sonrakı dövrdə İlham Əliyevin fəaliyyətlərini geniş şəkildə tədqiq etmişdir.

Prof. Sakit Hüseynov kitabda tarixi məsələlərə də yer ayırmışdır. Daha dəqiq desək, Çar Rusiyasının Azərbaycanı işğal etdikdən sonra bu bölgədə həyata keçirdiyi dövlət-din siyasəti və bu siyasətin arxasında gizlənmiş xalq arasında təfriqə yaratmaq cəhdlərindən də bəhs etmişdir. Müəllif haqlı olaraq qeyd edir ki, çarizmin həyata keçirdiyi məkrli tədbirlər burada öz müstəmləkəçilik siyasətini daha da dərinləşdirmək məqsədini güdürdü. S.Hüseynov konkret faktlara əsaslanmaqla bu tədbirlərdən məqsəd, yerli əhalinin – azərbaycanlıların dini etiqadlarına təsir göstərmək, onları həm hüquqi–siyasi, həm də mənəvi-psixoloji cəhətdən çarizmin müstəmləkəçilik qaydalarına tabe etdirməkdən ibarət olduğunu sübut edir. Tədqiqat nəticəsində məlum olur ki, azərbaycanlıların dini inanclarına və mənəvi–psixoloji dəyərlərinə təsir edərək onların ruslaşdırılması və getdikcə xristianlaşdırılması məsələsi XIX əsrin əvvəllərində rus çarizminin qarşısında duran ən vacib məqsədlərdən biri olmuşdur.

Kitabda Ulu öndər Heydər Əliyevin hakimiyyəti illərində İslam dini, eyni zamanda, dinlərarası dialoqun qurulması ilə bağlı həyata keçirdiyi beynəlxalq elmi tədbirlərdən də söhbət açılmışdır. Heç şübhəsiz ki, bu tədbirlərdən ən əhəmiyyətlisi Heydər Əliyevin şəxsi təşəbbüsü ilə 9-11 dekabr 1998-ci il tarixində Bakıda keçirilmiş "İslam sivilizasiyası Qafqazda" adlı beynəlxalq simpozium olmuşdur. Qeyd etmək lazımdır ki, İslam dininin və İslam sivilizasiyasının Qafqazda yayılması ilə bağlı olan məsələlərin elmi cəhətdən araşdırılması zəru¬rətini, eyni zamanda, respublika, regional və beynəlxalq təşkilatların müraciətlərini nəzərə alaraq, Ulu Öndər bu aktual və vacib tədbirin Bakıda keçirilməsini dəstəkləmiş, "İslam sivilizasiyası Qafqazda" adlı beynəlxalq simpoziumun Bakıda keçirilməsi haqda 1998-ci ilin fevralında sərəncam imzalamışdır. Simpoziumda Türkiyə, İran, Rusiya, ABŞ, Misir, Almaniya, Fransa, Küveyt və digər ölkələrdən gəlmiş alimlər, diplomatlar, din xadimləri, dini icma rəhbərləri və ictimai xadimlər iştirak etmişlər.

Qeyd etmək lazımdır ki, "İslam sivilizasiyası Qafqazda" mövzusuna həsr olunmuş bu beynəlxalq tədbir öz əhəmiyyətinə görə Qafqazda İslam sivilizasiyasının elmi cəhətdən araşdırılmasına yol açmış, dünya alimlərinin, tədqiqatçıların, ictimai və siyasi xadimlərin nəzərlərini Azərbaycana cəlb etmişdir.

Müəllif kitabda İlham Əliyevin hakimiyyətə gəldiyi gündən etibarən dövlət-din münasibətlərinin təkmilləşdirilməsi sahəsində fəaliyyəti və həyata keçirdiyi tədbirlər haqqında da araşdırma aparmış, strateji əhəmiyyətə malik bu addımları şərh etmişdir. Məhz bu baxımdan, İlham Əliyevin 2017-ci ili "İslam Həmrəyliyi ili" elan etməsi dövlət başçımızın humanistliyinin göstəricisi olmaqla yanaşı, eynizamanda, ölkəmizin İslam ölkələrinin birliyinə olan həssas münasibətinin müsbət nümunəsidir. Dövlətimizin bu məsələyə yanaşmasından məlum olur ki, Azərbaycan Respublikası İslam dünyasının bir parçası olmaqla yanaşı, qarşılıqlı ehtiram prinsipləri əsasında digər dinlərlə dialoqun qurulmasını da zəruri hesab edir. Ölkəmiz çoxmillətli və çoxkonfessiyalı dövlət olduğu üçün ölkə başçımızın siyasətində tolerantlıq və multikultiralizm məsələsi prioritet istiqamətlərdən birini təşkil edir.

Yuxarıda deyilənləri nəzərə alaraq, qeyd etmək olar ki, Heydər Əliyev və İlham Əliyevin dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsində həyata keçirdikləri din siyasətinin öyrənilməsində prof. Sakit Hüseynovun təqdim etdiyi tədqiqat əsəri mühüm elmi əhəmiyyətə malikdir. Bununla yanaşı, müəllifin gəldiyi müəyyən elmi nəticələr digər ölkələrdə də dövlət-din problemlərinin tənzimlənməsində faydalı ola bilər. Ümid edirəm ki, tələbələr, magistrlər, doktorantlar, dinşünas alimlər, eyni zamanda, geniş oxucu kütləsi üçün nəzərdə tutulmuş bu kitab Azərbaycan dövlətinin bütün dünyaya təqdim etdiyi dünyəvilik, tolerantlıq, birgəyaşayış və dini dözümlülük kimi humanist ideyaların təbliği üçün əyani vəsaitə çevriləcəkdir.

**İlham Məmmədzadə,**
**fəlsəfə elmləri doktoru, professor.**

***Bu kitab Milli Mənəvi Dəyərlərin Təbliği Fondunun maliyyə dəstəyi ilə Bakı şəhəri Sabunçu rayonu Pirşağı qəsəbəsi "Cümə" məscidi dini icmasının həyata keçirdiyi layihə çərçivəsində çap edilmişdir.***

# MÜSTƏQİLLİK ŞƏRAİTİNDƏ DÖVLƏT–DİN MÜNASİBƏTLƏRİ

**Bu yaxınlarda AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun "Davamlı inkişafın fəlsəfəsi və sosiologiyası" şöbəsinin müdiri f.e.d., professor Sakit Hüseynovun "Heydər Əliyev və İlham Əliyevin dövlət-din münasibətlərinin tənzimlənməsində rolu" adlı kitabı nəşr olunmuşdur. Qeyd etmək lazımdır ki, bu kitab Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin nəzdində fəaliyyət göstərən Mənəvi Dəyərlərin Təbliği Fondunun maliyyə dəstəyi ilə Sabunçu rayonu Pirşağı qəsəbəsindəki "Cümə" məscidi dini icmasının həyata keçirdiyi layihə çərçivəsində çap olunmuşdur. Bu tədqiqat əsəri Heydər Əliyevin anadan olmasının 100 illiyinə və İlham Əliyevin hakimiyyətə gəlməsinin 20 illiyinə həsr olunmuşdur.**

Monoqrafiya müstəqillik dövründə Ümummilli Lider Heydər Əliyev və Prezident İlham Əliyevin dövlət-din siyasətinin fəlsəfi-sosioloji cəhətdən araşdırılmasına həsr edilib. Ümumiyyətlə, dünyada elə bir xalq yoxdur ki, onun formalaşmasında dini inancların və adət-ənənələrin payı olmasın. Dini inanclar və dinə olan ehtiyac insanla birlikdə yaranır, onun həyatının ayrılmaz bir hissəsinə çevrilir, ictimai davranış və əxlaq qayda-qanunlarının tənzim edilməsində, həmçinin mənəvi dəyərlərin təşəkkülündə mühüm rol oynayır. Ümummilli Lider Heydər Əliyevin ifadəsi ilə desək: "Hər xalqın öz adət-ənənəsi var, öz milli-mənəvi və dini dəyərləri var. Biz öz milli-mənəvi dəyərlərimizlə və adət-ənənələrimzlə fəxr edirik. Bizim xalqımız yüz illərlə, min illərlə adət-ənənələrimizi, milli-mənəvi dəyərlərimizi yaradıbdır və bunlar bizim xalqımızın mənəviyyatını təşkil etməkdədir".

Yaşlı nəsil bilir ki, sovet dövründə hakimiyyət dinə və dini inanclara qarşı obyektiv və birmənalı olmamış, dini mövzuların araşdırılması ateizm düşüncəsi altında həyata keçirilmişdir. Müstəqillikdən sonra Azərbaycan xalqının milli identikliyinin, maddi və mənəvi irsinin, dilinin, dininin, milli şüurunun, milli mentalitetinin, mədəniyyətinin, adət-ənənələrinin, memarlıq abidələrinin qorunması və inkişaf etdirilməsi dövlət qarşısında prioritet məsələlərindən birinə çevrilmişdir.

Bu nöqteyi-nəzərdən professor Sakit Hüseynovun yeni ərsəyə gətirdiyi "Heydər Əliyev və İlham Əliyevin dövlət-din münasibətlərinin tənzimlənməsində rolu" adlı kitabının mövzusu olduqca aktualdır və qloballaşma dövründə dinamik xarakter daşıyır. Belə ki, müəllif kitabın əsas mövzusu kimi Ümummilli Lider Heydər Əliyev və prezident İlham Əliyevin fəaliyyəti, fərman və sərəncamları, çıxış və nitqləri, görüş və qəbulları barədə məlumatları tarixi-xronoloji ardıcıllıqla toplamış, daha sonra elmi-fəlsəfi istiqamətdə şərhlər etmişdir.

Kitabda prezident İlham Əliyevin İslam həmrəyliyi çağırışının zəruriliyi əsaslandırılmış, XX əsr 90-cı illərin əvvəllərində Heydər Əliyevin İslam həmrəyliyi ilə bağlı maraqlı və uzaqgörən ideyaları sosial-fəlsəfi aspektdə şərh edilmişdir. İslam dininin həmişə əmin-amanlıq, qardaşlıq, sülh və barış dini olduğunu vurğulayan Heydər Əliyev "İslam həmrəyliyi"nin həm təriqətlərarası, həm müsəlman aləmində dialoq, həm də bütün dünyada humanist prinsiplərin bərqərar olunmasına müsbət təsir göstərəcəyinin təhlil edilməsi kitabın ana xəttini təşkil edir.

Bu baxımdan, təqdim olunmuş kitabın mövzusu milli təhlükəsizliyin bir tərkib hissəsi olan dövlət-din münasibətlərinin tədqiqi istiqamətində də böyük əhəmiyyətə malikdir. Müəllif kitabda xalqımız müstəqillik əldə etdikdən sonra din sahəsində yaranmış boşluqlardan və cəmiyyətimiz üçün yaranmış potensial təhlükələr haqqında bəhs etmiş, ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlməsindən

sonra yaranmış boşluqların aradan qaldırılması və milli təhlükəsizlik çərçivəsində dini ekstremizimlə mübarizə istiqamətində aparılmış nəzəri və əməli işlər barəsində ətraflı şəkildə məlumatlar vermişdir.

Kitabın obyektini tarixi, nəzəri və hüquqi baxımdan, Azərbaycanda din-dövlət və din-siyasət münasibətləri təşkil edir. Bununla yanaşı, Azərbaycanda dövlət-din münasibətlərinin tənzimlənmə modeli, cəmiyyətdə din sahəsində yaranmış yeniliklər və çağırışların həlli yolları, Ümummilli Lider Heydər Əliyev və prezident İlham Əliyevin bu sahədə yürütdükləri din siyasətinin əsas istiqamətlərini müəyyənləşdirən tezislər tədqiqatın əsas predmetini təşkil edir.

Kitabda həmçinin, dini-siyasi ekstremizmin dini-psixoloji və sosial-fəlsəfi cəhətlərinə xüsusi diqqət yetirilmiş və dini-siyasi ekstremizmə qarşı mübarizə yolları araşdırılmışdır. Dini ekstremizmə qarşı mübarizənin qanunvericilik əsaslarına diqqət yetirilmişdir. Bununla bağlı "Dini ekstremizmə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu və "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanunları haqqında müəllif tərəfindən ətraflı şərhlər verilmişdir.

Professor Sakit Hüseynovun gəldiyi qənaətlərdən biri də budur ki, Azərbaycanda İslam dəyərlərinə özünəməxsus qayıdış, İslam dinindən irəli gələn əxlaqi, humanist dəyərlərin müasir demokratik, hüquqi, dünyəvi, mütərəqqi inkişaf meyarları ilə uzlaşması milli-dünyəvi dəyərlərin tərəqqisi, cəmiyyətdə inanc hisslərinin möhkəmlənməsi baxımından müstəsna rol oynayır. Çünki, illər keçdikcə, xüsusi ilə də gənclərimiz öz dəyərlərilə daha yaxından tanış olur, onlara daha dərindən yiyələnir və mənimsəyirlər. Gənc nəslin əldə etdikləri bu dəyərlərin tarixi keçmişi, sonrakı dəyişiklikləri və bugünkü əhəmiyyətini bilmək olduqca vacibdir. Prezident İlham Əliyev İƏT-ə üzv olan ölkələrin turizm nazirlərinin V konfransında (11 sentyabr 2000) belə qeyd etmişdir: "...Bizi birləşdirən İslam dini var, bizim mədəniyyətimiz var, insanlarımız bir-birilə nə qədər çox təmasda olsalar, bizim üçün bir o qədər də yaxşı olacaq, İslam dünyası bir o qədər də möhkəmlənəcək".

Bu gün Azərbaycandakı mövcud dini-etnik dözümlülük, müxtəlif mədəniyyətlər arasındakı sivil dialoq dünyanın ən nüfuzlu beynəlxalq təşkilatları tərəfindən də təqdir olunmaqdadır. Xalqlararası və mədəniyyətlərarası dialoqu inkişaf etdirmək, ona dəstək vermək, insanların gələcəyi naminə mədəniyyətlərin və dinlərin qarşılıqlı dialoquna nail olmaq dövlət siyasətinin mühüm tərkib hissəsidir. Milli mədəniyyətin və dini dəyərlərin qorunması, inkişaf etdirilərək gənc nəsillərə çatdırılması ilə bağlı siyasət də dövrün reallıqları ilə uyğunlaşır. Azərbaycan tolerant ölkədir və burada yaşayan bütün xalqların və dinlərin nümayəndələri arasında xoş münasibətlər və qardaşlıq ruhu yaratmaq məqsədilə səylər gündən-günə gücləndirilir.

Kitabın elmi redaktoru fəlsəfə və Sosiologiya İnstitutunun baş direktoru, fəlsəfə elmləri doktoru, professor İlham Məmmədzadə, elmi məsləhətçisi AMEA-nın vitse-prezidenti, akademik Gövhər Baxşəliyeva, rəyçiləri AMEA-nın müxbir üzvü Könül Bünyadzadə, fəlsəfə elmləri doktoru, professor Əyyub Kərimov, tarix elmləri doktoru, dosent Eynulla Mədətli, fəlsəfə elmləri doktoru, professor Azər Mustafayev, hüquq elmləri doktoru, BDU-nun professoru Etibar Əliyev və ilahiyyat üzrə fəlsəfə doktoru, dosent Aqil Şirinovdur.

Sonda qeyd etmək istərdim ki, prof. S.Hüseynovun yazdığı bu fundamental əsər ağır işin və uzun zaman kəsiyində aparılmış tədqiqatların nəticəsidir. Belə ki, əsər Azərbaycan xalqı müstəqillik əldə etdikdən sonra ölkəmizdəki dövlət və din münasibətlərinin tarixindən, hazırkı vəziyyətindən və gələcək perspektivlərindən bəhs edir.

**Elnur MUSTAFAYEV,**
**AMEA Şərqşünaslıq İnstitutu Din və ictimai fikir şöbəsinin müdiri, fəlsəfə doktoru.**

# HƏDƏFLİ MALİYYƏ SANKSİYALARI HAQQINDA
## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci və 20-ci bəndlərinə uyğun olaraq, Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının aidiyyəti qətnamələrinə uyğun olaraq terrorçuluğun, terrorçuluğun maliyyələşdirilməsinin, kütləvi qırğın silahlarının yayılmasının və kütləvi qırğın silahlarının yayılmasının maliyyələşdirilməsinin qarşısının alınması məqsədilə hədəfli maliyyə sanksiyalarının tətbiqinin hüquqi əsasını və qaydasını müəyyən edir.

*1-ci fəsil.*
**Ümumi müddəalar**

**Maddə 1. Əsas anlayışlar**

**1.1.** Bu Qanunun məqsədləri üçün istifadə olunmuş anlayışlar aşağıdakı mənaları ifadə edir:

**1.1.1.** sanksiya tətbiq edilməli fiziki şəxslər və qurumlar – terrorçuluğa və terrorçuluğun maliyyələşdirilməsinə, kütləvi qırğın silahlarının yayılmasına və yayılmasının maliyyələşdirilməsinə qarşı mübarizə çərçivəsində Azərbaycan Respublikasının qanunvericiliyinə və tərəfdar çıxdığı beynəlxalq müqavilələrə, habelə siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qətnamələrinə əsasən barələrində sanksiya tətbiq edilməli fiziki şəxslər və qurumlardır;

**1.1.2.** hədəfli maliyyə sanksiyaları – sanksiya tətbiq edilməli fiziki şəxslərin və qurumların birbaşa və ya dolayı yolla aktivlərdən faydalanmasının qarşısının alınmasına yönələn qadağalar və ya həmin fiziki şəxslərin və qurumların aktivlərinin dondurulması tədbirləridir;

**1.1.3.** kütləvi qırğın silahlarının yayılmasının maliyyələşdirilməsi – nüvə, kimyəvi, bakterioloji (bioloji) və toksin silahların, eləcə də onların daşıyıcı vasitələrinin (müxtəlif mənzilli ballistik və qanadlı raket başlıqları, uzaqdan idarəolunan döyüş sistemləri) və əlaqəli materialların (qeyri-qanuni məqsədlər üçün istifadə olunan texnologiyalar və ikili təyinatlı mallar da daxil olmaqla) Azərbaycan Respublikasının qanunvericiliyinə və üzərinə götürdüyü beynəlxalq öhdəliklərə zidd olaraq istehsalı, əldə edilməsi, inkişaf etdirilməsi və təkmilləşdirilməsi, idxalı, ixracı, tranzit daşınması, ötürülməsi, toplanması və ya istifadəsi, eləcə də bu silahlara sahiblik və ya onların beynəlxalq daşınmasında vasitəçilik (broker) fəaliyyətləri məqsədilə bütövlükdə və ya qismən istifadə olunan aktivlərin toplanılması və ya verilməsi, habelə maliyyə xidmətlərinin təmin edilməsidir;

**1.1.4.** qurumlar – hüquqi şəxslər, qruplar, hüquqi şəxs olmayan təşkilatlar və müəssisələr, dövlət və ya qeyri-dövlət orqanlarıdır (qurumlarıdır);

**1.1.5.** aktivlər – əldə edilmə üsulundan asılı olmayaraq istənilən növ maddi və qeyri-maddi əmlak nemətləri (maliyyə aktivləri, iqtisadi resurslar (neft və digər təbii ehtiyatlar da daxil olmaqla), daşınar və ya daşınmaz əmlak, poçt göndərişləri, bank kreditləri, akkreditivlər, yol çekləri, bank çekləri, istiqrazlar, veksellər, səhmlər və digər qiymətli kağızlar, virtual aktivlər, habelə belə əmlak nemətlərinin əldə edilməsindən yaranan faizlər, dividendlər və ya digər gəlirlər, eləcə də bu əmlak nemətləri üzərində hüquqlarını təsdiq edən, elektron (rəqəmsal) da daxil olmaqla istənilən növ hüquqi sənədlər, həmçinin bu əmlak nemətlərinin əl-

də edilməsi üçün istifadə edilə bilən istənilən növ digər aktivlərdir;

**1.1.6.** aktivlərin dondurulması – bu Qanunun 4.1-ci maddəsində nəzərdə tutulan aktivlərin köçürülməsinin, konversiyasının, hərəkətinin, habelə həmin aktivlərə sərəncam verilməsinin və ya onlarla hər hansı formada maliyyə əməliyyatlarının və ya digər əqdlərin həyata keçirilməsinin qadağan edilməsidir;

**1.1.7.** beynəlxalq siyahılar – Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının terrorçuluğun və terrorçuluğun maliyyələşdirilməsinin, habelə kütləvi qırğın silahlarının yayılmasının və yayılmasının maliyyələşdirilməsinin qarşısının alınması məqsədilə yaradılmış sanksiya komitələri tərəfindən sanksiya tətbiq edilməli fiziki şəxslərin və qurumların daxil edildiyi siyahılardır;

**1.1.8.** ölkədaxili siyahı – terrorçuluğa və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə çərçivəsində sanksiya tətbiq edilməli fiziki şəxslərin və qurumların Azərbaycan Respublikası məhkəmələrinin qərarları əsasında daxil edildiyi siyahıdır;

**1.1.9.** hədəfli maliyyə sanksiyalarına dair internet informasiya ehtiyatı – hədəfli maliyyə sanksiyalarının tətbiqi məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən yaradılan və idarə olunan internet informasiya ehtiyatıdır;

**1.1.10.** iqtisadi resurslar – aktivlərin, əmtəə və ya xidmətlərin əldə edilməsinə imkan verən bütün növ əmlak, faktiki və ya potensial təbii resurslar, habelə enerji resursları, həmçinin heyvan və bitkilərdir;

**1.1.11.** təxirəsalınmadan – bu Qanunda nəzərdə tutulan hərəkətlərin dərhal və ya bir neçə saat ərzində həyata keçirilməsidir.

**Maddə 2. Hədəfli maliyyə sanksiyaları haqqında qanunvericilik**

Hədəfli maliyyə sanksiyaları haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, bu Qanundan, «Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında» Azərbaycan Respublikasının Qanunundan, digər normativ hüquqi aktlardan və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

*2-ci fəsil.*

**Hədəfli maliyyə sanksiyaları və onların tətbiqi qaydası**

**Maddə 3. Hədəfli maliyyə sanksiyaları**

**3.1.** Hədəfli maliyyə sanksiyaları cinayət mühakimə icraatı çərçivəsində tətbiq edilən tədbirləri əvəzləmədən, önləyici xarakter daşıyaraq, terrorçuluğun, terrorçuluğun maliyyələşdirilməsinin, kütləvi qırğın silahlarının yayılmasının və yayılmasının maliyyələşdirilməsinin qarşısının alınması məqsədilə aşağıdakı tədbirləri nəzərdə tutur:

**3.1.1.** aktivlərin təxirəsalınmadan dondurulması;

**3.1.2.** sanksiya tətbiq edilməli fiziki şəxslərin və qurumların aktivlər, iqtisadi resurslar və ya maliyyə və digər əlaqəli xidmətlərlə təmin edilməsinin qadağan edilməsi.

**3.2.** Aktivlər aktivlərin dondurulması ilə bağlı tədbirlərin həyata keçirildiyi vaxt həmin aktivlərdə payı olan fiziki şəxslərin və ya qurumların mülkiyyətində saxlanılır. Həmin aktivlər üçüncü tərəflərin idarəçiliyində saxlanıla, yaxud həmin şəxslər tərəfindən aktivlər dondurulanadək tətbiq edilmiş digər hüquqi mexanizmlər vasitəsilə, habelə normativ hüquqi aktlarla müəyyən edilmiş digər qaydalara uyğun olaraq idarə edilə bilər.

**Maddə 4. Hədəfli maliyyə sanksiyalarının tətbiq edildiyi aktivlər**

**4.1.** Terrorçuluq, terrorçuluğun maliyyələşdirilməsi, kütləvi qırğın silahlarının yayılması və yayılmasının maliyyələşdirilməsi fəaliyyəti

ilə bilavasitə əlaqəli olub-olmamasından asılı olmayaraq aşağıdakı aktivlər dondurulmalıdır:

**4.1.1.** sanksiya tətbiq edilməli fiziki şəxslər və qurumların aktivləri;

**4.1.2.** sanksiya tətbiq edilməli fiziki şəxslərin və qurumların birbaşa və ya dolayı, təkbaşına və ya başqaları ilə birlikdə mülkiyyətində və ya nəzarətində olan aktivlər, habelə belə aktivlər vasitəsilə əldə edilmiş digər aktivlər;

**4.1.3.** sanksiya tətbiq edilməli fiziki şəxslərin və qurumların adından və ya onların tapşırığı ilə fəaliyyət göstərən fiziki şəxslərin və qurumların aktivləri;

**4.1.4.** sanksiya tətbiq edilməli fiziki şəxslərin və qurumların birbaşa və ya dolayı, təkbaşına və ya başqaları ilə birlikdə mülkiyyətində və ya nəzarətində olan qurumların aktivləri.

### Maddə 5. Hədəfli maliyyə sanksiyalarının tətbiqi qaydası

**5.1.** Azərbaycan Respublikasının ərazisində bütün fiziki şəxslər və ya qurumlar, o cümlədən «Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında» Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş öhdəlik daşıyan şəxslər (bundan sonra – öhdəlik daşıyan şəxslər), habelə auditor xidməti göstərən şəxslər, dini qurumlar, qeyri-hökumət təşkilatları, o cümlədən xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının Azərbaycan Respublikasındakı filial və ya nümayəndəlikləri bu Qanunun 4.1-ci maddəsində nəzərdə tutulan aktivləri beynəlxalq və ölkədaxili siyahılar hədəfli maliyyə sanksiyalarına dair internet informasiya ehtiyatında dərc edildiyi vaxtdan təxirəsalınmadan və həmin maddədə göstərilən şəxslərə xəbərdarlıq etmədən dondurmalı və dərhal bu barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma), habelə maliyyə monitorinqi orqanına həmin internet informasiya ehtiyatı vasitəsilə məlumat verməlidirlər.

**5.2.** Beynəlxalq siyahılara daxil edilmiş fiziki şəxslərin və qurumların siyahısı Birləşmiş Millətlər Təşkilatı tərəfindən elektron qaydada dərc edildikdən dərhal sonra proqram təminatlarının inteqrasiyası vasitəsilə avtomatik olaraq hədəfli maliyyə sanksiyalarına dair internet informasiya ehtiyatında yerləşdirilir və yenilənir.

**5.3.** Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) terrorçuluğun və terrorçuluğun maliyyələşdirilməsinin, kütləvi qırğın silahlarının yayılmasının və yayılmasının maliyyələşdirilməsinin qarşısının alınması məqsədilə Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş və sanksiya tətbiq edilməli fiziki şəxslər və qurumları müəyyən edən qətnamələrin siyahısını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müraciəti əsasında təsdiq edir.

**5.4.** Bu Qanunun 4.1-ci maddəsində nəzərdə tutulmuş aktivlər sanksiya tətbiq edilməli fiziki şəxslər və qurumlar müvafiq siyahıda olduğu müddətdə dondurulmuş saxlanılmalı və yalnız onlar siyahıdan çıxarıldıqdan sonra təxirəsalınmadan azad edilməlidir.

**5.5.** Sanksiya tətbiq edilməli fiziki şəxslərin və qurumların, eləcə də həmin fiziki şəxslərin və qurumların birbaşa və ya dolayı, təkbaşına və ya başqaları ilə birlikdə mülkiyyətində və ya nəzarətində olan qurumların, habelə həmin fiziki şəxslərin və qurumların adından və ya onların tapşırığı ilə fəaliyyət göstərən fiziki şəxslərin və qurumların Azərbaycan Respublikasının ərazisində fiziki şəxslər və ya qurumlar tərəfindən aktivlərlə, iqtisadi resurslarla, maliyyə və ya digər əlaqəli xidmətlərlə birbaşa və ya dolayı yolla, təkbaşına və ya başqaları ilə birlikdə təmin edilməsi qadağandır.

**5.6.** Aktivləri səhvən dondurulmuş fiziki şəxslərin və qurumların aktivləri həmin fiziki şəxslərin və qurumların hədəfli maliyyə sanksiyalarına dair internet informasiya ehtiyatı

vasitəsilə edilən müraciəti əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müvafiq uyğunsuzluq təsdiq edildikdən sonra təxirəsalınmadan azad edilməlidir. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) həmin müraciətə dərhal baxmalıdır.

**5.7.** Aktivlərin dondurulması tədbirlərinin tətbiqi nəticəsində hüquqları pozulmuş fiziki şəxslər və ya qurumlar öz hüquqlarının müdafiəsi və onlara dəymiş zərərin ödənilməsi məqsədilə məhkəməyə müraciət edə bilərlər.

**5.8.** Bu Qanunun 4.1-ci maddəsində nəzərdə tutulmuş fiziki şəxslərin və qurumların dondurulmuş aktivlərdən zəruri və gözlənilməz xərclərə ehtiyacının ödənilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**Maddə 6. Sanksiya tətbiq edilməli fiziki şəxslərin və qurumların beynəlxalq siyahılara daxil edilməzdən əvvəl bağladıqları əqdlər və ya yaranmış öhdəliklər**

**6.1.** Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının kütləvi qırğın silahlarının yayılmasının və yayılmasının maliyyələşdirilməsinin qarşısının alınması məqsədilə yaradılmış sanksiya komitələri tərəfindən beynəlxalq siyahılara daxil edilmiş fiziki şəxslərin və qurumların dondurulmuş hesablarına həmin hesablar üzrə faiz və ya digər gəlirlərin əlavə edilməsinə, habelə Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının aidiyyəti qətnamələrinin müddəalarının tətbiq edilməsindən əvvəlki dövrə aid əqdlər, razılaşmalar və ya öhdəliklər üzrə yaranmış ödəmələrin bu hesablara əlavə edilməsinə məhdudiyyət qoyulmur. Belə faizlər, digər gəlirlər, yaxud ödəmələr hesablara əlavə edildikdən sonra onlara da qeyd edilən qətnamələrin müddəaları tətbiq olunur və onlar dondurulur.

**6.2.** Dondurulmuş aktivlərə münasibətdə öhdəliklər sanksiya tətbiq edilməli fiziki şəxslərin və qurumların beynəlxalq siyahılara daxil edilməzdən əvvəl bağladıqları əqdlər çərçivəsində icra edilməlidirsə, Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının kütləvi qırğın silahlarının yayılmasının və yayılmasının maliyyələşdirilməsinin qarşısının alınması məqsədilə yaradılmış sanksiya komitələri tərəfindən müvafiq qətnamələrlə müəyyən edilmiş istisnalar nəzərə alınmaqla sanksiya tətbiq edilməli fiziki şəxslər və qurumlar həmin öhdəlikləri icra etmək hüququna malikdirlər. Hər bir halda belə əqdlərin nəticəsi olaraq əldə edilmiş faizlərə, digər gəlirlərə və ödəmələrə bu Qanunun 6.1-ci maddəsinin tələbləri tətbiq edilməlidir.

*3-cü fəsil.*

**Ölkədaxili siyahının formalaşdırılması qaydası**

**Maddə 7. Fiziki şəxslərin və qurumların ölkədaxili siyahıya daxil edilməsi**

**7.1.** Aşağıdakı fiziki şəxslər və qurumlar Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində nəzərdə tutulmuş qaydada müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təqdimatına əsasən məhkəmənin qərarı ilə ölkədaxili siyahıya daxil edilirlər:

**7.1.1.** terrorçuluq və terrorçuluğun maliyyələşdirilməsi əməllərinin törədilməsi, yaxud belə əməllərin törədilməsində hər hansı şəkildə iştirak etməsi və ya kömək göstərməsi, habelə həmin əməllərin törədilməsinə cəhd göstərməsi, terrorçu olması, terrorçu qrupun (dəstənin, təşkilatın) yaradılmasında və ya fəaliyyətində hər hansı formada iştirak etməsi ilə bağlı əsaslı şübhələr olan fiziki şəxslər və qurumlar;

**7.1.2.** bu Qanunun 7.1.1-ci maddəsində göstərilən fiziki şəxslərin və qurumların birbaşa və ya dolayı, təkbaşına və ya başqaları ilə birlikdə mülkiyyətində və ya nəzarətində olan qurumlar;

**7.1.3.** bu Qanunun 7.1.1-ci maddəsində göstərilən fiziki şəxslərin və qurumların adından, yaxud onların tapşırığı ilə fəaliyyət göstərən fiziki şəxslər və qurumlar.

**7.2.** Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) fiziki şəxslərin və qurumların ölkədaxili siyahıya daxil edilməsinə dair təqdimatı Azərbaycan Respublikası Baş Prokurorluğunun, «Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında» Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş nəzarət orqanlarının (bundan sonra – nəzarət orqanlarının), müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanların (qurumların) və ya maliyyə monitorinqi orqanının əsaslandırılmış müraciəti, həmçinin xarici dövlətin səlahiyyətli orqanının sorğusu əsasında, habelə öz təşəbbüsü ilə verir. Təqdimata müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) yerləşdiyi yer üzrə rayon (şəhər) məhkəməsi tərəfindən Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi ilə müəyyən edilmiş qaydada baxılır.

**7.3.** Ölkədaxili siyahıya daxil edilmiş fiziki şəxs və ya qurum hədəfli maliyyə sanksiyalarına dair internet informasiya ehtiyatı vasitəsilə ölkədaxili siyahıya daxil edilməsinin səbəbini öyrənmək üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) müraciət edə bilər.

**7.4.** Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ölkədaxili siyahıya daxil edilmiş fiziki şəxsin vətəndaşı olduğu, daimi qeydiyyatda olduğu və ya yaşadığı və ya qurumun təsis edildiyi, idarə edildiyi və ya fəaliyyət göstərdiyi dövlətin aidiyyəti qurumlarına həmin fiziki şəxsin və ya qurumun mənsub olduğu dövlətin sanksiya tətbiq edilməli fiziki şəxslərin və qurumların siyahısına əlavə edilməsi üçün sorğu göndərir. Sorğuda fiziki şəxsin və ya qurumun bu Qanunun 7.1.1–7.1.3-cü maddələrində nəzərdə tutulmuş meyarlara uyğun gəldiyini göstərən məlumatlar və onların ətraflı eyniləşdirmə məlumatları qeyd olunur.

**Maddə 8. Xarici dövlətin səlahiyyətli orqanının fiziki şəxslərin və ya qurumların ölkədaxili siyahıya daxil edilməsi ilə bağlı sorğusu**

**8.1.** Xarici dövlətin səlahiyyətli orqanı fiziki şəxslərin və ya qurumların ölkədaxili siyahıya daxil edilməsi üçün sorğunu müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) birbaşa, yaxud «Cinayət işlərinə dair hüquqi yardım haqqında» Azərbaycan Respublikasının Qanunu və ya bu sahədə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr ilə müəyyən edilmiş qaydada təqdim edir.

**8.2.** Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) xarici dövlətin səlahiyyətli orqanının sorğusunun Azərbaycan Respublikasının qanunvericiliyinə, o cümlədən bu Qanunun 8.3-cü maddəsində nəzərdə tutulmuş tələblərə cavab verib-verməməsini araşdırır və tələblərə riayət olunmadıqda əlavə məlumatların və sənədlərin təqdim edilməsinə dair müraciət edir.

**8.3.** Xarici dövlətin səlahiyyətli orqanının sorğusuna ölkədaxili siyahıya daxil edilmənin zəruriliyini əsaslandıran sənədlər əlavə edilməli və sorğuda aşağıdakılar qeyd olunmalıdır:

**8.3.1.** Azərbaycan Respublikasının sorğu edilən səlahiyyətli orqanının (qurumunun) adı;

**8.3.2.** xarici dövlətin sorğu edən səlahiyyətli orqanının adı;

**8.3.3.** ölkədaxili siyahıya daxil edilmə üçün əsas hesab edilən törədilmiş və ya hazırlanan cinayət haqqında məlumatlar, xarici dövlətin müvafiq cinayət qanununun mətni;

**8.3.4.** ölkədaxili siyahıya daxil edilməsi sorğu edilən fiziki şəxsin və ya qurumun bu Qanunun 7.1.1-7.1.3-cü maddələrində nəzərdə

tutulmuş meyarlara uyğun gəldiyini göstərən məlumatlar;

**8.3.5.** ölkədaxili siyahıya daxil edilməsi sorğu edilən fiziki şəxsə və ya quruma dair ətraflı eyniləşdirmə məlumatları;

**8.3.6.** ölkədaxili siyahıya daxil edilməsi sorğu edilən fiziki şəxsin və ya qurumun Azərbaycan Respublikası ilə əlaqəsinə dair məlumatlar;

**8.3.7.** ölkədaxili siyahıya daxil edilmənin zəruriliyinin əsaslandırılması;

**8.3.8.** fiziki şəxsin və ya qurumun ölkədaxili siyahıya daxil edilməsi ilə hansı nəticənin əldə olunacağı və həmin nəticənin digər üsul və vasitələrlə əldə edilməsinin hansı səbəbdən mümkün olmadığına dair məlumatlar;

**8.3.9.** məsələyə dair qanuni və əsaslı qərarın qəbul edilməsi üçün sorğu edilən səlahiyyətli orqanın zəruri hesab etdiyi digər məlumatlar.

**8.4.** Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) xarici dövlətin səlahiyyətli orqanının sorğusuna 15 gün müddətində baxır və sorğuya baxılmanın nəticəsi barədə xarici dövlətin səlahiyyətli orqanına yazılı formada məlumat verilməsini təmin edir. Əlavə araşdırma tələb edildikdə sorğuya baxılma müddəti uzadıla bilər.

**Maddə 9. Fiziki şəxslərin və qurumların ölkədaxili siyahıya daxil edilməsi ilə bağlı məlumatlandırma**

**9.1.** Fiziki şəxsin və ya qurumun ölkədaxili siyahıya daxil edilməsi barədə məhkəmənin qərarı qanuni qüvvəyə mindikdə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) həmin fiziki şəxsi və ya qurumu təxirəsalınmadan ölkədaxili siyahıya daxil edərək bu barədə məlumatı hədəfli maliyyə sanksiyalarına dair internet informasiya ehtiyatında yerləşdirir, əlaqə vasitələri məlum olduqda fiziki şəxsləri və qurumları ölkədaxili siyahıya daxil edilmələri barədə məlumatlandırır.

**9.2.** Hədəfli maliyyə sanksiyalarına dair internet informasiya ehtiyatında ölkədaxili siyahıya daxil edilmənin əsasları və tətbiq olunacaq tədbirlər, habelə ölkədaxili siyahıdan çıxarılma proseduru barədə məlumat yerləşdirilir.

**9.3.** Məhkəmə xarici dövlətin vətəndaşı olan, xarici dövlətdə qeydiyyatda olan və ya yaşayan fiziki şəxsin, həmçinin xarici dövlətdə təsis edilən, idarə edilən və ya fəaliyyət göstərən qurumun ölkədaxili siyahıya daxil edilməsi barədə qərar qəbul etdikdə, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) həmin dövlətin aidiyyəti orqanlarına bu barədə yazılı formada məlumat verilməsini təmin edir.

**Maddə 10. Fiziki şəxslərin və ya qurumların ölkədaxili siyahıdan çıxarılması**

**10.1.** Ölkədaxili siyahıya daxil edilmə üçün əsaslar aradan qalxdıqda siyahıya daxil edilmiş fiziki şəxs və ya qurum, habelə həmin fiziki şəxsin və ya qurumun siyahıya daxil edilməsi nəticəsində hüquq və qanuni mənafelərinin pozulduğunu iddia edən maraqlı şəxslər, bu Qanunun 10.5-ci maddəsində müəyyən edilmiş hallar istisna olmaqla, fiziki şəxsin və ya qurumun ölkədaxili siyahıdan çıxarılması barədə Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 529-cu maddəsinə uyğun olaraq məhkəməyə müraciət edə bilər.

**10.2.** Ölkədaxili siyahıya daxil edilmə üçün əsaslar aradan qalxdıqda müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) öz təşəbbüsü və ya fiziki şəxs və ya qurumun, o cümlədən həmin fiziki şəxsin və ya qurumun siyahıya daxil edilməsi nəticəsində hüquq və qanuni mənafelərinin pozulduğunu iddia edən maraqlı şəxslərin müraciəti əsasında fiziki şəxsin və ya qurumun ölkədaxili siyahıdan çıxarılması barədə Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 529-cu maddəsinə uyğun olaraq məhkəməyə təqdimat verir. Müvafiq icra hakimiyyəti orqanının müəyyən

etdiyi orqan (qurum) fiziki şəxsin və ya qurumun, o cümlədən həmin fiziki şəxsin və ya qurumun siyahıya daxil edilməsi nəticəsində hüquq və qanuni mənafelərinin pozulduğunu iddia edən maraqlı şəxslərin müraciətinə 15 gün müddətində baxır və müraciət əsaslı hesab olunarsa, fiziki şəxsin və ya qurumun ölkədaxili siyahıdan çıxarılması barədə məhkəməyə təqdimat verir. Əlavə araşdırma tələb edən müraciətlərə 1 ay müddətində baxılır.

**10.3.** Fiziki şəxs və ya qurum üçüncü dövlətin sorğusuna əsasən ölkədaxili siyahıya daxil edildikdə, sorğu göndərən dövlətin və ya həmin fiziki şəxsin vətəndaşı olduğu, daimi qeydiyyatda olduğu və ya yaşadığı və ya qurumun təsis edildiyi, idarə edildiyi və ya fəaliyyət göstərdiyi dövlətin sorğusu əsasında və ya öz təşəbbüsü ilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ölkədaxili siyahıdan çıxarılma barədə təqdimatla məhkəməyə müraciət edə bilər. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) sorğuya 15 gün müddətində baxır və sorğuya baxılmanın nəticəsi barədə xarici dövlətin səlahiyyətli orqanına yazılı formada məlumat verilməsini təmin edir. Əlavə araşdırma tələb edildikdə sorğuya baxılma müddəti uzadıla bilər.

**10.4.** Xarici dövlətin səlahiyyətli orqanının sorğusuna ölkədaxili siyahıdan çıxarılmasının zəruriliyini əsaslandıran sənədlər əlavə edilməli və sorğuda aşağıdakılar qeyd olunmalıdır:

**10.4.1.** Azərbaycan Respublikasının sorğu edilən səlahiyyətli orqanının (qurumunun) adı;

**10.4.2.** xarici dövlətin sorğu edən səlahiyyətli orqanının adı;

**10.4.3.** ölkədaxili siyahıdan çıxarılması sorğu edilən fiziki şəxsə və ya quruma dair ətraflı eyniləşdirmə məlumatları;

**10.4.4.** Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 529.2-ci maddəsində nəzərdə tutulmuş məlumatlar və ölkədaxili siyahıya daxil edilmə üçün əsasların aradan qalxdığını təsdiq edən sənədlər;

**10.4.5.** məsələyə dair qanuni və əsaslı qərarın qəbul edilməsi üçün sorğu edilən səlahiyyətli orqanın zəruri hesab etdiyi digər məlumatlar.

**10.5.** Ölkədaxili siyahıya daxil edilmiş fiziki şəxs vəfat etdikdə, qurumun mövcudluğuna və fəaliyyətinə hüquq və vəzifələri hüquq varisliyi qaydasında başqa şəxslərə keçmədən xitam verildikdə, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) öz təşəbbüsü və ya həmin fiziki şəxsin yaxın qohumlarının, vərəsələrinin və ya maraqlı şəxslərin müraciəti əsasında fiziki şəxsi və ya qurumu ölkədaxili siyahıdan çıxarır və bu barədə hədəfli maliyyə sanksiyalarına dair internet informasiya ehtiyatında məlumat yerləşdirir.

**10.6.** Fiziki şəxsin və ya qurumun ölkədaxili siyahıdan çıxarılması barədə məhkəmənin qərarı qanuni qüvvəyə mindiyi gün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) həmin fiziki şəxsi və ya qurumu təxirəsalınmadan ölkədaxili siyahıdan çıxararaq bu barədə məlumatı hədəfli maliyyə sanksiyalarına dair internet informasiya ehtiyatında yerləşdirir.

**10.7.** Məhkəmənin fiziki şəxsin və ya qurumun ölkədaxili siyahıdan çıxarılmasından imtina edilməsi barədə qərarından yuxarı instansiya məhkəməsinə şikayət verilə bilər.

**10.8.** Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) fiziki şəxslərə və qurumlara dair əldə etdiyi yeni məlumatlara, habelə xarici dövlətin səlahiyyətli orqanının sorğusuna əsasən ölkədaxili siyahını mütəmadi olaraq nəzərdən keçirir və yeniləyir.

*4-cü fəsil.*

**Beynəlxalq siyahıların formalaşdırılması qaydası**

**Maddə 11. Fiziki şəxslərin və qurumların beynəlxalq siyahılara daxil edilməsi**

**11.1.** Bu Qanunun 5.3-cü maddəsində nəzərdə tutulan Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qətnamələrində qeyd edilmiş əsaslar müəyyən olunduqda müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) fiziki şəxsin və ya qurumun beynəlxalq siyahılara daxil edilməsi barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) müraciət edir. Müraciətə aşağıdakı məlumat və sənədlər əlavə edilir:

**11.1.1.** fiziki şəxsin və ya qurumun beynəlxalq siyahılara daxil edilməsini əsaslandıran məlumat və sənədlər;

**11.1.2.** fiziki şəxsin və ya qurumun Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının müvafiq qətnamələrində qeyd edilən meyarlara cavab verdiyinə əsaslı şübhə yaradan hallara dair məlumatlar və dəlillər (ibtidai istintaq, əməliyyat-axtarış fəaliyyəti nəticəsində əldə olunmuş məlumatlar və mənbəyi məlum olan digər məlumatlar);

**11.1.3.** fiziki şəxsin və ya qurumun beynəlxalq siyahılara daxil edilməsini əsaslandıran, sanksiya komitələrinin xülasəsində açıqlanacaq zəruri məlumatlar;

**11.1.4.** təşəbbüs göstərən dövlət barədə məlumatların açıqlanmasına dair razılığın verilib-verilməməsinə dair qeyd;

**11.1.5.** fiziki şəxsin və ya qurumun dəqiq müəyyənləşdirilməsi üçün aşağıdakı eyniləşdirmə məlumatları:

**11.1.5.1.** fiziki şəxslər üçün – soyadı, adı, atasının adı, doğum tarixi, doğum yeri, milliyyəti, vətəndaşlığı, cinsi, məşğuliyyəti (peşəsi), yaşayış yeri və olduğu yer, əvvəlki yaşayış ünvanları, ümumvətəndaş pasportu və şəxsiyyəti təsdiq edən sənədin nömrəsi, verilmə tarixi, qüvvədə olma müddəti, olduğu halda ləqəbləri, telefon nömrələri, elektron poçt ünvanları və vergi ödəyicisinin eyniləşdirmə nömrəsi;

**11.1.5.2.** hüquqi şəxslər üçün – adı, hüquqi ünvanı, törəmə hüquqi şəxsləri, filialları, nümayəndəlikləri, fəaliyyət sahəsi, sahibkarlıq fəaliyyəti növü, rəhbərliyi, təsisçisi (təsisçiləri), vergi ödəyicisinin eyniləşdirmə nömrəsi, elektron poçt ünvanları, telefon nömrələri, əvvəlki adları və ya eyniləşdirmə məlumatları;

**11.1.5.3.** müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) fiziki şəxsin və ya qurumun beynəlxalq siyahılara daxil edilməsi üçün zəruri hesab etdiyi yetərli həcmdə digər məlumatlar.

**11.2.** Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) bu Qanunun 11.1-ci maddəsində nəzərdə tutulmuş müraciət əsasında sanksiya komitələrinin müəyyən etdiyi prosedurlara uyğun olaraq fiziki şəxsin və qurumun beynəlxalq siyahılara daxil edilməsi barədə sanksiya komitələrinə təqdimat verir.

**11.3.** Bu Qanunun 11.2-ci maddəsində nəzərdə tutulmuş təqdimat əsasında sanksiya komitələri fiziki şəxsin və ya qurumun beynəlxalq siyahılara daxil edilməsi barədə qərar qəbul etdikdə, həmin fiziki şəxs və ya qurum barədə müvafiq məlumat bu Qanunun 5.2-ci maddəsində müəyyən edilmiş qaydada hədəfli maliyyə sanksiyalarına dair internet informasiya ehtiyatında yerləşdirilir. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) beynəlxalq siyahılara yeni daxil edilmiş fiziki şəxslər və qurumlar, onların beynəlxalq siyahılara daxil edilməsinin əsasları və bununla əlaqədar tətbiq olunacaq tədbirlər, habelə həmin siyahılardan çıxarılma prosedurları barədə hədəfli maliyyə sanksiyalarına dair internet informasiya ehtiyatında təxirəsalınmadan məlumat yerləşdirməlidir.

**Maddə 12. Fiziki şəxslərin və qurumların beynəlxalq siyahılardan çıxarılması**

**12.1.** Beynəlxalq siyahılara daxil edilmə üçün əsaslar aradan qalxdıqda müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) fiziki şəxsin və ya qurumun beynəlxalq siyahılardan çıxarılması barədə müvafiq

icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) müraciət edir. Müraciətə aşağıdakı məlumat və sənədlər əlavə edilir:

**12.1.1.** fiziki şəxsin və ya qurumun bu Qanunun 11.1.5-ci maddəsində nəzərdə tutulmuş eyniləşdirmə məlumatları;

**12.1.2.** fiziki şəxsin və ya qurumun beynəlxalq siyahıda olmasına əsas olan Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının müvafiq qətnamələrində qeyd edilən meyarların aradan qalxdığını göstərən məlumatlar və sənədlər (ibtidai istintaq, əməliyyat-axtarış fəaliyyəti nəticəsində əldə olunmuş məlumatlar və mənbəyi məlum olan digər məlumatlar);

**12.1.3.** fiziki şəxs vəfat etdikdə, qurumun mövcudluğuna və fəaliyyətinə hüquq və vəzifələri hüquq varisliyi qaydasında başqa şəxslərə keçmədən xitam verildikdə bu barədə məlumat və sənədlər.

**12.2.** Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) bu Qanunun 12.1-ci maddəsində nəzərdə tutulmuş müraciət əsasında sanksiya komitələrinin müəyyən etdiyi prosedurlara uyğun olaraq fiziki şəxsin və ya qurumun beynəlxalq siyahılardan çıxarılması barədə sanksiya komitələrinə təqdimat verir.

**12.3.** Beynəlxalq siyahılara daxil edilmiş fiziki şəxslər və qurumlar həmin siyahılardan çıxarılmaları barədə bilavasitə və ya nümayəndələri, yaxud müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) vasitəsilə sanksiya komitələri tərəfindən müəyyən edilmiş ombudsman və ya əlaqələndirici şəxsə müraciət edə bilərlər.

**12.4.** Vəfat etmiş fiziki şəxsin, mövcudluğuna və fəaliyyətinə hüquq və vəzifələri hüquq varisliyi qaydasında başqa şəxslərə keçmədən xitam verilmiş qurumun beynəlxalq siyahılardan çıxarılmasına dair müraciət Azərbaycan Respublikasının vətəndaşına münasibətdə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən sanksiya komitələrinə və ya fiziki şəxsin yaxın qohumları və ya vərəsələri və ya maraqlı şəxslər tərəfindən bilavasitə sanksiya komitələri tərəfindən müəyyən edilmiş ombudsman və ya əlaqələndirici şəxsə təqdim edilir. Bu halda fiziki şəxsin ölüm faktını təsdiq edən sənədlər, onun vərəsələri, valideynləri və ya digər qanuni nümayəndələri barədə məlumatlar, habelə qurumun mövcudluğuna və fəaliyyətinə hüquq və vəzifələri hüquq varisliyi qaydasında başqa şəxslərə keçmədən xitam verilməsi ilə bağlı sənədlər müraciətə əlavə edilir.

**12.5.** Beynəlxalq siyahılardan çıxarılma ilə bağlı müraciətin nümunəvi forması, müraciətə əlavə olunmalı sənədlərin siyahısı və digər izahedici qeydlər hədəfli maliyyə sanksiyalarına dair internet informasiya ehtiyatında yerləşdirilir.

**12.6.** Beynəlxalq siyahılardan çıxarılma ilə bağlı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) müraciət hədəfli maliyyə sanksiyalarına dair internet informasiya ehtiyatı vasitəsilə edilir.

**12.7.** Müraciət edən fiziki şəxs və ya qurum beynəlxalq siyahılardan çıxarılması barədə sorğusunu əsaslandırmalı və bu Qanunun 11.1-ci maddəsində nəzərdə tutulmuş əsaslara uyğun olmadığını təsdiq edən məlumatları və sənədləri təqdim etməlidir.

**12.8.** Beynəlxalq siyahılardan çıxarılma barədə müraciət müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) vasitəsilə təqdim edildikdə təqdim olunmuş sənədlər rəy verilməsi üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) göndərilir.

**12.9.** Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) bu Qanunun 12.8-ci maddəsində nəzərdə tutulan rəyi 15 iş günü ərzində verməlidir. Əlavə məlumatların alınması və beynəlxalq siyahılardan çıxarılma ilə bağlı məsləhətləşmələrin aparılması məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) həmin fiziki şəxsin

vətəndaşı olduğu, daimi qeydiyyatda olduğu və ya yaşadığı və ya qurumun təsis edildiyi, idarə edildiyi və ya fəaliyyət göstərdiyi dövlətə sorğu göndərə bilər.

**12.10.** Beynəlxalq siyahılardan çıxarılma barədə müraciətə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən 1 ay müddətində baxılır, müvafiq təqdimat hazırlanır və təqdimat, təqdim olunmuş sənədlərlə, eləcə də müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ilə razılaşdırılmış yekun rəylə birlikdə sanksiya komitələrinə göndərilir.

**12.11.** Bu Qanunun 12.10-cu maddəsində nəzərdə tutulmuş təqdimat əsasında sanksiya komitələri fiziki şəxsin və ya qurumun beynəlxalq siyahılardan çıxarılması barədə qərar qəbul etdikdə, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) hədəfli maliyyə sanksiyalarına dair internet informasiya ehtiyatındakı müvafiq məlumatların bu Qanunun 5.2-ci maddəsində nəzərdə tutulmuş qaydada yenilənməsini təmin edir.

**12.12.** Bu Qanunun 12.10-cu maddəsində nəzərdə tutulmuş təqdimat əsasında sanksiya komitələri fiziki şəxsin və ya qurumun beynəlxalq siyahılardan çıxarılması barədə qərar qəbul etmədikdə, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) həmin qərar qəbul edildiyi vaxtdan 1 iş günü müddətində müvafiq müraciəti etmiş fiziki şəxsi və ya qurumu məlumatlandırır.

*5-ci fəsil.*
## Yekun müddəalar

### Maddə 13. Nəzarət tədbirləri

**13.1.** Nəzarət orqanları nəzarət etdikləri öhdəlik daşıyan şəxslər, habelə auditor xidməti göstərən şəxslər, dini qurumlar, qeyri-hökumət təşkilatları, o cümlədən xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının Azərbaycan Respublikasındakı filial və ya nümayəndəlikləri tərəfindən bu Qanunun tələblərinə əməl edilməsinə nəzarəti həyata keçirirlər.

**13.2.** Öhdəlik daşıyan şəxslər, habelə auditor xidməti göstərən şəxslər, dini qurumlar, qeyri-hökumət təşkilatları, o cümlədən xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının Azərbaycan Respublikasındakı filial və ya nümayəndəlikləri üzərində nəzarət tədbirləri istisna olmaqla bu Qanunun tələblərinə riayət edilməsinə nəzarət maliyyə monitorinqi orqanı tərəfindən həyata keçirilir.

**13.3.** Bu Qanunda nəzərdə tutulmuş tələblərin pozulması qanunla müəyyən edilmiş hallarda və qaydada məsuliyyətə səbəb olur və müvafiq fəaliyyəti həyata keçirmək hüququ verən lisenziyanın, icazənin, qeydiyyatın, şəhadətnamənin və ya üzvlüyün dayandırılması və ya ləğv edilməsinə əsas yaradır.

**13.4.** Maliyyə monitorinqi orqanı, habelə aidiyyəti nəzarət orqanları öhdəlik daşıyan şəxslərə, habelə auditor xidməti göstərən şəxslərə, dini qurumlara, qeyri-hökumət təşkilatlarına, o cümlədən xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının Azərbaycan Respublikasındakı filial və ya nümayəndəliklərinə bu Qanundan irəli gələn tələblərin yerinə yetirilməsi ilə bağlı təlimatlar hazırlayıb təqdim edir. Digər fiziki şəxslərə və qurumlara münasibətdə bu Qanundan irəli gələn tələblərin yerinə yetirilməsi ilə bağlı təlimatlar maliyyə monitorinqi orqanı tərəfindən hazırlanır və onların hədəfli maliyyə sanksiyalarına dair internet informasiya ehtiyatında yerləşdirilməsi üçün tədbirlər görülür.

### Maddə 14. Bu Qanunun qüvvəyə minməsi

Bu Qanun 2023-cü il fevralın 1-dən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham ƏLİYEV**
Bakı şəhəri, 30 dekabr 2022-ci il
№ 782-VIQ

## "Cinayət təqibi üzrə məhkəməyədək icraat zamanı qanunsuz dövriyyədən çıxarılmaqla maddi sübut kimi götürülmüş narkotik vasitələrin, psixotrop maddələrin, onların prekursorlarının və güclü təsir edən maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 26 aprel tarixli 518-VIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 18 may tarixli 1684 nömrəli Fərmanının 1.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Cinayət təqibi üzrə məhkəməyədək icraat zamanı qanunsuz dövriyyədən çıxarılmaqla maddi sübut kimi götürülmüş narkotik vasitələrin, psixotrop maddələrin, onların prekursorlarının və güclü təsir edən maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi Qaydası" təsdiq edilsin *(əlavə olunur).*

**2.** Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

**3.** Bu Qərar narkotik vasitələrin, psixotrop maddələrin, onların prekursorlarının və güclü təsir edən maddələrin xüsusilə külli miqdarını müəyyən edən müvafiq qanunla eyni gündə qüvvəyə minir.

**Əli ƏSƏDOV**
**Azərbaycan Respublikasının Baş naziri**
Bakı şəhəri, 11 fevral 2023-cü il
№ 44

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 11 fevral tarixli 44 nömrəli Qərarı ilə təsdiq edilmişdir.*

## Cinayət təqibi üzrə məhkəməyədək icraat zamanı qanunsuz dövriyyədən çıxarılmaqla maddi sübut kimi götürülmüş narkotik vasitələrin, psixotrop maddələrin, onların prekursorlarının və güclü təsir edən maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi

## QAYDASI

### 1. Ümumi müddəalar

**1.1.** Bu Qayda Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 131-1.4-cü maddəsinə əsasən hazırlanmışdır və cinayət təqibi üzrə məhkəməyədək icraat zamanı qanunsuz

dövriyyədən çıxarılmaqla maddi sübut kimi götürülmüş, qanunla müəyyən edilmiş xüsusilə külli miqdarda olan narkotik vasitələrin, psixotrop maddələrin, onların prekursorlarının və güclü təsir edən maddələrin həmin miqdarın aşağı həddindən artıq olan hissəsinin (bundan sonra – narkotik vasitələr, psixotrop maddələr, onların prekursorları və güclü təsir edən maddələr) cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi qaydasını müəyyən edir.

**1.2.** Narkotik vasitələrin, psixotrop maddələrin, onların prekursorlarının və güclü təsir edən maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində nəzərdə tutulmuş qaydada qəbul edilən məhkəmənin qərarı əsasında həyata keçirilir.

**1.3.** Məhv edilməsi nəzərdə tutulan narkotik vasitələrdən Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin və Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin kinoloji xidmətləri tərəfindən kinoloji xidmət itlərinin narkotik vasitələrin axtarışı üzrə aparılan təlimlərində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 19 mart tarixli 39 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məhv edilməsi nəzərdə tutulan narkotik vasitələrdən müvafiq icra hakimiyyəti orqanlarının kinoloji xidmətləri tərəfindən narkotik vasitələrin axtarışı üzrə aparılan təlimlərdə istifadə olunması Qaydası"na uyğun istifadə oluna bilər.

**2. Narkotik vasitələrin, psixotrop maddələrin, onların prekursorlarının və güclü təsir edən maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi**

**2.1.** Narkotik vasitələrin, psixotrop maddələrin, onların prekursorlarının və güclü təsir edən maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 6 oktyabr tarixli 181 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq müsadirə edilmiş narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi Qaydası"nın 4-cü hissəsinə uyğun olaraq yaradılmış Müsadirə edilmiş narkotik vasitələri, psixotrop maddələri və onların prekursorlarını məhvetmə komissiyası (bundan sonra – Məhvetmə Komissiyası) tərəfindən həyata keçirilir.

**2.2.** Narkotik vasitələrin, psixotrop maddələrin, onların prekursorlarının və güclü təsir edən maddələrin məhv edilməsi barədə məhkəmənin qərarı qanuni qüvvəyə mindiyi gündən 5 gün müddətində həmin maddələr ibtidai araşdırmanı aparan orqan tərəfindən məhv edilməsi üçün Məhvetmə Komissiyasına təhvil verilir.

**2.3.** Narkotik vasitələrin, psixotrop maddələrin, onların prekursorlarının və güclü təsir edən maddələrin məhv edilməsi üçün Məhvetmə Komissiyasına təhvil verilməsi zamanı videoçəkilişdən istifadə edilməklə protokol tərtib olunur. Protokol videoçəkilişi əks etdirən müvafiq məlumat daşıyıcısı ilə birlikdə cinayət təqibi ilə bağlı materiallara əlavə edilir.

**2.4.** Məhvetmə Komissiyası narkotik vasitələrin, psixotrop maddələrin, onların prekursorlarının və güclü təsir edən maddələrin məhv edilməsi üsulunu, yerini və vaxtını müəyyən edir və Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 131-1.4-cü maddəsində nəzərdə tutulmuş müddəti keçməmək şərtilə həmin maddələrin məhv edilməsini həyata keçirir.

**2.5.** Məhvetmə Komissiyası narkotik vasitələrin, psixotrop maddələrin, onların prekursorlarının və güclü təsir edən maddələrin məhv edilməsi üçün hazırlanması və məhv edilməsi prosesini videoçəkilişdən istifadə etməklə həyata keçirir və bu barədə akt tərtib edir.

**2.6.** Məhvetmə Komissiyasının tərtib etdiyi aktda aşağıdakılar göstərilir:

**2.6.1.** aktın tərtib olunduğu yer və tarix;

**2.6.2.** məhvetmədə iştirak etmiş şəxslərin iş yeri, vəzifəsi, adı, atasının adı, soyadı;

**2.6.3.** məhvedilmənin əsası;

**2.6.4.** məhv edilən narkotik vasitələrin, psixotrop maddələrin, onların prekursorlarının və güclü təsir edən maddələrin adı, miqdarı, onların saxlanıldığı qab barədə məlumatlar;

**2.6.5.** məhvedilmə üsulu;

**2.6.6.** videoçəkilişdən istifadə və videoçəkilişi əks etdirən məlumat daşıyıcısının akta əlavə edilməsi barədə qeyd.

**2.7.** Akt məhvetmədə iştirak etmiş şəxslər tərəfindən imzalanır.

**2.8.** Aktın nüsxələri videoçəkilişi əks etdirən məlumat daşıyıcısı ilə birlikdə onu imzalamış hər bir şəxsə təqdim edilir və cinayət işinə əlavə edilməsi üçün ibtidai araşdırmanı aparan orqana, habelə məlumat üçün ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora və məhvetmə haqqında qərar qəbul etmiş məhkəməyə göndərilir.

**2.9.** Bu Qaydanın 1.3-cü bəndində nəzərdə tutulmuş hallar istisna olmaqla, barəsində məhvetmə qərarı çıxarılmış narkotik vasitələrin, psixotrop maddələrin, onların prekursorlarının və güclü təsir edən maddələrin sonrakı istifadəyə verilməsi qadağandır.

### 3. Narkotik vasitələrin, psixotrop maddələrin, onların prekursorlarının və güclü təsir edən maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi

**3.1.** Narkotik vasitələrin, psixotrop maddələrin, onların prekursorlarının və güclü təsir edən maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi barədə məhkəmənin qərarı qanuni qüvvəyə mindiyi gündən 10 gün müddətində həmin maddələr məhkəmənin müvafiq qərarının və ekspertin göstərilən maddələrin tibbi məqsədlərlə istifadə oluna bilməsinə dair rəyinin surəti ilə birlikdə ibtidai araşdırmanı aparan orqan tərəfindən Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə təhvil verilir.

**3.2.** Narkotik vasitələrin, psixotrop maddələrin, onların prekursorlarının və güclü təsir edən maddələrin tibbi məqsədlərlə istifadə üçün Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə təhvil verilməsi zamanı videoçəkilişdən istifadə edilməklə protokol tərtib olunur. Protokol videoçəkilişi əks etdirən müvafiq məlumat daşıyıcısı ilə birlikdə cinayət təqibi ilə bağlı materiallara əlavə olunur.

**3.3.** Bu Qaydanın 3.2-ci bəndində nəzərdə tutulmuş protokol videoçəkilişi əks etdirən müvafiq məlumat daşıyıcısı ilə birlikdə məlumat üçün ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora və narkotik vasitələrin, psixotrop maddələrin, onların prekursorlarının və güclü təsir edən maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi barədə qərar qəbul etmiş məhkəməyə göndərilir.

# "Dövlət icbari şəxsi sığorta ödənişinin verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 418-VIQD nömrəli Qanununun tətbiqi və "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 25 iyul tarixli 620 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 29 dekabr tarixli 1544 nömrəli Fərmanının 2.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Dövlət icbari şəxsi sığorta ödənişinin verilməsi Qaydası" təsdiq edilsin (əlavə olunur).

**2.** Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

**Əli ƏSƏDOV**
**Azərbaycan Respublikasının Baş naziri**
Bakı şəhəri, 20 fevral 2023-cü il
№ 56

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 20 fevral tarixli 56 nömrəli Qərarı ilə təsdiq edilmişdir.*

# Dövlət icbari şəxsi sığorta ödənişinin verilməsi QAYDASI

### 1. Ümumi müddəalar

**1.1.** Bu Qayda Azərbaycan Respublikasının "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Qanununun 7.1-ci maddəsinin ikinci cümləsinə, "Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında" Qanununun 7.1-ci maddəsinin ikinci cümləsinə, "Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında xidmət keçən diplomatik xidmət əməkdaşlarının və inzibati-texniki xidməti həyata keçirən şəxslərin dövlət icbari şəxsi sığortası haqqında" Qanununun 10.1-ci maddəsinin ikinci cümləsinə və "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" Qanununun 30-7-ci maddəsinin ikinci hissəsinin ikinci cümləsinə əsasən hazırlanmışdır və Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (bundan sonra – Nazirlik) tabeliyində Dövlət

Sosial Müdafiə Fondu (bundan sonra – Fond) tərəfindən dövlət icbari şəxsi sığorta ödənişi (bundan sonra – sığorta ödənişi) almaq hüququ olan şəxslərə sığorta ödənişinin verilməsi qaydasını müəyyən edir.

**1.2.** Sığorta ödənişi almaq hüququna Azərbaycan Respublikası Milli Məclisinin deputatları, hakimlər, prokurorluq işçiləri, müstəntiqlər, ədliyyə, miqrasiya orqanlarında qulluq keçən, təhqiqat aparan, əməliyyat-axtarış fəaliyyətini həyata keçirən, habelə fövqəladə halların nəticələrinin aradan qaldırılmasını, ictimai qaydanın mühafizəsini təmin edən, gömrük işini təşkil edən şəxslər, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində, dövlət təhlükəsizliyi, xarici kəşfiyyat orqanlarında, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərində, habelə hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarında (dövlət orqanlarının strukturuna daxil olan qurumlarda) hərbi xidmətdə olan şəxslər və toplanışlarda olan hərbi vəzifəlilər və mülki müdafiə qüvvələrinin şəxsi heyəti, Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında xidmət keçən diplomatik xidmət əməkdaşları və inzibati-texniki xidməti həyata keçirən şəxslər və ya bu bənddə qeyd edilən şəxslərin vərəsələri (bundan sonra – sığorta ödənişi almaq hüququ olan şəxslər) malikdirlər.

**1.3.** Sığorta ödənişi almaq hüququ olan şəxslərə sığorta ödənişinin verilməsi üçün əsas olan sığorta hadisələri "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında", "Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında", "Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında xidmət keçən diplomatik xidmət əməkdaşlarının və inzibati-texniki xidməti həyata keçirən şəxslərin dövlət icbari şəxsi sığortası haqqında" və "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" Azərbaycan Respublikasının qanunları (bundan sonra – qanunlar) ilə müəyyən edilir.

**1.4.** Sığorta ödənişi baş vermiş sığorta hadisəsinə uyğun olaraq ("Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" və "Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş sığortaolunanlara münasibətdə, həmçinin bu bəndin ikinci cümləsi nəzərə alınmaqla) qanunlarla müəyyən edilmiş faiz nisbətində olan məbləğlərdə ödənilir. Sığorta ödənişi "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" və "Məhkəmə və hüquq mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş sığortaolunanların müvafiq olaraq dövlət icbari şəxsi sığorta haqqının hesablandığı sonuncu əməkhaqqına (vəzifə maaşına) uyğun olaraq həyata keçirilir.

**1.5.** Bu Qaydanın 4.7-ci bəndi nəzərə alınmaqla, sığorta ödənişinin verilməsi ilə bağlı xidmətlər (müraciətlərin qəbulu, sığorta ödənişi almaq hüququ olan şəxslər barədə məlumatların yoxlanılması, sığorta ödənişinin təyin edilməsi və s.) Nazirliyin Mərkəzləşdirilmiş elektron informasiya sistemi (bundan sonra - MEİS) vasitəsilə göstərilir.

**1.6.** Bu Qaydanın 4.7-ci bəndinə uyğun olaraq sığorta ödənişi almaq hüququ olan şəxslər Fondun müvafiq struktur bölmələrinə (bundan sonra – Bölmə) və Nazirliyin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin "DOST" mərkəzlərinə (bundan sonra – Mərkəz) müraciət edirlər.

**1.7.** Barələrində məlumatların məxfiləşdirilməsi nəzərdə tutulan sığortaolunanlar üzrə bu Qaydaya uyğun olaraq təqdim edilən sənədlər (o cümlədən məlumat və arayışlar) MEİS-in "Dövlət icbari şəxsi sığorta" altsisteminə daxil edilmir.

**1.8.** Nazirliyin rəsmi internet səhifəsində sığorta ödənişi almaq hüququ olan şəxslərin (barələrində məlumatların məxfiləşdirilməsi nəzərdə tutulan sığortaolunanlar istisna olmaqla) soyadını, adını, atasının adını və FİN-ni daxil etməklə həmin şəxs barədə məlumatın mövcudluğunu, habelə sığorta ödənişinin proaktiv qaydada təyin olunmasını yoxlamaq imkanı verən müvafiq bölmə yaradılır.

**2. Əsas anlayışlar**

**2.1.** Bu Qaydanın məqsədləri üçün istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

**2.1.1.** proaktiv təyinat – sığorta ödənişi almaq hüququ olan şəxslərə bu Qaydanın 4.1-ci bəndinə uyğun olaraq MEİS tərəfindən avtomatik olaraq sığorta ödənişlərinin təyin edilməsi və bu barədə onların məlumatlandırılması;

**2.1.2.** müraciət əsasında təyinat – bu Qaydanın 1.8-ci bəndinə əsasən yaradılan bölmədə adları aşkar olunmayan, habelə proaktiv təyinat aparılması mümkün olmayan hallarda sığorta ödənişinin verilməsi məqsədilə müvafiq sənədlərin Bölməyə və ya Mərkəzə birbaşa və ya poçt vasitəsilə təqdim edilməsi əsasında sığorta ödənişinin təyin edilməsi;

**2.1.3.** barələrində məlumatların məxfiləşdirilməsi nəzərdə tutulan sığortaolunanlar – Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti və Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq barələrində məlumatların məxfiləşdirilməsi nəzərdə tutulan sığortaolunanları.

**2.2.** Bu Qaydada istifadə olunan digər anlayışlar qanunlarla müəyyənləşdirilmiş mənaları ifadə edir.

**3. Dövlət icbari şəxsi sığorta hadisəsi hesab edilə bilən halın baş verməsi barədə məlumatın əldə edilməsi**

**3.1.** Sığortalı (barələrində məlumatların məxfiləşdirilməsi nəzərdə tutulan sığortaolunanlar üzrə Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti və Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti istisna olmaqla) bu Qaydanın 3.3-cü bəndi nəzərə alınmaqla sığorta hadisəsi hesab edilə bilən halın (bundan sonra – hadisə) baş verməsi barədə məlumat əldə etdikdən sonra 3 (üç) iş günü müddətində müvafiq rüb (rüblər) üzrə Fonda hesabat təqdim olunmadığı və ya təqdim olunmuş hesabatda sığortaolunanın adı qeyd olunmadığı hallarda həmin şəxsin müvafiq sığortalı üzrə sığortaolunan hesab olunmasına dair məlumatları da əks etdirən bu Qaydanın 1 nömrəli əlavəsinə uyğun tərtib olunmuş arayışda olan məlumatları gücləndirilmiş elektron imza ilə təsdiq edərək elektron qaydada Elektron Hökumət İnformasiya Sistemi (bundan sonra – EHİS) vasitəsilə MEİS-in "Dövlət icbari şəxsi sığorta" altsisteminə ötürür.

**3.2.** Barələrində məlumatların məxfiləşdirilməsi nəzərdə tutulan sığortaolunanlar üzrə Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti və Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti (bu Qaydanın 3.3-cü bəndi nəzərə alınmaqla) hadisə baş verməsi barədə məlumat əldə etdikdən sonra 3 (üç) iş günü

müddətində müvafiq rüb (rüblər) üzrə Fonda hesabat təqdim olunmadığı və ya təqdim olunmuş hesabatda sığortaolunanın unikal kodu qeyd olunmadığı hallarda həmin şəxsin müvafiq sığortalı üzrə sığortaolunan hesab olunmasına dair məlumatları da əks etdirən bu Qaydanın 1 nömrəli əlavəsinə uyğun tərtib edilmiş arayışı kağız daşıyıcıda (elektron daşıyıcıda əlavə edilməklə) sığortaçıya təqdim edir.

**3.3.** Sığortalı işğaldan azad olunmuş, çətin relyefli, dağlıq və infrastruktur olmayan ərazilərdə yerləşən struktur bölmələrdə fəaliyyət göstərən sığortaolunanlar üzrə hadisə baş verməsi barədə məlumat əldə etdikdən sonra bu Qaydanın 3.1-ci və 3.2-ci bəndlərində qeyd edilən arayışı 1 (bir) ay müddətində həmin bəndlərlə müəyyən edilən qaydada sığortaçıya təqdim edir.

**3.4.** Hadisə ilə bağlı bu Qaydanın 1 nömrəli əlavəsinin 2.1-ci bəndində nəzərdə tutulan halların mövcudluğuna dair məlumat verilmədikdə, hadisə ilə bağlı həmin halların mövcud olmadığı hesab olunur.

### 4. Dövlət icbari şəxsi sığorta ödənişinin verilməsi üçün təyinatın aparılması

**4.1.** Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 aprel tarixli 634 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "Mərkəzləşdirilmiş elektron informasiya sistemi haqqında Əsasnamə"nin 4.1-ci bəndinə əsasən MEİS-ə inteqrasiya edilən dövlət orqanlarının və qurumlarının informasiya ehtiyatları və sistemlərindən sığorta ödənişi almaq hüququ olan şəxs barəsində, habelə sığorta ödənişi verilməsi üçün bu Qaydanın 3-cü hissəsində və 4.2-4.5-ci bəndlərində qeyd edilən məlumatları əldə etmək mümkün olduqda, bu məlumatların daxil olduğu gündən 10 (on) iş günü müddətində MEİS-in "Dövlət icbari şəxsi sığorta" altsistemi vasitəsilə proaktiv qaydada təyinat aparılır və sığorta ödənişi almaq hüququ olan şəxsin əks-əlaqə vasitəsinə (bu barədə məlumat olduqda) və ya poçt vasitəsilə məlumat göndərilir. Proaktiv təyinat aparılması mümkün olmayan hallarda sığorta ödənişinin verilməsinə sığorta ödənişi almaq hüququ olan şəxsin müraciəti əsasında baxılır.

**4.2.** Hadisə sığortaolunanın ölümünə, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə ölmüş elan edilməsinə və ya xəbərsiz itkin düşməsinə səbəb olduqda aşağıdakı məlumatlar (o cümlədən müraciət edən şəxsin əks-əlaqə vasitələri qeyd edilməklə) və sığorta ödənişi almaq hüququ olan şəxs tərəfindən təqdim edilən ərizə notarius tərəfindən elektron qaydada təsdiq edilərək MEİS-in "Dövlət icbari şəxsi sığorta" altsisteminə ötürülür:

**4.2.1.** sığortaolunanın ölümü haqqında şəhadətnamənin surəti;

**4.2.2.** vərəsəlik hüququ haqqında şəhadətnamə;

**4.2.3.** sığortaolunanın ölmüş elan edilməsi və ya xəbərsiz itkin düşməsi haqqında məhkəmənin qanuni qüvvəyə minmiş qətnaməsi.

**4.3.** Əlilliyin müəyyən edilməsi ilə nəticələnən hadisə zamanı sığortaolunanın əlilliyinə dair məlumatlar MEİS-in "Əlillik" (TSERAS) altsistemindən əldə olunur.

**4.4.** Xəsarətlə nəticələnən hadisə zamanı tabeliyində hərbi-həkim komissiyaları və həkim-uçuş komissiyaları olan dövlət orqanları sığortaolunanlar üzrə "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinin "a",

"b", "c" və "ç" bəndlərində nəzərdə tutulmuş hallarla nəticələnməyən xəsarət (yaralanma, travma, kontuziya) barədə arayışı (barələrində məlumatların məxfiləşdirilməsi nəzərdə tutulan sığortaolunanlara münasibətdə unikal kod qeyd olunmaqla) müraciət edildiyi tarixdən 5 (beş) iş günü müddətində (bu Qaydanın 4.5-ci bəndi nəzərə alınmaqla) rəsmiləşdirildiyi gün "Hərbi-həkim ekspertizası və tibbi şəhadətləndirilmə" altsisteminə daxil edirlər. Digər sığortalıların sığortaolunanları üzrə isə bu Qaydanın 2 nömrəli əlavəsinə uyğun olaraq tərtib olunmuş arayış Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci 16 yanvar tarixli 12 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əlilliyin qiymətləndirilməsi məqsədilə tibbi-sosial ekspertiza müayinəsinə göndərişlərin verilməsi Qaydası"nın 1.2-ci bəndinə uyğun müəyyən edilmiş siyahıda qeyd edilən tibb müəssisələrinin həkim-məsləhət komissiyaları tərəfindən müraciət edildiyi tarixdən 5 (beş) iş günü müddətində (bu Qaydanın 4.5-ci bəndi nəzərə alınmaqla) rəsmiləşdirildiyi gün EHİS vasitəsilə MEİS-in "Dövlət icbari şəxsi sığorta" altsisteminə ötürülür.

**4.5.** Sığortaolunanın əlavə müalicəyə ehtiyacı olduğu halda bu Qaydanın 4.4-cü bəndinə uyğun olaraq təqdim edilən arayış əlavə müalicə başa çatdığı gündən 5 (beş) iş günü müddətində həmin bəndlə müəyyən edilən qaydada əldə edilir.

**4.6.** Sığorta ödənişinin verilməsi üçün bu Qaydaya uyğun olaraq tələb olunan sənədlərin və məlumatların EHİS vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda həmin sənədlər müraciət edən şəxsdən tələb edilmir.

**4.7.** Müraciət əsasında təyinat aparılması məqsədilə sığorta ödənişi almaq hüququ olan şəxs (barələrində məlumatların məxfiləşdirilməsi nəzərdə tutulan sığortaolunanlar üzrə Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti və Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin sığortaolunanları və onların vərəsələri istisna olmaqla) bu Qaydanın 1 nömrəli əlavəsində və 4.2-4.5-ci bəndlərində qeyd edilən məlumatları sığorta ödənişinin verilməsi üçün qeydiyyatda olduğu yer üzrə Bölməyə və ya Mərkəzə birbaşa və ya poçt vasitəsilə şəxsən və ya nümayəndə vasitəsilə bu Qayda ilə müəyyən edilən sənədlərin əlavə olunduğu ərizə ilə müraciət edir. Hadisə baş verdiyi anda və sığorta ödənişi almaq hüququ yarandıqdan sonra Azərbaycan Respublikasından kənarda fəaliyyətini davam etdirən sığortaolunanlar sığorta ödənişinin verilməsi üçün ərizəni və ona əlavə edilmiş sənədləri onların konsulluq uçotunda olduqları Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və ya konsulluqları vasitəsilə Bölməyə və ya Mərkəzə təqdim edirlər.

**4.8.** Barələrində məlumatların məxfiləşdirilməsi nəzərdə tutulan sığortaolunanlar və ya onların vərəsələri sığorta ödənişinin verilməsi üçün Fondun Aparatına birbaşa və ya poçt vasitəsilə şəxsən və ya nümayəndə vasitəsilə bu Qayda ilə müəyyən edilən sənədlərin əlavə olunduğu ərizə ilə müraciət edirlər.

**4.9.** Bölməyə və ya Mərkəzə təqdim edilən və ya daxil olan ərizə və ona əlavə edilmiş sənədlər elektron surəti çıxarılmaqla MEİS-in "Dövlət icbari şəxsi sığorta" altsisteminə hər bir müraciət üzrə yalnız bir dəfə daxil edilir, icraata qəbul edilməsi məqsədilə məsul icraçılar tərəfindən gücləndirilmiş elektron imza ilə imzalanmaqla elektron sənəd formasına salınır. Ərizə qeydə alındıqdan sonra bu barədə müraciət edən şəxsə 3 (üç) iş günü müddətində müraciətdəki əks-əlaqə vasitələrindən birinə bildiriş (3 nömrəli əlavə) göndərilir.

**4.10.** Bu Qaydanın 1 nömrəli əlavəsində qeyd edilən məlumatların sığortaçıya təqdim edilməsindən və bu Qaydanın 4.7-ci bəndinə uyğun olaraq təqdim edilən ərizənin qeydə alındığı gündən 10 (on) iş günü müddətində Fond tərəfindən sığorta ödənişinin verilməsi və ya imtina əsasları qeyd olunmaqla sığorta ödənişinin verilməsindən imtina edilməsi barədə müvafiq qərar qəbul edilir. Sığorta ödənişinin verilməsindən imtina edilməsi barədə qərar 5 (beş) iş günü müddətində müraciət edən şəxsə göndərilir. Müraciət edən şəxsin sığorta ödənişinin verilməsindən imtina barədə qərardan inzibati qaydada və məhkəməyə şikayət etmək hüququ vardır.

**4.11.** Sığorta ödənişinin verilməsindən qanunlarla müəyyən edilmiş hallarda imtina edilir.

**4.12.** "Dövlət icbari şəxsi sığortası sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 18 may tarixli 1340 nömrəli Fərmanı nəzərə alınmaqla Fond və ya "Azərsığorta" Açıq Səhmdar Cəmiyyəti tərəfindən sığorta ödənişi verilmiş sığorta hadisəsi ilə bağlı yeni sığorta hadisəsi baş verdikdə, bu Qaydanın 1 nömrəli əlavəsində qeyd edilən məlumatların təqdim edilməsi tələb olunmur. Həmin sığorta ödənişinin məbləği bu Qaydanın 5.2-ci bəndinə uyğun olaraq müəyyən edilir.

**4.13.** Sığorta ödənişinin verilməsi üçün tələb olunan sənədləri və məlumatları təqdim etmədiyinə, yaxud təqdim edilmiş sənədlərin və məlumatların tam və (və ya) düzgün olmadığı müəyyən edildiyinə görə sığorta ödənişinin verilməsindən imtina edildikdə imtinaya səbəb olan hallar aradan qaldırıldıqdan sonra sığorta ödənişinin verilməsi üçün təkrar müraciət edilə bilər.

**4.14.** Sığortalı və digər aidiyyəti orqanlar (qurumlar) sığorta ödənişinin verilməsi üçün tələb olunan sənədlərin və məlumatların əldə edilməsində sığorta ödənişi almaq hüququ olan şəxsə kömək etməlidirlər.

**4.15.** Hadisə ilə birbaşa bağlı olan qəsdən törədilmiş cinayətin əlamətlərinə, habelə hadisənin sığortaolunanın özünə qəsd etməsi nəticəsində baş verdiyinə dair məlumatların olması barədə sığortalı tərəfindən sığortaçıya məlumat verildiyi zaman sığorta ödənişinin verilməsi məsələsinə həmin hallar üzrə məhkəmə tərəfindən yekun qərar qəbul edildikdən sonra baxılır.

**5. Sığorta ödənişinin ödənilməsi**

**5.1.** Sığorta ödənişi bu Qaydanın 4.10-cu bəndində qeyd edilən müddət ərzində Fond tərəfindən açılan hesaba və ya mövcud olduğu halda sığorta ödənişi almaq hüququ olan şəxsin bank hesabına nağdsız qaydada ödənilir və bu barədə həmin gün əks-əlaqə vasitəsilə (bu barədə məlumat olduqda) və ya poçt vasitəsilə məlumat göndərilir.

**5.2.** Sığorta ödənişi verilmiş sığorta hadisəsi ilə bağlı yeni sığorta hadisəsi baş verdikdə müvafiq sığorta ödənişi qanunlara əsasən əvvəl ödənilmiş məbləğ nəzərə alınmaqla yeni sığorta hadisəsinə görə faiz nisbətində müəyyən edilmiş məbləğlə əvvəl ödənilmiş sığorta ödənişi məbləği arasındakı fərq məbləğində bu Qaydaya uyğun olaraq hesablanaraq ödənilir.

**5.3.** Sığortalı tərəfindən təqdim edilmiş dəqiqləşdirilmiş hesabat məlumatlarına əsasən eyni sığorta hadisəsi ilə bağlı sığortaolunana ödənilmiş sığorta ödənişindən artıq məbləğdə sığorta ödənişi ödənilməli olduğu halda, məbləğ fərqi Fond tərəfindən 15 (on beş) iş günü müddətində sığortaolunana nağdsız ödənilir.

## MÜNDƏRİCAT

***<u>Ümummilli Lider Heydər Əliyev – 100</u>***

*İsa Həbibbəyli.* Əbədiyaşarlıq nümunəsi ....................................................................... **3**

*Anar Nağıyev.* Heydər Əliyev və təhsil siyasəti ....................................................................... **9**

*Zaur Əliyev, Etibar Əliyev.* Azərbaycanda insan hüquqlarının təşəkkül tapmasında Ümummilli Lider Heydər Əliyevin rolu ....................................................................... **12**

*Октай Эфендиев, Фатима Гусейнова.* Некоторые особенности состояния и развития современных внешнеэкономических связей Азербайджана ....................................................................... **21**

*Ариф Гулиев.* Жить так, как жил Гейдар Алиев, любить родину так, как это делал великий лидер ....................................................................... **35**

*Октай Эфендиев.* Вклад Гейдара Алиева в достижение победы Азербайджана в отечественной войне в Нагорно-Карабахском конфликте ....................... **44**

*Elnur Ələkbərov.* Ümummilli Lider Heydər Əliyev və Azərbaycan iqtisadiyyatı ............ **54**

*Pərvinə İsmayılova.* Beynəlxalq sanitariya və tibb sahəsində dövlətlərarası əməkdaşlığın forma və istiqamətləri ....................................................................... **61**

*Günay Qüdrətli.* Turistlərin hüquqi statusunun milli və beynəlxalq hüquqi aktlarda realizəsi əsasları ....................................................................... **72**

*Etibar Əliyev, Fatimə Hüseynova, Leyla Mirzəyeva.* Müasir dövrdə mediasiya hüququ – anlayışı və predmeti ....................................................................... **77**

*Səftər Rəhimli.* Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq hüquq subyektliyinin kontinuiteti üzrə tədqiqatın elmi-praktik əhəmiyyəti ....................................... **86**

*Səidə Həsənzadə.* Erməni terrorizmi ilə mübarizə gücləndirilməlidir .................................... **92**

*Aytac Qibləliyeva.* Gender bərabərliyi və davamlı inkişaf konsepsiyasının bəzi hüquqi aspektləri ....................................................................... **99**

*Habil Qurbanov.* Xüsusilə ağırlaşdırıcı hallarda talama ....................................................................... **109**

Aysel Qudratli. The history of children’s rights ....................................................................... **114**

*Мария Розова.* Особенности формирования и развития женского султаната в эпоху Османской империи ....................................................................... **120**

***Yeni kitablar***

*Azərbaycan Prezidenti:* bərpa olunan enerji ilə bağlı proqramımız tamamilə fərqli gündəliyə malikdir ................................................................ **129**

*İlham Məmmədzadə.* Heydər Əliyev və İlham Əliyevin dövlət-din münasibətlərinin tənzimlənməsində rolu ................................................................ **130**

*Elnur Mustafayev.* Müstəqillik şəraitində dövlət-din münasibətləri ............................ **132**

***Rəsmi sənədlər***

“Hədəfli maliyyə sanksiyaları haqqında” Azərbaycan Respublikasının qanunu ..................**134**

“Cinayət təqibi üzrə məhkəməyədək icraat zamanı qanunsuz dövriyyədən çıxarılmaqla maddi sübut kimi götürülmüş narkotik vasitələrin, psixotrop maddələrin, onların prekursorlarının və güclü təsir edən maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi qaydası”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ................................................**144**

“Dövlət icbari şəxsi sığorta ödənişinin verilməsi qaydası”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ................................. **147**

**Jurnal Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyində**
**19 fevral 2020-ci il tarixdə qeydə alınmışdır (Şəhadətnamə № 11479)**

## JURNALDA ÇAP OLUNAN ELMİ MƏQALƏLƏRƏ DAİR ƏLAVƏ TƏLƏBLƏR

**Word proqramı**
**Səhifənin formatı – A4**
**Azərbaycan, rus və ingilis dillərində mətnlər «Times New Roman», Az_Times_lat şriftləri ilə verilsin**
**Əsas mətn – 14 pt**
**Sətirlərarası məsafə – 1,5 interval**
**Vərəqin sağ və sol hissəsindən 2 sm, yuxarı və aşağıdan isə 3 sm ölçüdə zolaq ayrılsın**
**Məqalənin həcmi – 10 səhifəyədək**
**Məqalə fiziki kağız və elektron versiyada verilməlidir.**

“Hüquqi müstəvi” elmi-nəzəri, təcrübi jurnalın
Redaksiyası” MMC-nin direktoru:
**Faiq HÜSEYNOV, hüquqşünas.**

**Əlaqə telefonları:**
**+ 99450-210-24-42**
**+ 99455-210-24-42**

“Zərdabi-Nəşr” MMC.
Bakı şəhəri, Nizami rayonu, Keşlə qəcəbəsi,
Nizami Abdullayev küçəsi, 12.
e-mail: zerdabi_em@mail.ru

Ofset üsulu ilə çap edilmişdir.
Formatı 70×100 1/16.
Şərti çap vərəqi 10. Tirajı 300.